AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## XII KİTAB

BAKI – 2021

**AMEA Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə çap olunur.**

**Layihə rəhbəri:** **Muxtar KAZIMOĞLU-İMANOV**
AMEA-nın həqiqi üzvü

**Toplama və tərtibat:** fil.ü.f.d., dos. **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

Dr. **Məhəmməd İBADİ (ALIŞIQ)**
Şərqi Azərbaycan (Təbriz və ətraf şəhərləri) Aşıqlar Birliyinin sədri

**Redaktor:** **Lalə BƏDİROVA**

**Səsli fayllarin üzünü köçürən:** **Lalə BƏDİROVA**
**Səbuhi BƏDƏLOV**
**Səadət ƏLİYEVA**

**Güney Azərbaycan folkloru, XII kitab.** Bakı, Elm və təhsil, 2021, 322 səh.

Kitabda Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığına aid dastan nümunələri toplanmışdır.

folklor.az

G 4603000000 Qrifli nəşr
N-098-2021

© Folklor İnstitutu, 2021

## ÖN SÖZ

Azərbaycan aşıq ədəbiyyatı zəngin bir xəzinə olmaqla yaranışı və inkişafı baxımından xalqın minilliklərə dayanan uzaq tarixi keçmişindən xəbər verməkdədir. Aşıqların el-obanın toy-düyünləri, mübarizə, qalibiyyət, itkiləri və s. üzərindən yaratdığı nəğmələr, saz havaları, dastan və rəvayətləri zaman-zaman tarixə yol yoldaşı olan həqiqətlərin bədii sözə çevrildiyi, şifahi şəkildə formalaşdığı əvəzsiz sənət nümunələridir. Aşıq ədəbiyyatının ən zəngin qolunu təşkil edən dastanlar isə daha geniş informasiya verməklə tarixi-etnoqrafik məlumatları, xalq məişətində yayılmış əfsanə, rəvayət və s. təfərrüatlı şəkildə özündə cəmləşdirməkdədir. Qəhrəmanlıq, məhəbbət, ictimai-məişət məzmununda yaranan bu dastanlar zaman-zaman müxtəlif aşıqların saz, söz sehrində müəyyən improvizasiyalarla yenilənmiş, fərqli variantlarda formalaşaraq müasir günümüzə qədər gəlib çatmışdır.

Məlumdur ki, Təbriz-Qaradağ, Urmiya, Sulduz-Qarapapaq, Zəncan, Qum-Savə, Qaşqay və s. aşıq mühitlərinin yerləşdiyi Güney Azərbaycan ərazisində aşıq sənəti və ədəbiyyatı bütün tarixi dövrlərdə öz aktuallığını qoruyub saxlamışdır. Xalqın əvəzsiz mənəvi xəzinəsinin bir parçası olan aşıq sənəti, xüsusilə dastançılığın daha qədim ənənələr üzərində inkişafını nəzərə alaraq "Güney Azərbaycan folkloru" seriyasından olan növbəti cildə – XII kitaba Güney aşıq mühitindən toplanan "Əsli-Kərəm", "Seyidi" və "Əlişah " dastanlarını daxil etmişik.

Tarixi hadisələrlə zənginliyi, orijinal mətn xüsusiyyətləri, obraz müəyyənliyinə malik, yayılma arealına görə daha çox variantlılıq qazanan məhəbbət dastanlarımızdan biri də "Əsli-Kərəm" dastanıdır. "Əsli-Kərəm" dastanı bir məhəbbət əfsanəsi olaraq türk xalqlarının folklorunda geniş yayılmış, mifoloji obrazları, süjet xüsusiyyətləri, mükəmməl nəzm sistemi ilə seçilmişdir. Türk, eləcə də Avropa tədqiqatçıları

arasında bu dastanın hansı tarixi dövrdə və harada yaranması barədə müxtəlif fikirlər mövcuddur. Nəticədə "Əsli-Kərəm" dastanının XVI əsrə aid olması və əsasən XVI əsrin əvvəllərindən etibarən Azərbaycanda yaranıb formalaşması bir çox tədqiqatlarda yer almaqdadır. Qeyd edək ki, Orta, Kiçik Asiya, Yaxın Şərqdə müxtəlif orijinal variantları ilə mövcud olan dastanın ayrı-ayrı parçaları haqqında ilk nümunələrə XVIII əsrə aid cüng və əlyazmalarda rast gəlinir. Buraya tacir M.Elyasın tərtib etdiyi əlyazmada "Kərəm Dədənin varsağısı" adlı qoşma, Dağıstanın Axtı rayonunda yaşayan Katib Nəsrullanın 1745-ci ilə aid cüngündə yer alan "Sən dur ol müsəlman, mən alım səni" misralı qoşma mətnləri, eləcə də Əndəlib Qaracadağinin təxminən 1804-cü ilə aid cüngündə qoruduğu dastandan müxtəlif nümunələr aiddir. Bundan başqa, alman səyyahı Baron Avqust fon Haksthauzenin "Zaqafqaziya ölkələri" (1857) adlı əsərində də "Əsli-Kərəm" dastanından söhbət açılmış və dastanın qısa məzmunu verilmişdir.

"Əsli-Kərəm" dastanı ilk dəfə 1849-cu ildə "Hekayəti-Kərəm xan" adı ilə İstanbulda nəşr olunmuşdur. Eyni zamanda bu variant 1913-cü ildə kiçik bir tərcümə ilə Əyyubəli Əkbərov tərəfindən çap edilmişdir.[1]

"Əsli-Kərəm" dastanının xalq içərisində sevilə-sevilə dinlənilməsi, aşıqların repertuarından düşməməsi nəticədə dastanın yayılması sərhədlərini genişləndirmişdir. Uzun müddət Təbrizdə yaşamış erməni tədqiqatçı Atrpet (Mubayacyan Sarkis Mkrıtıçi) "Əsli-Kərəm" dastanını toplayıb ermənicəyə tərcümə etmiş, 398 dəftər vərəqində çapa hazırlamışdır. Dastandan bəhs edən müəllif qeyd edir ki, "Kərəmi türklər, türkmənlər qədər biz də sevirik. Atrapatakanın (Azərbaycanın) əyalətlərində, xüsusilə Xoy və urmiyalılar içərisində elə türk yoxdur ki, o, bu dastanın üç-dörd variantını bilməsin, əsərin

[1]T.Xalisbəyli. Məhəbbətə xalq abidəsi. Bakı, Yazıçı, səh.3.

ya əlyazması, yaxud çap şəkli hamıda vardır. Sevənlər, sevilənlər həmişə Kərəmi yad edir, ondan danışır, nəğmələrini oxuyurlar”[2]. Dastan Qafqaz xalqları arasında geniş yayıldığı üçün SMOMPK məcmuəsində (XIII buraxılış) müəllim Q.İzrailov tərəfindən də çap edilmişdir.

“Əsli-Kərəm”in cüng, əlyazmalarda qorunan kiçik parçaları da daxil olmaqla, xalq arasında yayılmış süjet və şəkilləri sonrakı dövrdə Azərbaycan alim və ziyalılarının marağına səbəb olmuş, dastanın çap olunması və tədqiqatlara cəlb edilməsi geniş vüsət almışdır. M.Mahmudbəyov (1906-cı ildə “Kaspi” qəzetindəki “Zaqafqaziya tatarlarının poeziyası haqda” adlı rus dilində çap olunan məqaləsi), Əsədulla bəy Şaxtaxtinski, N.Nərimanov (“Mehr və Mah”, yaxud “Əsli və Kərəm” məqaləsi), Salman Mümtaz (“El aşıqları” kitabında “Əsli-Kərəm”dən 4 qoşma çap etdirmişdir), H.Əlizadə (“Aşıqlar” kitabında dastandan qoşmalar çap etdirmişdir), D.Əliyeva (“Azərbaycan-gürcü ədəbi əlaqələrinin tarixinə dair” adlı kitabında “Əsli-Kərəm” dastanına yer ayırmış) və s. ədib, ziyalıların araşdırmaları bu xüsusda maraq doğurur.

Türkiyədə də dastanın çap və araşdırılmasına xüsusi diqqət ayrılmışdır. 1925-ci ildə İstanbulda “Asadoyran Mahdumları” mətbəəsində erməni əlifbası ilə “Hekayeyi-Aşık Kerem ile Aslı hanım”, 1930-cu ildə Bəsim Atalayın təqdim etdiyi nüsxədə “Hekayeti-Aşık Kerem” adları altında, daha sonra Orxan Seyfi tərəfindən çap edilmiş, professor Pertev Naili Boratav, Vehbi Cem Aşkun (1943-cü ildə “Ülgü” jurnalında çap olunan “Sivasta Aşıq Kerem” adlı məqaləsi), Mehmet Toğrul (1944-cü ildə Ankara Universitetinin Dil və Tarix-coğrafiya fakültəsinin əsərlərində “Hekayeti-Kerem han” adlı on səhifəlik məqaləsi), F.A.Tansel (1950-ci ildə yazdığı “Ten-

[2] İ. Abbaslı. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri.Bakı, Nurlan,2007. səh.46

zimat dövrü ədəbiyyatında xalq şairinin tehriri meseleleri” adlı məqaləsində Aşıq Kərəm və Aşıq Ömər şeirləri ilə M.Nacinin şeirləri arasında müəyyən uyğunluq olduğunu söyləmişdir) və s. tərəfindən araşdırmalarda yer almışdır[3].

“Əsli-Kərəm” dastanı eyni zamanda türkmən variantlarında da geniş yayıldığından məhz türkmən tədqiqatçıları tərəfindən də əsaslı şəkildə öyrənilmişdir. Hətta türkmən alimləri B.Karrıyev, Amangül Durdiyeva “Əsli-Kərəm”in türkmən variantlarına istinad edərək, dastanın türkmən xalqına aid olduğunu irəli sürmüşlər.

“Əsli-Kərəm” dastanı Azərbaycanda ilk dəfə 1939-cu ildə “Dastanlar”, 1961-ci ildə Ə.Axundov tərəfindən iki cildlik “Azərbaycan dastanları” kitabının ilk cildində çap olunmuşdur.

Quzey Azərbaycanda olduğu kimi, Güneydə də “Əsli-Kərəm” dastanı xalq içərisində geniş yayılmış, aşıqların ifasında el şənliklərini bəzəmişdir. Dastan çağdaş Təbriz-Qaradağ aşıqlarından dünyasını dəyişmiş Aşıq Hüseyn Namivəri, Aşıq Əziz Şəhnazi, Aşıq Həsən Qəffari, Aşıq Ələsgər Mərəndli, Aşıq Əbduləli Nuri, Aşıq Rəsul Qurbani, Aşıq Qafar İbrahimi, zənganlı Aşıq Ərəb Pərənli, Məlayirli Aşıq Məmmədhüseyn Hünərmənd, eləcə də hal-hazırda bu sənəti davam etdirən Aşıq Hüseyn Sai Mahmudabad, Aşıq Əli İbadi Qaraxanlı, Aşıq İsa Qaraxanlı, Aşıq Sirus Kəyani, Aşıq Məhəmməd Fərzanəqan, Aşıq Fərəcullah Muradi, Aşıq Əli Kərimi (Nüğədili) və s. aşıqların repertuarında yer almaqdadır.

Qeyd edək ki, Güney Azərbaycanda dastanın ayrı-ayrı variantları daha çox aşıqlar tərəfindən səsli fayllarda üzü köçürülməklə qorunub saxlanılmaqdadır. “Əsli-Kərəm” dastanına olan sevgi və maraqdan irəli gələrək Güneydə dastan dəfələrlə teatr truppaları tərəfindən səhnələşdirilmiş, bundan baş-

---

[3]E.İ.Heydərov. “Əsli-Kərəm” dastanı və Alban mədəniyyəti, Bakı, “Səda” nəşriyyatı, 2007, səh. 208.

qa illüstrativ, miniatür sənətində də bu mövzuda zəngin əsərlər yaranmışdır. Eləcə də aşıqların yaradıcılığından başqa, dastanın ayrı-ayrı şeirləri el xanəndələri tərəfindən nota salınaraq müstəqil mahnılar kimi oxunmaqdadır.

"Əsli-Kərəm" dastanı fərqli variantlarında müxtəlif illərdə Təbrizdə nəşr olunmuşdur. Tarixdən məlumdur ki, daşbasma çap cihazı İranda ilk dəfə olaraq Təbriz mətbəələrində quraşdırılıb işə salınmışdır. Təbrizdə daşbasma üsulu ilə çap olunan ilk Füzuli "Divan"ı, "Muxtarnamə", "Həmzənamə", "Əmir Ərsalan" kitablarının sırasında "Əsli və Kərəm" dastanı da çap olunmuşdur. Lakin heç bir qaynaqda dastanın hansı nüsxə üzərindən çap edildiyi qeydə alınmamışdır.

1955-ci ildə isə dastan "Əsli ilə Kərəm" başlığı ilə Təbrizli Əli tərəfindən nəşr edilmiş, bu variant təkrar şəkildə 1957 və 1983-cü illərdə çap olunmuşdur.[4]

Son vaxtlar "Əsli-Kərəm" dastanını mif və əsatirlər üzərindən tədqiqata cəlb edən əsatirşünas Mirəli Seyid Səlamət dastanın minilliklərə dayanan tarixi kökləri, mifoloji motivlərini araşdıraraq sonda dastan mətnini də hazırladığı kitaba daxil etmişdir. Təqdim olunan variantda diqqət çəkən ən mühüm cəhət dastan şeirlərinin tamamilə cinas üzərində qurulması, təcnislərdən ibarət olmasıdır.[5]

2008-ci ildə Həmid Əhmədzadə Telimxanlı tərəfindən "Əsli-Kərəm" dastanının daha bir variantı hazırlanaraq çap edilir.[6] Çap olunan kitabda dastan variantı xalq arasında geniş yayılmış məlum rəvayət və nağıllara əsaslanır, yalnız dastanın nəzm hissəsindəki şeirlər fərqli şəkil və quruluşda digər variantlardakı şeirlərlə müqayisədə seçilir.

---

[4] ƏliTəbrizli, "Əsli ilə Kərəm", Tehran, Atropat nəşriyyatı, 1955 (təkrar nəşrlər-1957,1983).
[5] Mirəli Seyid Səlamət, "Əsli-Kərəm", Təbriz, Aşina nəşriyyatı, 2005.
[6] Həmid Əhmədzadə."Əsli-Kərəm", Kərəc, Pinar nəşriyyatı, 2008.

Yenə də 2008-ci ildə Aşıq Hüseyn Sai "Əsli və Kərəm" dastanının Meşkinli Aşıq Əsədin əlyazmasından ibarət bir variantını hazırlayıb çap etdirir.[7] Meşkinli Aşıq Əsəd Qaradağın məşhur aşıqlarından olmuş, ömrünün bir hissəsini Gəncədə keçirsə də, sonda yenə öz doğma yurduna qayıtmışdır.

Aşıq Hüseyn Sainin hazırladığı ikinci bir dastan variantı "Ziyad xan oğlu Kərəm" adlanır ki, dastan 2017-ci ildə çap edilmişdir.[8] Bundan başqa, dastanın nisbətən təkmil variantı sayılan Təbrizin ustad aşıqlarından olan Aşıq Səmədin arxivindən alınan bir nüsxəsi də Aşıq Hüseyn Sai və Eyvəz Purhəsən tərəfindən götürülərək işlənmiş və çap edilmişdir.[9] 2020-ci ildə işıq üzü görən bu kitabda dastanın nəzm hissəsi – şeirləri Aşıq Səməd tərəfindən üzərində işlənilməklə yeni variantda təqdim edilmişdir. Eləcə də Əli Bərazəndə 2009-cu ildə dastanın Türkiyədə daşbasma nüsxəsini əldə edərək ərəb orfoqrafiyasında düzəliş üzərində çapa hazırlamışdır. "Əsli-Kərəm" dastanı ilə yanaşı, kitaba "Osman ilə Zican", "Arzu ilə Qəmbər" dastanları və Aşıq Ömərin bəzi şeirləri də əlavə edilmişdir: "...iş bu təvatür ilə məşhur və mütəarif olan aşiq Kərəm divanının təkmilin nüsxəsi və kənarında beynən-nas məşhur olan "Əsman ilə Zican" və "Ərzu ilə Qənbər" və Aşıq Ömərin dəxi bəzi ədəbiyyat və əşarati cəm və tərtib olmuşdu".[10]

Ayrıca dastan Qaraməlikli Hüseyn Fərruxi[11] tərəfindən 2010-cu, Aşıq Səlcuq Şahbazi tərəfindən isə 2018-ci illərdə çap olunmuşdur.[12]

---

[7] Aşıq Hüseyn Sai. "Külliyati -"Əsli və Kərəm" dastanı", Təbriz, 2008.

[8] Aşıq Hüseyn Sai. "Ziyad xan oğlu Kərəmin dastanı". Təbriz, Əxtər nəşriyyatı, 2017.

[9] Aşıq Hüseyn Sai,Eyvaz Purhəsən. "Əsli ilə Kərəm" dastanı, Təbriz, Azərturan və Nəbati nəşriyyatı, 2020.

[10] Əli Bərazəndə "Əsli ilə Kərəm",Təbriz, Nidayi-şəms nəşriyyatı, 2009.

[11] Fərruxi Qəraməliki. "Əsli ilə Kərəm ayri bir rəvayətdə", Təbriz,Əxtər nəşriyyatı, 2010.

[12] Aşıq Səlcuq Şəhbazi. "Əsli Kərəm", Tehran, Savalan igidləri nəşriyyatı, 2018.

Zəncanda çap olunan "Əsli-Kərəm" dastanının variantları içərisində Şeyx İbrahim Zəncaninin da təqdim etdiyi variant seçilməkdədir. Axund, molla kimi tanınan Şeyx İbrahim Zəncaninin kitabxanasından əldə edilən bu əlyazma nüsxəsi isə 2012-ci ildə Zəncanda çap olunmuşdur. Araşdırmalar göstərir ki, "Əsli-Kərəm" dastanının bu variantında şeir şəkilləri Şeyx İbrahim Zəncani tərəfindən müəyyən dəyişiklik, düzəlişlərlə tərtib edilmişdir.[13]

Qeyd edək ki, "Əsli-Kərəm" dastanı motivlərinə bağlı aşıq sənətində müxtəlif havalar da yaranmışdır. Bunlar "Kərəm şikəstəsi", "Kərəm gözəlləməsi", "Yanıq Kərəmi", "Kərəm köçdü", "Qara Kərəmi", "Sallama Kərəmi", "Atüstü Kərəm", "Hicran Kərəm", "Quba Kərəm", "Döymə kərəm" və s. adlarıyla məşhurdur.

Kitabda təqdim etdiyimiz "Əsli-Kərəm" dastanı Aşıq Ərəb Pərənlinin ifasında səsli fayllardan yazıya alınmışdır. Qeyd edək ki, Aşıq Ərəb Pərənli 1959-cu ildə Zəncanda dünyaya gəlmişdir. Aşıqlıq sənətinin sirlərini ustadları Aşıq Həsən Abbasiyan, Aşıq Firuz, Aşıq Seydulla, Aşıq Əkbər Cahanşahıdan almışdır. Aşıq Ərəb Pərənli 18 xalq dastanını öyrənmiş və müxtəlif məclislərdə təbliğ etmişdir. Uzun illər Tehranda yaşayan aşıq 2009-cu ildə dünyasını dəyişmişdir.

"Əsli-Kərəm" dastanının Türkiyə, Gürcüstan, Azərbaycan və s. yayılmış bütün əldə edilən mümkün variantlarında iki aşiqin sevgiləri uğrunda mücadilə etməsi, sonda tilsimli köynəkdə alışan Kərəm və Əslinin faciəsindən bəhs olunmuşdur. Lakin Güneydə dastanın məlum variantlarından fərqlənən bir nümunəsi də əldə edilmişdir ki, burada dastan qəhrəmanları tilsimi çözərək alovdan qorunur və həyatlarını yaşamaqda davam edirlər. Həmin varianta əsasən, Kərəm tilsimin təsiri ilə od tu-

[13]Zəncani Şeyx İbrahim. ( Qızılbaş Əbu Əbdullah-Bəyani, Əli Məhammadin himmət və editi ilə)."Əsli və Kərəm", Zəncan, Nikan kitab nəşriyyatı, 2015.

tub yanarkən qəhrəmanlar sehri batil etməyə müvəffəq olurlar. İnanca görə, tilsimin "kəsərdən düşməsi", "batil edilmə"si üçün üç nəfər qeyri-müsəlmanın həmin anda "kəlmeyi-şəhadət"ini gətirib müsəlman olması şərtdir. Dastanın bu nüsxəsində də qeyd edilir ki, Kərəm oda tutularkən ilk olaraq Əsli, daha sonra onun qulluqçusu və sonda Əslinin anası "kəlmeyi-şəhadət"lərini söyləməklə üç nəfər erməni eyni anda müsəlmanlığı qəbul edir və Kərəmi oddan xilas edirlər. Tilsimi batil edən qəhrəmanlar paşanın iştirakı ilə evlənir və sonda onların iki övladları dünyaya gəlir. Qeyd etdiyimiz bu variantda Kərəmin anası ilə görüşməsi səhnəsi də fərqli motivdə diqqəti cəlb edir. Əsli ilə xoş günlərini yaşayan Kərəm bir gün Məkkəyə-Həcc ziyarətinə yollanır. Digər tərəfdən, Kərəmin anası Ziyad xanın ölümündən, Kərəmin gedişindən sonra gözlərini itirir və o da Məkkə yolunu tutur. Osmanlı torpağından Məkkəyə yola düşən Kərəm məlum variantda yolda anası Qəmərbanunun karvanı ilə rastlaşır. Karvandakı qoca, gözlərinin nurunu itirmiş kor qadın Kərəmin diqqətini cəlb edir. Kərəm anasını tanıyır, Qəmərbanu kor olduğu üçün oğlunu görə bilmir. Burada Kərəm anasına özünü Ziyad xanın dostu kimi təqdim edir. "Ziyad xan dostusan, ağrın alım, xaraba Gəncənin yiyəsiyəm mən" – söyləyən ana sonda oğluna qovuşur və Həcc ziyarətlərini edirlər. Qeyd edək ki, Kərəmin anasının dilindən söylənilən bu sözlər üzərində qurulan şeir mətnləri, demək olar ki, dastanın əksər variantlarında fərqli biçim və şəkildə qorunmaqdadır. Lakin təəssüf ki, "Əsli-Kərəm" dastanının qeyd edilən bu variantı qocaman aşıqlar tərəfindən dinlənilib yazıya alınsa da, çap olunmamışdır.

"Əsli-Kərəm" dastanının məlum variantlarında, bir çox versiyalarda Kərəm İsfahan padşahı, bəzilərində isə Gəncəli Ziyad xanın oğlu kimi təqdim edilir. Haqqında danışdığımız sonuncu variantda isə Kərəm Təbrizin yaxınlığında yerləşən Qara Məlikdəndir (hal-hazırda Təbrizdə məhəllə), Əsli isə

Kənzə (Qara Məlik yaxınlığında kənddir) kəndindəndir. Qara keşişin əyalı da dastanda məhz Kənzə sakinidirlər. Bəzi aşıqların fikrincə, dastandakı hadisələrin bir çoxu məhz Kənzə kəndində baş vermiş, amma kəndin adı zamanla aşıqların ifasında dəyişilərək Gəncə şəklini almışdır.

"Əsli-Kərəm" dastanının Aşıq Ərəbin ifasında təqdim etdiyimiz bu variantı digər nüsxələrlə müqayisədə daha təkmil və hadisələrin ardıcıllığı, şeir şəkilləri, eləcə də təhkiyəsi baxımından xüsusilə zəngindir.

Kitabda təqdim edilən digər dastan "Seyidi" dastanıdır. "Seyidi" dastanı Təbriz-Qaradağ, Urmiya, Zəncan, Savə, Həmədan aşıq mühitlərində geniş yayılmış dastanlardandır. Dastan Təbrizdə Aşıq Hüseyn Sainin aşıq dastanları ilə bağlı hazırladığı kitablarda çap olunmuşdur. "Seyidi" dastanı vaxtilə aşıqların repertuarında yer alaraq sevilə-sevilə oxunmuş və dinlənilmişdir.

Bu dastanın Azərbaycan aşıqlarının repertuarında bir çox variantları mövcuddur. Dastan "Seydi", "Seyidi", "Seyidi və Pəri" adları ilə məşhurdur. Məlum variantlardan birində Seyidi Əhməd adlı yoxsul bir kişinin oğludur və Pəri xanım aşiqə buta olaraq verilir. Digər variantda Seyidi Tağı adlı yoxsul kişinin, Pəri isə onun əmisi dövlətli Nağının qızıdır. Qeyd etdiyimiz variantlardan əsaslı şəkildə fərqlənən digər nümunədə isə Seyidi Ərcmən şəhərindən Arzumanın oğlu, sevgilisi Güllü isə Arzumanın qardaşı qızıdır. Birlikdə molla məktəbində təhsil alan gənclərin bir-birlərinə olan istəyini öyrənən Hacıbala Seyidini sürgün edir. Seyidi Dağıstana gələrək Şeyx Şamilin valilərindən Mirzə Əfəndi ilə tanış olur, çox keçmədən Şeyx Şamillə görüşür. Nəhayət, dastanın sonunda Seyidi Şeyx Şamilin köməyi ilə Ərcmana hücum edib sevgilisi Güllünü xilas edərək ona qovuşur.

Təqdim etdiyimiz Güney variantında "Seyidi" dastanı Urmiya aşıq mühitindən Aşıq Bulut Saidin ifasından yazıya alın-

mışdır. Dastanda Seyidi Təbrizli Əhməd tacirbaşının oğludur ki, atası dünyasını dəyişəndən sonra onun var-dövlətinə sahiblənir, illərlə atadan qalma mirası xərcləyib var-yoxdan çıxır. Nəticədə pulsuz-parasız qalan Seyididən həm dostları, həm də sevdiyi əmisi qızı uzaqlaşır. Çətinliklər qarşısında qalan qəhrəman başını bir daş parçasına çırpıb Allahdan ölüm istəyir ki, bu zaman övliyalar, müqəddəslər onun gözünə görünərək Rəzmi şahın qızını ona buta verirlər. Vəzirin qızı Maral xanımın istəyini qəbul etməyən Seyidi Qəhrəman qalasına gəlib sevgilisini tapır. Hadisələrin sonrakı gedişatında Pəri xanımın Seyidiyə bağışladığı telləri çaya düşərək axıb Həsən paşanın bağında onun əlinə keçir. Sevgilisinin tellərinin ardınca yola düşən Seyidi Həsən paşa və vəziri, şahın qoşunu ilə mübarizə aparmalı olur.

"Seyidi" dastanında da bir çox məhəbbət dastanlarımızda olan aşiqlərin məşuqə tərəfindən sınanılaraq qəbul edilməsi, napak qarılar tərəfindən aldadılması, övliyaların qəhrəmana yardım etməsi və s. motivlər ayrıca yer tutur. Sevgilisini Qəhrəman qalasında tapan Seyidi onun qoyduğu şərtlərə görə əvvəlcə Pəri xanımla güləşib ona qalib gəlir, daha sonra Rəzmi şahın atını ram edərək qızın sevgisini qazanır. Seyidi ilk döyüşdə Rəzmi şahın say-seçmə pəhləvanlarını və vəzirin iki gənc oğlunu öldürür. Bu hadisədən qəzəblənən vəzir Seyidini öldürməyi planlaşdırır. Özü ağırlığında alacağı qızılın müqabilində bir qoca qarı bu işə razılıq verir. Qarı ovdan qayıdan Seyidinin yolunu kəsib yalvarır, kimsəsiz, çarəsiz olduğunu söyləyir. Qarını Qəhrəman qalasına gətirən Seyidi Pəri xanımın etirazlarına baxmayaraq onlarla birlikdə qalada qalmasına razılıq verir. Sonda qarı Seyidi və Pərinin yeməyinə bihuşdarı qataraq onları düşmənə təhvil verir.

Dastanda, qeyd etdiyimiz kimi, qəhrəmanlara həm də islam övliya, müqəddəsləri yardım göstərirlər. Lakin digər dastanlarımızda rast gəldiyimiz bu motivlərdən fərqli olaraq

dastanda Həzrət Əli nəinki qəhrəmana çətinə düşdüyü məqamlarda yardım göstərir, hətta başı bədənindən üzülmüş qəhrəmanı günlər sonra quyudan çıxarıb, ona can verib, həyata qaytarır. Aşıq özü də dinləyicisinin bu fakt qarşısında təəccübünü nəzərə alaraq "Ölülər dirilərmi" sualını qoyub, haşiyə çıxaraq Kərbəla hadisələrindən qoca qarının mövladan istəyinə bağlı rəvayətini söyləyir.

Dastanın sonunda yenidən dirilən Seyidi mövlanın göstərdiyi kimi Şama qayıdır, bu zaman şah əmr etmişdir ki, hər kəs Rəzmi şahın atını yəhərləyib Həsən paşaya verərsə, onun istəkləri qəbul olunacaqdır. Bu sınaqdan da çıxan qəhrəman, nəhayət, vəzir, Həsən paşa, qarını cəzalandıraraq Pəri xanımla Qəhrəman qalasına, daha sonra öz yurduna qayıdır. Dastan Seyidinin əmisi qızı, buta verilən Pəri xanım və vəzirin qızı ilə başlanan toy-düyünlə yekunlaşır.

Qeyd edək ki, "Seyidi və Pəri" adı altında geniş yayılmış dastan variantı təqdim olunan "Seyidi" dastanı ilə daha çox uyğundur. "Seyidi və Pəri" dastanında Seyidi istanbullu Məhəmməd tacirin oğludur. O, əmisi qızı Məryəm xanıma nişanlıdır. Ancaq tacir Məhəmmədin ölümündən sonra əmisi ona heç bir var-miras qoymur. Seyidi müflisləşir, atasının qəbri üzərində ağlayıb yuxuya gedir. Bu zaman Şahi-Mərdan ona Hind padşahının qızı Pəri xanımı buta verir. Kazım paşanın qızı isə Maral xanımdır. Hər iki varantda hadisələrin müxtəlif süjetlərdə inkişafı üst-üstə düşdüyü kimi, şeirlərin məzmun və strukturunda da uyğunluq müşahidə edilməkdədir:

Güney variantında:

İlikmisən, sümükmüsən, qanmısan?
Min bir, iki dərdin min dərmanısan.
Lülhər xanım, sən də ikicanlısan,
Sənin də işində hiylə var, hiylə.

Sən mənim sultanım, sən mənim xanım,
Ərşə dayanıbdır fəryadım, ahım.
Yumurta oğrusu Pərizad xanım,
Sənin də işində hiylə var, hiylə.

Quzey variantında:

Sana qurban olsun bu şirin canım,
Cannan artıq nəyə gəlir gümanım.
Nar, turunc oğrusu, ay Pərzad xanım,
Sənin sağ əlində hiylə var, hiylə!
Gözəllər içində əlvan donlusan,
Adam öldürənsən, qəddar qannısan.
Banı xanım, sən də ikicannısan,
Sənin o qarnında hiylə var, hiylə![14]

Kitabda təqdim olunan "Əlişah" dastanı Güney folklor mühitində "Əlişah və Huriliqa", "Əlişah və Şəhriyar" adları ilə tanınmaqdadır. "Əlişah" dastanı Güneydə xüsusilə qocaman aşıq Məhəmməd Məzrəli tərəfindən oxunmuşdur. Aşıq Ələsgər Mərəndli, Aşıq Hüseyn Namvər, Aşıq Hüseyn Təbrizli (Anaxatınlı Hüseyn), Hacı Məhəmməd Bağır (aşıq dastanlarının bilicisi kimi tanınmışdır) və s. aşıqların repertuarında "Əlişah" dastanı uzun illər yer tutmuş və qorunub saxlanılmışdır. Güneydə hal-hazırda Aşıq Əli Kərimi, Aşıq Hüseyn Sai tərəfindən bu dastan daha çox oxunub təbliğ olunmaqdadır. Dastan Təbriz-Qaradağ aşıq mühitindən əlavə həm də Urmiya, Zəncan və Həmədan-Savə aşıq mühitlərində də aşıqlar tərəfindən uzun illər repertuarlara salınmışdır.

Dastanın təqdim etdiyimiz bu variantı Aşıq Ərəbin ifasında məclis əsnasında qeydə alınmış səsli fayllardan əldə olunmuşdur. Dastan Əlişah adlı şahzadənin başına gələn hadisələr, sevgilisi Hurləqa adlı pərinin ardınca əfsanəvi Gülüstani-İrəmin yolunu

---

[14]Azərbaycan dastanları külliyyatı XXI cild. Dastanlar (XI kitab), Bakı, Nurlan, 2010, səh.327.

tutması və bu yolda çəkdiyi əziyyətlərdən bəhs edir. Əksər dastanlarda müşahidə etdiyimiz ov zamanı sevgilini tapmaq motivini "Əlişah" dastanında da müşahidə edirik. Anasının tövsiyəsi ilə şikara çıxan Əlişah ovda göyərçinlərin toplaşdığı bir yerə çatır. Göyərçin donunda olan gözəllərdən biri özünü Əlişaha nişan verir və bir namə qoyaraq onun yanından uzaqlaşır. Məhz bu əhvalatdan sonra hadisələr süjetə qoşularaq davam edir.

Dastanda qəhrəmana yardım göstərən qüvvələr onun qardaşlığa qəbul etdiyi Əlmasib şəhərinin şahı Şahbalının oğlu Şəhriyar və İslam övliyalarıdır. Şəhriyar hələ kiçik yaşındaykən divlər tərəfindən oğurlanıb onların arasında yaşamağa məcbur qalmışdır ki, qəhrəman sonradan divlərin əlindən azad olub Əlişahla birlikdə mübarizə aparır. İslam övliyaları, xüsusilə Həzrət Əlidən imdad istənilməsi dastan boyu qəhrəmanın düşdüyü çətin məqamlarda ona yardımçı olur.

"Əlişah" dastanında qəhrəmanların mübarizə, macəralarında rastlaşdıqları bir sıra mifoloji, demonik qüvvələrə də rast gəlirik. Əlişah dənizin ortasından Həzrət Əlinin hökmü ilə sahilə çıxdıqdan sonra bir qoca kişi ilə rastlaşır. Hadisələrin sonrakı gedişatından məlum olur ki, bu insanların qəniminə çevrilən Qayışbaldırdır. Qayışbaldır Əlişahın kürəyinə minib aylarla onun üzərindən uzaqlaşmır, iri caynaqları ilə qəhrəmana əzab verir. Digər mifoloji obraz isə nağıllarımızda tez-tez rast gəlinən Div obrazıdır. Dastanda hadisələr bu istiqamətdə Şəhriyarın qardaşlığı Əlişahla birlikdə onlarla döyüşüb, qalib gəlməsi ilə nəticələnir.

"Əlişah" dastanı aşığın məclis zamanı söylədiyi səsli fayllardan götürüldüyü üçün dastanın sonunda Aşıq Ərəb bir sıra xalq mahnılarını da zümzümə edir ki, dastan mətninə aid olmasa, da biz bu mahnıları olduğu kimi yazıya almışıq:

Söydüyümə mehman ollam,
Küsdürüf göylünü allam.

Sən getsən, intizar qallam,
Gəl, ceyranım, küsmə məndən,
Küsmə məndən, küsmə məndən,
Məhəbbətin, ay gözəl, kəsmə məndən.

Zülflərindi qulac-qulac,
Məni etmə ona möhtac.
Küsməyin də bir vaxtı var,
Gəl ceyranım, küsmə məndən,
Küsmə məndən, küsmə məndən,
Məhəbbətin, ay gözəl, kəsmə məndən.

Təqdim etdiyimiz "Əsli-Kərəm", "Seyidi", "Əlişah" dastanlarını yuxarıda da qeyd etdiyimiz kimi, səsli fayllar üzərindən köçürərək yazıya almışıq. Orijinala uyğun olaraq dastanların üslub, ifadə şəkilləri, şeir quruluşunda heç bir nizamlayıcı iş görülməmişdir. Nəticədə bir çox şeir mətnlərinin qafiyə quruluşunun, bəndlərdə heca sayının pozulmasına baxmayaraq tərəfimizdən bərpa edilməmiş, aşığın dilindən olduğu kimi yazıya alınmışdır. Sözsüz ki, orijinallığın qorunması həm dastanlarımızın məzmun xüsusiyyətlərinin öyrənilməsi, həm də bu mətnlərin folklor dili, üslubu, ifaçının fərdi yaradıcılıq səyi və s. üzərindən müşahidələr aparılmasında tədqiqatçılar üçün əvəzsiz mənbədir.

**Mətanət Maşallahqızı (Abbasova)**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Dr. Məhəmməd İbadi (Alışıq)**
**Şərqi Azərbaycan(Təbriz və ətraf şəhərləri)**
**Aşıqlar Birliyinin sədri**

# ƏSLİ-KƏRƏM

Əzizlərim, sizə kimdən xəbər verim, keçmiş zamanlarda Şah Abbasdan. Şah Abbasın adətidir, dərviş paltarı geyinib vəziri Allahverdi xanı da götürüb düşərdi şəhər-şəhər, kənd-bəkənd dolanardı, ta məmləkətin vəziyyətindən xəbərdar olsun. Günlərin birində Şah Abbas dərviş libasi geyib, Allahverdi xanı da götürüb yola düşdü. Gəlib Gəncə şəhərinə çatdılar. Gəncə şəhərinin kənarında bunlar bir daşın kölgəsində dincəlməyə başladılar. Allahverdi xan başın yerə qoyan kimi yuxu apardı, amma Şah Abbas gördü həzin bir tütək səsi gəlir. Elə qulaq asanda baxdı gördü dağın döşündə bir çoban tütək çalır. Şah Abbas Allahverdi xanı da yuxudan oyadıb gəldilər bu çobanın yanına. Dedilər, biz çox yol gəlmişik şəhərbəşəhər dolanırıq, bizə bir az çörək verəsən. Çoban and içdi ki, sizdən qabaq 3 nəfər qonağım var idi, çörəkləri onlara vermişəm, amma sizə süd sağıb verərəm. Çoban kasanı götürüb bir keçinin dalınca qaçdı, bir qədər keçini qovandan sonra tutub, sağıb südün gətirdi. Şah Abbas soruşdu:

– Ay çoban, bu qədər o keçini qovunca bir ayrı keçi və ya qoyundan süd sağaydın.

Çoban dedi:

– Ay dərviş, bu qoyun-quzular xalqındı, mənim deyil. Ancaq mənim var-yox bir keçim var, mən onun südün sizə sağıb gətirdim.

Şah Abbas soruşdu:

– Çoban, sənin adın nədi?

Dedi:

– Mənim adım Ziyaddır.

Dedi:

– Hər zaman yolun İsfahana düşsə, kimdən soruşsan dərviş Abbası məni sənə görsədər.

Bir neçə il sonra çoban gəzə-gəzə gəlib çıxdı İsfahan şəhərinə. Hər kəsdən dərviş Abbası soruşdu, tanımadılar. Bir qarı arvaddan soruşanda dedi:

– Oğul, onu məndən sonra kimsə tanımaz. O, həmən Şah Abbasdır ki, dərviş paltarı geyib şəhərləri dolanar. Get dərbara, amma səni içəri buraxmazlar, deginən, məni Reyhan qarı göndərib Şah Abbası görəm. Onda səni içəri buraxarlar.

Ziyad çoban gəldi Şah Abbasın hüzuruna. Görüşüb öpüşdülər. Ziyad çoban bir neçə gün şahın qonağı oldu. Şah Abbas başa düşdü ki, Ziyad çoban subaydır. Odur ki, hərəmxanadan gözəl bir qızı onun əqdinə gətirib, Gəncə şəhərinin də hakimliyinin hökmün yazıb Ziyad çobana verdi, dedi:

– Bu gündən Gəncənin hakimi oldun, adını da Ziyad xan qoydum.

Ziyad xan Qəmərbanunu da götürüb bir neçə dərbar adamı ilə Gəncəyə gəlib, Gəncənin hakimi oldu. İllər keçdi Allah bunlara övlad vermədi.

Bir gün Ziyad xan sarayın qabağında oturmuşdu, gördü ki, bir dərviş Həzrət Əlinin şənindən oxuyur. Buna yaxınlaşıb dedi:

– Ziyad xan, al bu almanı yarı böl, yarısın ver xanımın yesin, yarısın isə özün. Allah sizə övlad əta elər.

Dərviş çıxıb getdi, Ziyad xan almanı yarı bölüb, yarısın öz xanımına verdi, yarısını özü yedi.

Vədə yetişdi, Ziyad xanın oğlu oldu, adını Mahmud qoydular. Bu uşaq 17 yaşına çatdı. Bir gün Mahmud öz Lələsin də götürüb şikara çıxdı. Bunlar gəlib Zəngi dağlarına çatdılar. Mahmud tərlan quşunu uçurtdu. Quş bir kəhliyin dalınca uçub bir bağa düşdü. Mahmud gəlib bağın divarından aşıb, gördü tərlanı bir qızın əlindədir. Amma yemə-içmə bu qızın xəttixalına bax, elə bil ki, 14 gecəlik aydır. Aldı görək nə dedi:

Başına dolanım erməni qızı,
Sal gəlsin tərlanım Əsli var, Əsli.

Gedərkən bu yoldan eyləmə bizi,
-Sal gəlsin tərlanım Əsli var, Əsli.

Belə olanda Nərgiz xanım cavabında aldı görək nə dedi:

Dolanım başına müsəlman oğlu,
Kərəm eylə gəl, tərlanın al, apar.
Dinlərin içində dinizdi doğru,
Kərəm eylə gəl, tərlanın al apar.

Amma Kərəmin adı Mahmududu. Mahmud baxdı gördü bunun adı Mahmuddu, vəli bunu "Kərəm" diyə səslədi. Çün qız bu əqidəylə səslədi ki, mən bunu "Kərəm" deyib çağıraceyəm. Əgər kəraməti olsa gələr, quşu alar aparar, kəraməti olmasa, quşluyar. Kərəm gördü ki, bu qız buna "Kərəm" dedi. Çün qızın da adı Nərgiz xanımdı. Dedi, təvəkkül Allaha, mən də buna "Əsli" deyəcəyəm. Əgər əsli-nəcabəti olsa, bunu allam. Əsli-nəcabəti olmasa, bunnan vuruşarux. Odu ki, aldı belə deyir:

Bülbül olub hər budaqda ötmərəm,
Bəxt olmasa, yar vəslinə yetmərəm.
Tərlanımı almayınca getmərəm,
Sal gəlsin tərlanım, Əsli var, Əsli.

Amma Nərgiz xanım gördü ki, bunun adı Nərgiz idi, oğlan bunun adın "Əsli" deyib çağırdı. Vəli, elə cavandı ki, misli-manəndi qəribeyi-dünyada yoxdu. Bu qızın aşırmaları[15] o tərəf, bu tərəfdən gəlir. Yemə-işmə, oğlanın qədi-qamətinə xoş heykəlinə tamaşa elə. Yaxınlaşır, bir göyüldən min göyülə aşiq olur. Amma çün Kərəm çiftçilərin üsdündən baxır bağa. Gördü nə aləmdi? Bir qonça qız əyləşib. Buların vəsətində bir nazənin var ki, yemə-işmə, mah camalına tamaşa elə. Gözlər nərgizi-şəhla, dişlər inci-sədəf kimi düzülüb, dodaxlar nanə yarpağı kimi. Oğutdar[16] elə bil ki, payız almasıdı. Oğlanın az qalsın huş başından çıxa. Nə olaydı bu qızın

---

[15] Aşırma – çiyindən aşırılan, şalvarı saxlayan kəmər, bağ
[16] Oğut – ord, ovurd, ağız boşluğunun yanaqlar tərəfinə olan hissəsi

namizədi olmayaydı. Mən atama diyəydim ki, bu qızı alaydı mənim üçün. Amma bilmirəm ki, hardadı? İndi bir yol ki, aldı görək qız nə cür söbət eliyir:

İndi bizim cavanların xasısan,
Ərmənisən, müsəlmansan, hasısan?
Amma indi bildim ki, ağ tərlan yiyəsisən,
Kərəm eylə, gəl tərlanını apar.

Amma oğlan baxdı gördü ki, bu qızın gözəlligi bir yana, ləhcəsi, danışığı, kəlməsi bir yana. Əcəb nazənindi, yaxçı yerə varid olmuşam. Amma çi fayda[17], kaş onnan zad olmuyaydım. İndi bir yol görək Kərəm nə deyir:

Əsli xanım min dilinən dindirir,
Ağ tərlanı sağdan sola mindirir.
Xanım, ora gəlsəm ərmənilər öldürür,
Sal gəlsin tərlanım, Əsli var, Əsli.

Bir qonça qız ki, Əslinin dörəsindədi, gördülər qəribə oğlandı. Amma Əsli xanım etiraf elədi ki, bu oğlan qorxur. Götürsün görək Kərəm bu yol nə deyir:

Mənim ağam, Şahi-Mərdan Əlidi,
Nəzər salsa dağı, daşı əridi.
Adım Mirzə Mahmud, atam bəylərbəyidi,
Sal gəlsin tərlanım, Əsli var, Əsli.

Əsli xanım dedi:

– Qızlar, pis yerə vaqe olmamışıx, amma bu Ziyad xan bəylərbəyinin oğludur. Təvəkkül Allaha, mən elə gedəciyəm bu oğlana. Əgər namzədi olmasa, adaxlısı, sögülüsü olmasa.

Ağa, bu aşiqi-məşuq ikisi bir-birlərinə qurban, başdıyırlar ki, gedə-gedə məhəbbətdəri çoxalır. Bəli, odur ki, alır Əsli xanım sözünün nəqarətini deyir:

Ay ağalar, kimə edim dadımı?
Axı, kimlər çəksin mənim odumu?

---

[17] Çifayda – nə fayda?

Nərgiz idim, oğlan, "Əsli" qoydun adımı.
Kərəm eylə, gəl tərlanını apar.

Söz tamam oldu. İndi bu iki aşıqi-məşuq gedə-gedə məhəbbətdəri çoxalır. Kərəm gördü xeyir, geşməli bir qız dəyil. Odu ki, ah üsdə çilənib, gəlir Əsli xanımın o yerdəki dayanıb təmənnə edir. Amma neyniyib? Bir yol şikar quş Əsli xanımın əlinin üsdündədi. Əsli xanımın əllər nazik, şikar əlinin üsdündə. O qədir tələsib ki, əllərini dağıdıb, qanı damçı-damçı tökülür, yerə xəbəri yoxdu. Əsli heç özündən xəbəri yoxdu. Kərəm qəvzanı belə gördü, yetişib Əsli xanımın əlinin üsdündən şikar quşunu götürdü. Qovdu, atdı. Əsli xanım qızlara sarı üz dolandırdı:

– Qızdar, bu cavanda bu liyaqət, bu gözəllik bu oğlandadı, amma təbi varmış. Təbi tutdu ki, bu quşu qovdu, öldürdü. Min tümən bu quşun boynunda hədiyyə varıdı.

Əslinin Kərəmə təbli deməsi elə bil ki, ürəginin başından oxunan vurdu, kürəginin ortasından çıxartdı.

– Xanım, mən təbli dəyiləm, icazə ver. Təbli, yəni nəmənə?

Səlatün pərisən, gözəl, məlәgi-xoşbu,
Nə olar ki, eyliyəsən bi tavab[18] mənə.
Hüsnün tamaşası gözəl, Yaradan
Gözəl xub yaradıb, səni bab mənə.

Dedi:

– Oğlan, sən nə bildin ki, Allah səni mənə bab yaradıb?

Dedi:

– Axı, sən mənə dedin ki, sən təblisən. Dayan ərz eliyim:

Ağ üzündə sövdüm, gözəl, ala gözüvü,
Şirin baxışivi, şəkər sözüvi.
Yel atdı niqabın, gördüm üzüvü,
Camalın görcəkli gəldi təb mənə.

– Sənin camalın məni təb elədi. Məndə təb yox idi ki.

---

[18] Tavab – tövbə mənasında

Amma Əsli xanımın xəbəri xəbərdən yox, əlinin qanı damcı-damcı tökülür. Amma indi bir yol götürsün görək, sözün əvvəl-axırında nə desin, mən də ərz eliyim:

Gözəl olan qəmzəsini eyləsin,
Xəncər alıb bağrım başın teyləsin.
Belə dərdə təbib, cindar neyləsin?
Bağlansa üstümdə beş kitab mənə.

Əlbəttə, Əsli xanım ki bəyənib, xəbəri xəbərdən yoxdu. Əlini gətirib qoymuşdu döşdərinin üsdünə. Kərəm ki bu cür sözdəri deyir, Əsli xanım baxdı gördü bu oğlan keşməli oğlan dəyil. O vaxtdan xəbəri yoxumuş, bunun əlini şikar quşu dağıdıb. Əlinin qanı damcı-damcı tökülürmüş yerə. Kərəm oymuş bu sözdəri deyir. Ürəkdən and işdi ki, day bu oğlannan əslən əl götürmüyəcək.

Bəli, Əsli ilə Kərəm yadınızda olsa, bağda neçə kəlmə bir-birlərinə söhbət eliyiblər. Əvvəl bir-birlərinə aşiq olmaxıdı. Bir-birlərini görüblər, amma nə Əsli Kərəmdən əl götürə bilir, nə Kərəm Əslidən əl götürə bilir. Lələ də ki, qalıb bağın divarından o üzdə. Ha gözdüyür ki, Kərəm gəlsin, amma sorağ olmur. Əlbəttə, söhbət həmən yerdədi. Kərəm bağdadı, vəli Lələ qalıb bağdan eşigdə. Lələ başının altını uca eliyib, xürreyi-xaba[19] bülənd olub. Vəli Kərəm isdiyir Əslidən ayrılsın.

– Xanım, mənim bir Lələm var, qalıb bağdan eşigdə.

Dedi:

– Heç əlacı, mümkünü yoxdu, qoymaram gedəsən. Sənnən mənim taza görüşlərimizdi.

Bir müddət çox xahiş eliyənnən sonra Kərəm isdiyir getsin, Əsli bir belə baxır daldan oğlanın qiyafəsinə, boy-buxununa. Görür yox, ayrılıx çətindi. İndi telindən tel ayırıb bir dəstgah nə dillərinən oğlana xahiş eliyir, ərz eliyim:

[19] Xürreyi-xab – yuxuda xoruldamaq

Getmə-getmə, canım oğlan.
Sən Əsli hicrani Kərəm.
Sənə qurban şirin canım,
Bizim yerin xanı Kərəm.

Oğlan Əsli xanımdan bu sözü eşidib:

– Xanım, sənin belə bu şirin söbətin məni belə baxıram illərcə qoymuya burdan gedəm. Mənim Lələm var, qalıb bağdan eşigdə.

– Dayan cavan, bir kəlmə də sözüm var.

Gedəni eylərəm yoldan,
Gümüş bazubəndlər qolda.
Tökülübdür sağı-soldan
Zülfü zərəfşanı, Kərəm.

Ağa, Kərəm gördü Əsli xanım çox şirin söbət eliyir:

– Axı, xanım, mənim Lələm divardan o üzə qalıb. Gözlə Lələm də gələr.

Dedi:

– Axı, babam narahat olar. Xan babam məni əgər bir saat gej görsə, narahand olar.

– Eybi yoxdu, xanım. Gedirəm genə inşallah, gəlləm.

Bəli, oydu ki, Əsli xanım sözünün əvvəl-axırını deyir:

Gör sənə eylərəm nələr,
Dust-dusta yazar namələr.
Səndəki şirin kəlmələr
Dərdimin dərmanı, Kərəm.

– Əgər bir moqe özün də gəlməsən, barı Ləlləni göndər mənim üçün.

Ağa, iki aşiqi-məşuq burdan xudafizlik eliyiblər. Amma indi Kərəm gəlib bağın divarından aşdı, gəldi Lələnin yanına. Gördü bəli, Lələ başının altını uca eliyib xürreyi-xaba bülənd olub, xəbəri xəbərdən yoxdu.

– Lələ.

– Bəli.

Lələ gözünü aşdı:

– Diyəsən, bir az yubanıbsan? Niyə gec gəldin?

Dedi:

– Lələ, başımın qəzası çoxdu.

Lələ durdu baxdı, gördü oğlanın rəngi-ruhu yoxdu, əvəz olub küllər. Rəngi-ruhu saralıb, əvvəlki Kərəm dəyil bu.

– Mahmud, niyə bu cür olubsan, oğul?

Dedi:

– Mən cavabı diyə bilməm. Gərək şeirnən diyəm nə gördüm, başımın qəzası nəmənədi?

– Hə, de görüm nə görübsən? Əgər bu halda atan səni görsə, mənim dədəmi yandırar. Əgər xudayi-nakərdə duvalıxlı olubsan, bu kətdərin birində dua yazdırarıx. Yox, davalıxlı olsan, gərək dühdürə[20] aparam, bu halda mən səni Ziyad xan bəylərbəyinin yanına apara bilmərəm.

Oydu ki, bəli götürsün görək Kərəm nə cür söbət eliyir Lələyə, mən də ərz eliyim, əziz, muhtərəm eşidənlərin sağlığına. "Döymə Kərəmi" ilə oxuyuram:

Canım Lələ, sənin yerin boşudu,
Orda bir bəhs düşdü, qullar oynadı.
Bir sərv boyluca düşdü araya,
Asta aşdı, qulac qollar oynadı.

Lələ dedi:

– Mən bilmirəm sən nə deyirsən.

– İndi diyərəm nəmənədi.

Əsli, başın qurdu mənə yay kimi,
Aşdı sinəsini, ağlı zay kimi.
Silkindi-silkindi qarçıqay[21] kimi,
Tökdü gilələrin, tellər oynadı.

---

[20] Dühdürə – doktora

[21] Qarçıqay – quş növü, quş adı

Kös-kös oldu, keşdən yola düzildi,
Didəm yaşı candan-cana süzildi.
Əl vurdum döşünə, bağrım üzüldi,
Bağrımın başında millər oynadı.

Söz tamam oldu, Lələ gördü, bəli, oğlan vurulub, yaman vurulub. Çün Lələ qabaxca görmüşdü qızı, bildi ki, aşiq olub.

– Oğul, mən baxıram sən çox narahandsan. Amma burda bu cür ağlıyıb, ahu zarlıx eləməkligin heş yerə faydası yoxdu. Dur, atdarı minək, özümüzü verək Gəncənin şəhrinə.

Bəli, atdarın miniblər, özlərini veriblər Gəncənin şəhrinə. Bundan qədim, büyükzada adamların, yəni ərbabların, xudkarların neçə otağı olardı. Birinə də "bəy otağı" diyərdilər. Kərəm özün vurub bəy otağına. Ağa, amma Kərəmin anası gəldi gördü narahanddı:

– Oğul, qurbanın kəsilim, niyə narahandsan?

Kərəm cavab vermədi. Ağa, xəbər verdilər Ziyad xana ki, oğlan o gün ki şikara getmişidi Lələynən. Qəyidib gəliblər, bərk məriz olub. Nə danışır, nə yeyir, nə içir. Bəli, amma Ziyad xan gəldi oğlanın yanına.

– Oğul, qurbanım kəsilim, dərdin, mərəzin nəmənədi? Axı, sən niyə narahandsan?

Yinə cavab vermədi. İndi bir yol Ziyad xan deyir:

– Dərdini mənə deginən, mən sənin dərdiyə əlac elətdirrəm.

Ümumi Gəncənin dühdürlərini yığdılar Kərəmin başının üsdünə. Ağa, bular hammısı gəliblər, baxdılar dedilər:

– Qurban, bunun heş mərəzçiliyi yoxdu. Təb, nəbz öz yerindədir.

Amma o qədir ki, narahandçılıx elədi Kərəm. Xob, Kərəmin adın ərz eləmişəm Mahmuddu da. Bular bilmirlər ki, bunun adı Kərəmdi, elə Mahmud diyirlər. Amma Ziyad xan narahand oldu. Bir dühtür var idi, Mehdi həkim diyərdilər. Bədşansıdı bəddən. Hər mərizin başının üsdünə getsəydi, yaxçı da malicə

elərdi. Əvəlidi ki, toxdasın, bər əks[22] ölərdi o tərəf.[23] Oydu ki, adına Naşid təbib diyərdilər. Ziyad xan axırda təngə gəldi:

– Baba, gedin o Naşid təbibi gətirin. Ya bir yol ölsün, ya bir yol dirilsin də. Day bizi da ayax altında bizim məlum getdi, gəldi apardı. Axı, görək bunun dərdi nəmənədi?

Adam göndərdi, Naşid təbib gəldi. Naşid təbib yetişib gördü bəli, Kərəm üzüquylanıb. Xəbəri xəbərdən yox, yetişib nəbzin tutdu. Əvəzinki[24] Kərəm dərdin desin. Gözlərinin yaşı əbri-bahar kimi tökülür. Kərəm belə baxdı gördü, baba, təbib ağlır. Səsləndi:

– Lələ, babama denən mənim üçün bir saz tapsın, gətirsin. Mən ürəgimin dərdini deyim bulara. Day bunnan artıx təbib mənim dərdimi cuşa gətirdi ki, məni dərdimi dedim, ağladı. Görün axı, niyə ağlır bu?

Göndərdilər, vəli bir saz gətirdilər, Lələ keçdi əyləşdi. O tərəfdən atasi, anasi, Naşid təbib də bir tərəfdə, amma Kərəm götürsün görək nə cür dərdin diyir. Ərz eliyim, eşidənlər sağ ola:

Naşid təbib məni görüb ağladı,
Heş bilmirəm nə azarım var mənim?
Aləm təbib olsa, sağalmaz yaram,
Üsdümə gəlməsə nazlı yar mənim.

Ağa, o yannan bu yannan baxdılar gördülər belə söhbət elədi.

– Diyəsən, mənim bu oğlum bir qıza aşiq olub.

Amma Lələ dedi:

– Xob, şair qisminin sözü üşdən, ya yeddi bənd olar.

"Əlif"i oxuduq, biz də "bey" için,
Gümüş piyalələr dolub mey için.
Dəli könül xiyal eylər ney için,
Əli kimi bir pənahım var mənim.

---

[22] Bər əks – əksinə
[23] Ölərdi o tərəf–o adam ölərdi
[24] Əvəzinki – əvəzinə

– Mənim Həzrəti Əli kimi pənahım var. Heş kəsə mənim ehtiyacım, möhtac yoxumdu.

Amma dübarə sözün belə deyir:

Ziyad xan oğluyam, adım Xan Kərəm,
Gözüm tor gətirdi, ürəgim vərəm.
Dəryalar mürəkkəb olsa, meşələr qələm,
Mirzələr yazdıxca dərdim var mənim.

Burda Meyrəm xanım dedi ki:

– Mənim balam bir yol bildi ki, nə dərdinə girib. Bir qıza aşiq olub.

Görək bu kimin qızıdı, adı nəmənədi, kimin qızıdı?

Kərəm sözü həx yanında yazıdı,
İşdərimiz sovda deyil, yazıdı.
Adı Əsli, Qara Məligin qızıdı,
O Əsliynən bir ilqarım var mənim.

Söz tamam oldu, onda bular bildilər ki, bəli, Qara Məligin qızı var. Adı da Əslidi. Ziyad xana dedilər ki, bu, Qara Məligin qızı Əsli xanıma aşiq olub. Lələdən xəbər aldılar:

– O gün siz şikara getmişdiniz. Nə gördüz, hara getdiz?

Dedi:

– Vallah, getdik bir şikara. Gəzdik dolandıq, amma bir dəstə kəklik tapdıq. Mahmud bu şikar quşunu saldı kəkliklərə. Şikar quşu birini götürüb saldı bir bağa. Getdi, qəyidib gələndən sonra bunu narahand görmüşəm.

Bəli, indi bu yol Ziyad xan bilir ki, bu oğlan Qara Məligin qızına aşiq olub. Ləməni göndərir:

– Get, Qara Məligi gətir bura görək. Ayə, onun bir belənçik qızı var?

Lələ, durub atın minib özünü verdi Səngivar kəndinə. Varid olub Qara Məligin yanına:

– Salam.

– Əleykümə salam.

– Məlik sağ olsun, səni Ziyad xan hüzuruna isdiyib.

Dedi:

– Heç eybi yoxdu, gedərik.

Yerindən durub bəli, bir at da Qara Məlik mindi. Qayıtdılar gəldilər Gənciyə. Ağa, yetişiblər, atdarı yerbəyer elədilər. Qara Məlik yetişib:

– Salam.

– Əleykümə salam.

– Xan sağ olsun, mənə əmrin nəmənədi?

Dedi:

– Vallah, sözün düzi, bizim bu Mahmud şikara çıxıb. Amma gedib sizin Çar bağda ayə, bilmirəm sənin qızın var imiş, görüb aşiq olub. Amma əgər sən bu işə müvafiq olsan, sən o qızını verəsən mənim bu oğluma.

Belə deyəndə, Qara Məlik ürəkdən göyülü yoxdu, çün heç göylü yoxdu. Ərməniynən müsəlmanın heş möhü-momunatı tutmaz. Ona görə ki, narahand oldu. Amma bir cavabın dedi ki:

– Eybi yoxdu, xan sağ olsun. Mən arzu elirəm ki, sənin kimi bir adamnan qohum olaq. Mirzə Mahmud kimi oğlan tapa bilməm. Sənin kimi də qohum tapa bilməm. Eybi yoxdu, qız da özüyündü, oğlan da özüyündü.

– Xob, bəs hansı gün biz gələk?

Bəli, qovlu qərar qoyurlar ki, filan həftədə, filan gündə Ziyad xan neçə ağsəqqəlinən gedələr elçiliyə. Bəli, Qara Məlik qəyidib gedir. O gün ki, dolanır gəlir, Ziyad xan neçə nəfər Gəncənin xanlarından, bəylərindən götürüb, bir üzük, bir dəsmalı da götürüblər. Gəlirlər bəli, Səngivar kəndinə. İndi bir yol Qara Məlik yeddi qardaşdılar. Qara Məlikdi, Ala Məlikdi, Donqul Məlik, Sarı Məlik.... Elə bu cür hamısı axırı Məlik. İndi bular, Qara Məlik cərəyanı danışıb, hamısı narahanddılar ürəkdən. Çün talib Ziyad xandı, eliyə bilmirlər, diyələr vermirik. Bəli, bular varid oldu Səngivarın kəndinə. Peşvaz, pəyan-

daz eliyiblər, geşdilər əyləşdilər. Bu yandan, o yandan söhbət, Ziyad xan dedi:

– Biz bu işin dalıycan gəlmişik.

Qara Məlik dedi:

– Xob, eybi yoxdu.

Ziyad xan dedi:

– Amma bizim rəsmimizdi. Mən gərək üzügünən dəsmalı özüm verəm sənin qızıya.

Çün bu təsmim tutub ürəyində ki, gedim hələ baxım görüm bu oğlan neçə gündü məriz olub, nə qəddər dühtür gətirirk verib əlacı da olmur. Görüm ayə, bu qız bir zaddır, yainki elə əvvəl görməkligidi böylə aşiq olub.

Üzügü, dəsmalı gətirib. Xəbər verdilər Əsli xanıma ki, adı Nərgizdi, bular bilmirlər hələ adı Əslidi. Nərgiz xanıma xəbər verdilər, vallah, Ziyad xan bəylərbəyi üzügünən dəsmalı özü gətirir. Yetmiş qələmdən özünə zinyət vermişdi. Üzügü, dəsmalı əlində varid olub otağa. Belə baxdı gördü pəh, vaqiən çox nazənin qızdı bunun gəlini. Ürəkdən çox şad olub, üzügü, dəsmalı verdi Əsli xanıma. Qayıtdılar ki, isdirlər gəlsinlər.

– Fılan gündə Məlik sağ olsun, əgər Gəncənin ağsaqqallarından elə namlısın[25] seçsəm, heç olmasa elə əlli-altmış adam olar. Ayə, bizim qonağımızın qabağında dura bilərsiz, ya yox?

Belə diyəndə Donqul Məligin çox acığı gəldi. Dedi:

– Sən min dənə də atdıynan gəlsən, bizim qüdrətimiz var ki, sənin adamlarını eliyəciyik yerbəyer, eliyərik.

İndi bir yol Ziyad xan gəlir. Gözdüyürlər, həmən həfdə gəlir, genə neçə dənə Gəncənin xanlarından, bəylərindən, dovrələrdən, şəhərlərdən və kətdərdən dəvət eliyiblər. Ağa, bular gedirlər şirni içməgə. Şirnifirənling olundu. Əlbəttə, Donqul Məlik və Qara Məlik bular çıxıblar, peşvaz elədilər. Qonaxlar yerbəyer olannan sonra geçtilər. Söhbət başdandı, Qara Məlik dedi:

[25] Namlı – adlı-sanlı

– Bizim rəsmimizdi, yəni gərək oğlan da, qız da bu məclisdə ikisi də əyləşələr.

Ağanan oğlu müstəcəm doğru əyləşə, qız bu yannan diyə, bu oğlana gedirəm. Oğlan da diyər, mən bu qızı alıram. Onnan sonra görək ərz olunsun. Dedilər, eybi yoxdu.

Ziyad xan Lələyə dedi:

– Bəs sən atı min get, Mahmudu da gətir bura.

Lələ atı minib, özün verdi Gəncənin şəhrinə. Yetişib Mirzə Mahmudun yanına.

– Mahmud, dur ayaq üsdə, gedək. Atan isdiyir səni orda, məclisdə qızınan bir-birinizi görəsiz.

– Eybi yoxdu.

Mahmud yerindən durub, bəy balası kimi bəzənib, atı mindilər. Gəliblər həmən Səngivarın kəndinə. Varid oldular, bəli, Kərəm yetişib:

– Səlam.

– Əleykümə salam.

Daş vurdu, bağrın basdı, ədəb yerin tamam eliyib. Bəy balası kimin keçib bir tərəfdə əyləşdi. Donqul Məlik gəldi Əslinin yanına. Donqul Məlikin bir oğlu var idi, isdirdi oğluna. Göylü yoxdu ki, qız getsin Ziyad xanın oğluna.

– Qız, mən səni aparıram o məclisə. Amma hər moqe səndən xəbər aldım "ayə, Ziyad xanın oğluna gedirsən, ya yox?", onda sən deynən "yox".

Dedi:

– Baş üstə, deyərəm, əmi can.

Ürəkdə dedi ki, alayınoğlu,[26] mən gördügümü görmüşəm bağda. Əgər məni yeddi dəfə öldürələr belə dubara genə gedəcəyəm, mən gedərəm oğlana. Əsli xanım yeddi qələmdən özünə zinyət gəlib, o, da o tərəfdən varid oldu məclisə. Kərəm bir tərəfdə, Əsli bir tərəfdə əyləşiblər. Əlbəttə, Əslinin adı

[26] Alayınoğlu – söyüş mənasında: haramzada, atası bilinməyən

Nərgizdi. Bular bilmirlər ki, bular bağda bir-birlərinə "Əsli", "Kərəm" adı qoyublar. Donqul Məlik xəbər aldı:

– Qızım, Nərgiz ayə, de görüm sən Ziyad xanın oğlu Mirzə Mahmuda gedirsən, ya yox?

Başın saldı aşağı, bir söz demədi. Dübarə yinə təkrar eylədi, genə bir söz dimədi. Üş dəfə təkrar eliyənnən sonra dedi:

– Əmim sağ olsun, dovrə müstəcəm ağayan ki, əyləşiblər, beş-on kəlimə mənim ürəgimə söz gəlib. Mən diyim ta görün ki, bu oğlana mənim göylüm var, ya yoxdu?

Elə desin, ərz eliyim, eşidənlər sağlığına:

Dolannam başına, mehriban ata,
Ata can, Kərəm məni, mən Kərəmi söymüşəm.
Qiyamət günündə gəl, yanma ota[27],
Kərəm məni, mən Kərəmi söymüşəm.

Aaa... İndi bular özdərini bilirlər ki, onun adı Kərəmdi, bunun adı Əslidi. Onda Məlik dedi:

– Qızım, biz Kərəm, ya Əsli tanımırıx. Mən səni deyirəm ki, sənin adın Nərgizdi, oğlanın da adı Mahmuddu. Ziyad xanın oğludu. O oğlana deyirəm mən, gedirsən, ya yox?

– İcazə buyur:

Al üstündən qaraları bağlıdu,
Sarvandı öz dilində doğrudu.
Adı Kərəm, Ziyad xanın oğludu,
Kərəm məni, mən Kərəmi söymüşəm.

Dedi:

– Qızım, Ziyad xanın bir dənə oğlu var, adı da Mahmuddur. Biz o oğlana, Mahmud deyirik, nəinki Kərəm.

İcazə ver:

Zimistan sovuşdu, bahar fəslidi,
Mənim göylüm yarı görmək qəsdidi.

---

[27] Ota – oda

Kərəm-Mirzə Mahmud, Nərgiz–Əslidi,
Kərəm məni, mən Kərəmi söymüşəm.

Söz tamam oldu, amma Qara Məlik bu camaatın içində çün nəzəri dövrü yoxdu. Donqul Məlik elə yandılar ki, üzdərinnən qapqərə kömür kimi oldular. Qızın da ki nəzəri var. Oğlandan bəlkə xəbər alıblar. Oğlanın da göylü var. Ağa, öz dilimiz, götürüblər şirrixürəndlik olundu. Gətiriblər bir kəllə qənd sındırdılar. Kəllə qəndin başını saxlardılar. Hər kəs sındırsaydi, ona bir-bir rusum verərdilər, ya bir qoşdan, ya bir töhfə verərdilər. O qəndin kəlləsin alardılar, verərdilər damada. Damad o idi ki, ərus gələndə atın üsdündə bu da damdan o qəndin kəlləsin atardi. Amma bular rəsmiydi. Qəndin kəlləsin verərdilər, bir Çoban Kərələri vardı, o Çoban Kərə saxlardı. Onnan sonra ona bir rüsum verərdilər, qəndin kəlləsini alardılar. O qəndin kəlləsini bu məclisdə sındırdılar, verdilər Əsli xanımın anası Məryəm xanım saxladı. Verə Çoban Kərəyə, qəzənin işi, yadından çıxdı qəndin kəlləsi qaldı yaxdanda.[28]

Bir neçə gün bu sözün üstündən getdi. Vəli, bularda ki ağanan ki, dovrəyə müxtəsər əyləşiblər, dururlar, gəlirlər ta Gəncənin şəhrinə. Bir neçə gün bu sözün üstündən keçir. Amma bir gün Kərəm dedi:

– Lələ.

– Bəli.

– Mənim belə ürəgim isdir, gedək bir Əsli xanımın didarına. Gedək bir Çarbağa.

Lələ dedi:

– Eybi yoxdu, gedək.

Bir qədər yeməli-işməli götürüblər, qoydular xurcuna. Atdandılar atın tərkinə, üz tutublar Səngivar kəndində Çarbağa sarı gəlirlər. Gəlib yetişiblər. Əsli xanım bilirdi bu gün Ziyad xan oğlu Kərəm gələcək. Amma elə zinyət verib ki, iki

---

[28] Yaxdan – taxtadan düzəldilmiş sandıq

göz istiyir tamaşa eliyə. Lələynən Kərəm varid oldular bağa. Əsli xanım gördü bular gəlir, peşvaz, peyandaz eliyib ağa, bular gəldilər geşdilər. Lələ, bəli bir otaxda, bir guşədə geçib əyləşib, yemək-içməgə məşğul. Kərəmnən Əsli xanım neçə kəniz varıdı dörələrində, bular bulara qəfə-qəlyan[29] gətirirlər. İndi bir yol gecədən bir neçə saət gedir. Bular o qədir şirin söbət danışırlar day Əslini, Kərəmi yuxu tutur. Çün Qara Məlikdən də qorxurlar. Əgər Qara Məlik bilə Kərəm bağdadı, öldürtdürər. Narahandçılıq olar, birdən olar gedər. Qəzanın işi, yuxu tutub, bir moqə Əsli xanım ayılır. Görür ə, gün təqribən iki-iki yarım adam boyu qalxıb yuxarı. Deyir, gərək saz-söznən oyadam mən bunu. Görək nə dillərinən Kərəmi yuxudan oyandırır, mən də ərz eliyim tamam eşidənlərin sağlığına:

Cibinə tökübdür badam,
Sehraqıba[30] düşsün qadam.
Axı daldalardan baxır adam,
Di dur get, Ziyad xan oğlu.

Ziyad xan oğlu ayılmır. Dübarə belə deyir:

Cibinə tökübdür kişmiş,
Şanı bizim bağa düşmiş.
Sən bir nadan, mən yetişmiş,
Di dur get, Ziyad xan oğlu.

Ağa, Ziyad xan oğlu genə ayılmır. Əsli xanım qorxur, əgər Qara Məlik bilsə, narahand eliyəcək buları. Nəqaratı belə deyir:

Obaşdandan xoruz banlar,
Xoruz banlar, Məlik anlar.
Məlik bilsə, tökər qanlar,
Di dur get, Ziyad xan oğlu.

Söz tamam oldu, amma oğlan bir gözün aşdı. Baxdı, gördü Əsli xanımdı, nazənin tellər o tərəf, bu tərəfdən tökülüb

---

[29] Qəfə-qəlyan – qəhvə-qəlyan, səhər yeməyi
[30] Sehraqıb -səgrəqib, rəqib itə bənzədilir

üzünə. Amma elə bil bulud altında ay çıxıbdı. Gözlər nərgizi-şəhla. Gördü oğlan gözünü açıb, dedi:

– Oğlan, dur ayaq üsdə. Gün iki adam boyu qalxıb yuxarı. Əgər Qara Məlik bilsə, bizi narahand elər.

Kərəm yerindən durub. İndi bir yol Lələ də o yan tərəfdə idi. Lələ də yuxudan ayıldı. Bəli, Kərəm Əsli xanımdan xudahafizlik eliyib:

– Mən gedirəm. İnşallah, filan həftədə gəlləm bağa.

Qovl-qanad qoyublar iki aşiqi-məşuq, iki söygülü. Ayrılırlar burdan bir-birindən. Ləleynən Kərəm atdarını minib ta gəlirlər Gəncənin şəhrinə. Ərz elədim ki, bular Gəncənin şəhrində qalsınlar. Amma o qəndin ki, kəlləsini vermişdilər Məryəm xanım saxlamışdı verə Çoban Kərəyə, birdən yadına düşdü:

– Ay oğlan, mən bu qəndin kəlləsini verməmişəm ki, Çoban Kərəyə”. Rəsmləri idi, bir qədər şirnidən, töhvə zaddardan bir qədər yığa-yığa bir xonça üsdünə bir pətu[31] çəkərdilər. Ağa, həmən götürüb qəndin kəlləsin bir dənə üsdünə pətu çəkib. Gətirib Çoban Kərənin mənzilinə. Çoban Kərə bəli, götürüb sərtuşu[32] o yana. Dedi:

– Xob, Allah mübarək eləsin. Kimin toyunun, kimin şirnisinin qəndinin kəlləsidi?

Məryəm xanım dedi:

– Gərək, bağışdıyasan. Neçə gün bunnan qabax biz qızım Nərgizi vermişik Ziyad xanın oğlu Mahmuda. Onun şirni, qəndinin kəlləsidi.

Belə diyəndə bu Çoban Kərə elə narahand oldu, az qaldı bağrı çatdıya. Çün nəzərinən keçərdi ki, Əsli xanımı verələr buna. Şirninin qəndinin kəlləsini qolunun uzunluğu qədər tulazdadı.

– Ay canım, nə iş görübsüz? Siz bu işi görübsüz. Sabah bizim ərmənilər içində, bizim için sərzənişdi, diyəcəklər bir iddəti

---

[31] Pətu -örtük

[32] Sərtuş -örtük

ərməni gedib, müsəlmanların ərz eliyim, içində qalıb. Gəncənin şəhrində qalıb. Bir muddət ora qalıblar, axırda bir dənə qızdarı varımış, onu da çürük daşı veriblər. Bu bizə sərzənişdi.

Ağa, bu söz Qara Məligə dağdan ağır gəldi. Qara Məlik əmr eliyib, 17 min el gecəlikcə gərək çıxaq gedək. Bilmiyələr də biz hayana getmişik. Əmr eliyib, tamam hammı gecəlikcə köçü çatırlar. Əsli xanım gördü, ay dadi-bidad, bular köçü çatacaxlar, gedəcəklər. Kərəm gələcək bağda day bunu görmüyəcək. Özü də bilmir hayana gedir. Narahand oldu. Amma bir qəri var idi, həmin Çarbağda olar. Əsli xanım gəldi, qərinin yanına:

– Qəri nənə, qurbanın kəsilim, mənim dərdimə bir əlac elə.

– Nəmənədi, qızım?

– Vallah, mənim atam bir söz eşidib, narahand olub. İsdiyir getsin, məni də aparır. Amma mənim bir məşuqum var, Kərəm adında. Çox nazənin oğlandı. Mən oni söymüşəm, o da məni. Atam əgər məni aparsa, özü də onun əlindən götürüb aparır elə. Deyir, mən vermirəm qızı bu oğlana. Atam məni aparsa, mənim göylüm onnan dönməz. Hər moqey ki, o cavan bura gəldi, sənnən bir xahişim var, qalasan bu bağda. Sən bizinən gəlmiyəsən. Bizim yolumuzu nişan verəsən, o, gələndə gələr bizim dalımızca.

Dedi:

– Qızım, heş narahand olma. Mən qallam, mənim xərcim var.

Əlin salıb cibinə. Bir qədər vəzndə yüngül, qiymətdə ağırdan verdi qəriyə.

Qəri dedi:

– Mən qallam bu cür. Mənim bir dəvəm var. Yalannan onun qıçın bağlaram, diyərəm dəvənin qıçı sınıb. O moqey Qara Məlik mənə diyə bilməz gəl. Mən diyərəm, mənim dəvəmin qıçı sınıb, mən heş yerə gedə bilmərəm.

– Başıya dolanım, qəri. Gör nə cür eliyəcəksən, mənə çarə qıl.

Gətirib, bəli, saf dəvənin qıçını bağladı. Qara Məlik də o yannan əmr edir, hammı köçün çalsın. Gəldilər dedilər:

– Vallah, bir qəri var. O gəlmir.

Gəldi:

– Tez ol, köçü çal.

– Mənim dəvəmin qıçı sınıb. Heş yerə getmirəm.

İndi bir yol, Əsli xanım götürüb qəriyə bu dillərinən sifariş edir ki, Kərəm gəlsə mənim dalımcax, de, gəlsin. Bu dillərinən sifarişin eliyir, mən ərz eliyim:

Qəri, əmanət eylərəm Kərəm gəlsə,
Həmən o diyara de, gəlsin.
Çün sözümü sənə bəyan eylərəm,
Gizdin dəyil, aşgarə de gəlsin.

"Mən onnan dönən deyiləm"- dübarə bi də deyir:

Misri qılıç qoldan alar savını,
Mərd igiddər satın alar davanı.
Kamıl ovçu yorar, tutar ovunı,
Göz döndərməz hər şikarə de, gəlsin.

Ağa, qəri baxdı gördü, bu qız elə nazlı söbət eliyir. Qəri çün hal bilən idi. Qəri da narahand olub. Baxdı gördü, yaman aşiq olub.

– Qızım, yinə sözün var?

– Bir kəlmə də sözüm var.

Hər gül uymaz Əsli xanın təhrinə,
Kərəm yandı bivəfa yar qəhrinə.
Deynən getdi "Xan balığı" şəhrinə,
Ordan gedər "Bal Buxara", de gəlsin.

"Mən də ona aşiqəm, başqa şikarə getməsin, mənim dalımcan gəlsin. Ölsəm ölmüşəm, qalsam onunkıyam." Bəli, naməni yazıb verdi qəriyə. Qəri dedi:

– Qızım, bax orda bir sərv ağacı var. Apar qoy o sərv ağacının dibində, üsdünə də bir neçə də daş qoy. Məlum oldu ki, sənin məşuqun gəldi bura, mən nişan verrəm, gedər özü naməni götürər.

Əsli xanım naməni qoyub sərv ağacının dibində. Üş-dörd dənə daş qoydu namənin üsdünə. İndi qəri ilə xüdahafizlik eliyib. Qara Məlik əmr eliyib, köş çapıldı. Hərəkət ediblər getməyə məşguldurlar. Ağa, bular getsinlər. Amma neçə günnən sora Kərəm genə Əsli xanım tərəfindən eşqindən gedə bilmir:

– Lələ.

– Bəli.

– Lələ, mən çoxdandı heş sərv ağacına getmirəm, Əsli xanımın didarına– Sərvan kəndində Əsli xanımın torpağına. Qoy mən burda beş-on kəlmə söbət eliyim.

Day bilmir Əsli xanım gedib, Lələ köçüb, yurdu qalıb viran, heş kəs yoxdu.

Şair deyir, əzizim yeri qalar,
Gün batıban, yeri qalar.
Qiyamət o gün qopar,
Oba gedər, yeri qalar.

Day Kərəm bilmir Əsli xanım köç eliyib, gedib. Lələynən ikisi başqa bir at miniblər şikar quşu götürüblər. İndi yavaş-yavaş qovzların salıblar həman torpağa. Varid oldular. Baxdı-baxdı gördü pəh, bu bağın elə bil nur əvəz olub, didar uçurub tökülüb. Varid oldular içəri, baxdı gördü belə güllər filan hammısı pozğun-pozğun gəlir.

– Lələ, elə biləsən bu bağ heş o bağ dəyil. Mənim nəzərimə bir ayrı cürə gəlir.

– Narahand olma. Bağdı da. Şaxda vurub, nə təhər olub bu güllər solublar.

Varid olublar. Ha gəzdi dolandi, Əsli xanımla bahəm danışmışdılar, gördü xeyli vaxdı işlək yoxdu. Lələ köçüb, yurdu

qalıb virana. Ah çəkib, gözlər doldu baharın buludu kimi yaşınan. Kərəm belə eliyib, gözlərinin yaşı əbri-bahar kimi tökülür.

Lələ dedi:

– Oğul, niyə ağlıyırsan, qurbanın kəsilim? Sənin atan Ziyad xan bəylərbəyidi. Hər kəsin qızını istəsən, sənin üçün alar.

Dedi:

– Ay Lələ, o cür mənim məşuqəm, söygülüm gedib. Bilmirəm də hayana gedib. İcazə ver, bir neçə kəlmə söz deyim.

Lələm, mən bu yerdə ağlaram,
Əsli yarım gəzən yerdi bu yerrər.
Qara Məlik əmr eliyib köçəndə,
Əlin məndən üzən yerdi bu yerrər.

Lələnin gözü yaşınan doldu.

Lələ çün bilirdi ayrılıx hamının başına gəlipdi. Kərəmin az qala bağrı çatdıya. danışdığı yerlər, gəzdigi yadına düşüb.

– Lələ, icazə ver də.

Bizim yerdə aşıx çəkər sazınan,
Sizin yerdə ördək gəzər qazınan.
Əsli xanım bölük-bölük qızınan,
Xumar gözün süzən yerdi bu yerrər.

Lələ dedi:

– Qurbanın kəsilim, ağlama. Sən Ziyad xan bəylərbəyinin oğlusan. Hər kəsin qızını istəsən, sənə alar.

Ərz eliyir:

Kilisədən çıxdı döşündə xaçı,
Alçaxca boyu var, topuxdan saçı.
Dəyər min tümənə üzündə maçı,
Xumar gözün süzən yerdi bu yerrər.

Ağa, söz tamam oldu. Kərəm ağlır, bağın ətrafını gəzir. O, Əsli xanımınan gəzdiyi yerrər, bağın ətrafını gəzirlər, dolanırlar. Amma Lələnin fikri-zikri Kərəmdədi. Baxdı gördü ki, oğlan çox narahanddı.

– Oğul, qurbanın kəsilim. Heş narahand olma, sənin atan Ziyad xan bəylərbəyidi. Hər kəsin qızını istəsən, sənin üçün alar.

Kərəm dedi:

– Sən Allah, ürəgimin bəndini qırma. Mənim məşuqəm əlimdən gedib.

Amma bağın ətrafını gəzir, dolanır. Ha, gəlir yetişir həmin qəriyə ki, Əsli xanım əmanət eləmişdi, namə vermişdi, Kərəm gəlsə, naməni verər Kərəmə. Kərəm gəldi qərinin yanına. Dedi:

– Lələ.

– Bəli.

– Sən Allah, gedək bu qəridən xəbər alaq, görək mənim məşuqəmi görüb, bilir hayana gediblər?

Gəldilər.

– Salam.

– Əleykümə salam.

– Ay qəri nənə, mənim bir məşuqəm var. Neçə muddət bunnan qabax ayə, onu görübsən, ya görməyibsən?

– Bəli, görmüşəm. Qara Məligin qızı Əsli xanımdı ki, neçə muddət bunnan qabax burdayıdılar. Amma getdilər. Amma gedəndə mənə bir əmanət verib, saxlamışam.

– Hardadı?

Dedi:

– Bax, o sərv ağacının dibində. Bir qədər namədi. Üsdünə neçə dənə daş özü qoyub.

Kərəm yetişib sərv ağacının dibindən daşdarı bir dənə, bir dənə görüb qoydu kənara. Əsli xanımın əlləri bu daşa dəyib.

– Ay Lələ, sən Allah mənim məşuqəm bu daşdarı qoyub namənin üsdünə.

Naməni çıxardıb, pakatın[33] başın açdı. Gözdər dolub baharın buludu kimi yaşınan.

---

[33] Pakat – məktub yerləşdirilən kağız zərf

– Nənə, icazə ver, neçə kəlmə sözüm var, ərz eliyim. Mənim məşuqəm əlimdən gedib, mənə çarə, əlac elə.

Başına döndügüm, ay qəri nənə,
Qəri nənə, mən də sənə yalvarır.
Mənim əlim hər tərəfdən üzülüb,
Baş götürüb, Yaradana yalvarır.

Qəri deyir:

– Ay məhəbbət!

Yağ kimi qəri idi. Qərinin gözdəri doldu baharın buludu kimi yaşınan. Çün cavannıxda eşq avarı görüb, bilir nə xəbərdi.

– Oğul, qurbanın kəsilim, nə xəbərdi? Eybi yoxdu, bu sözdərdən hammı görüb. Ayrısını taparsan.

– Ay qarı nənə, sən Allah icazə buyur.

Ala gözdəri, qarı nənə, qara qaşdari,
Hər tərəfdə on üç-on dörd saçlari.
Ətrin aldı bu fələgin daşdari,
Daşın qırıb, fələginə yalvarır.

Qəri baxdı gördü yaman vurulub oğlan. Əsli xanımın da ovqatını görmüşdü nə cürədi. Namə yazıb vermişdi qəriyə. Gördü bular yaman vurulublar bir-birlərinə.

– Oğlan, eybi yoxdu. Qara Məlik gedib.

Amma əlbəttə, Əsli xanım namədə yazıb ki, "Məlik gedir Xanbalığı şəhrinə. Əgər orda olmasa Bal Buxara gedərsən". Bu sözdəri də yazıb.

– Oğul, heç ağlıyıb ağızdarlıx eləmə. Sənin atan Ziyad xan bəylərbəyidi. Hər kəsin qızını istəsən sənin üçün alar.

Əlbəttə, sözünün əvvəl-axırında Kərəm belə deyir:

Əsli bilər əlbət halın Kərəmin,
Ölümcən gözdüyər yolun Kərəmin.
O şirin dilinən deyib kəlamın,
Əsli yarım, səlamına yalvarır.

Söz tamam oldu. Amma Lələ dedi:

– Oğul, burda ağlıyıb ahı-zarrıx heş yerə çatmaz. Dur ayaq üsdə düz gedək məmələkətimizə, öz şəhrimizə.

Ağa, atdarın miniblər, indi qəridən də "Allah saxlasın" eliyiblər, bir qədər də vəznidə yüngül, qiymətdə ağır da veriblər qəriyə. Çün qəri bulara rəhrimar olub. Kərəmin çox xoşu gəldi. Vəli, bağdan çıxmaği gəlmir, bağ çün gözünün qabağında elədi ki, elə bil bir xaraba yerdi.

– Ay Lələm, mənim məşuqəm gəzən yerrərdi bular.

Atdarın miniblər, özlərini verdilər Gəncənin şəhrinə. Əlbəttə, genə özünü vurub "bəy otağı"na. Xəbər verdilər Ziyad xana ki, oğlan gəlib, çox narahanddı.

– Xob, niyə naharanddı? İndiyə kimi narahandçılığı oydu ki, Qara Məlik qızı Əsli xanımı alaq beləsinə. Almışıx, tükənib. Bəs bu dəfə niyə narahanddı?

Xəbər verdilər ki, Qara Məlik təzəlikcə köçüb, çıxıb gedib. Kərəm də gedib oların yerrərini görüb. Baxıb görüb köçüblər, gediblər öz məşuqəsindən ötürü narahanddı.

Bəli, gəldi oğlunun yanına.

– Oğul, qurbanın kəsilim, heş narahand olma. Qara Məlik qızını götürüb gedib, eybi yoxdu. Mən onnan yaxçılarını sənə allam.

– Atacan, axı mənim məşuqəmdi, mənim söygülümdü. Əlacım yoxdu, gərək gedəm dalıycan.

Nə qədir deyib, oğlan az eşitdi. Dedi:

– Bir neçə kəlmə sözüm var, ərz eliyim.

Oğul, baban qurban boyuva,
Səvər olsan, səvmə Kərəm Əslini.
Xanı, bəyi gətirərəm toyuva,
Səvər olsan, səvmə Kərəm Əslini.

– İcazə ver, cavab verim.

Xan babam, mən Əslini söymüşəm,
Telləri sərində, tərlan əlində.

Gəzərkən bağ telində görmüşəm,
Telləri sərində, tərlan əlində.

Çün insan ki, hər bir şeyi sala xatirə, o zaman adamın yadına düşər ki, çün bağın telində gəzirdi, dolanırdı. O zaman şikar quşun salmışdı ki, kəkligin dalısıycax getmişdi bağa. Özü də bağın divarının üsdündən Əsli xanımı görmüşdü, o xatirətlər yadına düşür. Atası dedi:

– Oğul, dayan, bir kəlmə sözüm var. Axı, sən getsən dünya mənim nəyimə gərəkdi?

Atası Kərəmə bu sözdəri deyir:

Burda gəlib pərvəndəndə[34] dərc olub,
Xumarlanıb ala gözdər kəc olub.
Sən gedərkən mənim halım necə olur,
Səvər olsan, səvmə Kərəm Əslini.

– Ərməni qızı köçünü aparıb gedib. Sən onun dalısıycan narahand olma. Hər kəsin qızını istəsən, mən sənin üçün allam.

– Atacan, icazə buyur. Sən mənim sözümə qulaq as. Axı, mən çox narahand olmuşam.

Səhər-səhər dan yerinin badına,
Daş qalasan yanar mənim oduma.
Hərdən-hərdən Əsli düşər yadıma,
Telləri sərində, tərlan əlində.

Atası dedi:

Urva[35] gəli xərmənlərə düzülür,
Xumarlanır, ala gözlər süzülür.
Sən gedərsən balam, əlim səndən üzülür,
Səvər olsan, səvmə Kərəm Əslini.

– Axı baba, icazə ver, sözümün əvvəl-axırını belə deyim:

Ağalar, kimə edim dadımı,
Kimə deyim, kimlər çəksin odumu?

---

[34] Pərvəndə-qovluq
[35] Urva-taxıl, un

Ağacan, Mahmududum, Kərəm qoydu adımı,
Telləri sərində, tərlan əlində.

Söz tamam oldu. Atası nə qədər yalvarır, nə qədər xahiş-təmənna eliyir, amma gördü xeyr, əlacı yoxdu. Bu oğlan gedəcək. Lələ də bir tərəfdə əyləşib narahand. Kərəmin dustları, aşinaları, rəfiqləri eşidirlər Kərəm isdiyir ki, Gəncəni tərk eləsin, düşsün Əsli xanımın dalısıycan. Bular hammısı yığılırlar, məzəmmət eliyirlər. Amma Kərəm baxmıyıb, durdu əyaq üsdə. Sazın götürüb qoydu köynəginə. İsdiyir ki, bulardan xüdafizlik eləsin. Tamam dustları, aşinaları yığışır gəlir. Ziyad xan bəylərbəyinin oğludu. Hammı tanır beləsini, isdir getsin. İndi bir yol o zaman müsafirçilik belə dəyildi. O zaman üzü əminamannıx idi bu məmləkətdə. Ha, o uca dağların damənində elə adamlar var idi ki, baş kəsərdilər, adam öldürərdilər. Bir nəfər getsəydi müsafirətə təhlükəsi çoxudu.

– Ağa, sən getmə bu qızın dalısıycan. Gedərsən, çəpərə düşərsən.

Amma Kərəm baxdı yox, götürsün görək nə deyir, ərz eliyim, tamam eşidənlərin hammısının sağlığına:

Yeni bir sovda var dustlar, gəlib başıma,
Gəlin halallaşax, mən gedər oldum.
Gələm, ya gəlmiyəm taparam sizi,
Gəlin halallaşax, mən gedər oldum.

Belə diyəndə o yannan gəlirlər.

– Ağa, gəl getməginən.

Amma Lələ deyir:

– Gündə bir danış mərakəti qurma. Əvvəl gedirsən get, getmirsən bir yol fikrindən çıxart, gəl əyləş.

Kərəm dedi, qulaq as:

Bu imiş fələgin etdigi işdər,
Gözünnən tökülür qarınan yaşdar.

Duz-çörək yedigim qohum-qardaşdar,
Gəlin halallaşax, mən gedər oldum.

Ağa, amma Kərəm bu sözdərdən deyir. Əlbəttə, anası, iki bacısı var idi, bular da narahanddılar. Hər gün gəlirlər, yalvarırlar ki, getmə bu qızın dalısıycan. Sən getsən, biz narahand ollux.

Kərəm hazırlaşır getməgə. Sazını da götürüb gəlir ana-bacısının yanına:

– Ana.

– Bala, nəyüçün gəlibsən bura?

Dedi:

– Ana, neçə kəlmə sözüm var. İsdiyirəm eşidəsiz.

Qəmərbanu Kərəmin bacısı idi, Qəmzəbanu da birisi idi. Onlar yanında oturdu. Qəmzəbanu o yandan oturdu. Amma anası da kı yalvarır:

– Oğul, gəl getmə.

İndi bir yol götürsün ana-bacısına görək necə "Allah saxlasın" eliyir, mən də ərz eliyim:

Mən gedirəm, ana, sizi Allah saxlasın,
Xüdam bilər, hər yigidin işini.
Mən gedərəm, sizə qalan dəyiləm,
Hər kəsən saxlasın başlı-başını.

– Qardaş, gəl getmə.

Amma Kərəm qəbul eləmiyib, dübarə söyləyib:

Qəmərbanu qoy yanında otursun,
Qəmzəbanu əlin genə götürsün.
Bacılarım yetim-yetim ağlasın,
Beçarə Kərəmin tərlan düşünür.

Ağlıya-ağlıya yalvarırlar.

– Gəl, bala, qayıt bu yoldan, getmə. Sən gedərsən biz narahand ollux.

Kərəmin Əsli xanım yadına düşür:

– İcazə buyur, bir kəlmə də sözüm var.

Ana-bacılarım həqqi yetəndə
Göylüm düşüb pərvaz eylər vətəndə.
Baci gəlib qəbrim üsdün örtəndə
Əsli qoysun məzarımın daşını.

Məni ki, dəfn eləsələr, Kərəm tapşırır, mənim o məzarımın daşını Əsli xanım qoysun.

Dedilər, xeyr, gedərgidi. Qalmıyacaq, bu sözdəri deyir.

İndi bir yol Kərəm ana-bacısını görüb, ananın əllərini duz kimi yaladı. İki oğul-ana bir-birləriynən qucaxlaşdılar ki, ruhi-canın gözü belə səhnəyə heyran qalır. Anasın, bacısın görüb xüdafizlik elədi. İsdiyir getsin.

– Axı, gedərsən qürbət məmləkətdi. Özü də bir dənə ərməni qızının dalıycax getmək. Atan Ziyad xan bəylərbəyidi.

Nə qədir eliyiblər, oğlan az eşidib. İndi bir yol camahat yığışıblar. Kərəm bu sözdəri deyir:

Ay ağalar, Əsli yarın dərdindən,
Tamam dağlar eşidəcək ünümü.
Bir ilahi özün kərəm eyləsən,
Vətən sarı qaytarginən yönümü.

Amma bular belə məzəmmət eliyirlər, dübarə sözün Kərəm belə deyir:

Anam yoxdu, başım aça bağlıya,
Bacım yoxdu, qardaş deyib ağlıya.
Kimsəm yoxdu, kəsə yanım ağlıya,
Əsli xanım boş qoymasın yanımı.

Bular gördülər, xeyr, bu oğlan qalmıyacax gedəcək. Tamam rəfiqlərinən, dustlarınan, hammısınnan görüşüb. Ziyad xan bəylərbəyinin oğludur, bunu isdiyənlərin hammısı gəliblər, Kərəmi yola salalar. Ziyad xan da özü öz əliynən buları yola salır. Getməkdə məşguldurlar. Lələynən ki atdarı minib-

lər, Gəncədən çıxdılar. Ağa, indi gedirlər Əsli xanımın dalıycax. Vəli, bir qədər yol gəldilər. Dedi:

– Lələ.

– Bəli.

– Sən Allah, mənim ürəgim isdiyir belə özümüzü verək o Çarbağa. Bir əməlli baxax, onnan sonra.

– Gedən gedib, day heş kəs yoxdu orda.

Dedi:

– Axı, mənim ürəgimdə bir neçə kəlmə söz var. İsdiyirəm ki, gedəm o bağa da.

Ağa, baxdı gördü oğlanın qəlbini sındırmax yaxçı dəyil. Özdərini veriblər həmən Çarbağa sarı. Varid oldular, bəli, küldən ağac olub. İndi burda Kərəm ağlıya-ağlıya bu dillərinən söhbət eliyir:

Getdim gördüm köç eyliyib yurdundan,
Köçən yurd, sənə qurban olduğum.
Pozğun gördüm baxçasını-bağını,
Solğun güllərinə qurban olduğum.

Əlbəttə, Lələ dedi:

– Oğul, bu bağda bir kəs yoxdur, Əsli də ki köçüb gedib, burda ağlayıb ahi-zarlıq heç yerə çatmaz. Atlarımızı minək. Özümüzü bir yana yetirək, gün batıb. Bevaxta qalmışıq.

– Ay Lələ, icazə buyur, bir kəlmə də sözüm var, ərz eləyim gedək.

Naşı ovçu ucalarda ün eylər,
Naşı təbib bir dədimi min eylər.
Bülbül ötür, boş qalıbdır güneylər,
Solğun güllərinə qurban olduğum.

– Amma giley eliyəndə deyirsən ağlama. Mən gərək sabaha kimin burda ağlıyam. Çün mənim məşuqəm, söygülüm əlimdən gedib.

Lələ təskinlik verib. İndi yavaş-yavaş bağdan çıxırlar. Kərəm bir gedir, bir dönüb dala baxır. Bağın o tərəf-bu tərəfində ginə baxır.

Qara Məlik Əslini aparıb bu yerdən, yoxdu. İndi bir yol yollarına idamə veriblər. Yavaş-yavaş gəlməgə məşgul. Bir dənə yol gəliblər. Yetişiblər Ərzurumun dağlarına. Ərzurumun dağı bir müfəssəl dağıdı. Amma dağın ətəgində Kərəm gördü bir zarıltı gəlir. Bir ağlamax səsi gəlir. Dedi:

– Lələ.

– Can bala, nə deyirsən, oğul?

Dedi:

– Burdan bir zarıltı gəlir. İngilti gəlir. Nəmənədi?

Təpə sarı getdilər. Kərəm varid olub, gördü bəli, bir dənə ahudu, ovdu. Şikarçı vurub, ya ovçu vurub, oxunnan qışdarını qırıb. Heyvan qalıb burda zarıldır, ağlır, narahandçılıq elir.

– Lələ.

– Bəli.

Dedi:

– Lələ, bu şikarçı nə biinsafımış. Ay ovçu, sən bu heyvanın niyə bu gündə qışdarın qırıbsan? Amma məlumdu ki, döşdərində süd var. Lələ, bunun balası da varımış. Nigaran qalıb balaları. Mən gərək beş-on kəlmə burda oxuyam, söhbət eliyəm.

Dedi:

– Oğul, nəmənə oxuyacaxsan?

Dedi, ərz eliyərəm, qulaq as. “Ceyranı Kərəmi” ilə belə deyir:

Güllə dəyib, Lələ, bu ceyranın özünə,
Amma qan tökülüb ayağının mizinə.
Gözü bənzər Əsli yarın gözünə,
Əsli yarım ceyrandı, bu ceyrandı.
Ya bu dağda bir maral ağlar, necə ingildər.

Çün ceyranın ayaxları yay oxundan qırılıb. Balalarından ötür qalıb. Amma Kərəmin dərdi tüğyan eliyib. O birisin belə deyir:

Güllə dəyib bu ceyrana, Lələ, haldan salıbdı,
Dörd bir yanın qara qanlar alıbdı.
Balaların əlin üstündən dağıldı,
Bu dağda bir ceyran ağlar, necə ingildər.

Amma əlbəttə, neçə kəlmə burda xidmət eliyir.

Ovçu olan ova tüfəng atmasın,
Qəssab olan maral əti satmasın.
Ovçu, sənin balaların artmasın,
Bu bağda bir maral ağlar, necə ingildər.

Söz tamam olub. Amma Lələ dedi:

– Oğul, sən hər cür, hər qovl, hər cür dərrəndə[36], pərəndə[37] görsən bu cür söbət eləsən, bizim sabahımız harda açılacaq? Qoy gedək işimizin dalıycax. Burada bir dənə çöl ceyranı idi, eybi yoxdu.

Ağa, bular yolların idamə versinlər gəlməgə məşğul. Bir qədər yol gəlirlər Ərzurumun dağından gəlməgə məşguldular. Ta yetişirlər, Ərzurumun gədigində bir tərəfdə bir kənd var. Adına Qarameşə diyəllər. O Qarameşənin əlbəttə, yanından güzaranı düşür. Nə vaxtdı gün batıb. Gün batıb, əlbəttə, yetişiblər Qarameşənin kəndinin yaxınnığına. Bəli, amma varid olublar, Qarameşənin kəndində nə vaxtdi təğribən iftar muğəsidi[38]. Bular hər qapıya atdarın sürdülər, hər qapıdan icazə istədilər ki, keçələr içəri, icazə verən olmadı. Mənzil verən bulara olmadı. Çün bu Ziyad xan bəylərbəyinin oğludur. Gündə əlli dənə atdı buların evlərinə qonaq gəlir, gedir. Ona görə bu qəbildən çox narahand oldu. Ah-nahadından çəkib:

[36] Dərrəndə–yırtıcı heyvan
[37] Pərəndə–quş
[38] İftar muğəsidi–iftar zamanıdı

– Bura bax, biz iki nəfər adam, bu kətdə bizə yer verən olmadı.

Ağa, bulara tay hər tərəfdən çara kəsilib. Çün olmadı, kətdən çıxıblar. Ərzurumun dağının döşündə məşgul oldular dayanmağa. Atın başın çəkib saxladılar. Dedi:

– Lələ.

– Bəli.

– Lələ, mənim qəlbim narahand oldu. Bu kətdə bizə mənzil verən olmadı. Mən isdirəm bu kəndə bir qarğış eliyəm.

Dedi:

– Oğul, işin qurtarmaz. Qarğışdı ki, başda olar. Sən qarğış eləsən, məni sözün yerə düşməz, qarğışın tutar. Həm buları tutar, həm bizi tutar. Eybi yoxdu, mənzildi vermiyiblər, narahand olma.

Nə qədir Lələ məzəmmət eliyib, amma Kərəm az eşidib. İndi bir yol, Kərəm sazı köynəgindən çıxardıb belə deyir:

Xarab qalmış Ərzurumun dağları,
Bir yol aşıb gedir sənin belinnən.
Ağzım açım sənə qarğış eliyim,
Qəbul olsun hər nə çıxsa dilimnən.

Lələ əl atıb yapışdı Kərəmin ətəgindən:

– Oğul, qurbanın kəsilim, narahand olma, sözçülükdü.

Söhbət həmən yerdədi. Kərəm Qarameşəyə qarğış eliyir:

Suyu yoxdu, dərin-dərin quyular,
Meşəsinnən ayrı düşmüş ayılar.
Gönlün tutsun Osmanlılar, yağılar,
Heş qəflə də işləməsin yolunnan.

Lələ genə buna xahiş-təmənna eliyir.

– Oğlan, sən bu sözdəri demə. İkibaşdı olar. Həm biz girifdar olarıx, kənduxdar.

Amma Kərəmin qəlbi çox narahand olub, oydu ki, dübarə sözlər belə desin:

Qarameşə heş tütünün tütməsin,
Bülbüllərin cəh-cəh vurub ötməsin.
İgiddərin sənin kama yetməsin,
Əli Zülfüqara dəysin belinnən.

Qara daşlarıvı daş kəsən kəssin,
Ağır ellərivi Osmannı bassın.
Bulutdar oynasın, ildirim çaxsın,
Qarameşə, qarqa getsin telinnən.

Bəli, söz tamam oldu. Bulud oynadı, ildirim çaxdı. Bir tala bulut gəlib elə tez, elə bir şad düşdü ki, Qarameşə bağınnan, baxçasınnan tel götürüb apardı. Diyəllər, o moqedən Qarameşə abadçılıx götürməz. Qarameşə abad olub, genə xarab olub.

Lələ dedi:

– Oğul, xob, day burda da bir pünhan yeri qalmadı. Atdarımızı minək, yollarımıza idamə verək.

Bəli, atdarı miniblər Lələ və Kərəm. Üz tutublar Ərzurumun dağınnan getməgə məşgul olsunlar. Bular yollarını gəlsinlər, amma gedək görək bəs Qara Məlik hayanda qaldı? Əsli xanım nə cür oldu, hayana getdilər? İndi bir yol eşit xəbəri kimdən, Qara Məlikdən. Məlum qəflə-qatırnan bu yana gedərdilər, o yana gedərdilər. Amma çün yollarında qəflə-filan yoxudu. Mərdum ağımış, belə dəyilmiş ki, təzdən yollarda çoxlu əşayılar varımış. Soyarmışdar, baş kəsərmişdər, ona görə mərdum yığışarmışdar birdən əlli-altmış nəfər bir yerə. Onnan sora gedərmişdər. Söbətə tuğl verək. Məşgul olub Qara Məlik və Əsli xanım neçə el ki, buların yanına gedirlər. Sursand yığarmışdar kətdərdən. Mərəkdən ərz eliyim. Gətirərmişdər, çadırlarda yiyərmişdər. Amma bir kəndə varid olublar. Qara Məlik gedib sursand yığmağa. Əsli xanım və anası, qalan el-oba da ki burdadılar. Əsli xanım baxdı gördü, bu kəndin kənarında bir yoldur. Yolun kənarında bir qoca qəri, bir adam. Öz dilimiz, işi qabıx toxuyur, palaz toxuyur. Yetişib salam ərz eliyir.

– Salam.

– Ələykümə salam.

Belə baxdı qəri, baxdı gördü bu qız çox gözəldi. Çox mədəh, çox ziba bir qızdı. Bildi ki, bunun dərdi var.

– Qızım.

– Bəli.

– Sözün nəmənədi?

Dedi:

– Qəri nənə, mən baxıram sən dünya bilər qarısan. Və özün də mehriban adama oxşuyursan. Axı, mənim bir məşuqum var, söygülüm var. Bu atamız görürsən məni elbəel, diyarbadiyar götürüb öz məşuqumun əlindən aparır.

Ah-nahadından çəkdi qəri. Dedi:

– Qızım, sözün nəmənədi? De, məndən utanma.

– Mənim bu atamı görürsən? Bu atam keşiş Qara Məlik məni öz məşuqumdan, öz söygülümdən ayrı salıb. Diyarbadiyar, elbəel götürüb məni aparır. Amma mənim məşuqumdan əlim çıxıbdı, üzülübdü. İndi bir yol sən bu yolun kənarında iş toxursan, palaz toxursan, burdasan. Burdasan, mənim bir moqe məşuqum bura gəlsə, sən diyəsən ki, bəli, Qara Məlik getdi bu yana sarı ki, hərdən yol nişan verəsən. Və bir də bir dənə dəsmalım, yadigarrıx dəsmal var, onu ona verərsən.

Başına qoyub qəri dəsmalı. Əsli dedi:

– Kim bu dəsmala sahib çıxdı, bil o mənim məşuqumdu, söygülümdü.

Olar namizəd olanda buları Ziyad xan bir cüt almışıdı ki, biri Kərəmdə olardı, biri də Əslidə olardı. Həmən o dəsmalı verir qəriyə. Vəzndə yüngül, qiymətdə ağırdan verib qəriyə. Qəri məşquldu burda iş toxumağa.

İndi Qara Məlik ayə, ya tez gəldi, ya gec gəldi. Bular qəflə-qatırı çapıbdılar getdilər. Amma bu qarı qalıb yolun üsdündə. Bəli, eşit xəbəri kimdən? Kərəmdən və Lələdən. İndi

bular da guya bir mənzil xini-mənazil gəlirlər, yetişirlər həmin iş atmışdı yolun üsdündə toxuyurdu, varid oldular. Qərinin yanından keçdilər. Kərəm bir baxdı, baxdı gördü bir qəri əyləşib. Amma Əsli xanımın dəsmalı, yaylığı bu qərinin başındadı. Ahnahadından çəkib, ay dadi-bidad, mənim söygülüm bu kətdə. Qara Məlik gətirib verib ərə. Bu odu ki, qərinin başındadı bu dəsmal. Yoxsa bu dəsmal qərinin başında neyniyir?

Qolun qoyub çiyninə, qəriyə tamaşa eliyir. Qəri belə baxdı. Baxdı gördü bir cavan oğlan. Çox liyaqətdi bir cavandı. Amma bura tamaşa eliyir.

– Cavan.

– Bəli.

– Sözün nəmənədi? Niyə dayanıbsan orda?

Dedi:

– Ay qəri nənə, sinəmə beş-on kəlmə söz gəlib. İsdirəm ərz eliyim. O yaylıx ki, o dəsmal ki sənin başında var, mənim gözümə aşina gəlir. Qoy o dəsmalı, o yaylığı öz dilimnən tərif eliyim.

Sazı köynəgindən çıxardıb, kök eliyib. İndi bu dəsmalı nə dillərinən tərif eliyir, mən də ərz eliyim:

Öz canımdan çox isdərəm,
Yaylıx səni, yaylıx səni.
Səni sinəmdə bəslərəm,
Yaylıx səni, yaylıx səni.

Əlbəttə, qəri dərd bilən qəridi. Gördü bu oğlan yaman aşiq olub. Yadına düşdü ki, bu dəsmal o qızın işidi. Qəri deyir:

– Oğul, sən ki bu cür oxursan, maşallah, bu cür səsin var, avazın var. Özün bu cür liyaqətdi cavansan. O, bir ərməni qızı, getmə onun dalıycax.

Kərəm dübarə sözdə belə deyir:

Bağçalarda, taxçalarda,
Xan Əsliynən bağçalarda,

Soldureydi muxçalarda,
Yaylıx səni, yaylıx səni.

Qəri gördü bu oğlanın liyaqət, gözəllik bir tərəfə, ləhcə bir tərəfə.

Dübarə sözü belə deyir:

O dağlarda, bu dağlarda,
Gözüm qaldı bu bağlarda.
Soldureydim butaxlarda,
Yaylıx səni, yaylıx səni.

Söz tamam oldu. Amma qəri bir qədər tamaşa eliyib oğlana. Yerindən durdu, bir balaca vəzin əvəz eliyib. Vəzin əvəz eləmək sözün Kərəm anladı. Bildi bəli, bu qərinin xiyalından belə geçir ki, ha bu oğlan qala bunun yanında. Dedi:

– Oğlan.

– Bəli.

– Oğlan, sən səhv iş görübsən.

– Niyə?

– Sən düşübsən bir dənə erməni qızının dalıycax. Bu dağdan, o dağdan, o oylaxdan, o kətdən, axı sən ki məni görürsən. Mənim varım, dərayətim, malım əndazədən çıxıb. Elə mənnən izdivac eliyək burda. Özgə yerə getmiyəsən, qalasan burda.

Ağa, qəri nənə söbət eliyəndə Kərəmin ah-nahadından çəkilir:

– Ay qəri nənə, mən ilqar vermişəm. Mən məşuqəmnən əhdi-peyman bağlamışam. Ya gərək gedəm qurbət məmləkətdə düşəm öləm, ya məşuqəmi tapam. Qəri nənə, dayan bir neçə kəlmə söz gəldi sinəmə, deyim.

Başına döndügüm, ay qəri nənə,
Mən gedirəm Əsli yarım dalıycax.
İgidlərdə təsib çəkmək man olmaz,
Əhli-təslib o da qədri tayıncax.

Qəri dedi:

– Oğul, cavan, mən ki, səni belə görürəm. Sən heyifsən o qızın dalıycan gedəsən. Amma mənim malım, gəncim, dərayətim əndazədən çıxıb.

Odu ki, Kərəm sözü dübarə belə deyir:

Nəhlət[39] gəlsin, bu dünyanın gəncinə,
Bir söz diyim, sən də məndən incimə.
Buyur gedək xərabələr küncünə,
Mən fəqirin göz tikən var dalınca.

O ku dedi, gedək xərabələr küncünə. Qərinin xiyalı döndü.

Kərəm dübarə belə deyir:

Qəri nənə, bənzər başi tütündü,
Bu dünyada kimin bağri bütündü.
Mərd əhlini əfv eləmək çətindi,
Bəd əsildə bir xuy olar ölüncə.

Kərəm burda bir neçə kəlmə söhbət elir. Gördü ki xeyr, bu qəriynən başa gətirə bilməyəcək. Bu qəri, məlum olan, bunun yaxasından əl çəkməyəcək. Əl atıb dəsmalı qərinin başından götürüb yollandı.

Söhbətimiz həmən sərmənzili-məvadədir ki, Lələynən ikisi də düşüblər yola, getməgə məşğuldular. Bir müddət yol gəlirlər. Ta gəlirlər, yetişirlər, kənardan baxır bir uca, başı dumanlı bir dağ nümayan oldu buların qabağında. Amma çox bir bərk dağa oxşur bu dağ. Bu dağın misli heş yerdə yoxdu, Allahlıqdı. Çün o dağda Kərəm çox bəlalar çəkib. Nəzərinə, qəlbinə bir vəhşət düşür. Lələ də vahimədə, Lələ də qorxur. Lələ dedi:

– Oğul, mən görürəm bu dağ çox bir bərk dağa oxşur. Mənnən eşitsən, burdan qayidək.

Dedi:

– İcazə buyur, mən hələ öz məşuqəmi görüm kimlərdən soruşuram ki, aya mənə diyən var ki, mənim məşuqəm hayana gedib, ya diyən yoxdu.

---

[39] Nəhlət-lənət

Varid olub. Bir dağdı ki, yolun üstündən gedirdi, baxdı gördü gül-çiçək o tərəf, bu tərəfdən yolu örtüb. Amma bir cura güllər var, sarı güldülər. Bulardan da isdir soruşsun, ayə, Əsli bu yolunan gedib, ya yox? Bu dillərinən soruşur, ərz eliyim:

Başına döndügüm gədmə[40] kolları,
Örtübsüz başıza sarı şalları.
Nişan verin Əslim gedən yolları,
Mənim Əslim bu diyarə gəldimi?

Bəli, amma o zaman Kərəm bu gədmə kollarına bu söbəti elədi. Xub, ələf-otdu da, gül-çiçəkdi da. Dil olmadı, cavab olmadı. Lələ dedi:

– Oğul, bala-bala əli əldən verirsən. Axı odu ki, diyax kin heş kim, bi yol ot-ələf adamınan danışa.

Dedi:

– Lələ, mən baxıram bu bulaxlar ki, burda axırlar, təbiətin gücünnən, Xüdavəndin hökmünnən bu cür bulaxlar qaynıyır, qiblə tərəfinə axır. Mən bu bulaxlardan soruşaceyəm.

Amma bulaxlardan soruşur. Əlbəttə, bu havanın adına “Meşgini” diyəllər:

Yatmış idim, köç eyliyib oyaxlar,
Eşitmiyib, kar olubdu qulaxlar.
Qiblə tərəfinə axan bulaxlar,
Mənim Əslim bu diyarə gəldimi?

Ayə, bu ginə narahand olub.

– Oğul sən ki, bulardan soruşursan, bularda cavab-dil olmaz.

Dedi:

– Lələ, bu qayalar ki, görürəm uca yerdədi. Bular görərlər mənim Əslim hardadı, icazə buyur, olardan soruşum.

Qatara düzülüb nərlər, mayalar,
Yanıncax[41] düzülüb, qullar, sayalar.

---

[40] Gədmə-sarı gülləri olan kol

Bir-birinə söykək verən qayalar,
Mənim Əslim bu diyarə gəldimi?

Söz tamam oldu. Əlbəttə, Ləlɘsi məzəmmət eliyir:

– Oğul, qayadan, divardan, bulaxdan sənə cavab çıxmaz. Götür yolumuza idamə verək.

Ağa, indi bular yollarına idamə veriblər. Bir qədər yol gəliblər, bir çobana rast gəldilər. Gördülər bəli, bir çoban bir bölük davarı verib bir arxaşda yayır. Özü də bir uca dağın başında əyləşib. Kərəm dedi:

– Lələ, bax bu, dağlardadı, yollardadı. Mən bu çobandan soruşum görüm ayə, mənim məşuqəmi görüb, ya yox?

Səsləndi:

– Çoban qardaş, bir bura gəl.

Çoban gəldi.

– Yorulmayasan, səlamət olasan. Bərəkətdi olsun, çoban qardaş, mənim neçə kəlmə sözüm var, isdirəm bir balaca sazım var, o sazınan sənə söhbət eliyim.

– Xub, elə görək, Allah xeyir versin.

Sazı köynəgindən çıxardıb, zilin, bəmin kök eliyib, görək indi nə dillərinən çobandan xəbər alır. "Qaraçı qaytarması"ynan:

Dolanım başıya, ay çoban qardaş,
Çoban, mənim Xan Əslimi gördünmü?
Ağlaram, gözümdən gələr qanlı yaş,
Çoban, mənim Xan Əslimi gördünmü?

Dedi:

– Nə danışırsan, oğlan? Əsli nədi, Kərəm nədi? Nə sözdü?

Lələ dedi:

– Oğul, gəl gedək. Bu bir zad halı dəyil.

Dedi:

– Yox, mən xəbər alam, ta görəm bu mənim məşuqəmi görüb, ya yox?

[41] Yanıncax– yanınca

Çoban qardaş, qoyun-quzu qarışar,
Bir ah çəksəm, qarlı dağlar alışar.
Sövgü sövgüsündən haçan barışar,
Çoban, mənim Xan Əslimi gördünmü?

Çobanın bir təkəsi varıdı, yəni ərkək çəpişi. Dedi, sən ölmiyəsən, bular çodardı, naşı çodardılar. Gətirim bu təkəni satım bulara. Yetişdi, yapışdı təkənin bir buynuzundan kəşan-kəşan[42] gətirib:

– Əsli bunu deyirsən?

Kərəm əlini çalıb əlinə, qəhqəhə çəkdi, güldü. Dedi:

–Ay çoban, gətirmiyəndə gətirməz. Mən bunnan Əsli soruşuram, bu mənə təkələr nişan deyir.

– Dayan, sözümün əvvəl-axırına qulaq as.

Xəritədən[43] çıxıb, döşündə xaçi,
Alçaqca boyu var, topuxdan saçi.
Dəyər min tümənə üzündə maçi,
Çoban, mənim Xan Əslimi gördünmü?

Çoban dedi:

– Bir ay bunnan qabax burdan bir el geşdi. Hətmən olarmışdar.

Ağa, çobandan sorax tutublar, indi yollarına idamə veribLər. Getməgə məşgul olsunlar. Bala-bala yollarına gedirlər, bəli, çobandan xudafizlik eliyib. Ərzurumun dağları neçə dənə dağdı ki, bir-birinin yanında qatarlanıb. Əsli Ərzurum dağına varid olublar. Çün Lələnin dəhşət düşüb qəlbinə. Çün o dağda Lələ beyindən gedəcək, ona görə ürəgi təlatümə düşüb. Dedi:

– Ay balam, gəl burdan qəyidək. Oğul, əlacı, mümkünü yoxdu bu dağı gedək ha. Mənnən eşitsən burdan qəyidək.

Dedi:

---

[42] Kəşan-kəşan - çəkə-çəkə
[43] Xəritədən-məktub, yazı və s. qoyulan kiçik kisə

– Yox, mən gərək məşuqəmi görəm. Ya gedəm düşəm öləm, ya söygülümü tapam.

Ağa, bular ki varid oldular dağın ətəginə. Bala-bala gördülər qar gəlir. Lələ genə buna yalvardı:

– Oğul, gəl qəyidək.

Oğlan qəbul eləmədi. Qabax düşüb gecəyə. Getdikcə qar çoxaldı. Getdikcə çoxaldı, duman çökdü, boran oldu. Bular yollarını itirdilər, azdılar. Bir qismət ki, bular yollarını gəliblər, qar çoxaldı. Yollarını azdılar, düşdülər birahı yerə, Lələ dedi:

– Oğul, gördün? Mən sənə dedim, gəl qəyidək, sən qəyitmədin. Amma bir yol mənə day məlum oldu ki, ikimiz də burda ölməliyik.

Dedi:

– İnşallah, heş zad olmaz.

Bular bir qədir gediblər. Day atdar qardan çıxa bilmədi, atdarı çəkdilər dərənin dibinə. Özdəri piyada düşdülər yola. Bir qədir getdilər. Lələ qoca kişidi, yoruldu. Kərəm gördü ki, Lələ ayax saldı.

– Lələ, niyə gəlmirsən?

Dedi:

– Balam, mən gələ bilmirəm. Day dizim taqətdən düşdü. Soyuğ əl-ayağımı aldı, yeriyə bilmirəm.

Kərəm bir qədər yapışıb Lələnin əlindən. Bir qədər əlinnən yapışıb o cür gətdi. Gördü xeyir, day ayax dalıca gəlmir. Aldı dalına. Bir qədər dalında gətirib. Gördü xeyir, özü də yorulub, Lələni qoydu yerə. Gördü Lələnin gözdəri axır. Amma Lələnin dərdi Kərəmin derdi qarışdı bir-birinə. Dünya gözündə tirü tar oldu. Çün bir ömrü bu Lələynən zindəganlıx etmişdi, yanında atasınnan, anasınnan. Lələni çox isdiyir.

– Lələ.

Gördü xeyir, cavab yoxdu.

– Lələ, mənnən bir danış.

Gördü xeyir, cavab yoxdu. Əl atıb, sazı köynəgindən çıxardır. Bir dəstgah Ləlәyə nə dillərinən ürək verir. Mən ərz eliyim, bütün dostların sağlığına. "Yorğun Kərəmi" ilə oxuyacam:

Gətirib məni bu dağları gəzdirdin,
Ağa Lələ, mirzə Lələ, xan Lələ.
Danışdırdım, danışığı azdırdın,
Danış Lələ, dillən Lələ, din, Lələ.

Gördü xeyir, Lələdən cavab yoxdu. Gözlər axır. Dübarə belə deyir:

Bu görükən Ərzurumun dağıdı,
Şəmdə yanan ürəgimin yağıdı.
Ləkə vurar, bu buludu dağıdır,
İndi doğar üsdümüzə gün, Lələ.

Sözü tamam oldu. İndi bir yol Lələ dünyadan gedir, Kərəmin əlli dərdi qarışdı bir-birinə. Qar bu yannan əriyib. Nə qədər genişlədikcə dumandı, qardı, borandı. Lələni dəfn eliyib, qarı verdi üsdünə. Bir nişan qoydu ki, bir moqe əgər yolu düşsə tapa, Ərzuruma apara, bunu dəfn eliyə. O tərəfdən Lələnin ölümü, o bir tərəfdən boran, qar. O tərəfdən məşuqəsi yadına düşüb, el-tayfa yadına düşüb. Amma Lələnin ölməgi hammısından betər əsər eligib[44]. Bu dillərinən söbət eliyir:

Yeri-yeri çərxi fələk,
Camalım sənə iş oldu.
Öldürdün mənim Lələmi,
Ağlatdın, göylün xoş oldu?

Sonam buradan yeridi,
Zülfü gərdənin bürüdü.
Əzəl ki, dərdim biridi,
Lələm öldü, dərd beş oldu.

---

[44] Əsər eligib- təsir edib

Əlbəttə, indi bir yol Lələnin dərdiylə Kərəm cuşa gəlib. Lələ ki, dünyadan gedib Kərəm neçə kəlmə burda Lələnin başının üsdündə söhbət eliyir. Bir belə baxdı o yan, bu yana ki, bəlkə bir rahı-uhur yeri tapar, özün pinhan eliyə. Amma gördü bəli, bir xarab deyirman var. Orda bir bəyquş qonub, onun çiləsinin üsdündə, orda bannır, oxur. Dedi, bura bax, mənim axırım gör nə cür oldu? Mən gör hara gəldim? Kimlərinən, nələrinən yoldaş oldum? Oydu Kərəm sözünün o birisini belə deyir:

Kərəm diyər, bu fənada,
Kam almadım bu dünyada.
Ərzurumda, viranada,
Bayquş mənə yoldaş oldu.

Söz tamam oldu. Əlbəttə, Lələni ki, orda dəfn eliyib, indi bir yol durdu ayaq üsdə. Təlaş edir ki, bəlkə bir yer tapa özünü pinhan eliyə. Gəzdi buranı, oranı. Gördü bəli, bir kölgəli daş var. Daşın altı qar oranı tutmur, boşdu. Bəli, özün verib həmən daşın altına. Mehin şəpəsi vurub, hər tərəfdən qarı gətdi, bəli daşın qabağını ötdü. Kərəm qaldı qarın altında. Qos ayının (payız fəslinin axır ayı) on dördü, on beşi idi, Kərəm qalır qarın altında. Amma baharıdı təqribən, çiçək, külək bir-birini çağıran moğəsiydi. Ərzurumun dağı çox bərk dağıdı. Bəli, oranın qarı hənüz getməmişdi. Bir tacirin güzarı düşdi həmən dağlardan, yolunu salıb gedirdi. Qəflə-qatır gedir. Amma neçə kürəkçi qabaxca yol açır, qəflə-qatır onların da dalıycax gedir. Bir qədər yol gəliblər. Ta gəldilər yetişdilər o yerdə ki, Kərəm məskən tutmuşdu həmən yerə. Gördülər bu at, qatır qədəm-qədəmin üstündən götürmürlər. Tacirə xəbər verdilər ki, vallah, bilmirik nə cürdü. Bu qatır yerimillər. Belə baxdi, baxdi, gördü bəli, qabaxda bir daş var. Daşın dibindən bir baca açılıb, ordan buxar çıxır. Tacir dedi:

– Nəmənə var, o daşın altındadı.

Kürəkçilərə əmr eliyib, daşın qabağını götürüblər, bu yana eliyiblər. Gördülər bəli, bir cavan. Üz-gözünü tük basıb.

Saz sinəsində əyləşib daşın altında. Gözlərinin yaşı əbri-bahar kimi tökülür.

– Cavan, sən kimsən? Bəs burda neyniysən? İşin, gücün nəmənədi? Nə vaxtdan burda qalıbsan?

– Hə, ağa tacir, icazə buyur, mən deyim ki, neçə muddət burda qalmışam. Mənim güzarışatım nəmənədi? Əslən niyə gəlmişəm bura, nə muddətdi burdayam? Dilinən desəm, dilim od tutar, yanar. Gərək sazı-sözünən deyəm.

Əl atıb, sazı götürür. Görək bu tacirə və bu sairin cəmaət ki, buların yanındadılar, nə cür söhbət eliyir. “Qaraçı” maqamıynan diyəciyik:

Xarab qalmış Ərzurumun dağları
Beş aydı ləngidib burada məni.
Nə eynim açılıb, nə üzüm gülüb,
Nə qoyub yetişəm murada məni.

– Oğlan, sən belə söz deyirsən, pişmiş toyuğun gülüşü gəlir. Axı, beş ayda bir nəfər dağda, bu boranda, bu soyuxda qala bilər?

Amma dübarə sözü Kərəm belə deyir:

Zinhar ağa, bu dağların dışından,
Əcəl oxu dəyib bağrım başından.
Qos ayının on dördü, on beşindən,
Kimlər arar, tapar burada məni.

Əlbəttə, ki bular bu cür söhbət eliyirlər, o tacir qulaq asır, təəcüb eliyir:

– Oğlan, axı sən ki bu sözdəri oxursan, yəni beş ay kimin hünəridi burda qarda, boranda ac-susuz qala?

– Hə, ağa tacir, icazə buyur sözümün əvvəl-axırına qulaq as.

İndi bu tacir deyir:

– Oğul, mən qəbul elirəm ki, sən ya beş ay, ya üç ay, ya bir ay burdasan. Mənə söylə sən burda necə qaldın? Soyuxdan, qardan, borandan, acınnan ölmədin?

Dedi:

– Ağa tacir, icazə buyur, onu da sənin üçün ərz eliyim ki, necə qalmışam.

Ərzurumun gədiginə varanda,
Onda dedim, qadir Allah, aman hey!
Bir yannan boran yağdı, qar basdı,
Bir tərəfdən yolum aldı duman, hey!

Ay qarannıx, gedəmmədim yolumu,
Soğuq alıb ayağımı, əlimi.
Öz-özümə fərz eylədim ölümi,
Heç tutmadım sağlığıma güman, hey!

Çərxi-fələk məniminən al etdi,
Tutdu qulağımı, dilim lal etdi.
Çox bəzirgan üsdümüzdən yol etdi,
İndi gördüm sən qocada iman, hey!

– Sənin kimi imandar adam, bir nəfər mənə burdan nicat verə. Amma sən çox baiman, imandar adamsan.

Əlbəttə, indi burda tacirnən söhbətdədirlər.

Bahar olcax bağlar tutar xəzəli,
Mən də söydüm Əsli kimin gözəli.
Bir igidin ki, üstündə olsun həqqin nəzəri,
Behiştin bağından ona nar gəlir.

Yəni, bir igidin üsdündə ki o Xüdavəndi-Əli ağanın nəzəri olsa, el yapışa onun qıçından, heş tərəfə çəkə bilməz. Həmən tacir eşitdi, çün Ziyad xan oğluyam, adım Xan Kərəm. Dedi, ay oğlan, bu, gəncəli Ziyad xan bəylərbəyinin oğludur.

– Oğlan, bəs nə cür olubsən, gəlib düşübsən bura? Mən gərək səni qaytaram, aparam verəm Ziyad xana.

Dedi:

– Tacir sağ olsun, mən özüm öz atamnan və məmləkətimnən xüdafizlik eləmişəm ki, gedirəm bir dənə nazənin söy-

gülümün dalıycax. Hardan tapam Allah bilir. Malım, Lələm əlimdən gedib bir dənə o qızdan ötürü. Amma gərək gedəm.

İndi ki belə oldu, qatırların bir dənəsinin yükün berarrıyıblar o birisi qatırların üsdünə. Bəli, Kərəm minir qatırların üsdünə. Tay bular həmən Ərzurumdan ənirlər aşağı. Əlbəttə, neçə gün bular dağdan ənirlər aşağa. Bəli, varid olublar, qabaxda üş dənə yol nümayan oldu.

– Xob, cavan, burda yol üş olur. Bu yolların biri Ceyhun tərəfinə gedir, amma o birisilər ayrı yerə gedir. Sən bu yolların hansınnan gedəcəksən? Biz beləyə gedəcəyik. İndi sənin ixtiyarın özünnəndi.

Dedi:

– Tacirbaşı sağ olsun, mən elə ürəgim yol verir bu Ceyhuna sarı getməgə. Çox nəzərim var.

– Xob, indi ki, bəs sən Ceyhuna sarı isdirsən gedəsən, onda mən bu nökərrərimdən bir dənəsini qoşaram sənə, səni aparar. Qabaxda bir kənd var, Osmanlı kəndidi. Orda sənə hər moğe ki, bağ-baxça nümayan oldu, orda ənərsən. Bu adamı azad elərsən, gələr genə bizi tapar.

Gördü bu tacir çox yaxçı bir adamdı. Çox razılıq elədi tacirdən. Əlbəttə, həmən qatırınan və bir dənə də nökər qoşubdular.

– Apararsan bunu Osmanlı kəndinin yaxınlığında hər moğe ki, Osmanlının kəndi görükdü, orda bir yol sağlıx verərsən, qayıdıb gələrsən.

Dedi:

– Eybi yoxdu, aparram, tacir.

Bəli, həmən adam götürüb Kərəmi, bir qədər yol gələndən sonra dedi: “Oğlan, tacir qismət tapıb. İndi çıxacaxlar gedələr. Mən sorağınan nə vaxt gedim, o kərvana, o tacirə yetişim? Nə bilir tacir mən bunu apardım Osmanlı kəndinə, ya aparmadım. Bu dərələrin birində qoyub qəyidəcəyəm”. Dedi:

– Cavan, qatırdan en aşağı mən qəyidirəm.

Dedi:

– Axı, tacir tapşırdı sənə məni aparasan Osmanlı kəndinə. Bura darrı-biyaban bir yerdi. Əslən bu yolda mən baş çıxarda bilməm.

Dedi:

– Çox danışma, en aşağı.

Kərəm ahı-nahadından çəkib, çün Ləlısi, söygülüsü, atı, donu, dərayəti əlindən gedib, qəlbi şikəstdi.

– Bir xob, sən ki məni tacir diyən yerə kimi aparmadın, get, sənin üzün həqq qərəsi olsun.

Əlbəttə, o adamın üzü qəpqərə, elə bil ki, kömürdü. Xəbəri xəbərdən yox. Qatırı minib, bəli, gəlsin tacirə sarı. Kərəm də yoluna idamə verir. Bir qədər yol gəlib, genə yol üş dənə oldu. Bəs bu yolların hansı Osmanlı kəndinə gedir? Qalıb yolların vəsətində aciz. Öz-özünə fikr eliyir. Dedi, xob, mən ki qalmışam mətəl. O adam məni də aparmadı Osmanlının kəndinə. Amma bir qatar şeir gəldi sinəmə. İsdiyirəm bu yolların ayrıcında oxuyam. Sazı köynəgindən çıxardıb, ahı-nahadından çəkdi. O tərəfdən atası, anası, bu tərəfdən söygülüsü yadına düşdü:

Ərzurumdan endim, üş oldu yolum,
Bilməm yolun hankisindən gedim mən.

Gecə-gündüz çağırdığım ərənlər,
Bilməm yolun hankisindən gedim mən.

Amma Kərəm xob, bilmir ki, yolların hansından gedəcək. Sözün o birisin də belə desin, ərz eliyim, eşidənlərin sağlığına:

Əslim gedib, tapammadım izindən,
Öpəmmədim yanağından, gözündən.
Heş doymadım söhbətindən, sözündən,
Bilməm yolun hankisindən gedim mən.

Ağa, Kərəm sözünün əvvəl-axırını necə diyəcək, ərz eliyim:

Kərəm diyər, həzin-həzin ağlaram,
Dərdlilərin ürəgini dağlaram.
Kimə gedib, kimə umud bağlaram,
Bilməm yolun hankisindən gedim mən.

Söz tamam oldu. Amma eşit xəbəri kimdən? Həmən tacirin o nökərindən ki, Kərəmi gətirib Osmanlı kəndinə yetirə bilmiyib, yoldan qəyidib. Bəli, gedir yetişir. Çox gedəndən sonra həmən tacirə yetişir. Tacir və sayirə adamlar baxırlar, görürlər bir nəfər gəlir. Qatır həmin qatırdı, amma adam əvəzidi, o dəyil. Üz qəpqərə kömür kimi, şələ kimidi. Ağa, bular bunu görüblər, libasından tanırlar, qiyafəsindən tanırlar. Hammısı güldülər, bunun da ki özündən xəbəri yox.

– Canım, niyə gülürsüz? Məgər nə olub siz güləsüz, axı?

Ayinə veriblər, aynaya baxdı gördü, pəh, dünyada bədbəxt olub. Üz kömür kimi qapqara yanıb.

– Canım, bəs mən niyə belə olmuşam?

O tacir dedi:

– Sən o cavanı mən diyən yerə aparmıyıbsan.

Nökər artıx pəşimançılıx çəkir. İndi bir yol tacir dedi:

– Gərək qəyidəsən, onu tapasan. Əlacpəzir olsa genə olan olacax, tez qayıt.

Bəli, həmən adam qayıdır. Kərəm o moğe gəlir ki, isdir bala-bala yolda yama versin. Gördü bəli, həmən adam varid oldu. Varid olub, dedi:

– Salam.

– Ələykümə salam.

– Cavan, mən iştibah eləmişəm. Bağışda məni, güzəşt elə, bilməmişəm.

Ağa, Kərəm əvvəl qəbul eləmədi. Çox yalvarandan sonra dedi:

– Xob, indi ki belə oldu, bəs mən sənə bir dua elərəm.

Kimi diyər, kimi yaxşi,
Kərim pərvərdigar yaxşi.
Vəsiyyi-xətmi peygəmbər[45],
Rəsulu-namidar yaxşi.

Həsən, Hüseyin, meydan Əli,
Zeynalabdin sərvəri.
Məzhəbdə İmam Cəfəri,
Sövə göyül o da yaxşi.

Həsən, Hüseyin şahi-Bağdad,
Musa, Rza mənə ustad.
Təğiyi Nəğidən imdad,
Qalıbdır yadigar yaxşi.

Əlbəttə, bu sözdərdən Kərəm oxuyandan sonra üz dolandırıb Xüdavənd dərgahına, bu adamın üzü gəldi həmən əvvəlki dərəcəyə. Ağa, bir yol Kərəmi götürüb gətirir, Osmanlı kəndinin bağ-baxçası nümayan oldu. Kərəm dedi:

– Day canım, mən səni mürəxxəs elədim. Getginən.

Ağa, bu adam duasını eliyə-eliyə qəyidib. İndi bir yol Kərəm varid olub Osmanlı kəndinin bağ-baxçasının vəsətinnən gedirdi. Amma o zaman o gündə təğribən, beyram yaxınları idi. Bahara az qalmışdı, bəlkə elə bahar idi. Mərdum çıxmışdılar eyş-işrətə, gəzməgə, dolanmağa. Bu gül-çiçəkli dağların ətəklərində, bağlarda gəzirdilər, dolanırdılar bi dəstə qızgəlin. Bir bağda öz dilimiz, bizim arada aşdan-tuş diyərlər. Aşdan-tuş oldular. Xurdu-xörək bişirmişdilər, gəzirdilər, dolanırılar. Gördülər bəli, bir aşıx saz çiynində bağların vəsətində yolunan gedir. Qızdan birinin adı Nərgiz xanım idi. Dedi:

– Qızdar, bir baxın. Bizim şansımız bu gün hər yannan gətirir. Bax, bir dənə də aşıx gedir. Gəlin aşığı dəvət eliyək,

[45] Sonuncu peyğəmbərin vəsiyyət edib, tapşırdığı şəxs, yəni Həzrət Əli.

gəlsin. Biz bu gün çıxmışıx gəzməkliyə, dolanmaxlığa. Gəlsin burda bizim üçün oxusun, söhbət eləsin.

Bəli, gəldilər Kərəmi üzügün qaşı kimi aldılar araya. Gördülər baba, bu çox liyaqətdi bir cavandı.

– Canım, aşıxsan?

– Bəli, aşığam.

– Xob, aşıxsan, bizim üçün beş-on kəlmə gələsən bu bağda oxuyasan. Şad sözlərdən oxuyasan, bizim meylimiz açıla.

Dedi:

– Baxıram siz tamam zənən xəlqi. Sizin içinizdə mərdanə yoxdu mən gələm sizin üçün oxuyam. "Canım, bu qızı ki görürsən,"– Nərgiz xanımı nişan verdilər, –"bizim böyügümüzdü. Və sənə heş kəs, heş zad diyə bilməz".

Xob, şair göylünün qisməti gərək alçaq ola. Döndü bəli, bağda bu qızdarın yanında sazı köynəgindən çıxardıb, zilinbəmin kök eləməlikinən gah bu yana, gah o yana baxır. Qızdarın içinə sarı baxır ki, görüm Əsli də burdadı?

Bəli, ağa, indi Kərəm götüsün burda bir dəstgah nə dillərinən söhbət eliyir, ərz eliyim, əziz və muhtərəm eşidənlərin hammısının sağlığına:

Durun incimiyin, nazlı bacılar,
İraxdan keçərək yol sizin olsun.
Ürəgimdə çoxdu qəmlər, arzular,
Ağular içərik, gül sizin olsun.

Nərgiz xanım dedi:

– Sənin kimi oğlan gərək şərbət içə, nəyinki ağu içə. Elə dedin biz narahand olduq, cavan. Axı, sənin məşuqən, aşiqin yoxdu ki, çox belə yanıxlı oxursan?

Dedi:

– Neyniyim, xanım. Sözdü ağzıma gəldi. Siz hamuz mənə bacısız, mən də sizə qardaş. Əgər narahand olsaz, kənardan çıxım gedim.

– Yox, sən Allah, aşıx. Sənin bu sözdərin bizi qəmə, qüssəyə saldı. Oxu görək.

Gəldim istilənim, durmam gedərəm,
Uca dağ başından ənnəm gedərəm.
Yar yolunda ahu-zarrar edərəm,
Biz sular içərik, gül sizin olsun.

Çün Nərgiz xanım dedi, sənin kimi oğlan gərək şirni, şərbət içə. Dedi ki, biz suyu içərik, gül sizin olsun.

– Axı cavan, dərdin nəmənədi? Murazın nəmənədi?

Göz dolandırırdı, belə baxırdı. Baxdı, gördü bu qızdarın içində bir dənəsi var. Boyu, buxunu, qaşı, gözü kəənnəh[46] Əsli xanımdı. Ah-nahadından çəkdi. Dedi, bura bax, Əsli xanımı gətirib Qara Məlik bu kəddə verib ərə. Bu, Əsli xanımdı bularnan gəlib bura. Oydu ki, sözün əvvəl-axırını belə deyir:

Mən Kərəməm, həm dəliyəm, həm üzlü,
Ürəgim yaralı, cigərim közlü.
Əgər desələr ki, ölübdür Əsli,
Qaralar giyərik, al sizin olsun.

Ağa, bunda bu Nərgiz xanım narahand oldu. Kərəm də ki, baxır qızdara. Baxdı gördü biri eynən Əsli xanımdı.

– Aşıq, biz elə demədik ki, sən bizi narahand eliyəsən. Elə oxu ki, biz şad olaq.

Oydu ki, Kərəm götürsün görək nə cür söhbət eliyir:

Gözəllər seyranə çıxmış,
Birisi Əslimə bənzər.
Al geyinib gözəllənmiş,
Birisi Əslimə bənzər.

O Əsliyə bənzər qız baxdı gördü ki, bunun məşuqəsi var. Və Əsli xanımın da bənzəridi, amma dübarə sözü belə desin:

Örtübdü şalı başına,
Sürmə çəkibdir qaşına.

---

[46] Kəənnəh- həqiqət, olduğu kimi

Keçibdir on dörd yaşına,
Birisi Əslimə bənzər.

Dübarə sözünü belə deyir:

Nalədi gözün sənin,
Lalə kimin üzün sənin.
Gözəl, bal kimidir sözün sənin,
Amma birisi Əslimə bənzər.

Bəli, elə o Əsliyə bənzər qız gördü bu Kərəm onu hədəf eliyibdi. Onun da xob, ayrı bir namzədi var idi. Dedi:

– Oğlan, sən iştibah danışırsan, iştibah tutursan. Dayan neçə kəlmə sözüm var. Mən sənin yarın dəyiləm.

And ola anam südünə,
Mən sənin yarın dəyiləm.
Oğlan, bi qərib iyid yarım var,
Mən sənin yarın dəyiləm.

Kərəm bir balaca inanır. Genə inanmır, amma qız baxır görür ki, oğlan ginə bunun sözünə bab eyləmir. Dübarə belə deyir:

Cavan, cavannar xasısan,
Göllərin su sonasısan.
Gözəl kəklik balasısan,
Mən sənin yarın dəyiləm.

Oğlan qəbul eliyib. Kərəm gördü xeyir, düz danışır. Bu, Əsli xanım dəyil. Amma bular bir qədər ənam yığıblar, öz dilimiz, pul yığdılar ki, versinlər. Həmişə ki Kərəm hər yerdə oxusaydı, Lələ yanında olanda pulları Lələ götürərdi. Amma bular bir qədr dövran yığdılar verdilər. Kərəm baxdı gördü bəli, bular dövran yığıblar, ah-nahadından çəkdi:

– Xanım, mən dövran əhli, pul əhli dəyiləm. Mən dərd əhliyəm, mənim dərdim var.

Nərgiz xanım xəbər aldı:

– Dərdin nəmənədi?

Dedi:

– Mənim bir məşuqəm var. Bir atası var, Qara Məlik adındadı. Elbəel, diyarbadiyar, məmləkətbəməmləkət dolandırır, mənim əlimdən götürüb aparır. Qızın da mənə göylü var. Mən də ki, onun eşqindən, fəraqından düşmüşəm çöllərə. Amma vəli, sizdən xahişim budur ki, ayə, o Qara Məlik burdan geçib, ya yox?

Dedi:

– Bəli, neçə müddət bundan qabax, bu dəm, bu nişan ki, sən deyirsən, elə bir adam burdan geçib Ceyhuna sarı.

Bəli, qızdarın yanından gəlsin, ağa, bir yol varid olub Osmanlının kəndinə. Kəndin vəsətinnən, saz çiynində geçirdi. Bir qədər cavannardan kəndin vəsətində idilər. Gördülər bəli, bir aşıx gəlir. Yığışdılar, dedilər: "Canım, aşıx gəlir. Gəlin o aşığı aparax qəhvədə beş-on kəlmə bizim üçün söhbət eləsin". Cavanlar yığılıb gəldilər:

– Canım, aşıxsan sən?

– Bəli, aşığam.

– Eliyə bilərsən ki, bizim üçün beş-on kəlmə söhbət eliyəsən?

Dedi:

– Nə eybi var? Söhbət elərik.

Bəli, Kərəmi gətirib qəhvədə qəhvə-qəlyan veriblər. Bir muxtəsər həyəcana gəldi.

– İndi bir yol, aşıx can, bizüm üçün beş-on kəlmə söhbət elə. Qoy qulaq asax.

Bəli, Kərəm sazı köynəgindən çıxardır. Görək bəli, indi bu qəhvədə əyləşənlərə, Osmanlının kəndinin cavanlarına nə demək isdiyir, ərz eliyək:

Qadir Allah, budur səndən diləgim,
Dörd bir yannan gələr mənim köməgim.
Gümüşdən otağım, qızıl dirəgim,
Kərəm diyər, Əsli yar mənim ola.

Bular bu yannan, o yannan çün bu əvvəldə adını deyir ki, bəlkə bular tanısınlar. Bular dedilər:

– Cavan, biz sənin sözündən bir baş tapmırıx. Necə yəni, sənin məgər məşuqən var?

Dedi:

– Bəli, icazə buyur. Ta sözümün o birisini ərz eliyim.

Əlinin Düldülü, cilovda Qəmbər[47],
Kəkülündən yağar müşgünən ənbər.
Adəmdən xatəmə, qeyr əz peyğəmbər,
Kimdi Yusif camalında şuxi-şəng ola.

Bular bu yannan, o yannan əhsəni-afərin diyiblər. Bir dövran yığdılar.

– Canım, sən bu kəm pulu qəbul eliyəsən.

Dedi:

– Mən pul əhli dəyiləm, mən dərd əhliyəm. Mənim Lələm, atam, anam varıdı. İcazə buyurun, neçə kəlmə söz gəlib sinəmə ərz eliyim, ta onnan sonra bilin mən kimin oğluyam.

"Meşgini" havası ilə oxuram:

Mən gələndə gülənbərrər gülüdü,
Cavan ömrüm bu dağlarda çürüdü.
Başına döndügüm Osmanlılar iyidi,
Bax, boran oldu, Lələm öldü bu dağda.

Bular əllərini qoydular gözlərinin üsdünə. Çəşm, amma bəzi narahand oldular. Bunun Lələsi varımış, bu, böyük adamın oğluna oxşur. Oydu ku, dübarə sözü belə deyir:

Bir quş idim Ziyad xanın bağında,
Oxuyardım həm solunda, sağında.
Lələm qaldı Ərzurumun dağında,
Boran oldu, Lələm öldü bu dağda.

Ağa, bu cavanlar ki, yığışmışdılar Kərəmin dorəsinə. Bular hammısı qəlbdən narahand oldular. Dedi:

---

[47] Qəmbər-Həzrət Əlinin qulu

– Cavan, əgər sənin Lələn bu dağda qalmış olsa, hətmən-hətmən biz gətirrik.

İndi Kərəm təxəllüsündə belə desin:

Mənə bu dağları o, nişan verdi,
Dolandı gözləri, kiprikləri son verdi.
Başın qoydu dizim üsdə can verdi,
Boran oldu, Lələm öldü bu dağda.

Bəli, amma söz tamam olub. İndi bu Osmanlının cavannarından neçə dənəsi seçildilər:

– Cavan, sənin Lələn hər yerdə olsa, biz gətirrik. Heç narahand olma.

Bəli, yerrərindən durublar, Kərəmi də götürüblər. Genə qəyidiblər Ərzurumun dağına. O yerdə ki, Lələni dəfn eləmişdi, həmən yeri tapır. Lələni çıxardırlar qarın altından. Bəli, gətirirlər, həmən kənddə Lələni dəfn eliyib, namaz qıldırırlar. Ərz eliyim, özünün az-çox xob, cibində pulu var idi. Kəddərdə kömək eliyiblər beləsinə. Buna bəli, bir yaxçi xərc verib, ehsan verib indi bir yol həmən cavannarınan, həmən əhaliyi, həmən kəndinən xüdafizlik eliyib. Amma xəbər alır bulardan:

– Mənim bir dənə məşuqəm var, söygülüm var. Düşmüşəm onun dalıycax. Odur ki, bir belə mənim başıma bu oyunlar gəlir, bir dənə onun fəraqından, eşqindəndi.

Bəli, bulardan bir dənəsi dedi:

– Neçə muddət bunnan qabax, bəli, o nəmdə, o nişanda ki, sən deyirsən, bu kənddən geşdilər. Vəli Ceyhuna sarı getdilər.

Kərəm sözü aldı ki, bildi bəli, bular Ceyhuna sarı gediblər. Xüdafizlik eliyib, sazı götürüb düşdü yol turabına.

Ağa, yoluna idamə verir, gəlir. Mədidi-muddət yol gələndən sonra gəlir yetişir Ceyhun çayının ətəginə. Nə vəxt idi? Baharın qırx beşidi. Ceyhunun çayı da mislin ki, coşub. Tamam dağların qarı əriyib tökülüb çaya. Elə gəlir ki, moc vurub, əslən elə moğz vurur ki, dərya kimi. Bəli, o zaman va-

rid oldu Ceyhun çayının ətəginə. Ah-nahadından çəkdi: "Pərvərdigara, xob, əgər Əsli xanım, mənim söygülüm bu çaydan o taya geşmiş olsa, mən ki bu çaydan geçə bilmiyəcəyəm. Burdan qəyitsəm, nə cür qəyidim?" Elə-belə baxırdı bu yana. Gördü çayın o tərəfində çadır qurulub. Neçə dənə çadır var. Diqqətinnən baxdı, baxdı gördü bəli, Qara Məligin çadırlarıdı. Əsli xanım çadırın ətrafına gəzir, dolanır. Az qaldı Kərəmin söyündükdən bağrı çatdasın. Qızı bura bax, gəlib mən burda tapmışam. Amma neyniyim dərya kimi çay gəlir. Gəlim burdan qəydim? Necə qəyidim? Malım, dərayətim, atım, donum, Lələm əlimdən gedib. Yoxsa burdan qəyitmiyib bu çayı keçim? Çay məni aparar. Bəs neyniyim?

Bəli, qalıb çayın ətəgində. İndi öz-özünə fikr eliyir. Bəs mən götürüb imdadıma görüm kimlərdən çağırım, ağa, mənə bu sudan nicat versin. Bəlkə mən də geçəm çayın o tərəfinə. Bəli, bu dillərinən, çayın ətəgində belə söhbət eliyir:

Dolannam başıya, ya Xızır İlyas, ya Nəbi,
Görürsən ki, dərin çaya düşmüşəm.
Sənan kimi işim dönüb tərsaya,
Doğru yoldan, kəc araya düşmüşəm.

Kərəm bu sözdəri deyir, istədi qəyitsin. Gördü ki, dərya moc vurur su. O tay, bu tay gəlir. Göz işləmir, amma o tayda da Əsli xanım çadırın ətrafında gəzir, dolanır. Neçə muddət görmüyüb, az qalır ki, bağrı çatdasın. Pərvərdigara, mən neyniyim, nətəər eliyim? İndi bir yol isdiyir qəyitsin. Ayax dalı suya gəlmir. Mən bir belə çöllər, biyabanlar, dağlar, daşdar, oymaxlar gəzmişəm. Bu Əsli xanımdı, mən burdan necə qayıdım? Əyax dalınca gəlmir, əyaxlarının barəsində belə deyir:

Gecənin zəhmətini çəkər oyaxlar,
Vədəsi gələndə olar da yuxlar.
Kərəm deyir, gəl qayıdax, ayaxlar,
Deyir, qayıtmaram, mən cəfaya düşmüşəm.

İndi Kərəm qaldı məəttəl. Cuma, özünə nə qədər ürək verib, əslən geşməli su dəyil. Amma dübarə belə deyir, “Qə-rəçi qaytarması”ynan:

Kərəm diyər, gəl eliyək məşvərət,
Mən sənə neylədim, ay çarxı fələk?
Ürək deyir gəl qayıdaq, eşq deyir gəl gedək,
Olar da onda bivəfaya düşmüşəm.

Amma söz tamam oldu, eşq ürəgə güc gəlir. Kərəm libas-darın soyunub suya sarı baxır. Dərya kimi morq vurur, libas-ların soyunub aldı başına. Sazı bir əlində tutub, özünü vurdu bir dərya kimin suya. O tayda Əsli xanımın kənizlərindən biri ayə, su doldururdu, ya qab-qacaq yuyurdu. Gördü bəli, Ziyad xan oğlu Kərəmdi. Gəldi neçə kəlmə çayın o tayında söhbət elədi. Amma axırda dözə bilmədi, özünü vurdu Ceyhunun ça-yına. Yerindən durub qaça-qaça gəldi Əsli xanımın yanına:

– Xanım.

– Bəli.

– Ziyad xan oğlu Kərəm gəldi. Gəldi Ceyhunun çayında neçə kəlmə söhbət elədi. Amma özün vurdu dərya kimi çaya. Ay, inanmıram bu çaydan can sağlığı qurtara bilər.

Əsli xanım bu sözü eşidib, gəlməgini eşitdi şad olub. Amma özünü kim çaya vurmaxlığını eşidib, öz məşuqundan, öz sevgilisindən ötür narahand oldu. Ay dadı-bidad, əgər fil düşə bu çaya, qurtara bilməz. İndi ki, bu yol gələ yetişə Kə-rəmə. Hətmən də bu çayda beyindən gedər, ölər. Bəli, oydu ki, zülflərin pərişan eliyib, bir dəstgah Kərəmi nə dillərinən oxşur, ağlır. Mən də ərz eliyim:

Qəri nənə, mənə müjdəm eləmə,
Bülbülüm vay, gülşənim vay, gülüm vay.
Xudam verib cəmi dərddən bol mənə,
Yerdən göyə dayanıbdır zulum vay!

Ağa, bu qəri öz dedigi sözə də pəşiman oldu:

– Axı, mən elə demədim qızım, sən narahand olasan. Mən sənə dedim ki, sənin məşuqun, söygülün gəlib.

– Ay nənə, o dərya kimin sudan heş kəs can qurtara bilməz. Mən baxıram düzdü mənim söygülüm, məşuqum gəlib. Amma Ceyhunun çayı aparıb. Odur ki, mən bunu bu dillərinən oxşuyub, ağlıram.

Atası yox, qəbri üstə daş tökə,
Bacısı yox, başın aça saç tökə.
Anası yox, gözündən qan-yaş tökə,
Qəri, bir də nakam ölən, yarım vay!

Bülbül çıxdı, gül üstündə oturdu,
Sinəm tağdı, şamamanı yetirdi.
Qəri gəldi, vay xəbərin gətirdi,
Qəri, bir də cavan ölən yarım vay!

Əlbəttə, Əsli xanım bu dillərinən öz sevgilisin oxşur, ağlır. Bəli, bu cür oxşurdu, ağlırdı. O tərəfdən Qara Məligin xəbəri oldu ki, Əsli xanımın atası olmuş ola, Kərəmin əlindən Əslini götürüb diyarbadiyar aparır. Onda yetişdi gördü bəli, qız ağlır.

– Qız, nə xəbərdi? Niyə ağlırsan?

Cəryanı, mətləbi bildi ki, bu Kərəmdən ötür ağlır. Bəli, çadırın payəsin çəkib, ağa, bu çadırın payəsinnən Əsli xanıma kötəkgarrıx elədi. Ağacın biri nagah tutub qızın başından. Baş yarıldı, ağa, qan tökülüb ağ üzə, sifətə. Çün sifət ağ, qan qırmızı. Ağa, ağlıyıb narahand oldu, çadırdan çıxdı. O zaman anası Məryəm xanım gəldi:

– Kişi, sən bu qızı niyə vurursan? Niyə bu hala salıbsan?

Dedi:

– Baba, mən bunu götümüşəm diyarbadiyar aparıram. Bu aləm gedəm görəm, çadırda Kərəmi oxşur, ağlır.

Ağa, indi Əsli xanımı Qara Məliyin əlindən alıb, gətirib əyləşdi otaxda məzəmmət eliyir qızı:

– Qızım, sən heş ağızdarrıx eləmə. Kərəm də hər yola getsə, gələr. Sənin məşuqun, söygülün gələr, xatircəm ol.

Gətirib bir qədər öz dilimiz, məlhəm dürüst eliyib, Əslinin başının yarasını məlhəmliyə, məlhəm qoya. Məlhəmi isdiyirdi ki, qoysun Əslinin başının yarasına, əlinin dalınan itələdi.

– Ay ana, mənim başımın yarası məlhəm istəməz. Mənim söygülüm, məşuqum gəlsə, mənim məlhəmim, dərmanım, dərdim hammısı gedər.

Nə qədri anası yalvarıb, amma qız az eşidir. Anası bu dillərinən götürüb Əsli xanıma dərdi-dil eliyir:

Cavan gəldi, yammannığın eylədi,
Səri siyah telli balam, ağlama.
Bir söz idi, biyabana söylədi,
Səri siyah telli balam, ağlama.

– O, bir nəfər imiş, gəlib sənə düşmannıx eliyib. Xatircəm ol, sənin məşuqun gələr. Amma qoy başının yarasına məlhəm qoyum.

Dedi:

– Yox, qoymaram. Dayan, anacan, sözünün cavabını ərz eliyim.

Əsli xanım o zərnişan tellərindən tel ayırıb, anasının cavabını deyir:

Qızılgülü anacan, dəstə-dəstə dərərllər,
Dərib onu, pünhan yerdə sərərllər.
Axı, söydügünü söydügünə verəllər,
Ana, çək əllərini yaram əlləmə.

– Məni öz məşuqəmdən ayrı salıbsız. Mən də istəmirəm sən də mənim başımın yarasına məlhəm qoyasan. Mənim başımın yarasının məlhəmi öz məşuqum, öz söygülüm Kərəmdi.

– Hə, qızım, narahand olma. Elə mənim də arzum odu. Dayan, ərz eliyim.

Arzum budur, balam, qədəm qoyam bağuza,
Qorxum budur, qızılgülü xar üzə.
Baş yarılıb, qan tökülüb ağ üzə,
Səri siyah telli balam, ağlama.

Ağa, Məryəm xanım bu sözdərdən deyir, amma Əsli xanımın gözlərinin yaşı yeddi yerdən tökülür. Çün özü görüb öz gözünnən məşuqu düşüb Ceyhunun çayına. Davər eləmir ki, o çaydan Kərəm sağlam can qurtarsın.

– Axı, ana, icazə ver, neçə kəlmə söz var sinəmdə.

İndi bir yol isdiyir ki, başının yarasına məlhəm qoysun. Deyir:

– Ana, icazə ver, ərz eliyim.
Bizim yerə sultan gəlsə, xan olar,
İliksiz sümükdə məgər can olar?
Özümü öldürrəm, nahaq qan olar,
Ana, çək əllərin, yaram əlləmə.

– Mən istəmirəm sən mənim başımın yarasını toxdadasan. Oydu ki, anası cavabında nə deyir:

Məryəm çəkə bilməz balam, ahı-zarıvi,
Həx yetirsin Kərəm adlı yarıvi,
Özgəsinə dəydirmərəm nərivi,
Səri siyah telli balam, ağlama.

– Xatircəm ol, mən səni Kərəmdən özgəsinə vermiyəcəyəm. Amma atan götürüb aparır hənüz. Görək hələ başımızın qəzası nə olur?

Bəli, amma Əsli xanım sözünün tapşırmasında nə deyir, ərz eliyim:

Bizim yerrər gərməsirdi,[48] arandı,
Ürəgimi alan dərddi, vərəmdi.
Əgər gəlsə, təbibim də Kərəmdi,
Ana, çək əllərin yaram əlləmə.

---

[48] Gərməsi- isti yer, qışlaq yer

Bəli, bular bu söhbətdədilər. Xuraman-xuraman danışırlar. Eşit xəbəri kimdən? Ziyad xan bəylərbəyinin oğlu Kərəmdən. Amma hökmü-Xüdavənddən düşüb suyun üzünə. Elə aparır ki, su bunu kim elə bil bir dənə ördək düşüb suyun üzündə gedir. Ağa, gedib xeyla aşağlıxda su bunu atıb bu tərəfə ki, Qara Məligin olan çadırı olan tərəfə. Bəli, libasdarın geyinib, sazını götürüb yavaş-yavaş çadırlara qarşı gəlir. Çadırlara çatanda Qara Məlik yoxudu, getmişdi. Bular ki, Əsliynən anası söbətdə idilər, Kərəm saz çiynində varid oldu. Əsli belə baxdı, baxdı gördü, pəh, Kərəm gəldi. Hər iki aşıqi-məşuq bir-birlərini neçə muddət ayrılıxdan sonra görüblər. Hər ikisi ah-nahaddarından çəkillər. Məryəm xanımın yanında bir qədər danışıblar. Amma Məryəm xanım dedi:

– Qızım, bax o kənardakı bir çadır var məxsus sənin öz çadırındı. Hərçəndi ki, Qara Məligin xəbəri olmuyub, o çadır sizinkidi. Gedin, orda dərdi-dil eliyin. Mənim yanımda siz danışa bilməzsiz.

Bəli, bular varid olublar həmən çadıra. Hər iki aşıqi-məşuq danışırlar, deyirlər, gülürlər. Əlbəttə, Kərəm başından geçən qəzaları buna danışır. Hər iki aşiq bir-birlərinən söhbət tutub ta sübhə kimi. Bəli, sübhə yaxın buları yuxu tutur. Hər iki aşiqi-məşuq yatırlar. Amma fizul ölmüyüb, ölməyəcək. Kənizlərdən biri gəldi Əsli xanımın çadırına. Baxdı gördü bəli, burda bir nəfər yatıb. Amma belə çarşabı götürüb gördü xeyr, Əsliyinən Kərəm ikisi yatıblar. Qəyitdi gəldi Qara Məligə xəbər verdi:

– O gün ki, Əsli xanıma kötəkgarrıx eliyibsən, o Ziyad xan bəylərbəyinin oğlu Kərəm Əslinin çadırındaymış.

– Ay, yox.

– Bəli.

Day eliyə bilmir də Kərəmi öldürsün. Çün atası Ziyad xandı, bilir hər yanda olsa, damar-rüzügarından çəkəcək. Bəli, gəldi gördü Kərəm libasdarını qoyub başının altına. Əslini yuxunun

içində götürdülər qoydular qatırların üsdünə. Köşdərin çatıblar, hərəkət verirlər. Amma bular getsinlər, Kərəm qalıb yurt yerində.

Kərəm burda yatmaxdan, gəlin, sizə hardan ərz eliyək, Kərəmin anasından, bacılarından. Kərəm ki düşdü Əsli xanımın dalıycax, məşgul olub getməkliyə. Anası çoxlu narahand oldu, ağladı. O qədri oğlunun fəraqından ağladı ki, gözdəri işıqdan düşümüşdü. Vəli at minmişdi dayəsinnən oğlunun dalıycax gəlməgə məşgul olsun. Dayəsi də harda qaldı, nə cür oldu, ta özü gəldi yetişdi həman yurt yerində tapdı. Bəli, gördü bir cavan burda yurt yerində yatıb, xürreyi-xaba bülənd olub. Diqqətinən baxdı, baxdı gördü qiyafəsi, qılıcı, qaş-gözü eyni Kərəmdi. Amma libasdar köhnəlib, üz-gözün tük basıb. Heç o oğlan dəyil elə bil. Ah-nahadından çəkdi. Bu ki, varid oldu başının üsdünə, Kərəm yuxudan ayıldı, gözünü aşdı. Gözünü sildi, dorəsinə baxdı gördü, lələ köçüb, yurdu qalıb virana. Ama bir diqqətinən baxıb gördü bəli, anasıdı başının üsdündə. Anası dedi:

– Oğul.

– Bəli, ana, nəmənə deyirsən?

Dedi:

– Oğul, sən Ziyad xan oğlu Kərəmsən?

Bildi anasıdı. Qorxdu, vəli özü məruflux eləsə, anası bunu qəytərə öz şəhrinə.

Dedi:

– Anacan, Ziyad xan oğlu kimdi? Mən kiməm?

– Düzdü mənim də adım Kərəmdi. Amma mən o Kərəm dəyiləm.

– Sən kimsən, ana?

Dedi:

– Dayan, ərz eliyim ta kiməm.

Ərz olunur, tamam eşidənlərin, tamam hamısının sağlığına. Əlbətdə, çün bunu Kərəmin anası söhbət eliyir. Kərəmin başın üsdündə ana diyir. Mən də ərz eliyirəm anaların sağlığına:

Ziyad xan dostusan ağrın alım mən,
Verana Gəncənin binası mənəm.
Hər yerdə ki, yaman-yaman yara var,
Dərin yaraların davası mənəm.

Oğlan baxdı gördü, anası ala gözlərindən yaş tökdü dəryaynan. Amma anasına üzün məlum eləmir. Dübarə xəbər alır:

– Ana, mən baş tapmadım sən kimsən?

– Dayan, ərz eliyim.

Qəm libasın heç əynimdən soymadım,
Həsrət qaldım, didarından doymadım.
Əl uzatdım qönçə gülə, qıymadım,
İki dünyanın üzü qarası mənəm.

Amma Kərəm bu sözdə özünü saxlıya bilmədi. Gözləri doldu baharın buludu kimi yaşınan:

– Ana!

Dedi:

– Can bala, sənin səsin nə doğmadı? Oğul, qurbanım kəsilim, özünü mənnən gizdətmə. Mən o itgin vaxlıdığın anasıyam. Dayan, ərz eliyim.

Oğul-oğul dedim, balam, düşdüm cahana,
Dərd əlindən dərdim dedim loğmana.
Qiyamətdə bax sənnən gedək divana,
O itkin Mahmudun anası mənəm.

Çün xatirimizdə olsa, navarlarda ərz eləmişəm ki, Kərəmin əsli adı Mahmuddu.

– Ana, icazə ver, sənin bu sözlərin mənim ürəyimin başına od saldı. Od vurup əlovlədi.

Amma sözün cavabını ərz eliyim mən, Ziyad xan oğlu Kərəm bəy özün gizlədif.

– Bəs sən kimsən?

– Qoy, mən ərz eliyim.

Onu da ərz eliyim “Yanıx Kərəm”nən:

Möhlət kəssin, ay ana, bu dünyanın etdibarına,
Nuhunan bu Süleymana qalmadı.
Neçə Süleymanlar getdi dünyadan,
Olardan da bir nişana qalmadı.

Qəhrəmənlər, ana, qəhrəmənlər necə oldu?
Dəryada nəhənglər saraldı, soldu.
Teyatey boşaldı, teyatey doldu,
Bu dünyanı gör, heş insana qalmadı.

Bu bivəfa dünya heç kəsə qalmayıb, mənə də qalmayacaq. İcazə ver, bir kəlmə də sözüm var, ərz eliyim:

Kərəm diyər, dağ başında oturdum,
Dərdim əlli sərgüzəştə yetirdim.
Loğman kimi, ağa, mən də cərrah gətirdim,
Amma mənim də dərdimi bilən olmadı.

Loğman kimi cərrah, dühdür gətdin, mənim dərdimi bilmədi nəmənədi?

– Ana, mən Mahmud dəyiləm, xətircəm ol.

Ana, baxdı, gördü ləhcəsi eynən bunun oğlunun kimidi.

– Oğul, qurbanın kəsilim, özünü məndən gizlətmə.

Anasıynan belə yazır ki, bir qədər qəyidir, ta gəlib Gəncə yoluna çatıb dedi:

– Ana, bax, bu yol birbaş gedir Gənciyə. Amma mən də Kərəm dəyiləm. Mən gedim sənin oğluvu tapım, görüm.

Anasının əlindən çıxıb qaçır, Kərəm düşür yola. Yollardan, dağlardan, daşlardan, kollardan soruşur: “Ayə, mənim Əslimi gördün?”

Çobandan qabağına hər kəs gəlir. Çün eşq aləmi çətindi, məhəbbət elə bir şeydi “giriftar olmuyan bilməz, zimistan çəkmiyən bülbül baharın qədrini bilməz”. Eşq aləmi çox çətin məsələdi.

Bəli, amma Kərəm yol gəlsin. Gəlin sizə hardan ərz eliyək, gedək görək, Əsli və anasi Qara Məlikgillə hara getdilər? Vəxdi

ki, Əsli xanımı qoymuşdular qatırın üsdünə, yol gedirlər. Yuxudan ayıldı, gözün aşdı gördü, baba, bu bir dənə qatırın üsdündə. Ah-nahdından çəhdi, ay dadi-bidad. Qara Məlikgilin xəbəri olub, hətmən, mənim söygülüm Kərəmi öldürüb, hə, məni də götürüb gətirib. Gözün açıb, genə dübarə gözünü yumdu. Day özünü bəlləndirmədi ki, mən ayılmışam. Bəli, beləliklə yol gedirlər. Neçə gün, neçə gecə yol gedəndən sonra ta gedillər yetişillər İstanbulun şəhrinə ki, Türkiyənin paytaxtı. Durublar İstanbul şəhrinin yaxınlığına, o zaman hükumətə vali də diyərdilər, paşa da diyərdilər. Oların guya o yanlarında öz işdərində paşa diyərmişdər. Bir paşa var idi, adına Xudkar paşa diyərdilər. O gün çıxmışdı öz vəziriynən şikara. Dürbinlə baxırdı, şikar gəzirdi. Gördü, bəli, yolunan üş dənə atdı gedir. Vəli bular üçü miniblər qatıra, bir dənəsi bir qərə kişi buların yanınca piyada gedir. Elə gedir ki, bular nə qədər yeyin getsələr, genə bulardan qabax gedir. Dedi, sən ölmiyəsən, gedək, görək bular kimdilər? Diqqətinən baxdı, gördü iki dənə nazənin, ikisi bir-birindən nazənindi. Əyləşiblər qatırların üsdündə. Vəli biri çox nazənindi, çox gözəldi. Bildi ki, o qız onun qızıdı, o anadı, o da kı, baladı. Dedi, sən ölmüyəsən, mən şikarımı elədim, qəyit gedək mənzilinə. Əmr eliyib, bular gəldilər yolun üstündə dayandılar. Qara Məlik, Əsli xanım gəldilər, yetişdilər bulara:

– Ağa, siz kimsiniz? Hayana gedənsiz?

Dedi:

– Sən əvvəl özüvun mərufunu verginən, sən kimsən?

Dedi:

– Mən bu İstanbul şəhrinin Xudkarıyam, paşasıyam.

Dedi:

– Xub, indi ki, sən özünü məruflux elədin, mən də Qərə Məligəm ki, yeddi qardaşıx biz. Qara Məlik, Ala Məlik, Hündür Məlik... bulara sözümüz yox hələ. Vəli, bu qızı kim ki, nəzərizə yetişir bu kənizidi, yəni mənim qızım olmuş ola.

Amma Xudkar paşa görüb, bir göyüldən min göyülə aşiq oldu. Necədi, cəryanı nəmənədi?

Dedi:

– Vallah, bir dənə əcəm aşıxlarından mənim bu qızıma aşıx olub. Hər tərəfə gedirəm mənimlə gəlir. Neçə dəfə, hətta ölüm əyağına öldürmüşəm də, genə dirilib. Çaya düşür çıxır, dəryaya düşür çıxır, hər yana gedirəm mənnən gəlir. İndi məndən sənə, səndən Allaha. Sənə gəlirdim mən pənahında olam, amma indi bir yol, sən əgər o cavanı mənim əlimdən alsan, bizi o cavanın əlindən xilas eləsən, bu qız ki nəzərizə yetişir, bunu verəciyəm sənə.

Xudkar paşa dedi:

– Yaxşı, oldu, canım. Mən şikarımı elədim, qayıdax gedək.

Ağa, varid olublar İstanbulun şəhrinə. Xudkar paşa xəbər aldı:

– Xob, de görüm, aya, o cavan ki sizin dalıycax gəlir adı nəmənədi?

Dedi:

– Adı Kərəmdir.

– Xob, əksindən, zaddan yanında var?

Çün Kərəmin bir əksi var idi. Saz tuşunda olardı. Onu da Məryəm xanım kı, Əslinin anası götürmüşdü yadigarrıx. Onu soram verdilər Xudkar paşaya.

İstanbul şəhrinin on iki dərvazası var idi. Dorası qala bətlik[49] idi. On iki dənə dərvaza idi. Həman əksdən nəqqaşdar on iki dənə əks dürüst elədilər. Məst eliyib dərvazaların üsdünə. Əmr elədi fərmaşlara:

– Bu nəmdə, bu nişanda, Kərəm adlı varid oldu İstanbula, ya ölüsün, ya dirisin gətirin mənim yanıma.

Qərə Məliki aparıb bir yaxçı yerdə saxtuman verdi, mənzil verdi. Qara Məliki də gətirdi, rəisi-zindan elədi.

---

[49] Qala bəndlik

Amma Xudkar paşa hələ gözdüyür ki, görüm, bəli, bu oğlan gəlsin, görüm təxsir bu Qara Məlikdədir, yainki oğlandadır. Şayəd onun məşuqəsini götürüb, gətirir.

Bəli, bular İstanbul şəhrində qalsınlar, gedək Kərəmin sorağına görək neyniyirik. Gəlir, ya yox? Kərəm mədi-muddət yol gəlib, nağıllarda mənzil məkan yoxdur, əlbəttə, dağlara, daşlara neçə kəlmə söbət eliyib, çün navarda firsənt yoxdu, istiyirəm söbəti şirin yerinə yetirək. Ta neçə gündən sonra gəlir yetişir İstanbulun şəhrinə. Varid olub İstanbulun şəhrində baxdı, gördü dərvazanın üstündə bunun əksi var. Dedi, sən ölmiyəsən, Qara Məlik gəlib bura, amma bu bir işgal dəyil ki, mənim əksim bu dərvazanın üstündədir. Əgər mənim əksimi görsələr, özümü görsələr, əksimnən tanıyacaxlar, tutacaxlar, atacaxlar, hətman məni öldürələr. Bəs mən bir cildinən salım özümü bu şəhrin içinə. Gözlədi, dürüst gün batdi. Bəli, axsamüstüdü, öz dilimiz, davar gələn məcəlidi. Bir dənə də kənardan bir davar dərisi tapıb, gətirib özüni özün həman dərinin içinə. Davardan qoşuldu, varid oldu içəriyə, varid oldu şəhrə.

Ağa, indi xob, İstanbul böyük bir şəhridir. Bilmir bu Qara Məlik hayandadı, mənzili hardadı? Beləliklə, gəzir şəhri. Söbətə çox tul vermiyək, Kərəm on iki ay bu şəhridə gəzir. Bəlkə Qara Məlikin bir yandan sorağın tapa, tapa bilmir.

Bir gün gəzirdi, dolanırdı. Gəldi, baxdı, gördü bəli, bir dənə lotu, bir nəfərin boynuna zəncir qoyub, öz dilimiz olar çalırlar, o da oynur, bu qapıdan beş qram, o qapıdan dört qram, beləliklə yığırlar. Dedi, elə sən ölmiyəsən, bular elə hər qapıya gidirlər. Mən gedəcəyəm lotubaşına diyəm ki, o zənciri götür qoy mənim boynuma. Mənnən gedək, elə bu qapılarda elə mənnən pul alax. Əgər onnan, beş tümən alsan, məndən on tümən alarsan.

Gəldi, kəsdi bəli, lotubaşının qənşərini:

– Salaməleykə.

– Əleykəsalam.

Lotubaşı baxdı gördü çox bir nazənin cavan.

– Nə istəyirsən, oğul?

Dedi:

– Sən bir iş görəssən?

Dedi:

– Nəmənə?

Dedi:

– O zənciri o lotunun boynundan götürüb qoyasan mənim boynuma. Bax, cavannıx desən məndə, səs desən məndə, gözəllik məndə, liyaqət məndə. Hər qapıdan onnan sənin beş tümən inabın olsa, mənnən getsək on tümən olacax. Heş zad da istəmirəm səndən.

Gördü, baba, mağamıdı. Yeridi gəlib həmin adamın boynundan zənciri götürüb qoydu Kərəmin boynuna. Ağa, Kərəm təğribən beş ayı da bularnan bu cür hər qapıya getdilər. Nə qədər gəzdi, gördü xeyr, tapa bilmədi Qara Məlikin mənzilin. Bir gün dedi:

– Gəl, zənciri mənim boynumdan götür sən, istifadəyə apar. Bəli, mən məqsədimə yetişmədim. Mənim məqsədim var idi.

– Nəmənə idi məqsədin?

Dedi:

– Hələ olarda sözüm yoxdur.

Bəli, zənciri boynundan götürüb, fikri narahand, əli qucağında gəlirdi. Gördü bir həyətdə uşaxlardan yığılıblar bir yerdə aşıx oynurlar. Vəli buların yanında bir dənəsi var çox zirəngdi. Başının da belə tükü kəmdi. Qıymıram deyəm keçəl. Gördü, bu uşax çox zirəngdi. Oturub bir dənə daşın üstündə bular hər biri hər birinə lotulux eliyəndə beş dənə, üş dənə aşıx bulardan cərimə alır. Dedi, sən ölmiyəsən, bu oğlan tamam aşıxların əlindən alır, yetişdi.

– Oğlan?

– Bəli.

– Canım, sən elə tamam cəriməyə çıxartdın. Bu bədbəxtlər necə oynasınlar?

Belə diyəndə bu yerindən durdu. Əlin qovzuyub yapışdı Kərəmin yaxasından. Dedi:

–Mən səni çoxdan gəzirdim, tapdım. Aparram səni verirəm Xudkar paşaya. O moğe məlum olar ki, hə, mən bulardan cəriməmi ki, bu iş ki götürmüşəm, bu bahanədi, səni gəzirdim. Sən Ziyad xan oğlu Kərəmsən.

Dedi:

– Ziyad xan oğlu Kərəm harda qalıb, Gəncədə. Mən ayrı bir adam. Sən buların aşıxlarını bu cür götürdün, mən ona görə narahand oldum.

Dedi:

– Ağa, əl-əl aparaceyəm səni, əksindən tanımışam. Sən Ziyad xan oğlu Kərəmsən.

Çox yalvarır, amma indi bir yol başından keçən sərgüzəşti ki, bəndən nicə ki, bu navarlarda ərz eləmişəm ki, Kərəm nəql elədi həman oğlana, həmən keçələ.

– Bax, mənim bu cür cəryanım belə olub. Mənim söygülümü, məşuqəmi Qara Məlik götürüb diyarbadiyar gətirib.

Dedi:

– İndi ki, bu cür düz gəldin qabağa mən səni indi bax, bu uşaqlar ki, aşıx oynurlar. Uşaqlar vəxt idi ki, aşığa məşgul oldular, mən oların aşıxların götürrəm, qaparam, kür eylərəm, sənin də başından börkü götürrəm. Sən mənə yaman diyədiyə gəl. Hər yerdə ki, mən sənin o börkünü atdım, ayaxlarımı da cüt vurdum, o qapının ağzından geştim, eylə bil ki, ora Qara Məlikin mənzilidi.

Dedi:

– Sənin qaday alım, cavan. Görüm daha nə iş görəcəksən mənə?

Ağa, bu uşaxlar məşğuldular aşıx oynamağa. Uşaxların aşığın çurdu qapdı. Kərəmin də başından börkünü qapdı. Ağa, bu uşaxlar düzülüblər bunun dalıncan, ay filan-filan, şudan, bizim aşığımızı hara aparırsan? Kərəm yaman diyə-diyə, da uşaxlar töküldü qaldı, amma Kərəm əl çəkmirdi. Ağa, gəliblər yetişdilər bir küçəyə. Amma həmən oğlan Kərəmin börkün saldı yerə. Qədəmlərindən, təpiklərin də cüt vurub qapının ağzında. Bir işarə elədi, rədd oldu keşdi getdi.

Bəli, Kərəm gəldi börkün götürüb, öz dilimiz, gəldi qapının surağından baxdı geçə-geçə. Gördü qapının yanı açıxdı. Bir belə baxdı, baxdı, ta Əsli xanım sona kəhliklər kimi, qap-bacada laçın sonalar kimi gəzir, dolanır. Az qaldı ki, gözdərinin qabağın qara bulud çaldı. Dizlər titrədi, az qaldı yıxılsın. Özün bir cür saxlaşdırıb, bildi əgər bu moqiyətdə varid ola bu qapıya, keçə içəri, Qara Məlik bilsə, day bir yol çıxacağı yoxdu. Verəcəklər Xudkar paşaya, Xudkar paşa da öldürtdürəcək. Ahistə börkün götürüb, qapıya bir əlamət vurdu. Dedi, bəs mən gedim, əl-əyax çəkilsin, gecə sahat neçədə gəlləm, gedərəm mənzilə. Qapıya nişan vurdu getdi. Bəli, o üz xiyabanlarda gəzdi, dolandı. Nə vaxt, gecənin nə vəxti idi Qara Məlik zindandan gəlir. Öz mənzilinə varid olanda gördü, bu qapıya bir əlamət vurulub. Dedi, sən ölmiyəsən, bu Ziyad xan oğlu Kərəmin işidir. Götürüb o saxtumanlar ki birisi nə varıdı, mislin ki, bu apartumanlar kimin hammısı bir-birinə oxşuyurdu. Götürüb həman əlamətdən əlli-altmış dənə qapıya eyni o əlamətdən vurdu, keşdi içəri.

Kərəm gözlədi, əl-əyax çəkilib xatircəmdir ki, bəli da Əsli xanımı tapıb, gəldi o qapıya baxdı, gördü o əlamətdən var. O birisi qapıya baxdı, gördü o əlamətdən var. O birisinə, day hamısını gəzib, day Kərəmdə baş itdi, tapa bilmədi. Narahand olub, qayıtdı. Nə vaxt idi, yarı gecə, narahand gəlirdi. Gördü bir qoca arvad oturub bir astananın ağızında. Dedi:

–Qəri nənə.

– Bəli.

– Yarına qurbanın kəsilim, bu şəhirdə qəribəm. Olar ki, mənə bir mənzil verəsən, bu gecəlik mən istirahət eliyəm burda?

Qəri alçax gönül bir qəri idi. Dedi:

– Oğul, mən qəribani düz tutaram. Vəli mən səni mənzilə də qoyaram.

Çün, qərib bunu dedi ki, bu şəhrə Xudkar paşa car çəkib və belə tapşırıb ki, hər kəs Kərəm adlı isdiyən mənzilinə, evinə qoya, evini başına uçurdaceyəm.

– Ziyad xan oğlu Kərəm bəy, sən keç, gəl içəri.

Dedi:

– Baba, Ziyad xan oğlu Kərəm hara, bura hara? Mən elə bu şəhərriyəm. Muntaha[50] evimiz yoxdu burda. Narahand olmuşam, gəlmişəm bu gecə sənə qonaq olam.

Dedi:

– Bala qurbanın kəsilim, keş gəl içəri.

Bəli, keşdi içəri. Qəri buna çox ehtiram eliyip, o zamanın çırağı ibarət idi nəmənə də şəmdən. Bə bu cür bərq ala və çırax zənburinən[51] belə-belə zaddardan yox idi. Gərsən yağından ərz eliyim, şamdan roşən elədilər. Qəri gətirib bir dənə şam roşən elədi. Dedi:

– Oğul, ajdığın yoxdu ki?

Dedi:

– Yox, aj dəyiləm.

– Susuz dəyilsən ki?

Dedi:

– Yox.

– Ala, bir yerdə yatax açasan yatax.

Qəri gətirib bir yastıx aşdı. Kərəm keşdi yatdı. Qəri də bir tərəfdə yatıb.

---

[50] Muntaha- nəticədə, amma

[51] Bir növ fənər

– Qəri nənə.

– Bəli.

– Bəs sənin oğlun, qızın, gəlinin?

Dedi:

– Hammısı var idilər, şəhərimizdə toydu, gediblər toya. Mən bu evdə gözdəkçiyəm. Sən yat, işin olmasın.

Kərəm yata bilir? Narahand, gücünən tapmışdı Əsli xanımı. Genə dübarə aşır o üzə, aşır bu üzə. Qəri birdən durdu:

– Oğul.

– Bəli.

– Oğul, axı niyə yatmırsan? Xudayi-nəkərdə[52] bədənində yara, zəxmi olsa yaxçı əlimdən gələn məlhəmdi dürüst eliyəm. Libasın kəsifdi, çıxart ver, əvəz eliyim, yüyüm.

Dedi:

– Nənə, yox, heş biri dəyil. Mənim beş-on kəlmə sözüm var. Bir balaca sazım da var. İndi icazə versən, mən o sazı bir danışdıram. Sənin üçün beş-on kəlimə oxuyam, ondan sonra yatax.

Qəri dedi:

– Nə eybi var, çox xoşum gələr aşıxdan. Oxu, amma mən sənə deyirəm ki, ginə[53] tikrar[54] verrəm ki, amma Ziyad xan oğlu Kərəm olmaya, o şərtinən.

Dedi:

– Yox, nənə. İcazə buyur.

Kərəm sazı köynəgindən çıxarıb, qəri sazı görüb gözlər firiləndi.

– Oğul, sən aşıxsan? Aşıx olduğunu mənə diyəydin. Şəhərin bir tərəfində bir yaxçı toy var idi, göndərərdim orda sənin yaxçı ənamın olardı.

Dedi:

---

[52] Allah eləməsin!

[53] Yenə

[54] Təkrar

– Mən ənam əhli dəyiləm, dərd əhliyəm. İcazə buyur.

Görək nə dillərinən qarıya yalvarır. Ərz eliyim, əziz və möhtərəm eşidənlərin hər yerdə ki vardılar, hamısının sağlığına:

Başına döndüyüm, ay qəri nənə,
Qəri nənə, mən də sənə yalvarım.
Mənim əlim hər tərəfdən üzülüp,
Aş götürüm, o Yaradana yalvarım.

– Bərəkallah, oğlum. Sağ ol, yaşıyasan. Doğurdan yaxçı oxursan, yaxçı avazın var, yaxçı səsin var. Amma oğul, mənə yalvarmaxdan sənə heş zad olmaz. Gələ, o kəsi ki bizi yox yerdən xəlq eliyip, ona yalvar.

– Ha, ana, icazə buyur.

Kərəm diyər, mən naçaram, mən naçar,
Ay qəri nənə, ağlasam göz yaşım Ceyhunu keçər.
Diyəllər ki, yar düyünün yar açar,
Mən də gedim Əsli yara, nazlı yara yalvarım.

Belə diyəndə qərinin rəngi saraldı. Gözlər həlqə vurdu.

– Oğlan, necə yani Kərəm? Mən sənə dedim, əgər Ziyad xan oğlu Kərəmsən, adın Kərəmdi, mənim mənzilimə gəlmə. Ay, dur, mənim öyümdən çıx. İndi Xudkar paşanın xəbəri olar, mənim bu sovmə evi başıma xarab eliyər.

Kərəmin gözləri doldu yaşınan:

– Ay nənə, mən Kərəm dəyiləm. Ziyad xan oğlu hara, mən hara? O Gəncədə qalıb. Mənim elə adım Kərəmdi. Bir kələmə adımı qoşqu verdim onun adına. İcazə buyurginan sözümün təxəllüsünə qulaq as!

Kərəm diyər, dərdim dönüb meşayə[55],
Nənə, sadam düşüb çahar güşaya.
Tamam hər yanda mənim adım, səsim,
Namə yazım o Xudkar paşaya,
Kəsim yanın, yana-yana yalvarım.

---

[55] Meşəyə- dərdim meşə kimi sıx olub mənasında

– Ay nənə, bir dənə namə yazam o Xudkar paşaya, yana-yana yalvaram görəm mənim məşuqəmi verəllər mənə.

Qəri hər bir hal bilən, dil bilən bir qəri idi. Qərinin gözləri bahar buludu kimi doldu yaşınan:

– Oğul, qurbanın kəsim, bəs sən düz danış görüm Ziyad xan oğlu Kərəmsən?

Dedi:

– Ana, Allahdan gizlin dəyil, səndən nə gizliyim? Mən Ziyad xanın oğlu Kərəməm. Neçə muddətdi, on yeddi, on səkkiz aydır bu şəhirdə gəzirəm. Bəlkə Əsli xanımı, öz məşuqəmi tapam. Tapa bilməmişəm. Oyün tapmışdım ki, yenə dübara itirmişəm. İndi bir nəfər gəzirəm ki, o Əsli xanımın mənzilini mənə nişan verə.

Qəri ahı-nahadından çəhdi. Moğeyi cavannıx yadına düşdü. Gördü bəli, eşq aləmi çətindi.

– Ay oğul, qurbanın kəsilim! İndi mən bəs ölümümü aldım nəzərimə. Xudkar paşa bilsə sən bizdəsən, mənim koməmi başıma xarab eliyəcək. Mən səni indi aparram, eynən birbaşa tapşırram səni Əsli xanıma.

– Nə cür?

– Səbr elə indi diyərəm. Sən dur ayaq üstə, daşıyam bir dənə çarşəbdi. Yəni eşqin yiyəsisiz. Mən diyərəm bu mənim qızımdı, dişi ağrıyır. Əlbəttə, xob, Qara Məligin də xanımının yaxşı səriştəsi var diş çəkməgə. Diyərəm, dişi ağrır, gətirmişəm. Bunu sən baxasan görəsən bu qız nə üzük atır, nə bir şey. Görəsən, hansı dişidi. Onu çəkəsən biz də rahat olax, bu qız da rahat ola.

Dedi:

– Qəri nənə, eybi yoxdu.

Yerindən durub. Bəli, çarşab örtüb, qəri qabaxca, Kərəm bunun dalıycax. Gəlirlər Qara Məligin qapısının ağızına. Qapını döyür, nə vaxtın isvi-şəb keçib. Əsli xanım gəlir, qapını açır. Kərəmin gözləri nagah Əsli xanım görüb. Özün bir cür,

bir təhər saxlaşdırdı. Az qaldı ki, yıxılsın gözünün qabağı qaranqulux vurdu. Özün itirdi. Qəri bir belə baxdı, gördü pəh, oğlanı harda qoyub, harda axtarırsan?

– Cavan, nə xəbərdi?

– Qəri nənə, xeyir olsun. Gejənin bu muğlası əcəb gəlibsiz?

Dedi:

– Xanım, xeyirdi inşallah. Bu qızın dişi ağrır. Gətirmişik sənin anayın səriştəsi var. Görəsən, hansı dişi ağrır, onu çəkər.

Dedi:

– Eybi yoxdu. Bəs buyurun, gəlin içəri.

Bəli, keçiblər içəri.

– Salam.

– Əleykümə salam.

– Ana.

Dedi:

– Bəli.

Dedi:

– Ana, qəri nənənin qızının dişi ağrıyır. Gətirib, sən onun dişinə baxasan, görəsən, hansıdı? Dava vurmalıdır vurasan, çəkməlidir çəkəsən.

Dedi:

– Nəyi var? Keçin gəlin içəri.

Keçdilər içəri. Amma indi Kərəmin dişi sanılı, hamısı sədəf kimi.

– Qızım, Əsli, Qara Məlikin o üz otaxda dişkazı var, kəlbətini var. Onu gətir görək bu qızın hansı dişin qurt yeyip, ya qaralıp çəkim.

Əsli xanım laçın sonalar kimi tərpənir. Hərənin bir cüt gözü var. Dört göz də satın alıb baxar. Tərpənişi, boynu-buxunu var. İxtiyarı əldən çıxıb baxır. Tərpənib o üzdən dişkazını gətdi:

– Ana, buyur bu kəlbətin, bu da ki qərinin qızı.

Kərəm dedi:

– Nənə.

– Bəli.

Dedi:

– İcazə buyurarsan ki, mənim bir kəlmə sözüm var, ərz eliyəm?

Dedi:

– Qızım, nə eyibi var? Nəmənə sözün var, de, eyib eləməz. Deginən. Utanma! Burda ki bir qəribə yoxdu, hammımız zənən xəlqi. Sözün var, de, utanma!

– İcazə buyur, ərz eliyim.

Kərəm, götürsün görək nə cür söhbət eliyir, nə deyir, nə hiss eliyir? Mən də ərz eliyim eşidənlər sağ olsun:

Başınə döndigim, ay qəri nənə,
Tamam bax, qullar mənim ilə yamandı.
Axtarır gözlərim, görmür Əslini,
Məgər mənim gözüm quslu[56] dumandı.

Dedi:

– Qızım, budur Əsli xanım oturub sənin yanında.

– Necə ki, məgər mənim yanımda? Mənim gözüm üsdü dumandı.

Əsli xanımdı bunun yanındakı.

– Qorxma! Əgər dişin ağrımasa, çəkmiyəcəyəm. Mən bilirəm diş ağrısı səni kirixdırdı, bu sözləri deyirsən.

Bəli, qız tərpənib o tərəfdən kəlbətini verdi anasına. Anasi axtarıb bunun dişdərin baxdı gördü hammısı ağappax sədəf kimidi:

– Qızım, sənin dişlərini heş qurt yemiyif.

Gazı salıb bir sağ dişinə yalannan bir fişar verdi.[57]

– Ay nənə, icazə buyur bir kəlmə də sözüm var, ərz eliyim.

---

[56] Quslu- yuyulmuş
[57] Fişar verdi- sıxdı

Qəri nənə, çəkmə dişim amandı,
Görmiyəsən diş ağrısı, yamandı.
Sən qocasan, sənin gözün işləməz,
Qoy, Əsli gəlsin ağ əlləri fərmandı.

Burda Məryəm xanım güldü. Dedi:

– Qızım, Əsli, bu qız düz deyir. Bax, cavansan sənin gözün mənim gözümdən işıxlıdır. Gəl, bu qızın başını al dizinin üsdünə, bax, gör bunun hansı dişi qərəlib, onu çəkək da. Düz deyir da.

Ağa, neyliyip? Əsli gəlir əyləşir, Kərəmin başın alıb dizin üsdünə. Bilmir ki, bu Kərəmdi. Elə bilir elə qərinin qızıdı. Əyilip ki, bəli Kərəmin dişlərinə baxsın. Qərinin qızının diş yerinə baxır, bu tərəf, o tərəfdən. Dayanıb oğlanın ağzına, oğlanın az qaldı ki, huş başından getsin.

– Ana.

– Can bala, nəmənədi?

Dedi:

– Ana, bu qızın bir dənə dişi qərelmiyib.

Kərəm də ki başını qoyub Əslinin dizinin üsdünə. Razıdı bunu öldürəllə burda, başı Əslinin dizinin üstündə, amma başını dizinin üstündən götürməyəcək.

Anası dedi:

– Bir də bax, diqqətinən.

Əsli xanım bir də əyilib baxdı. Döşdər o tərəf, bu tərəfdən Kərəmin sifətindədi. Dedi:

– Vallah, mən bunun dişlərində qərələrin-zadın görmürəm.

Kərəm baxdı, gördü bunun başını götürücək qoya yerə. Dedi:

– Xanım, ixtiyarım var, bax o dişin ki var, azadə bir dişim var ağrır. Salim dişdi bax hamısı.

Çün razı dəyil başını Əslinin dizinin üstündən götürə. Kəlbətini salıb, gəzi saldı dişə, fişar verib sah dişi gətdi çölə.

– Qızım, dur əyax üsdə. O diş idi. Sən sağlıx verdin, onu çəkdik.

– Ay nənə, iştiba çəkibsən mənim dişimə. Şah dişimi çəkibsən, o ağrıyan diş onun yanında qalıb.

Çün razı dəyil ginə Əslinin dizinin üstündən başını götürə kənara. Diqqətinən baxır Əslinin sifətinə, üzünə. Dişləri indi sədəf kimi düzülüb. O vəxtlər nanə yarpağı kimi gözləri nərgizi-şəhla, oğlan az qalır huşdan çıxır.

– Qızım, elə dişigi nişan sən vermişdin, mən də elə onu çəkmişəm.

Dedi:

– Nə iştibahdı çəkibsən.

Gazı salıb, barmağından nişan vermişdi. O dişi yenə bir dənə ayrı dişi çəkdi.

– Ha, qızım day dur əyaq üsdə. O sən diyən dişi çəkdim.

Dedi:

– Ana, vallah, iştibah çəkibsən. Sən baba, mənim o ağrıyan dişimi çəkmədin. sən mənim saf dişlərimi çəhmisən.

Harda? Razı dəyil başını götüsün dizinin üstündən.

Ağa, o diş dəyil, o birisidi. O dəyil, o birisidi... Beləliklə, on altı belə diş, yəni otuz iki dişin bir sıraki alt tərəfdə on altı dənə diş idi, hammısını çəhdi.

Ərz eləmişəm, xatirimizdə olsa navarların birində o zaman Ziyad xan bəylərbəyi iki dəsmal almışdı. Biri Əsli xanımın yanında idi. Biri də ki, Kərəmin yanında idi. Hətta Əsli xanım dəsmalını vermişdi yolda bir qəriyə, Kərəm ki, o dəsmalı oxşadı. Həman dəsmalı qərinin başında götürüb, yollanmışdı. Dəsmal cibində idi. Əl aparıb cibinə, dəsmalı cibindən çıxartdı. Basdı ağzının qanına. Ağzının qanın tərini rədd eləsin. Əsli birdən gözləri nagah sataşıb öz dəsmalına. Fəryad vurub:

– Ana, evin xarab olsun, inşallah. Mənim söygülüm Kərəm imiş gəlib. Sən bədbəxt elədin bunu, qoca elədin.

Kərəmin başın qoyub yerə. Məryəm xanım ahı-zarı delədi.

– Qızım, mən nə bilim Kərəmdi, Kərəm dəyil. Əşgar gələydi, niyə gizdin gəlir? Niyə bu cür ola?

O qəri də buların işinə mətəl qalıb. O qəri ki bunu gətirib özünə qız deyib.

Bəli, o qəri də mətəl qalmışdı o tərəfdən. Kərəmin başın qoydu yerə. Durdu əyaq üsdə. Dedi:

– Bəs qızım indi ki belə oldu. Bu oğlanı biz bədbəxt elədik.

Baxdılar, gördülər bu elə Kərəm imiş.

– Xob, qızım, dur əyaq üsdə. Qara Məlikin o üzdə diş dəvası var. O diş dəvasını gətir vurax, bunun dişinin yerləri sakit olsun.

Dedi:

– Ay xanım, mən namərdin heş muqinə aşın mən davasın dişimə vurram?

Yüz namərt bir yana, bir mərt bir yana, yüz namərttən genə bir mərt yaxşıdı.

Namərd təbib olsa getmə dərmana,
Namərt dərmanından ölmax yaxşıdı.

– Mən onun dərmanın dişimə vurmaram. Mənim danışığım, sözüm, kəlməm hammısı dərmandı. İcazə buyur, bir kəlmə də sözüm var, ərz eliyim.

Deyir:

Ha gedərəm, dağlar mənə daldadı,
Anam ağlar, bacım gözü yoldadı.
Özüm irəlidə, qəfləm daldadı,
Mənim sözüm, yüküm hil-müxəhdi, dərmandı.

Dişləri bir dənə-bir dənə götürüb atır ağzına. Əlbəttə, diyərlər hər diş öz yerində bərqərar. İndi bir yol Əsli xanım neyliyip? Yeridən durub.

– Bəs qızım, dur əyax üsdə. Bir qədər aş dürüst elə, gətir bu Kərəm işsin.

Əsli xanım yerindən durub, çün Kərəmin ağzının qanından qətrə-qətrə atılıb Əslinin üzünə. Əslinin sifət ağ, qan qırmızı. Elə bil ağ parçanın üstündə gül xal eliyibsən.

– Dayan, mən sənin üzündə xal görməmişdim. Amma dayan, neçə kəlmə sözüm var. Deyim, ta onnan sonra görək mən aş işməliyəm, ya işməli dəyiləm.

Bu sözləri ərz eliyir, tamam eşidənlərin sağlığına. Aşıxlıx elmində belə bir şərt var, aşıx başdıyanda divanıynan başdıyar. İkinci, hədisnən başdıyar. Üçüncü, el havasıynan başdıyar. Mən də üçündən birini sizin nəzəri-diqqətinizə çatdıracam:

Ələstidən "bəli" dedim, əcəb xoşhaldı yüküm,
Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm.
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Zəhmətdə zəhri-həlahil, ləzzətdə baldı yüküm.

Nütfəsində əyri olan tez göstərər isbatın,
Hər ağac kökündən bitər, hər meyvə gözlər zatın.
Hərcayı hədyana sayar, naşı bilməz qiymatın,
Əhli-irfan məclisində gövhər misaldı yüküm.

Biçarə Aşıq Ələsgər, sığın Şahi-Heydara,
Onun damənindən tutan məhşərdə yanmaz nara.
Pirim mana nüsrət verib, bu gün çıxdım bazara,
Sən sərrafsan, aç xırd elə, bax gör, nə maldı yüküm!

Dastan həman yerdədi ki, Əsli xanım yerindən durub, Əsli xanımın anası deyir, Kərəmə aş süz gətir. Bu da kı deyir, canım, mən namərd aşını işmərəm. Kərəmin qanından ağzının qanı açılıb Əslinin üzünə. Amma üz ağdan qırmızı. Oğlan odur ki, deyir:

Sövdücəgim düşüb yola,
Yol qırmızı geyinipdi.
Ağ üzündə qoşa-qoşa,
Xal qırmızı geyinipdi.

Dübarə sözü belə desin, mən də ərz eliyim tamam eşidənlərin sağlığına:

Görginən fələgin işin,
İşmərəm namərdin aşın.
Çəhdirdin Kərəmin dişin,
Dil qırmızı geyinipdi.

Bəli, sözün o birisin də belə desin, ərz eliyim:

Haşa, sövdücəgim, haşa,
Yazılanlar gəldi başa.
Ağ yanaxda qoşa-qoşa,
Xal qırmızı geyinipdi.

Ağa, söz tamam oldu. Amma Məryəm xanım dedi:

– Qızım, mən belə baxıram Kərəm Qara Məligin aşından-zaddan heş birindən istifadə eləmiyə, işməyə. Amma sizin də mənim yanımda, danışığız, söhbətiz heş cür düz gəlmir. Neçə otağımız var ki, üç dənə otax bir-birinin içindədir. O bir otaxdaki bir otax var. Oranı verdim sizə, gedin orda əyləşin, deyin, gülün, danışın ta, Qara Məligin xəbəri olana kimi.

İki aşıqi-məşuq xuraman-xuraman əl-ələ veriblər. Otaxlardan keçdilər. Bir dənə də kəniz götürüblər özlərinnən ki, bu aşiqlərə qəhvə-qəlyan dürüst eliyə. Keçdilər otağa, Kərəm bir nəzər saldı otağa. Gördü, bəli, hər şey öz yerindədir. Amma bir şey yoxdur burda. Dedi:

– Xanım.

Dedi:

– Bəli.

Dedi:

– Xanım, sən ölmiyəsən, bu otağın hər bir şeyi dayırdı[58], amma bir zat burda yoxdu, kəmdi.

– Nəmənədi, söygülüm?

---

[58] Dayırdı- hazırdı

Dedi:

– Söygülüm, mən gərək sözü sazınan deyəm. Dil cavabı diyə bilmərəm.

Kəniz bir guşədə dayanıb, Əsli xanım da kı bir guşədə dayanıb. Yeddi qələmdən də özünə məşşatə[59] gəlib.

– Nəmənədi, söygülüm? De, eliyim.

– Dayan, ta ərz eliyim da.

Başına döndügüm, ərməni qızı,
Mina boylum, dur, qəlyanı çağ eylə.
Qaradı qaşdarın, aladı gözün,
Mina boylum, dur, qəlyanı çağ eylə.

Əsli xanım göz götürə bilmir Kərəmdən. Səsləndi kənizə:

– Ay qız, bir dənə qəlyan çağ elə gətir bura!

Kəniz də bu iki aşiqi-məşuqə baxır, o da heyran qalıb bulara. Tərpəndi. O üz otaxdan qəlyanı götürüp, nəyinki məsələn, əvəzidi ki suyun əvəz eliyək, ya üsdünə tənbəki qoya, ya bir but yandıra. Qəlyanı gətirib fovran göylündən otağın masasında qoydu yerə. Genə çəkildi kənarda, boynun burub, bulara iki aşiqi-məşuqa tamaşa eliyir.

Kərəm gördü qəlyan gəldi. Amma qəlyanın nə odu, nə suyu, nə tənbəkisi, heş zadı yoxdu.

– Ha, söygülüm, kəniz gətdi qəlyanı. Mənə icazə buyur, Kəniz qəlyanı gətirib, vəli dilini bilmədi də.

Dayan deyim:

Əkdim tənbəkini, xanım, verdim pulunu,
Qorxuram yel əsə, tökə gülünü.
Axı, kəniz bilmir bu qəlyanın dilini,
Mina boylum, dur qəlyanı çağ eylə.

Əsli dedi:

– Məgər qız, qəlyanı gətimiyibsən?

Xanım:

[59] Bəzənməyə işarədir

– Budur, qəlyanı gətirmişəm, burdadı.

Amma Əsli xanım gördü, bəli, kəniz gətirib qəlyanı.Vəli çağ eləmiyib qəlyanı gətirə. Özü yerindən durub, fovran qəlyanı götürüb apardı, o üz otaxda üstünün tozun sildi. Kəniz də o moğeyə kimi bir manqal mil kömürü yandırıb, gətdi qoydu otağın vəsətində. Naqqaşı qoydu yanına. Amma o tərəfdən gətirib kəniz qəlyanı, Əsli xanım da aparıb o üzdə genə qəlyanın tozun aldı. Suyun əvəz eləməsin yadından çıxdı. Suyu sarı qaldı. Gətirib qəlyanı vəsət otaxda qoydu yerə. Kərəm bir belə baxdı, baxdı gördü, hə, Əsli xanım tələsib gənə. Çün tez qəyidib. Kərəmin gözün içindən gözün götürə bilmir. Tez qəydib otağa, suyun əvəz eləmiyib.

– Xanım.

– Bəli.

– Bax, o qəlyanın genə iradı var.

– Axı, nəmənədi?

– İcazə ver, ərz eliyim.

Bahar olcax, dağlar dolar xəzələ,
Gözüm düşdü, Əsli, sənin kimi gözələ.
Xanım, o qəlyanın suyun təzələ,
Mina boylum, dur, qəlyanı çağ eylə.

Kəniz yerindən durub. Baxdı, gördü, bəli, Kərəm düz deyir ki, qəlyanın suyu sarıdı. Bəli, keçib o üzdə qəlyanın suyun əvəz elədi. Taza su töküb, qəlyanı çağ elədi. Gətirib, bəli, qoydu otağın vəsətində. Kəniz də ki, bir manqal, bir kömür gətirib. Naqqaş da bəli, manqalın yanındadır. Ağa, indi bir dənə Əslinin gözü Kərəmdədi. Əslinin gözü Kərəmdə, naqqaş da kı kömürün yanındadı. Amma o qədir ki Kərəmi sevir, o qədir ki, aşiq olublar bir-birlərinə, qız gözün Kərəmin gözün içindən götürə bilmir. Əlinnən isdiyir kömürün götürə qoya tənbəkinin üsdünə. Kərəm gördü, ay dadi-bidad, Əslinin əlləri nazik, kömür də isti. Əllərin yandıracax.

– Xanım, əl saxla, bir kəlmə də sözüm var. Deyim, ondan sonra başımızın qəzasına.

Ayağının qurbanı, getmə, gəl, otur,
Təkəbbur eyləmə, tənbəki gətir.
Od əlin yandırar, xanım, maşanı götür,
Mina boylum, dur qəlyanı çağ eylə.

Əsli bir belə baxdı. Baxdı, gördü düz deyir. Naqqaş manqalın yanında. Bu isdir əlinnən kömürü götürüb qoysun qəlyanın üsdünə.

– Xanım, əllərin nazikdi, qurbanın kəsilim. Əlini yandırma, canım.

Amma naqqaşı götürüb, noy kömüründən götürüb qoydu tənbəkinin və qəlyanın üsdünə. Bala-bala məşguldular. İsdirlər tərif elələr bir-birilərinə.

– Xanım, bir kəlmə də sözüm var. İcazə buyur o bir kəlməni də ərz eliyim.

Əkdim tənbəkini guşəbəguşə,
Qorxuram yel əsə, yarpağı düşə.
Badgiri[60] gümüşdü, milabı[61] şüşə,
Mina boylum, dur qəlyanı çağ eylə.

Əlbəttə, Əsli xanımnan Kərəm, hər iki aşiqi-məşuq xuraman-xuraman qəlyandan meyl eliyirlər. Amma bu kəniz də buların yanındadır. Bu iki aşiqin hərəkətinə, danışığına, söhbətinə elə heyran qalıb ki, heç əslən əğil az qalıb başından çıxa. İndi bəli, gecədən neçə saat gedib. Kənizi də bura xəstə eliyiplər.

– Əsli xanım, indi bir yol istirahətdıx vəxtidi. Rəxti-xab açasan, beş dəqiqə istirahətdıx eliyək.

Əsli xanım yerindən durub, rəxti-xab açdı. Rəxti-xaba ətri-gülabı səpib, amma Kərəm bir gəldi Əsliyə sarı. Diqqətinən üzünə baxıb, istədi qol salsın boynuna. Gördü Əslinin

---

[60] Badgiri- sulu qəlyanın yel alan hissəsi
[61] Milabı-sulu qəlyanın suyun içərisinə düşən borusu

üzündə bir dənə nəxun[62] yeri var. Dedi, hə, ay dadi-bidad, bu hətmən gedib Xudkar paşanın oğluna, yaniyki, özünə bunun üzündəki bu zəxmi-nəxun yeri, piş yeridi. Belə nəzərinə gəldi. Qollar susdanıb, rəng saraldı, diz titriyir. Dedi, hə, mənim məşuqəm mənə xiyanat eliyib. Əsli belə baxdı, baxdı gördü Kərəmin halı əvəz oldu. Dedi:

– Bəs söygülüm, niyə narahand oldun? Halın niyə əvəz oldu?

Dedi:

– Xanım, sən mənə çox xiyanat eliyipsən.

Dedi:

– Necə?

– Mən ki sənə qeyzliyəm. Mən sənin eşqindən, fəraqından qeyri-azın narahatçılıq olsun, ayrı gün görməmişəm. Xanım, sən mənə xiyanat eliyibsən. Dayan, neçə qatar söz gəldi sinəmə, ərz eliyim, bilginən.

Əsli qulaq asır, Kərəm də narahand bu sözləri deyir:

Gəncə bəylərinin ötərgisiydim,
Çıxmışdım şikara, məni quş vurdu.
Tapşırram İncilə, tapşırram Xaça,
Hər kəs mənim əyağıma daş vurdu.

Əsli dedi:

– Mən bu sözlərdən baş tapmıram, Kərəm. Axı, mən sənə neynədim? Sən o cür narahand oldun?

Çün Əslinin üzündə naxun yerin görüb bu sözləri ürəginə gətirir. Küsüb, narahand, otağın guşəsində dayanıb bu sözləri deyir. Dübarə sözü belə desin:

Qaradı qaşların, gözəl, xaldı arası,
Bir dərdə salıbsan ki, yoxdu çarası.

---

[62] Nəxun/ naxun-dırnaq

Məndə yoxdu qılış, niyzə yarası,
Ox kiprigin ürəyimə niş[63] vurdu.

Dedi:

– Əgər Kərəm, mənim qaşdarım, gözdərim qara olsa, səndən ötür bir iftixarımdı. Axı, bu sözləri mənim əyağıma niyə yaxırsan, canım? Sənə nə oldu, niyə narahand olubsan?

Dedi:

– Mənə çox xiyanat eliyipsən. Dayan, deyim da.

Əsli xanım, matahını satıbsan,
Yaddarınan aşnalığı qatıbsan.
Hər kəsinən oynuyubsan, atıbsan,
Ötüb onun matı səni şeş vurdu.

Ağa, bu sözləri deyəndə Əsli gedə-gedə narahand olur.

– Axı, canım, mən sənə neynəmişəm? Bayaxdan danışırıq, deyirik, gülürük. Birdən sənə nə oldu axı?

Amma Kərəm yinə dedi:

– Sən mənə çox xiyanat eliyipsən. Dayan, sözümün əvvəl-axırına qulaq as.

Kərəm diyər, mənim dərdim bollandı,
Miras maldı, hər kəs yedi sallandı.
Şamamam dərildi, tağım əlləndi,
Keşiş oğlu aliğıva diş vurdu.

Belə diyəndə Əsli xanım az qaldı bağırı çatdasın. Ürəgindən bu keçdi. Çün Əsli xanım o zaman ki Kərəm Ceyhuna düşəndə əlin atıb üzün-gözün dağıtmışdi, narahand olmişdi, atası kötəkkarrıx eləmişdi. O moğe ki, əlin atıb üz-gözün dağıdanda, dırnağının yerindən bir müxtəsər üzündə yarasından qalmışdı. Kərəm belə ehsas elədi ki, bəli, keşişin oğlu bunu alıb. Şayad bunun üzündə iz yeri var. Oydu, narahanddı. Sazı götürüb isdir otaxdan çıxsın, acıx eləsin getsin. Əsli xanım kəsdi qənşərin:

[63] Niş-neştər

– Mənə töhmət vurubsan. Mənə bu cür sözlər deyibsən, quymaram gedəsən. Üş kəlmə sən mənə töhmət vurdun. Dayan, üş kəlmə də mənim sözüm var. Deyim, ondan sonra sağa gedirsən get, sola gedirsən get.

Əsli xanım götürsün görək Kəramin sözlərinin cavabında nə desin, tərəfimdən ərz eliyəm sizə can sağlığı:

Canım Kərəm, sənin əğilin yoxumuş,
Əğlin olsaydı, sən Gəncədə xanıdın.
Uymazıdın mən Əslinin felinə,
Gəncə gözəllərindən birini alardın.

– Ha, mən elə bu cür felbazam. Sən oynatdın, gətdin, indi də sənə gəlmirəm.

Ağa, Kərəm istədi otağdan çıxsın, gənə kəsdi qənşərin:

– Canım, sən mənə töhmət vurubsan. Dayan, sözün cavabın təvil al.

Ağa, Kərəmin az qala bağırı çatdıya. İndi diyəm çünki deyir, "sənin əğlin yoxumuş, əğlin olsaydı sən Gəncədə xan olardın, uymasaydın mən Əslinin felinə, Gəncə gözəllərindən birini alırdın". Mənim bir belə malım, əmlakım, qarayətim, Lələm əlimdən gedə bir qızdan ötürü. İndi bir yol bula, bu mənə bu sözü diyir. İsdiyir otaxdan çıxsın. Dedi:

– Dayan, bir kəlmə də söylüyüm.

Neynədin bədovları, neynədin quşdarı?
Hardan oldun mən Əsliyə müştəri?
Niyə çəkdin o inci, sədəf dişləri,
Mənnən ötür niyə qoca olurdun?

– Mən elə bu gündəyəm də.

– Hə, sən indi o dişlərini də çəhdirdin. İndi də sənə əslən gəlmirəm.

Harda Əsli xanımın qəlbi dönmüyüb, vəli Kərəm buna töhmət vurub. O da cavabında bu sözdəri deyip. Yenə istədi otaxdan çıxsın. Dedi:

– Sən mənə üç kəlmə, dört kəlmə deyibsən. Dayan, bir kəlmə də sözüm var. Deyim, ondan get.

Ay ağalar, ölüm həxdi yetəndə,
Göylün quşu pərvaz eylər vətəndə.
Qara Məlik şir məkandan ötəndə,
Onda mən də sənin tərgin qılırdım.

– Qara Məlik şir məkandan keçəndə, mən baxdım elə sən bu cür qəlbi qara adamsan. Mən onda elə sənin tərgini qılırdım. İndi ki yaxçı oldu, xoş gəldin, hər yana gedirsən get.

Kərəm sazı götürüb otaxdan çıxır. Ağa, üz tutub getməgə. Amma elə bil ki, əyaxlarını qoyub Əslinin ürəginin başında yerigir. Kərəmin də getməyi gəlmir. Vəli çün Əsli də bu sözdəri cavabında deyir. Ta dayanmağı da gəlmir. Ayax tutduxca yeriyir.

Kərəm Əsli xanımdan küsür. Yəni söygülüsündən küsüb, otaxdan çıxıb. Neçə töhmətdi sözlər eşidir. Yolu qatıb qabağına getməgə məşguldu. Əsli xanım gəldi anası Məryəm xanımın yanına.

– Ana, Ziyad xan oğlu acıx elədi, gedir, bax. Odur, gedir.

– Qızım, niyə, nə dedin, nə eşitdi? Axı niyə gedir?

Dedi:

– Vallah, elə bir cür sözümüz pəşi pis gəldi. O idi ki, acıx elədi getdi.

– İndi ki belədi, bəs ol. Bəs bu iş əsdən əvvəldən sizin işiz cür gəlmir bala. Məndə təxsir yoxdu. Mən sizi Qara Məlikdən gizlin salmışdım o otağa. Qara Məlik bilsə mənim dədəmi yandırar.

Çıxıb gördü, bəli, gedir. Səsləndi, Kərəm əvvəl dayanmadı. Sonra qeynənəsinin ədəbini basmıyıb dayandı. Çiyninin üstündən baxdı-baxdı, gördü bəli, Əsli də Məryəmin yanında dayanıb:

– Oğlan, söygülü arasında bu sözlərdən çox olar. Ayə, gilayəz[64] də olsa, eybi yoxdu, qəyit, gəl.

[64] Gilayəz-giley-güzar

Qəyitmədi, amma bu dillərinən Məryəm xanım Kərəmə söhbət eliyir qəyidir, ya qəyitmir. Ərz eliyim, tamam eşidənnərin hamısının sağlığına:

Gedən getmə, mən də gəlim yetirim,
Sən ol abdal, mən kəşkülün götürüm.
Çıx eyvana, sənə çaşdar yetirim,
Aman Kərəm, məni rüsvay eyləmə!

– Gəl, məni rüsvay eyləmə. Söygülü arasında bu sözdərdən, bu gileydən olar. Qəyit.

Oğlan qəyitmir. Dübarə belə deyir:

Ağa Kərəm, Mirzə Kərəm, xan Kərəm,
Ataş Kərəm, tüstü Kərəm, yan Kərəm.
Əsli qurban olsun sənə bax, can Kərəm,
Aman Kərəm, məni rüsvay eyləmə!

Amma Əsli xanım da durub anasının yanında. Belə boynun qoyub çiyninə. Ağız-ağıznan baxır oğlana baxır, görən qəyidəcək? Bu elə küsüb getmiyə elə doğurdan. Kərəm də gedir, amma bir əyağı gəlir, bir əyağı gəlmir. Vəli o tərəfdən Əsli xanım töhmət vurub, bu tərəfdən də Əslinin üzündən naxun yeri görüb gilayəz. Narahanddı. Vəli götürsün sözü necə deyir:

Ağ üzündəki kipriklərin san eylər,
El yığışar, gələr bizə dan eylər.
Əgər Qara Məlik bilsə, yəqin qan eylər,
Aman Kərəm, məni rüsvay eyləmə!

Ağa, amma Kərəm qəynənəsinin ədəbini basmıyıb dayandı. Məryəm xanım gəldi, yetişdi Kərəmin yanına:

– Axı, oğul, sən niyə gedirsən? Cəryanınız nə olub? Niyə küsübsən? Axı, sən dərdini mənə diginən.

Dedi:

– Dayan, ərz eliyim də, mən gərək sözü saznan deyəm.

Əsli mənə bir rəhmannıx eylədi,
Əcəb nəsihətdi, əcəb öyütdü.

On bir ildi eşq badəsini işmişəm,
Amma keyfliydim, məni kefdən oyatdı.

Dedi:

– Bəs, Əsli xanım bunu burda deyir. Amma mən səndən xahiş edirəm, getmə, qəyit. Getsən, mən bilirəm siz bir-birinizdən əl çəkmiyəcəksiz, əmmə getmə.

Oğlan indi üzə qalıb, nə qəyidə bilir, nə gedə bilir. Əsli xanım da elə bir təhər füsun, boynun qoyub çiyninə yorğun marallar kimi baxır. Ah-nahadından çəkir, görən elə doğurdan oğlan getmiyəcək ki? Amma sözün əvvəl-axırında Kərəm belə diyir:

İgidin mərifəti, şanı da ondadı,
Uçub göylüm quşu qonhaqondadı.
Neçə əmanətim mənim ondadı,
Get, diginən versin Kərəm, day getdi.

Mənim əmanətdərimi də versin, day Kərəm bir də qəyitməz. Yalvar-yaxar, xahiş-təmanna, oğlanı qəytərib. Amma gətirib otaxda əyləşillər üçü də.

– Balam, sözünüz nəmənə oldu? Düz danışın görüm, siz axı niyə bir-birinizdən küsdünüz?

Əsli dedi:

– Ana, vallah, təxsir bu oğlandadı.

Kərəm dedi:

– Nə? Təxsir məndə yoxdu. Təxsir sənin bu qızındadı.

Dedi:

– Axı, nədi mənim qızımdakı təxsir?

Dedi:

– İcazə ver, mən gərək sazı sözünən deyəm.

Kərəm sazın zilin, bəmin kök eliyip, belə diyir:

Ay ağalar, budur mənim günahım,
Mən demişəm hərcayıdı gələn yar.
Əl-əl üsdə xidmətində durmuşam,
Nə demişəm qulluğunda yalan, yar?

– Əgər mən sənə bir söz demişəm, de da.

Əsli xanım başını saldı aşağa. Bir söz demədi. Hə, amma indi bir yol Məryəm xanım genə bulara diyir ki, eybi yoxdu, söygülülər arasında belə sözlərdən çox olar. Siz heş narahand olmayın. Durun, gedin söhbətizdən məşğul olun. Dübarə sözdə belə deyir:

Bayram olar həna yaxaram dəstimə,
Bilindirrəm düşmənimə, dostuma.
Naşi təbib gəlmə yaram üsdünə,
Özü gəlsin məni dərdə salan yar.

Amma Məryəm xanım genə məzəmmənt eliyir. Kərəm aldı sözün əvvəl-axırında belə desin:

Dədə Kərəm, nə gəzirsən bu dağda?
Siyah zülflər çin-çin olub buxaxda.
Mən görən gül qalmıyıbdı bu bağda,
Məndən sora xanım, niyə verdin palan yar?

Əlbəttə, bu sözü deyir. Əsli xanım genə bildi ki, Kərəm hardan deyir. Amma ginə Kərəmin üzünə salmıyıp. Məryəm xanım dedi:

– Oğlan, bu sözdərdən söygülülər arasında çox olar.

Ağa, buları dübarə barışdırır. İndi bir yol hər iki aşiqi-məşuq xuraman-xuraman gedillər otağa sarı. Amma gilayəz eliyirlər bir-birlərinə. O deyir, təxsir səndəydi, bu deyir təxsir səndəydi. Otaxların təqribən vəsətində Əslinin ürəgi yandı. Dedi:

– Kərəm, bəs sənin atın, donun, Lələn, malın, dərayətin necə olub? Sən bu cür şal don geyibsən?

Belə deyəndə Kərəm ahı nahadından çəkdi. Dedi: "Bura bax, mən bunun fəraqından, eşqindən tamam mal qərayətimi əlimdən vermişəm. Bu hələ taza mənə deyir ki, hə, sənin libasın bəs niyə belədi?" Ağa, gəlmax isdiyir bu otaxdan qəyitsin, vəli qəyitmir. Dedi:

– Xanım, indi sən bilmədin ki, mənim libasım, donum bu cür işğal olub? Dayan, ta ərz eliyim, sənin eşqindən, sənin fəraqından ta belə olub.

Əsli xanım, vallah, sənin dərdindən,
Tamam dağlar eşidibdi ünümü.
Bir ilahi lütfü kərəm eyləsə,
Vətən sarı qəytərginən yönümü.

Day Əsli xanım bu cür töhmətdi sözdərin eşitmiyib. Əsli xanım dedi:

– Odur ki, mən səndən söz xəbər aldım. Dimədim ki, sən acıq eliyəsən. Qərib, sən də küsəgən oğlansan.

– Ha, xanım, dayan, bilmiyibsən.

Kərəm diyər, həzin-həzin ağlaram,
Dərtlilərin ürəgini dağlaram.
Kimə gedib axı, kimə umut bağlaram?
Qərib qaldım, güldürən yox, gülən yox,
Bu gözümün bir yaşını silən yox.

Əsli xanım qol salıb qoynuna:

– Oğlan, mən sənə elə demədim narahand olasan.

Ağa, indi bir yol gəliblər xuraman-xuraman otaxda, amma Kərəm də bir yol ginə küsüb. İndi Əsliynən danışmır. Bir qədər o gün əyləşiblər otaxda. Kəlmə verib, kəlmə almırlar. Amma Əsli qəyitdi bunu dedi:

– Xob, sən deyirsən tamam dağlar eşidibdi sənin eşqindən ünümü. Sən də bu töhmətdəri mənə vurursan? Deyirsən ki, sənin üzündə o naxun yerini sən diş hesab edirsən? Sən ki, o moğe düşdün Ceyhunun çayına, mən zülflərimi pərişan eylədim. Əlimi atdım, üzümü-gözümü dağıtdım. O dırnağımın yeridir ki, sənin fəraqından, eşqindən. Hətda atam mənə çox kötəkgarrıx elədi sənin üsdündə. Ağacın biri başıma dəyib, başım sınmışdı. İndi sən bu töhmətdəri mənə vurursan ki, diyirsən keşiş oğlu nə cür, nə təhər. Bu sözdəri mənə deyirsən?

Belə diyəndə Kərəm bir barmağın dişdədi: “Ay dadi-bidad, mən çox iştibah eləmişəm. İştibah getmişəm”. Bu yol Əsli xanım küsdü. Ağa, Əsli xanım küsüb, day danışmır. Gözəlin neçə vəxtində tamaşa eliyəsən, biri güləndə, biri ağlıyanda, biri küsəndə. Elə küsüb, elə dayanıb ki, Kərəmin çoxlu xoşu gəldi. Kərəm götürüb indi bir yol Əsli xanımın bu cür bu söhbətdərnən göylün alır. Ərz eliyim, tamam eşidənnərin sağlığına:

Aradım Osmanı, gəzdim Muğanı,
Misiri, İstanbulu, Şamı görmüşəm.
Hər yerdə ki adı bəlli gözəl var,
Arayıp, axtarıb hammı görmüşəm,
Amma sənin kimi nazənin gözəl görməmişəm!

Əsli xanım ginə danışmır. Dübarə:

Gözəllər içində diyəllər səni,
Dişin dürdü, gözəl, dodaxların yəməni.
Cənnət cəmalından gəl, ayırma məni,
Səndən ayrılanı dadı görmüşəm.

– Sən Allah üzüyü bir mənə sarı tut. Nazənin, mən iştibah eləmişəm, bilməmişəm.

Əsli xanım ginə də danışmadı. Dübarə sözdə, sözün yahu təxəllüsündə belə desin, ərz eliyim, eşidənnər sağ olsun:

Tərlanın bir adına diyəllər təvar,
Şikara salanda solanı qavar.
Hardan oldun elli, güllü baxtavar,
Mən Yusifi Züleyxanı görmüşəm,
Amma sənin kimi nazənin görməmişəm!

Amma ginə danışmadı. Baxdı, gördü ki, yaman narahand olub Əsli xanım. Dedi:

Hər nə qədər fikr eylərəm,
Əsli yardan gözəl yoxdu.
Allahıma şükr eylərəm,
Əsli yardan gözəl yoxdu!

Amma qız hərdən bir dönüb baxır oğlana. Oğlan dübarə belə diyir:

Əslini söydüm xəlvətdə,
Qədrini billəm əlbətdə.
Dəmir qapılı Dərbətdə,
Əsli yardan gözəl yoxdu!

Amma Əsli xanım bir balaca hala gəlib danışdı. Söz tamam oldu, Əsliynən Kərəm dübarə bir-birləriynən məşquldu danışmağa, söhbət eləməgə.

Bular burda xuraman-xuraman danışsınlar. Sizə hardan ərz eliyək, Xudkar paşadan ki, Kərəmi gəzirdi neçə muddət. İndi Xudkar paşanın bir qızı vardı, adı Nərgiz xanım. Bəli, Çarbağda olardı. Nərgiz xanım əmr elədi ki, hər yerdə adı bəlli gözəl var, hər yerdə ki, yaxçı gözəl var, gərək hammısın namlı gözəllərin yığasan bu Çarbağda. Qırx dənə namlı biz burda təflix eliyək, gəşt eliyək. Hər yerdə bir addı-sanlı, namlı bir gözəl varıdı, ağa, dəvət eliyiplər. Bular gəldilər Nərgiz xanımın dovrəsinə. Vəli bir nəfər xəbər verdi ki:

– Nərgiz xanım, Qara Məligin qızı Əsli xanımın liyaqəti bu bağa var.

Namə yazıblar. Əsli xanım da gərək bu bağda olsun. Amma namədə belə yazmışdı: "Namə yetişən saət kimi gərək gələsən bağa." Ağa, bular ki, taza barışıblar, isdirlər söbət eləsinlər, namə yetişdi Əsli xanıma. Əsli xanım naməni oxuyub, gördü bəli, Nərgiz xanım namədə yazıb ki, "naməm yetişən saət kimi özüyən məşratə verip, bağa gələcəksən." Dedi:

– Kərəm, amma Xudkar paşanın qızının sözüdü. Mən isdiyəm bunun sözünü hədər eliyəm, getmiyəm. İndi mən durram gedərəm bağa, amma sən də. Çün mən gedirəm qırx gün orda qalam. Vəli mən səndən ötrü, sən də məndən ötrü narahand ollux, darıxarıx. Sən də libasuvu əvəz elə, bir saz götür. Mən getdim ki, o bağda Nərgiz xanıma diyərəm mən gəlirdəm,

bir dənə aşıx görmüşəm, dedim gələ bizim üçün burda söhbət eliyə, qəlbimizi, göyülümüzü xoş eyliyə. Onda o mənə bi zat deməz. Sən də durarsan bağın ətrafında bir adam göndərrix, səni gətirər. Vəli indi varid oldun o bağa, nabadə sən adıyı diyəsən, ya mənim adımı diyəsən. Onda Nərgiz xanım ki, paşanın qızı ki olmuş ola, səni tanıyar. Aparallar, verəllər Xudkar paşanın əlinə. Xudkar paşa səni öldürüp, məni narahand eliyər.

Dedi:

– Yox, deməərəm.

Əsli xanım yeddi qələminən özünə zinyət gəlib. Amma Kərəmdən xudahafiz eliyip, indi bir yol yola düşüb, Nərgiz xanımın Çarbağına gəlməğa məşğuldur.

Bəli, gəlib yetişir Çarbağa. Nərgiz xanım peşvaz eliyip Əsli xanımı. Bəli, gətdilər, ərz eliyim bular neçə dənə, qırx dənə qızdılar. Əsli xanım da bir tərəfdə dayanıb. Bu gözəllər hammısı baxdılar Əsli xanıma. Gördülər, insafa çox liyaqətdi bir nazənindi. Bəli, bular bağda, eşit xəbəri Ziyad xan bəylərbəyinin oğlu Kərəmdən. Əsli kim getdi, Kərəm narahand olub yerindən durdu. Libasdarın geyib. Amma özün aşıxlıx cildinə salıb, sazı götürüb asdı çiyninə. Nərgiz xanımın Çarbağına sarı getməgə məşğuldur. Bəli, bir qədər gəlib, az qalıb yetişsin Nərgiz xanımın Çarbağına. Çarbağın qabağında, yani qapısından xeylax kənara bir dənə ərmənilərdən neçə belə donquz otarırdı. Öz dilimiz donquz yayırdı. Bu donquzdar da həmanki idi o zaman. Amma bu ərməni dığası çox pəhləvanıdı. Bir dənə çommağı varıd, yeddi batman vəzni idi. Gördü, bəli, Nərgiz xanım da ki, tapşırmışdı hər kəs bu bağa, bir nəfər isdiyə bağa gələ qoyma gəlsin. Həman oğlan da qol vermişdi ki, day bir nəfər, yani kişi tayfası bu bağın ətrafına qoymuyalar gələ. Bəli, Kərəm istədi getsin Çarbağa sarı, bu ərməni dığası mani oldu.

– Hara gedirsən? Yəni, bura ərkəkdi sənin uğurun yoxdu.

– Ağa, məni dəvət eliyiplər bağa. Mən gedirəm bu bağda o qızdar üçün söhbət eliyəm.

Bu ərməni dığası narahand olub. Dedi:

– Heş belə söbət olmaz. Hə, bax, yalan danışma! İndi ki, sən belə didin, mən gedirəm orda Nərgiz xanımdan xəbər alam. Əgər desə, mən dəvət eləmişəm, canın qurtardı. Yoxsa desə dəvət eləməmişəm, bir dənə çomax vuraceyəm izafə xeyir.

Kərəm gördü yaxçı yerdə dükan açıb, Allah bazar yetirsin. Hə, axırda Əsli xanım bunu ölümə də verəcək. Çomağı verib Kərəmin əlinə, dedi:

– Dur bu donquzdarın qabağında, mən gedim Nərgiz xanımdan xəbər alım.

İndi ərməni dığası bağa sarı getməkdə məşğul, amma Kərəm götürsün görək kimləri imdadına istiyir. Ağa, burdan can sağlığın qurtara bilir, ya yox? Ərz eliyim, tamam eşidənlərin sağlığına:

Dərd yerdə, mən də çağırram səni,
Yetiş imdadıma, ya İsa mənim.
Qərib yerdə qoymur güləm, olam şad,
Susuzub qanıma bu tərsa mənim.

Amma Kərəm çün bu sözdəri deyir, heş kəs də yanında yoxdu. Gözdərinin yaşı tökülür. Dübarə:

Çağırram İncili, həm də Töratı,
Dilimin əzbəridi çün cüməlatı[65].
Çağırram dadıma Latı, Mənatı[66],
Qibləgahım olub ki, kilisa mənim.

Birdən bu sözü diyəndə Kərəm elə bil ki, yatmışdı, oyandı. Axı, mən bir dənə qızdan ötrü öz dinimdən də döndüm. Mən bəs bu sözü niyə dedim? İştibah eləmişəm. Amma

[65] Cümlələri
[66] Qədim ərəb bütləri

Kərəm indi görək kimi isdiyir imdadına. Sözünün təxəllüsündə belə deyir, ərz eliyim:

Arif olan bu sözdəri danmasın,
Beyvafa oduna heş kəs yanmasın.
Kərəm beyçaradı, üzün dönməsin,
Məhəmməd, əlxətmi ənbiyam mənim.

Əlbəttə, indi bir yol çün sözünün axırında belə söhbət eliyib. Kərəm bir yol bu söhbətdəydi, ərməni dığası varid olub bağa. Xəbər aldı Nərgiz xanımdan:

– Vallah, bir aşıx gəlirdi bağa. Mən mane olmuşam, qoymamışam gələ içəri. Ayə, ola sən icazə veribsən gələ bağa? Deyir ki, Nərgiz xanım icazə verib. Ya özbaşına gəlir?

Nərgiz xanım istədi diyə ki, mən icazə verməmişəm, bir az fasilə Əsli xanımın yadına düşdü: "Ay oğlan, olmuya Kərəm ola? Bu ərməni dığası qəyidib gedib ona bir asub yetirə, öldürə". Dedi:

– Nərgiz xanım, o aşığı mən dəvət eləmişəm bağa. Çün eşitdim sən qırx dənə hər yandan namlı gözəl dəvət eliyibsən bura. Mən dedim elə xob, bir aşıx da ehtiyacdı burda bizim üçün söhbət eliyib, bizim göylümüzü xoş eyliyə.

Nərgiz xanım ərməni dığasına dedi:

– Oğlan, yaxşı deyir. Elə bizə bir aşıx lazımdır. Əsli xanım dəvət eliyib, mani olma, qoy gəlsin bağa.

Ordan qəyidib, gəldi bəli, yetişib Kərəmə. Baxdı gördü bəli, Kərəm dayanıb burda amma öz-özünə oxur. Dedi:

– Aşıx gəl, get bağa. Səni öldürəcəkdim, amma qaniyin arasına Əsli xanım girdi.

Gördü bəli, burda bunun yaxçi dərdinə dəydi Əsli xanım. Sazı götürüb yavaş-yavaş üz tutub gəlir Çarbağa. Varid oldu bağa, baxdı bəh-bəh, bağ nə bağ? Behişdi-Rizvan, ağ sular qəltan-qəltan axır, bülbüllər çəh-çəh vurur, hər gül öz məhbubin yad eliyir. Bağın ətrafını gəzib dolandı. Amma gəzə-gəzə gəldi ba-

ğın vəsətdərinə. Gördü bəli, qırx inçə qız hamısı burdadılar. Əsli xanım da buların içindədir. Amma Əsli xanımın gümüş kəmər belindən açılıb, yaxalarının düymələri bir başdan açılıb, üş-dörd dənə düymə. Ağ sinə misli qar kimi görünür. Tamam bu bağın bəzigarı, su suvaranı hammısı mayıl-mayıl fəqət Əsli xanıma baxırlar. Əsli xanım o tərəfdən işarə elədi, Kərəmə ki nabadə mənə baxıb, mənə söz diyəsən. Qızlar gördülər aşıx varid oldu. Hə, söyülüşdülər ki, aşıx gəldi. Amma indi Kərəmin üzündən gəlmir ki, yeksərə bir dəfə desin ki, xanım, bu gümüş kəmər belindən açılıb, bu yaxayin düymələ. Dedi, əgər mən bu cür desəm bular hammısı bilərlər ki, mən Kərəməm. Nərgiz xanım düşünər atasına diyər, məni öldürütdürəllər. Bir bəzigar varıdı, yəni su suvaran varıdı. Əlində bel varıdı. O beli alıb, təkcə elədi belə. Çünki o beli ad tutub, Əsli xanımın gümüş kəmər belindən açılıb, isdiyir Əsli xanımı halı eləsin ki, belə bax. Bu söbətdər-nən, deyim, ərz eliyim, eşidənlər sağ olsun:

Aylar, illər arzumanın çəkdigim,
Üzü dönmüş bivəfa yar, belə bax.
Gözəllərdə sərxoş gəzmək man olmaz,
Açılıbdır gümüş kəmər, belə bax.

Nərgiz xanım çox ayıxbeyin qızıdı. Fovran göz dolandı-rıb qızların içinə. Baxdı, gördü hammının gümüş kəmər belin-dədi, Əsli xanımın gümüş kəmər belindən açılıb. Nərgiz xa-nım dedi:

– Əsli xanım, bir söz xəbər alaceyəm. Amma sözü düz danışasan.

– Nəmənədi?

Dedi:

– De görüm, bu Ziyad xan oğlu Kərəm dəyil ki? Ayə, gə-lib bu bağa. Qorxma, düz danış. Əgər Ziyad xan oğlu Kərəm olmuş olsa hə, mən gedib atama deməərəm. Bular asıb qoymam yetişə.

Çün qızlar baxdılar gördülər insafən bəy balasıdır. Çox nazənin bir cavandır. Dedi:

– Əsli xanım, mən onnan baxıram, görürəm ki, bu səni deyir elə.

Day Əsli xanım da üzə salıb kəməri belində bağlamadı. Çün qorxdu, Kəməri bağlasa belində Nərgiz xanım da, qızlar da bilərlər ki, bu Ziyad xan oğlu Kərəmdi. Bağlamadı, mütməin[67] olmadı. Əsli xanım dedi:

– Nərgiz xanım, o əlindəki belə deyir, mənə demir. Çün o bərzigarın belinə mutəkka eliyib, o beli deyir.

İndi şairin sözü üş kəlmə olar. Hələm birin deyib. İcazə buyur.

"Əlif"i oxudum, getdim bu "sin"ə,
Tər məməvin avlağıdı bu sinə.
Hicranın çəkdiğım getdim bu sinə,
Dayanmışam bərzigaram, belə bax.

Çün Nərgizinən Əslinin mübahisəsini eşitdi. Oydu ki, bu sözü dedi. Amma Əsli xanım qaş-göz elir oğlana ki, oğlan işin olmasın. Mən day, iş olub, bağlamıram. Çün Kərəm dovrəyə baxdı gördü, xeyir, tamam bu bağın nəmdəki pərgər var hammısının gözü xanımdadı. Nərgiz xanım dedi:

– Mənim huşumu azdırma. Bu Ziyad xan bəylərbəyinin oğludur.

Əsli xanım dedi:

– Yox, Ziyad xan bəylərbəyinin oğlu dəyil. O qalıb Gəncədə, bura İstanbuldur.

Oydu ki, bəli, sözünün əvvəl-axırında Kərəm belə desin, görək Əsli neyniyir?

Kərəm diyər, kam almadım dünyada,
Artdı dərdim, oldu həddən ziyada.

[67] Mütməin-əmin, arxayın

Məcnun kimi məskən tutdum səhrada,
Qocalmışam piraniyəm, belə bax.

Amma indi genə Əsli xanım üzə qalıb. Gümüş kəməri belində bağlamır. Vəli neçə dənə də düymələrdən yaxasından açılıb, sinəsi də görükür. Vəli Nərgiz xanımın fikri Əsli xanımdadır. Kərəm də ki, belə söhbət eliyir, bəzigərin belin qaytərib verdi özünə. Genə bu çün xəbər aldı ki, Əsli xanım o aşıx səninlədir, səni deyir ki, açılıbdır gümüş kəmər, belə bax. Mən baxıram qızdarın hamısının kəməri belindədi. Ya Ziyad xan oğludir, sən məndən gizlədirsən, ya da bu aşıx elə bilib, elə sənin bu gümüş kəmər belindədir. Dedi:

– Yox, Ziyad xan oğlu dəyil. Mən sənə xatircəm. Bunu sənə xatircəm deyim ki, bu Ziyad xan oğlu dəyil. Ziyad xanın oğlu qalıb Gəncənin şəhrində. Ziyad xan oğlu hara, bura hara?

Bəli, odur ki, genə bu gümüş kəməri belinə bağlamıyıb. İndi bir yol bu dillərinən Kərəm söhbət eliyir. Ərz eliyim, tamam eşidənlərin sağlığına:

Sallanıban gedən dilbər,
Yaxan düymələ-düymələ.
Məni dərdə salan dilbər,
Yaxan düymələ-düymələ.

Nərgiz xanım dedi:

– Sənnəndi? Yaxan düymələ. Bu Ziyad xan oğludu gəlib. Sən mənim huşumu azdırma.

Amma Əsli xanım qaş-göz eliyir, oğlan, bu sözdərdən demə. Kərəmnən başa gəlmir, sözün o birsin deyir:

Kətan köynək diz boyuncax,
Əmim ləblərin doyuncax.
Ağ sinən açıq qoyuncax,
Gözəl, yaxan düymələ-düymələ.

Əsli xanım əl aparıb düymənin bir dənəsini düymələdi. Nərgiz xanımın fikri Əslidəydi. Yavaş-yavaş özün tapıb.

– Ay xanım, mənnən gizdədirsən?
Amma dübarə Kərəm belə deyir:

Yaşıllıxda quzu mələr,
Quzu mələr, çoban gülər.

Sənin kimi yosma dilbər,
Yaxan düymələ-düymələ.

Əlbəttə, Əsli xanım əl aparıb bir, iki, üş dənə də dügmələrdən dügmələdi. O tərəfdən Nərgiz xanımın fikri Əslidəydi. Gördü, bəli, neçə dənə dügmə genə bu dügmələdi. Amma xahiş elədi ki, Əslidən ki balayi qiyrətən sən özünü mənnən gizlətməginən. Bu Ziyad xan oğlu Kərəmdi, gəlib.

Dedi:

– Əslən belə söhbət yoxdu. Ziyad xan oğlu Kərəm qalıb Gəncədə. Gəncə bəylərinin ötərgisidir. Ziyad xan oğlu hara, bura hara?

Bəli, Kərəm sözünün əvvəl-axırında belə desin, ərz eliyim, eşidənlər sağ olsun:

Kərəm sənə nələr demiş,
Dilin dodağını yemiş.
Kətan köynək xanım, bəndi gümüş,
Yaxan düymələ-düymələ.

Əsli xanım çün qaş-göz eliyir: "Canım, məni az tərif elə. Nərgiz xanım bilər, o moğe bizi Xudkar paşanın dilinə verər. Səni öldürər, məni bədbəxt elər". Bəli, çün Əsli xanım qaş-göz elir. Onun qaş-göz eləməsinin barəsində də bir dəstgah oxuyacağıx. Ərz eliyim, tamam eşidənlər sağlığına:

Əslim gözü dolandırır,
Quru çaylar bulandırır.
Sayil eylər, dolandırır,
Əsli qaşdarın, gözdərin.

Amma Nərgiz xanım ginə də bu Əsli xanıma diyir:

– Canım, mənim huşumu azdırma. Bu elə Ziyad xan oğlu Kərəmdir.

Bu deyir:

– Xeyr.

Kərəmə qaş-göz elir ki, canım, az məni tərif elə. Day ad aparma. Odur ki, Kərəm baxmır, dübarə:

Çıxıb təxt üsdə oturub,
Hökmünü şaha yetirir.

Dinsizi dinə gətirir,
Əsli qaşdarın, gözdərin.

Amma genə bu Nərgiz xanım Əslidən soruşur. Bəli, Kərəm sözünün əvvəl-axırında belə deyir:

Əslim, qaşdarın qaradı,
Mənim başıma bəladı.
Axır Gəncəni taladı,
Əsli qaşdarın, gözdərin.

Bəli, söz tamam oldu. Amma Əsli xanım dedi, sən ki, belə söbət eliyirsən, amma bu Kərəm dəyil. Əgər Kərəm olsa, biz altı dənə ki, qız burda dayanmışıx. Əlbəttə ki, altı dənə qız seçilmişdi, o qızlardan kənaraydılar. Əsli xanım da buların içindəydi. Əgər bu Ziyad xan oğlu Kərəm olsa, biz altı dənə qızın hammımızı adbaad sayar. Altı dənə qız dayanmışdılar. Amma Kərəm də ki, buların adın bilmir. Götürsün görək bu qızları adbaad sayır, mən də ərz eliyim:

Damlarının dalı taya,
Tayadan baxarlar aya.
Altı qızın biri Maya,
Altı qızlar, altı qızlar.

Bu altı qızlardan birinin adı Maya xanımdı. Bu qız dedi, gördüz mənim heç adımı bilmirdi. Axı, bu aşıx nə bildi ki, mənim adım Mayadı? Nərgiz xanım dedi:

– Baba, bu Ziyad xan oğlu Kərəmdi.

Amma Əsli xanımın əyağı bağlı. Bu oğlan həyannan gəldi bura? İndi biləcəklər bu Ziyad xan oğlu Kərəmdi. Xudkar paşaya xəbər verəllər. Baxmadı, sözün o birsin belə deyir:

Damlarının dalı vərək,
Qayıdax gülün dərək.
Altı qızın biri Mələk,
Altı qızlar, altı qızlar.

Nərgiz xanım qaqqa çalıb güldü. Canım, Ziyad xan oğlu Kərəmdir. Axı, nə bilir, Nərgiz xanım burda kimdi?

Altı qızın biri Haşa,
Boyları var, qoşa-qoşa.
Mayil oldum, bax, hilal qaşa,
Altı qızlar, altı qızlar.

Ağa, bular genə bir-birlərinə baxıb güldülər. Amma Ziyad xan oğlu Kərəm sözün o birsin belə deyir:

Altı qızın biri İnci,
Dərdindən oldum zarınci.
Odur gözəllərin gənci,
Altı qızlar, altı qızlar.

Ağa, bu qızlar dedilər, canım, bu İnci xanımın da adın bilir. Bu nə bilirdi axı, təzə variddi bu bağa. Nərgiz xanım dedi:

– Əsli xanım, sən Kərəmi məndən gizlətmə. Bu Ziyad xan oğlu Kərəmdir. Heş kəsin işi dəyil bu sözdəri deyə.

Ağa, Əsli xanım da hərdən qaş-göz eliyir ki, oğlan bəsdir, burax. Amma boşa gəlmiyib, Kərəm sözünün əvvəl-axırında belə diyir:

Əsdi, badi-səba əsdi,
Səbri-qəralımi kəsdi.
Altı qızın biri Əsli,
Altı qızlar, altı qızlar.

Söz tamam oldu, amma Nərgiz xanım bu yol da hətmən dedi bu, Ziyad xan oğlu Kərəmdir.

– Hə, Əsli xanım. Sən bu oğlana niyə "xoşgəldin" eləmədin? Bu cür oğlana gərək qurbannıx lazımıdı. İndi sən "xoşgəldin" eləmədin. Mən Ziyad xan oğlu Kərəmə "xoşgəldin" elərəm.

Əsli xanımın əyağı dağıldı. Bir belə zəhmətdər axırda gəlsin paşanın qızı Nərgiz xanım əlindən alsın. Nərgiz xanım gəlib irəli. Telindən tel ayırıb, Kərəmə nə dillərnən "xoşgəldin" eliyəcək? Ərz eliyim, eşidənlər sağ olsun:

Başına döndügüm ərməni qızı,
Sən diməzsən, mən diyərəm, "xoş gəldin".
Qaradı qaşdarın, aladı gözün,
Sən diməzsən, mən diyərəm, "xoş gəldin".

– Axı, sən bu cür oğlana niyə "xoşgəldin" eləmədin? Əvvəldə sən məndən bu Ziyad xan oğlunu gizlətdin. Xatircəm ol, heş-zad qoymaram olsun.

İndi Əsli xanımın rəngi uçub bura bax, axırda gəl gör, paşanın qızı Nərgiz xanım Kərəmi mənim əlimdən alacax? İndi sözün o birisində belə deyir:

Gəncədə geymiyip bəylik libasın,
Axı sürmüyüpdü dünyanın zövqü-səfasın.
Əlinə qoymuyubdur bu toy hənasın,
Sən diməzsən, mən diyərəm, "xoş gəldin".

Dağlar, daşdar, xiyabanlar, Ərzurum, meşə, oymaxlar, kətdər gəzib sənin dalıncan gəlib burda səni tapıb. Sən "xoşgəldin" eləmirsən, mən "xoşgəldin" elərəm. Bəli, indi bir üz belə döndü baxdı, gördü ki, Əsli xanımın rəngi saralıb. Dedi, elə bilir mən gedəciyəm bu oğlana. Bəs indi sözün təxəllüsün deyir:

Ağa Kərəm, hacıların hacısı,
Amma şirin ağzın olub yarın acısı.
Qiyamətdə Əsli xanım, Nərgiz onun bacısı,
Narahand olma, sən diməzsən, mən diyərəm, "xoş gəldin".

Qiyamətdə mən onun bacısıyam, o da mənim qardaşım. Vəli mən isdirəm ki, biləm bu Ziyad xan oğludur. Qoymam buna asıl yetişə.

Ağa, indi bir yol söz tamam oldu. Bəli, Nərgiz xanım da tanıdı bu Ziyad xan oğlu Kərəmdi.

Bağın bir guşəsində əlbəttə, bir yaxçi otaxları varıdı. Bəli, həman otağı bir yol veribdir Əsli xanımnan Kərəmə. Dedi ki, hərçəndi ki mən bu bağdayam, bu aşıx da burda bizim üçün söbət eliyəcək. Neçə ki, Qara Məligin və mənim atam Xudkar paşanın xəbəri olmuyub o bağda, o otax sizinkidi. Ağa, iki aşiqi-məşuq xuraman-xuraman özdərin veriblər otaxda.

Əsli ilə Kərəm həmən otaxda, o bağda ayə, nə cür heç bir-birləriynən danışa bildilər, söbət eliyə bildilər, ya eliyə bilmədilər. Bu kənizlərin içində, qızların içində bir dənəsi var, çox fizuldu, çox çuğuldu. Dedi, sən ölmiyəsən, mən qoyam Nərgiz xanım bu Əsli ilə bu oğlanı sala bu otaxda danışalar. Mən bu dərdi gora apara bilmərəm. Gərək xəbər verəm Qara Məligə. Ağa, bir zadı bahanə eliyib, indi bağdan yavaş-yavaş gəlib eşigə. Birbaşa gəldi Qara Məlik keşişin yanına.

– Öyün yıxılsın inşallah, qərib işdər olub.

– Necə?

Dedi:

– Vallah, Ziyad xan oğlu Kərəm gəlib amma bağdadi. Əlan sənin qızının yanındadı.

O saət xəbər verib. Amma Qara Məlik haytabaşlarından Osmannının çəpəllərindən neçə dənə götürüb birbaşa gəlir ki, Kərəmi tuta, ya öldürtdürə, ya verə zindana, ya verə paşanın ixtiyarına. Birdən Əsli xanım ki Kərəmnən şirin söbətdə idi, danışırdılar, xəbər gəldi:

– Öyün yıxılsın Kərəm, Qara Məlik gəlib. Neçə dənə də haytabaşlarından gətirir. İndi gələcək səni burda narahand eliyəcək. Dur, bir yana sovrul get.

Əsli dedi:

– Söygülüm, gördün? Sənnən mənim, əslən bilmirəm nə cür işdi. Qismət deyil, biz bir rahət bir-birimiznən söhbət eliyək, danışaq.

– Ay canım, bəs nə cür eliyək?

– Dur, bəs bir yana adda, bir yana get. Lağəl[68] öyü xarab, məndən bir busə al.

Dedi:

– Mən bu cür səndən busə istəmirəm. Elə Allah əgər səni mənə verəcək arxeyinlikdə versin, mən busə almaram səndən. Bu cür bu narahatçılıxnan.

– Öyü xarab, indi gələrlər, səni indi burda öldürəllər. Dur, bir yana get.

Dedi:

– Elə qoy, məni sənin yanında öldürsünlər, eyib eləməz.

Amma Əsli xanım Kərəmin vəfasın o əndazə bilməmişdi. Burda gördü insafən çox vəfalı bir aşiqdir. Nə qədir Əsli yalvarıb, oğlan, dur, burdan get bir tərəfə. İndi atam gələr, görər. Dedi:

– Xanım, icazə buyur, day mənim qalmağımın nə hüsnü, nə kamalı. Mənim day-dərayətim, malım, Lələm, donum əlimdən gedib, səndən ötür. Qoy, elə məni burda öldürsünlər, rahat olum. Amma icazə buyur, neçə kəlmə söz gəldi sinəmə oları ərz eliyim, ondan sonra ölsəm də mən onnan ölüm.

Kərəm əl uzadıb sazı götürdü. İndi görək burda bir dəstgah nə demək isdiyir, nə oxuyur, tərəfimdən ərz eliyək. Ağayi Rüstəm Əhmədi "Kərəmi"ylə ərz eliyəcək:

Ellər köşdü, yaylasını yayladi,
Xanım, mənim burda qalışıma nə deyim?
İki dilli beyvafanın əlindən,
Saralıban solmuşuma nə deyim?

---

[68] Lağəl/laəqəl-heç olmasa

– Oğlan, necə yəni nə diyəsən? Dur mənim yanımdan adda o bir tərəfə, öyün xarab. Öldürəllər səni.

Dedi:

– Xanım, elə söz bir kəlmə olar. Mən elə razıyam sənin yanında məni öldürsünlər da.

Amma Kərəm narahand olub, dübarə sözdə nə demək isdiyir, ərz eliyim bütün dostların sağlığına:

Kağaz aldım, qələm aldım dəstimə,
İstədim ki, namə yazam dostuma.
Mən öləndə Əsli gəlməz üsdümə,
Qürbət eldə ölüşümə nə deyim?

Amma Əsli xanımın gözlərin yaşı yavaş-yavaş gəlir, o siyah çeşmində həlqə vurdu. Vəli indi görək aldı görək nə diyir:

Mən Kərəməm, axıtdılar qanımı,
Yar yolunda fəda etdim canımı.
Aldılar əlimdən Əsli yarımı,
Arsız-arsız gülüşümə nə deyim?

Amma Əsli xanım bir ah çəkdi, gözlərindən yaş əbri-bahar kimi töküldü səhfeye ruxsarına. Olar elə fələyin işi imiş.

– Əgər mənim atam əlan gəldi, sən də ki bir yana getmədin. Bəs atam gəlsə, ikimizi də burda narahand eliyəcəkdi. İcazə buyur, neçə kəlmə söz gəldi sinəmə. Deyim, bu şərtinən ki, qəlbiyə gəlməsin, Kərəm.

– Nə deyim, sözün var, gözəl qız, mənim üçün?

Dedi:

– Niyə? İcazə buyur, ərz eliyim, axı, sən niyə mənim dalımcan gəldin? Axı, niyə düşdün mənim dalımcan gəldin? Niyə atın, donun, varın, dərayətin əlindən getdi? Ay canım, Gəncədə yanı bir gözəl yoxudu sən alasan? Bir belə dərdisərrələrə, bir belə çöllərə düşmiyəsən.

Görək indi Əsli xanım Kərəmin cavabında nə demək isdiyir, tərəfimdən ərz eliyək, tamam əziz və muhtərəm dustların hamısının sağlığına:

Kərəm, sənin əğlin, huşun olseydi,
Uçurtmazdı bedoğları,[69] quşdarı.
(O ovu ki, o quşu bağdan uçurtmuşdu onu deyir).
Uymasaydın bu keşişin felinə,
Çəhdirməzdin inci, sədəf dişdəri.

Amma Kərəm baxdı bir Əsliyə sarı, Əsli baxdı bir Kərəmə sarı.

– Atam gələr, yetişər. Amma icazə verginən, bir kəlmə də sözüm var, deyim. Kaş elə Gəncədə qalaydın da.

Xan oğluydun, öz elində qalaydın,
Gəncə gözəlinin birin alaydın.
Onun qadasını cana salaydın,
Niyə ağlar qoydun o tay-tuşdarı?

– O tay-tuşdarı niyə ağlar qoyurdun? Kaş elə olardan bir dənə alaydın, düşmiyəydin mənim dalımca. Amma fələgin işi buna görəymiş, bəlkə belə bu cür olaymış. Oğlan, icazə buyur, bir kəlmə də sözüm var, ərz eliyim.

Sözünün əvvəl-axırında nə demək istiyir, ərz eliyim, tamam eşidənlər sağlığına:

Əsli xanım, mən də qanlar ağlaram,
Ciyərimin başın düğünlərəm, dağlaram.
İllər boyu mən də qara bağlaram,
Əlbəttə, belə imiş bu fələgin işdəri.

Bəlkə elə bizim yazılmağımız belə imiş. Ağa, xülasə söz tamam oldu. Amma onda gördülər ki, bəli, Qara Məlik Osmanlının çəpəllərindən neçə nəfər götürüb özünnən gəlir. Yetişəndə dedi:

[69] Bedoğ/Bədov-sağlam və qaçağan at

– Belə filangələn, nə oğurramağa gəlmişdin bura? Genə nə iş bəziyibsən, hayannan tapıldın? Mən neçə dəfə səni ölümə vermişəm, ölümdən gəlmisən. Bu yol mən səni verrəm həbsə, sallam orda qalarsan. Day heş qutaracağın olmaz.

Yetişəndə bəli, Kərəmi kötəkkərrıx elədilər. Vura-vura apardılar saldılar həbsə. Gecəni qaldı həbsdə. Səhər açılır, indi səhər Qara Məlik, keşiş bu Xudkar paşanı qonaq çağırır. Dəvət eliyib, bir ayrı surfat ədavəti görürlər. Bəli, Xudkar paşa mənə qonaq olacaq. Gələcək mənim evimdə qonaxlıxlığa– öz elinnən, tayfasınnan, tayfabaşlarınnan. Bir aydı surfa tadariki görürlər. Quş iligi, can dərmanı o surfada ələ gələrdi. Xəbər verdilər Qara Məlikə ki, bəli, paşa neçə nəfər qonaxlarınan gəlirlər. Çıxdılar peşvaza. Peşvaz deyəndə bəli, keşdilər əyləşdilər hər kəsən öz yerində. Xudkar paşa səsə gəldi. Dedi:

– Oğlan, o keşişi çağırın, gəlsin bura.

Çağırdılar, gəldi. Dedi:

– Xob, sənin bu surfan çox da yaxşı, çox da qəşəng. Hələ de görüm, burda bir aşıx var bizim üçün söhbət eliyə, oxuya?

Dedi:

– Yox, aşıx yoxdu.

Dedi:

– Biz aşıx olmasa, sənin bu surfandan bir dənə tikə çörək yemərik.

– Axı, canım, niyə bəs? İrəlidən mənə diyərdiz, mən sizin üçün aşıx da təyin eliyəydim. Mən indi aşığı hardan tapım? Hələm aşıx tapılmaz ki, canım.

Dedi:

– Mən bilmirəm. Əgər bir dənə aşıx tapıb gətirsən, biz sənin bu surfandan, çörəgindən yiyəciyik. Tapıb gətirməsən, bu saat əslən durub çıxax, gedək.

Dedi:

– Rəhmətdiyin oğlu, ata fışdırax çalmasan yaxçı su işmir. İndi bu çörəgi aşıxsız yemək olar?

– Paşam sağ olsun, görən bir fikir eliyərik.

Birdən bu qonaxlıxda olan adamların biri yerindən qovzandı. Dedi:

– Oğlan, dünənnəri Çarbağda bir aşıx varıdı. Dərgahlara od vurub, oddurdu. Sən Allah, onu tutdular, apardılar, saldılar həbsə.

Birdən Paşa yerindən durub:

– Oğlan, gedin onu hər yandan tapıb gətirin bura.

Amma keşiş gördü iş xarab oldu. Gedəcəklər Kərəmi gətirələr bu məclisə, burda Əslidən-zaddan oxuyacaq. Bu Paşa Kərəmi görsə, səddərsəd bunun sözün tutmuyacax, Kərəmin sözün tutacax. Bəli, o adamlar ki, neçə nəfər haytabaşlarından gəldilər, gedələr ki, Kərəmi gətirələr. Qara Məlik özünə taqət verə bilmədi. Yerindən durdu, gəldi bəli, bulara qabax yetişdi. Gördü, Kərəmi çıxardıblar həbsdən gətirirlər. Dedi:

– Oğlan, səni zindandan mən özüm çıxartdım. Səni aparram orda Paşaya və qonaxlara söbət eliyəsən. Gözlə, orda o yan-bu yan danışmıyasan. Əsli-zad adı aparmıyasan. Sənin canın üçün, babam Qonqur Məlikin goru haqqı, elə bu qonaxları yola salax, toyun xərcin-zadın da özüm çəkərəm. Toyu eliyib Əslini də verrəm sənə.

Dedi:

– Baş üstə, keşiş ağa.

– Orda Əsli-zad adı aparma.

– Eybi yoxdu. Çox da gözəl.

Bəli, gəldilər yetişdilər.

– Səlam.

– Səlam.

Kərəm də ki, baxdı gördü bəli, içəridə otaxda əyləşib əyyan-əşrəf. Yetişib bəli, çox mərifətdi, çox yaxçı bir səlam verib, əl bağladı, baş əydi paşaya. Paşa bir belə baxdı, baxdı

gördü bəli, amma mərifətdən çox yaxçi, libası-zadı amma çox pozğundu. Rəngi-ruhu saralıb. Belə nəzərinə gəldi ki, bu gədayıdan zaddandı. Xəbər aldı:

– Oğlan, sayılsan?

Kərəm dedi, ay dadı-bidad, hə, mən Ziyad xan bəylərbəyinin oğlu olan (ürəgində dedi) indi mənə sayıl da diyələr, bu dünya mənim nəyimə gərək?

Dedi:

– Əfəndim, xeyr, sayıl dəyiləm.

Dedi:

– Bəs nəsən? Olmuya oğurruğa gəlmişdin?

Dedi:

– Yox, oğurruğa da gəlməmişdim. Mən aşığam.

Dedi:

– Bəs aşıxsan, sazın hanı?

Dedi:

– Dünən elə vallah, o bağda oxuyurdum. Məni tutdular apardılar. Saldılar həbsə, sazım da qaldı orda.

– Bala, gedin bunun sazını gətirin.

Tərpəndilər, bəli, sazı gətdilər. Sazın zilin-bəmin kök eliyib, çünki keşiş buna sayıl deyib, qəlbinə gəlib. Sora da hamı, qulaq asanlar hammı bir nəfər kimi gözün dikib Kərəmin ağzına. Görək Kərəm nə demək isidiyir, tərəfimdən ərz eliyim, tamam eşidənlər sağlığına. "Quba Kərəmi"ynən:

Zərgər idim paşam, daş-qaşınan oynardım,
Əskik döyüldü para mənə, pul mənə.
Xəyyatlarım misvahalar biçərdi,
İndi olub dəri köşkü, pus mənə.

– Oğlan, sən də belə pullu yerin adamına oxşuyursan. Çox belə zad danışdın. Diyəsən pullusan?

– Neyniyim, paşam, qoy birin də deyim.

Qurudu göllərim, daha qaz gəlməz,
İlahıdan mənim işim düz gəlməz.
Bəlkə qocaldım, qarıdım daha qız gəlməz,
Əlbəttə, tapılar bircə dul mənə.

– Oğlan, sən öylənmək də isdiyirsən diyəsən?

– Neynim, qoy diyim də birin də. Paşam sağ olsun, axı sən mənə çün sayıl dedin, gəda dedin. Qulaq as görək, mən kimin oğluyam.

Mən Kərəməm, Xan Əslinin nəyiydim?
İgiddərin məhbubuydum, yeyiydim.
Ziyad xan oğluydum, Gəncə bəyiydim,
Baş əyərdi, ağa, nökər, qul mənə.

Bu Ziyad xanın oğluymuş. Çün bular hammısı Ziyad xanı tanıyırlar.

– Oğul, düz deyirsən, Ziyad xanın oğlusan sən?

Dedi:

– Paşam sağ olsun, bəli, mən Ziyad xanın oğluyam.

– Bəs nə cür oldu ki, səni Ziyad xan o yannan bəri qoydu gəldin?

Amma o tərəfdən Qara Məlik dedi:

– Oğlan, namussuz oğlu, bəyəm sənə demədim Əsli-zad adı aparma. Sən nə iş gördün?

Oydu ki, dönüb baxır Qara Məlikə sarı. Bu tərəfdən paşadan da səs gəldi:

– Sağ ol səni, sağ olasan. Doğurdan nə isdiyirsən onu di. Hər nə istəsən, onu verəciyəm. Xoşum gəldi sənin oxumağından, sağ ol. Doğrudan da bizə zoğ[70] verdin sən.

Amma Qara Məlik o tərəfdən yavaşaki dedi:

– Məgər, sənə demədim Əsli-zad adı aparma. Sən nə iş gördün?

[70] Zoğ-zövq

Oydu ki, Kərəm dübarə sazı döndərib sinəsinə, görək bəli, nə dimək isdiyir. Tərəfimdən ərz eliyək, tamam hamının sağlığına:

Qara Məlik məni gördü, qanlar ağladı,
Heş bilmərəm nə azarım var mənim.
Artdı dərdim, oldu həddən ziyada,
Qoyun üsdümə gəlsin o Əsli yar mənim.

– Oğlan, Əsli kim? Nə danışırsan sən?

Çün bəli, Qara Məlik Kərəmə demişdi ki, namussuz oğlu mən sənə dedim ki, Əsli-zad adı aparma. Oydu ki, Kərəm aldı görək sözün o birisində nə deyir:

Ala gözdərinə mən də mayılam,
Çətin billəm bu dərddən bir də mən ayılam.
Səfiləm, qapında tamam sayılam,
Nəyimə lazımdır, namus, qiryət, ar mənim?

Amma paşa ucadan dedi:

– Oğlan, nə isdiyirsən onu de. Doğurdan da, sağ ol səni. Sənin istədığın nəmənədi? Sən bizi doğurdan o sözlərinnən şad elədin.

Çünki dustlar, burda Qara Məlik Kərəmə bir nasıza[71] söz demişdi. Oydu ki, deyir nəyimə lazımdır namus, qiryət, ar mənim. Amma aldı görək dübarə nə diyəcək:

Mən Kərəməm, gözüm qaldı xanımda,
Zalım cəllad nə durubsan solu-sağımda.
Kaş öleydim Ərzurumun dağında,
(O qar altında qaldığını deyir.)
Amma Xan Əsliyə bir ilqarım var mənim.

Paşa dedi:

– Əsli kim? Olmuya bu Qara Məlikin, keşişin qızı?

– Bəli, həməndi.

– Oğlan, durmuyun o qızı gedin gətirin bura.

[71] Nasıza-yaman

Bəli, getdilər qızı gətirsinlər. Amma Qara Məlikin rəngi qapqara kömürə döndü. Bildi ki, bəli, burda paşa zor-xoş qızı alacaxdı. Qıza xəbər verdilər ki, Kərəm gəlib, orda məclisdə qonaxlıxdadı. Səni də paşa isdiyir həmən məclisə. Əsli xanım bu sözü eşidəndə söyündügündən az qaldı bağrı çatdasın. "Şükür, sən arzumu yerinə yetirdin, çox şükür sənin izzəti-cəlalına. Neçə illər yəni ki, arzu eliyirdim mən bir Kərəmə yetəm". Amma burda elə bil ki, gedib məclisdə görəcək. Yetmiş qələmnən özünə zinyət gəlsin. Gedək, paşa ilə Kərəmin sorağına.

Paşa dedi:

– Oğul, yalan deyirsən. Sən Ziyad xanın oğlu dəyilsən. Əgər Ziyad xanın oğlu olsan, səni qoymazdı bir erməni qızından ötürü bu tərəfə gələsən.

Dedi:

– Yox, mən elə Ziyad xanın oğluyam.

– Amma bamənin yoxdu.

Qulaq as deyim:

İki dilli bivəfanın əlindən,
Paşam, özüm öz əğlimə güc eyləmişəm.
Satmışam dolətimi, bütün varımı,
Onların hammısını heç eyləmişəm.

Dedi:

– Çox səfeh iş görmüsən. Sənin bir dənə erməni qızından ötürü bir belə malı-dərayətin əlindən gedib.

Dedi, paşam, qulaq as, deyim:

Xiyavanlı, meyvəli bağlar qoymuşam,
Atamı, anamı ağlar qoymuşam.
Sinə üstü düyünlü dağlar qoymuşam,
Ömrümü Əsliyə puç eyləmişəm.

Amma bu sözü deyəndə paşa, doğru qonaxlar hammısi bunun bu sözünə narahand oldular. Vəli Kərəm bu sözdəri diyə-diyə fikri qalıb, gözləri qalıb qapıda kı, görək Əsli xanım

nə vaxt gəlir? Amma dustlar, özünüz bilirsiniz ki, Kərəmin bir tərəfdən fikri şaddı, bir tərəfdən narahanddı. Niyə? Çün libaslar əynində pozulubdur, vəz dair[72] dəyil. Əsli xanım özünə yetmiş qələm ziniyət verib gələcək. Odur ki, genə paşa dedi:

– Oğul, yalan deyirsən, Ziyad xanın oğlu dəyilsən.

Dedi:

– Qulaq as, sözümün axır kəlməsinə.

Mən Kərəməm, öz yolumu azmışam,
Adıma, şanıma ləkə yazmışam.
Hər bir cəfaya, min cəbirə dözmüşəm,
Neçə ölkələrə köç eyləmişəm.

Amma dustlar, söz tamam oldu. Əsli xanım yetmiş qələmnən özünə ziynət verib gəlməkdə olsun, Kərəmnən də paşa burda söhbətdə. Qonaxlar hammısının Kərəmin oxumasınnan çox xoşu gəldi. Əsli xanım varid olub, otağın qapısında icazə istədi içəri gəlməkligə. Amma içəri varid olanda paşa gördü, qız deyirəm, ölünün qəbrinin üsdünə qoysan dirilər. Ağız püstə, göz piyalə kimi yanır. Gördü bəli, Kərəmin təxsiri yox imiş. Gərək bu qızın dalısıycan gedəymiş. İndi burda görək, bəli, Kərəm nə dimək isdiyəcək Əsli xanımın o cür gəlməsinin barəsində. Mən ərz eliyim, tamam dustların sağlığına:

Sallana-sallana çıxdın qarşıma,
Boyu bəsdə, yanaxları al Əsli.
Huridə, mələkdə tayı tapılmaz,
Dili şəkər, dodaxları bal Əsli.

Gördülər Əsli xanım elə nazənin dayanıb ki, Kərəm başını yuxarı qovzuya bilmir.

Sürməni çəkibdir qələm qaşına,
Sinə bənzər ahu ceyran döşünə.
Ağ ipək rusəri örtüb başına,
Gəl, qolların bir boynuma sal, Əsli.

[72] Qaydasında deyil

Əsli də burda başın salıb aşağaya. Aldı görək xatəmə kəlməsində nə deyəcək:

Kərəm diyər, yüz il sənə qul ollam,
Sənnən ayrı düşsəm, sarallam, sollam.
Qismət olsun, Əsli, sənnən muradım allam,
Sən də muradını məndən al, Əsli.

Paşa dedi:

– Əhsən, oğul. Səd afərin sazına, sözünə, oxumağına. Doğurdan da bizi sən xoş elədin. Amma nə isdiyirsən onu de, yerinə yetirəcəyəm. Qorxma, Osmanlı vilayətinin sahibiyəm, böyügüyəm.

Amma burda Kərəm gah inanır, gah inanmır, deyir:

– Paşam sağ olsun, qulaq as gör, nə isdiyirəm.

Amma tamam hammısı qulaq asırlar. Görək, Kərəm nə isdiyəcək. Ərz eliyim:

Qulluğunda paşam, üşcə kəlmə sözüm var,
Birin eşit, birin dinlə, birin yazan.
İnsanın başına üç dövlət qonar,
Biri gənclik, biri şöhrət, biri də şan.
Bular heç biri məndə olmuyub. Dedi:

– Nə oxuyursan, oğul? Nə dedin? Nə isdiyirsən? Qorxma, yerinə yetirəcəyəm.

Aldı dübarə:

Kimsənin eyligi kimsədə qalmaz,
(Kimsənin çörəyi kimsənin qarnında qalmaz).
Yüz yerdən oxlanmışam, paşam, daha yaram sağalmaz.
Bu dünyada üş şey var ki, yəqin zay olmaz,
Bir yaxçılıx, bir yamannıx, bir də nan.
Nə çörək itər, nə yamanlıx, nə yaxçılıx.

– Sağ ol, oğul. Doğurdan da sən bizə dəm verdin. İstədigin nədir? Qorxma, yerinə yetirəcəyəm.

Kərəm aldı görək bəli, xatəmə kəlməsinə nə diyəcək:

Kərəm diyər, qohum-qardaş hardeydi,
Qismət olsun paşam, bir də gözüm göreydi.
Xudam, mənə üç dənə dərt vereydi,
Biri alış, biri tutuş, biri də yan.

Üz dolandırıb keşişə, Qara Məlikə sarı ki, nə deyirsən, sözün nəmənədi? Qızı verirsən, ya vermirsən? Şu saət sözünü denən, versən də, verməsən də mən bilim.

Qara Məlik gördü yox, əgər desə vermirəm, iş nacür yerə çəkəcək. Dedi:

– Paşam sağ olsun, icazə ver mən çıxım eşigə gəlim, sənə cavab deyim.

Eşigə çıxanda gördü ki, bəli, Ərdahan dağlarından bir bölük qatar durna Ərzurum gədiginə gedir. Tez irəli keçdi, paşanın yanına gəldi. Deyir:

– Çünki bu yeddi ildi ruzigardı mənim qızımın dalısıycan gəzir. Deyir, mən haqq aşığıyam. Çıxsın o durnalara üççə kəlmə söz desin. Olar bir cığa tel salsın. Mən də inanım ki, bu, haqq aşığıdı. Qızımın da xərcin özüm çəkim, öz əlimnən toyun eliyim, qızı verim beləsinə.

Paşa cəhənnəm kimi zəbana çəkdi. Bu filon-filon[73] bu göydən gedən quşa dil örgədəcək ki, sən ordan bir cığa sal? Cəllada əmr verdi ki, keşişin boynun vurun. Cəllad istədi ki, keşişin boynun vursun, Kərəm irəli durdu:

– Paşam sağ olsun, o da mənim boynuma.

Dedi:

– Oğlan, sən göydən gedən quşa dil örgədəcəksən ki, ordan bir cığa sal?

Dedi:

– O da mənim boynuma.

[73] Filan–filan

Bütün nəmənə ki, qonaxlıda adam varıdı hammısı çıxdı çölə. Gördülər bəli, durnanın qabağı Ərzurum dağına yetirha-yetirdi. Kərəm gördü bərk meydandı. Paşa dedi:

– Əgər vallah, cığa düşməsə, verəcəyəm səni çarmıxa çəkələr. Mənim sözüm birdir.

Kərəm burda sığınıb on səkkiz min aləmin yiyəsinə. Görək bəli, nə diyəcək ayə, bu durnalar tel salır, ya salmır? Mən ərz eliyim, eşidənlər sağ olsun. Onu da "Mənsuri" havasıyla deyim:

Göy üzündən qatarlanıb gedən durnalar,
Durnalar, görün bizim elləri.
Qohum-qardaş, dost, musayıb yad olsun,
Daha gözləməsinlər mənim üçün yolları.

Çünki Kərəm onu fikir elədi ki, bəli, mümkündü paşa Əsli xanımı zor-xoş bu Qara Məlikdən alıb verəcək Kərəmə. Amma Qara Məlik də hiyləgərdi. Hiyləsin işdədib bunu şayət ölümə-zada verər. Odur ki, qohum-qardaş, dost, musayıb yad olsun, daha gözləməsinlər mənim üçün yolları. Kərəm onu diyənə qədər gördülər ki, bəli, durnanın qabağı Ərzurum dağını atladı. Paşa cəhənnəm kimi zəbana çəkdi.

– Oğlan, deyirdin mən durnaya diyərəm tel salar. Bəs hanı?

Aldı görək dübarə:

Qara Məlik əl çəkmir dini-Məsihdən,
Cismimi yandırıb eşq həvəsindən.
Yanı tulalı bizim ovçuların səsindən,
Uçdu sonalarım, boş qaldı gölləri.

Gördülər bəli, durna dağı addadı o üzə, fəqət bir dənəsi qalıbdı. O bir dənəsi görsənir. Bütün qonaxlıxda nəmmənəki camahat var idi, hammısı tamaşa eliyir. Əsli xanım da buların içində. Əslinin gözlərinin yaşı əbri-bahar kimi tökülür. Əl götürüb Allaha dua eliyir ki, kaş bu durnalar tel tökeydilər. Gördülər yox, durnadan yenə sorax olmadı. Amma Kərəm görək dübarə nə diyəcək:

Kərəm diyər, həsrət qaldım beş günə,
Fələk bir ox atdı ömrümün kökünə.
İmam Həsən, İmam Hüseyin eşqinə,
Öldürüllər durnam, tökün telləri.

Ağa, durna daha atdıyıb bir dənəsi görünürdü. Qarıltıynan qayıdıb, o birisilər də o durnaya baxıb hammısı qayıtdılar. Bulardan xeyli kənara bir çeşmə vardı, bir göylük yer varıdı. Töküldülər ora, çırpındılar, qalxdılar. Paşa nökərinə əmr elədi:

– Oğlan, get gör, durnalar orda tel tökdü, ya yox?

Gəldilər baxdılar, gördülər o qəddər qu tükü tökülüb kin, gəlkin görəsən. Qayıtdılar paşanın yanına.

– Paşam sağ olsun, o qədər qu tükü töküb ki, əslən hesaba gəlməz.

Paşa üzün dolandırıb Qara Məlikə sarı:

– Oğlan, deyirdin ki, bu haqq aşığı dəyil. İndi get, o qu tüklərini götür apar yorğan-döşək yap. Sözün nədi? Axırıncı sözün mənə de.

Dedi:

– Day mənim heş sözüm qalmadı. Amma paşa, bir dənə sənnən xahişim var ki, sən üş gün mənə möhlət verəsən. Mən bu üş gündə hazırrıx görəm. Siz də toy hazırrığını görün, üş günnən sonra inşallah, toyumuzu başdıyax.

Hamı bu işə oldu irazı. Hamı bir ağızdan söyündülər. Məxsusən Əsli və Kərəm söyündügündən az qalır ki, qanad aşsın, üşsun göyə.

Amma dustlar, üç gün möhlət alandan sonra neyniyib? Qara Məlik hərəmzadə gəldi Əsli xanımın tamam çadırını köçünüb turban elədi. Misli şəb keçəndən sonra çün atdarının, qatırlarının da nallarını çəkib fərsənd nalladı ki, bilinmir hayan tərəfə yol gediblər. Gecə asda qaçan namərddir. Əsli xanımın gözlərinin yaşı əbri-bahar kimi tökülür səhfeyi-ruhsarına.

– Ata, mənim gözü yaşdı məşuqum qalıb. Səndən xahiş edirəm, sən bizi bir-birimizdən ayrı salma. İki göylü bir-birindən ayırmax namərd adamın işidir.

Çox namərddikdi. Məsələn, iki tərəfin bir qız bir oğlanı bir-birini sevə, heç birində eybi-illət olmuya. Onu ata, ana bir-birindən ayrı sala, vağən yaxçı iş dəyil.

Bəli, bular getsinlər. Sabah oldu, üş gün bular ərxeyindilər ki, Qara Məlik hazırrıx görür. Üş gün tamam olub. Paşa nökərrərindən yolladı:

– Gedin görün, Qara Məlik nə yerdədi? Hazırdı yoxsa, yox?

Gəldilər gördülər baba, lələ köçüb yurdu qalıf viran. Heş kəs yoxdu. Gəldilər paşaya xəbər verdlər. Amma paşa bu sözü eşidəndə narahand oldu. Kərəmə də xəbər verdilər. Kərəm bu sözü eşidib, gəldi paşanın huzununa:

– Paşam sağ olsun, gördün? Mən bilirəm bu hərəmzadə neçə dənə bu kələhlərdən mənim başıma dərib. Bir indi dəyil.

– Xob, eybi yoxdu, oğul. Hər yerdə olsa, mən atdı sallam dalıycan taparıx.

Neçə dənə öz atdılarından, öz nökərlərindən əmr eliyib ki, yerdə, göydə olsa Qara Məliki endirin, gətirin ta mən ona bəlləndirrəm ki, gücümü. O, yəni hələ-hələ oğlannarın əlinə düşmüyüpdü. Amma neçə atdı düşüb, tamam dağ-daş, biyaban, yollar hər yeri gəzdilər tapılmadı ki, tapılmadı. Axır sarancam paşa Kərəmi huzuruna istədi:

– Ay oğul, gəl sən Ziyad xan bəylərbəyinin oğlusan. Sənin atan bəylərbəyidi. Tamam xanların, bəylərin böyügüdü. Sən bir dənə Qara Məlikin qızı, keşişin qızından ötürü mal-dərayətin əlindən gedib, çöllərə düşmə. Kimin qızını isdirsən, mən burda mənim hökmüm rəvandı, sənin üçün tapım, alım. Özüyə cah-cəlal verim. Özüyə yaxçı mal verim. Özüyə gözəl yerrərdə saxtuman, yer, mülk.

Aldı burda Kərəm:

– Paşam sağ olsun, axı mən neyniyim? Məşuqəm əlimdən gedib. Malı-dərayət mənə lazımdı? İstəmirəm. İcazə versən burda neçə kəlmə sözüm var, ərz eliyim.

Əgər paşam, tək Əslini versələr mənə,
Bu fani dünyada malı neylərəm?
Bir imdad da olsa, Movlamdan olsun,
Özgənin verdığı malı neylərəm?

Paşa dedi:

– Sağ ol, oğul. Bəli, Movlam sənə mal-dövlət, səhət-bədən, ağzışirinnik versin. Kimsənin kimsəyə mal verməginan heş yara sağalmaz. Amma oğul, mənim səndən bir xahişim var ki, sənin məhəbbətin mənim ürəgimə düşür. Gəl, getmə, qal mənim yanımda. Kimin qızını istəsən qorxma, hansı ərbabın, hansı xanın, hansı bəyin qızını istəsən, cəh-cəlalnan sənə bir toy elərəm.

Dedi:

– Qulaq as.

Uca dağ başında ceyrannar gəzər,
Yaşılbaş sonalar göllərdə üzər.
Əslinin yanağın bir cüt xal bəzər,
Özgənin verdigi xalı neylərəm?

Kərəm bu sözü diyəndə, paşa gördü, baba, buların doğurdan aşiqliyi həqiqidi. Ağayi Qurbani, çünki Kərəmin qəmnak vaxtıdı, odur ki, "Dilqəm"inən ərz eliyirəm, tamam eşidənlərin sağlığına:

Kərəm diyər, mən nə idim, nə oldum.
Əslinin eşqindən saraldım, soldum.
Çölləri gəzməkdən Məcnuna döndüm,
Əslisiz mən cəh-cəlalı neylirəm?

Paşa, həm hamısı necə ki, burda əyan-əşrəf əyləşiblər qulaq asırlar Kərəmin sözünə. Yerri-yerindən dedilər ki, paşa, bi-

zim xahişimiz səndən budur ki, bunun məşuqəsin tapıb verəsən özünə. O adamlar idi ki, gedib gəzib gəlmişdilər, dedilər:

– Vallah, biz hər tərəfi gəzdik, amma tapa bilmədik.

– Necə mümkündür?

– Çün cadugərdir, sehri-cadu bilir. Mərdumun gözün bağlıyır, bilmir hayana gedir.

Əlbəttə, burda genə də paşa buna çox xahiş-təmənna elədi ki, sən gəl bir iş gör, küllən bunnan əl çək. Qoy, mən sənə hər kəsin qızın desən, onu səninçün alam.

Kərəm qəbul eləmir. Nə qəddər ürəgində fikr elədi ki, bəlkə mənim ürəgim dönər, getmiyəm bu Əslinin dalısıycan. Gördü mahalı-mümkündü, olmur. Özünlük dəyil.

– Paşam sağ olsun, bəs, sən mənə icazə ver, neçə kəlmə sözüm var sənə deyim. Ta qulaq asın. Bilin ki, mən daha mahalı-mümkündü gərək gedəm öz məşuqəmin dalısıycan. Ya gedəm qurbət məmləkətdə düşəm öləm, ya məşuqəmi tapam gətirəm.

Ay həzərat, necə edim,
Mən dönürəm, könül dönmür.
Bir gözələ düşüb meylim,
Mən dönürəm, könül dönmür.

Baxdılar bu yandan, o yandan ki, Kərəm diyə-diyə rəngiruh əvəz olur əslən. Aldı dübarə:

Qəbələnir gəlir daşdan,
Yükün tutub al qumaşdan.
Onun kimi yaşılbaşdan,
Mən dönürəm, könül dönmür.

Genə məzəmmət dəlil-dilavət eliyiblər. Amma dustlar, ərz eləmişdim ki, bir neçə navar bunnan qabax həmin paşanın Nərgiz adlı bir qızı var idi. Özünü Kərəmə bacı qərar vermişdi. Bu da bu bərnaməni, bu cərəyanı eşidib narahanddı. Bacıqardaş qəlbinnən gəlib dayanıb o da. O da həmin yerdə əlin qoyub qoynuna. Çün Kərəm bikəsdi. Allah heş kəsi bikəs elə-

məsin. Əlbəttə, o yerdə Kərəmin gözü sataşır öz bacısına. Görür bu elə ağlıyır ki, gözünün yaşı əbri-bahar kimi tökülür. Amma Kərəm, paşa dübarə bundan takəzə elədi ki, getmə. Aldı dübarə:

Ali-əlvan naxışlıdan,
Sini xurmeyi-saşlıdan.
Yorğun maral baxışlıdan,
Mən dönürəm, könül dönmür.

Əlbəttə, genə də buna çox məzəmmət, çox xahiş-təmənna, amma Kərəm bulardan xahiş elədi ki, mənnən fəqət siz o biri kəlməni xahiş eləməyin. Mən qalası dəyiləm, getməliyəm. Amma qulaq asın, xatəmə kəlməsinə:

Mən Kərəməm, keçdim candan,
Qorxum yox, sultandan, xandan.
Kərəm deyir, Əsli xandan
Mən dönürəm, amma könül dönmür.

Bunda doğru həm əyyan-əşrəf əyləşiblər. Kərəmin söhbətinə qulaq asırlar. Ərz elədim ki, bir bacısı əlbəttə, bir bacılığı olur. Gəldi irəli:

– Qardaş, bəs sənin rəngin-ruhun o cür olub? Niyə bəs bir günün ərzində sənin rəngin əvəz oldu? Nə oldu sənə?

– Ay bacı, qulaq as. Qulaq as, deyim.

Ay həzarat, necə olar?
Halı yardan ayrılanın?
Gedər bir qürbətə düşər,
Yolu yardan ayrılanın.

Dübarə:

Laçınlar göyə çəkilər,
Durnalar yerə tökülər.
On beş yaşında bükülər,
Beli yardan ayrılanın.

Qərənfillər aşmazımış,
Gül tikansız bitməzimiş.
Üşcə kəlmə tutmazımış,
Dili yardan ayrılanın.

Amma aldı görək, bəli, xatəmə kəlməsində nə deyəcək?

Dərdli Kərəm gələrimiş,
Dərd elədin, dələrimiş.
Cavanikən solarimiş,
Gülü yardan ayrılanın.

Çünki bəli, bacısı demişdi, sənin rəngi-ruhun niyə bu cür oldu? Oydu ki, Kərəm o sözləri dedi. Amma dustlar, doğru, həm təməm nəinki əyyanı-əşrəf əyləşiblər tədbir tökürlər ki, bəs nə cür eliyək? Görən bu Qara Məlik hayana getdi, tapax. Amma Kərəm hammısından əl verib görüşdü. Gəldi həmən o paşanın qızı Nərgiz xanımla xüdahafiz eliyə. Gördü, baba, elə narahanddı, elə ağlıyır ki, gəl görəsən. Burda çün ayrılır Kərəm öz dustlarından. İsdir getsin, düşsün gənə də bəli, Əsli xanımın dalısıycan.

Qəmi-qüssə bu gün başa vuruldu,
Ağla, bacım, ayrılığın günüdür.
Bizə qismət qürbət ellər yazıldı,
Ağla, bacım, ayrılığın günüdür.

Nə qəddər xahiş-təmənna eliyib ki, Kərəm genə qəbul eləmiyib, aldı görək dübarə nə deyir?

Məni zara gətirdi zarın dilləri,
Mən gedirəm gözdəmiyin yolları.
Bülbül uçub, boş qalıbdır gülləri,
Ağla, bacım, ayrılığın günüdür.

Amma gənə Nərgiz xanım dedi:

– Sən burda qalsan, mən sənə hər kəsin qızın istəsən, babama diyərəm alar sənin üçün.

Qəbul eləmiyib aldı görək xatəmə kəlməsin nə deyəcək:

Fələk məni daşa çalıb nə izlər,
Bacı, intizarda qalmasın gözlər.
Kərəm diyər, Əslim yolumu gözlər,
Ağla, bacım, ayrılığın günüdür.

Ağa, söz tamam oldu. Bəli, əziz dustlar, Kərəm dustlarıynan xudahafizlik eliyib düşür yola. Amma Kərəm burda çünki paşanın yanında bir muddət qalıb indi ayrılıb, düşüb yola gəlir. Mən də burda bir ayrılıx ahəngi oxuyuram:

Su başında duran gəlinlər, qızlar,
Allı gəlin, Xan Əslimə bənzərsən.
Xumar-xumar ala gözün süzəndə,
Dilli gəlin, Xan Əslimə bənzərsən.

Əlbəttə, çün Kərəm nə muddət yol gəlib. Gəldi, yetişdi çayın damənəsinə. Baxdı, gördü ki, bəli, bir iddə gəlinlər, qızlar bu çayda öz dilimiz paltar yuyurlar, qab-qaşıx yuyurlar. Amma birisi kənnəh Əsli xanıma bənziyir. Sazını köynəgindən çıxardıb odur ki, buları deyir. Gördü bu aşıx çox yanıxlı-yanıxlı oxuyur. Dedi, bu beçara hətmən məni öz məşuqəsinə oxşadır. Qoy mən də onun cavabını deyim. Belə deyir:

Qarrı dağlar aşa-aşa gəlibsən,
Var get, oğlan, sənin yarın dəyiləm.
İtirdin əğlivi bədbəxt, düşdün çöllərə,
Var get, oğlan, sənin yarın dəyiləm.

Amma Kərəm genə də bavər eləmiyip, aldı görək dübarə sözdə nə diyəcək:

Xan Əslimtək yanağında xalın var,
Sinə mərmər, əbrişimtək telin var.
Şəkərdən, şərbətdən şirin dilin var,
Dilli gəlin, Xan Əslimə bənzərsən.

Amma qız baxdı gördü ki, bu oğlan çox yanıxlı-yanıxlı oxuyur. Elə bil ki, bəli, bu oğlan bundan əl çəkən dəyil. Elə

bilir öz məşuqəsidi. Odur ki, öz adını Kərəmə bəyan eliyəcək. Ərz eliyim:

Güllü xanım gül rəngini soldurar,
Aşiq olan, məşuqunu güldürər.
Axı, oğlan bir nişannım vardı, səni öldürər,
Var get, oğlan, sənin yarın dəyiləm.

Kərəm gördü ki, bəli, bunun adı Güllü xanımdı. Özü də bəyan elədi ki, o, hətmən ayrı adamın aşiqi, məşuqəsidi. Aldı görək Kərəm xatəmə kəlməsində genə də "Qürbəti"ynən tamam ellərin, eşidənlərin hammısının sağlığına:

Dərdli Kərəm uca-uca dağ aşdı,
Aşıb gəldi, qürbət ellərə düşdü.
Uçutdum tərlanı, sarlar əyləşdi,
Güllü xanım, Xan Əslimə bənzərsən.

Amma burda neçə kəlmə Kərəm bulara söbət eliyənnən sonra bu qızlardan soruşdu:

– Ayə, burdan bir keşiş öz ayiləsinnən keçdimi, ya yox?

Bular dedilər:

– Bəli, bir neçə gün bunnan qabax, burdan Qara Məlik adında bir nəfər keçdi öz ayiləsinnən.

Bu havanın adı "Dübeyti"di. Yer var təcnis diyəllər.

Qocalırıx, günümüz geçir,
Gəl, bir geçək məzə sənnən.
İlqar verək, unutmuyax,
Tanış olax, təzə sənnən.

Gəl gözəlim, olma qaçax,
Ətirrığa lalə saçax.
Bulax üsdə surfa açax,
Oturax diz-dizə sənnən.

Qızlardan xəbər alıb Əsli xanımın yollarını. Dedilər, bir müddət qabax Qara Məlik köçünnən bax, burdan keşdi. Amma xəbərimiz yoxdu, hayan tərəfə gedib bilmirik. Kərəm bəli, qız-

lardan ayrılıb, dustlarından xudahafizlik eliyib, sazın çiynində havayıdarlıq elədi, düşdü yollara.

Bəli, bir muddət gəlib, bir kəndə varid oldu. O kəndin adı Sərvan kəndi idi. Amma Sərvan kəndi cavanları gördülər ki, bir aşıx saz çiynində gəlir. Dustlar, elə bax aşıxdan heç kəsin ajığı gəlməz. Çünki həmişə şaddıxlarda, toylarda, məclislərdə görüblər. Ona görə ki, hər kəs aşığı görsə ki, elə bil danışdırar, dindirər. Sərvan kəndi cavanları gördülər ki, bir aşıx gəlir.

– Ay qardaş, aşıxsan?

– Bəli, aşığam.

Harayliyib bunu gətdilər. Bir az yemək, içməkdən sonra aşıx, səndən xahişimizdir ki, bizə bir türki oxuyasan.

Amma Kərəmin Əsli xanım yadına düşüb, görək burda nə demək isdiyir, tərəfimdən ərz eliyim:

Bədr üzlü, gül camallı,
Yar məni sovdaya saldı.
Zənəxdanı qoşa xallı,
Yar məni sovdaya saldı.

Dovrədən "əhsən", "afərin" deyiblər.

– Doğrudan, aşıx, sağ ol səni.

Gəla, bu sözdərdən varımdı. Qulaq as:

Əsli kimin gözəl olmaz,
Qaşı yaqut, gözü almaz.
Kərəmi yadına salmaz,
Yar məni sovdaya saldı.

Bu yandan, o yandan "əhsən", "afərin" deyiblər.

– Aşıx, sənin səsin, sədan, oxumağın, tərzin, hərəkətin bizim çox xoşumuza gəldi, sağ ol.

Bir qədər istədilər dövran yığalar. Dedi:

– Baba, mən dərd əhliyəm. Mən dövran əhli dəyiləm.

– Aşıx, sən bu cür qəmli oxudun. Sənin əzmin harayadı?

Dedi:

– Qulaq asın. Axı, mənim dərdim çoxdu.

Ay ariflər, gəlin sizə soyləyim,
O istəhli yar məndən aralı düşdi.
İllər həsrətiyəm, aylar ayrısı,
Sinəm dərd əlindən yaralı düşdi.

Bunda o cavanlar ki, orda əyləşmidilər, bəzi elə dərd əhlidilər də. Xob, dustlar, eşgaları bir zaddı ki, hammı görüb. Hamının başına gəlib. Amma xob, Əsli, Kərəm ayrı bir bərnamədi bularınki. Bularınki Allah vergisidi. Bu oxuyanda cavanlar narahand oldular ki, aşıx, sən kimdən aralı düşübsən? Sənin dərdin nədir? Dedi:

– Qulaq as, deyim.

Təzə yetib on üç, on dörd yaşına,
Eybi yoxdu, gözlərində, qaşında.
Axşam-səhər bulaxların başında,
Yadıma dağların maralı düşdü.

Bular gorəndə ki, Kərəm bu sözləri oxur, dedilər ki, xoş bunun halına ki, bunun sevər sogilisi nəzərən çox gözəl bir qızdı. Amma xəbərrəri yoxdu ki, atası bunu götürüb diyarbadiyar qaçırdır. Daha sözüm var, qulaq asın:

Kərəm diyər, yolum toz, qubar oldu,
Boran oldu, duman oldu, qar oldu.
Dost bağında alma, heyva, nar oldu.
Bir bizim bağlar aralı düşdi.

Söz tamam oldu Kərəmə “əhsən”, “afərin” diyiblər. Kərəm didi:

– Dustlar, sizin fəqət mənə yaxşılığınız bu olsun ki, siz mənim Əslim gedən yolları mənə nişan verin.

Bir nəfər qovzandı:

– Ay oğlan, buyünləri mən filan yerdə idim. Ordan gəlirdim. Gördüm ki, bir qara kişidi, yanında da bir xanım, bir

gözəl qız var. Elə tüm qatırları tərsən nallamışdı, gedirdi gəlki görəsən, Qeyrsəriyyə şəhrinə sarı gedirdi.

Kərəm bulardan xudahafizlik eliyib, dustlar. Sazın çiynində hamayıldar eliyib düşdü yol turabına. Bəli, orda ayınan, ilinən, burda aşıxların muxtasarı dilinnən gəldi yetişdi Qeysəriyyə şəhrinə. Amma bu şəhrin adamları çox qəribə duzlu, çox aşıxnavaz, özlərinin aşıxlıxdan çox xoşdarı gəlir. Küçeynen gedirdi, birdən beş-on cavana rast gəldi.

– Ay oğlan, diyəsən bir aşıx gəlir.

– Yaxçı oldu, bunu aparax qəhvədə oxusun bir qədər.

Kərəmi götürüblər, o, dedi, mənə qunaxsan, bu dedi, mənə qunaxsan. Xülasə, gəldilər bir qəhvədə dayanıblar. Bir qədər yemək-işməkdən sonra Kərəmə xahiş elədilər ki, beş-on kəlmə türkü söyləsin. Amma burda Kərəm gördü Əsli xanımdan sorax yoxdu. Dustlar, götürüb görək burda “Yorğun Kərəmi” ilə belə deyir:

Dolansın əyyamın, dönsün dövranın,
Düşmüsən məniminən inada, fələk.
Qurumaz göz yaşım, açılmaz könlüm,
Qoymadın yetişəm murada, fələk.

Fələyin əlindən şikayət eliyir.

Aldı dübarə “Ahəngi” ilə belə deyir:

Əlimdən alıbsan, huri-mələgim,
Eşq oduna yandırıbsan ürəgim.
Axırda düşəcək sənnən giləgim,
Tökülə nahaq qan arada, fələk.

Kərəm diyər, yarsız burda neylərəm?
Kimə gedib bax bu dərdim söylərəm?
Məhşərdə əlinnən şikayət eylərəm,
Gəl, bir yetir məni murada, fələk.

Söz tamam oldu, dörədəkilər Kərəm belə dönəndə gördü ki, hammısının gözü yaşarıb.

– Bəs, oğlan, siz niyə narahand olduz?

– Ay oğlan, sənin ki məşuqən əlindən gedib?

Dedi:

– Mənim bir məşuqəm var, Əsli adında. Atası Qara Məlik elbəel, diyarbadiyar götürüb aparır. Mənim əlimdən qaçırdır. Amma hər yana gedirəm, götürüb mənim əlimdən aparır. Vəli, mənim sizdən bir xahişim var ki, o gedən yolları əgər ehtimalən siz əgər bilsəz, onun gedən yolların mənə sağlıx[74] verin.

Bulardan bir dənəsi qovzandı:

– Ay oğlan, dünənnəri mən yolunan gəlirdim. Bir qara kişi gedirdi, yanında da iki gözəl xanım var idi. Biri qız, biri xanım. Amma elə bil ki, onların biri sənin məşuqən olmuş olaydı. Onun nişanı sən versən, hətmən olardı, gedirlər Kür çayına sarı.

Kərəm bulardan xudahafizlik eliyib Kür çayının yolunu qatıb qabağına gəlməgə bəna qoydu. Neçə gün yol gəlib, yetişib Kür çayına. Amma o saət yetişdi ki, bir dəstə qız-gəlin o Kür çayının, öz dilimiz, çayda paltar, ya qab-qaşıx yuyurdular. Bir dəstə qız-gəlin yolunan gəlirdi. Vəli, buların bir dənəsi çox nazənindi. Bulardan da kənara iki gözəl bir-birlərindən şuxlux eliyə-eliyə gəlirlər. Xeylax dalda gəlirdilər. İndi görək, o iki gözəl ki, gəlir hələ olara nə diyəcək? Dalısıycax bu qız-gəlinlərə nə diyəcək mən ərz eliyim, bütün vəfalı dustların sağlığına:

Cilvənə-cilvənə nə gəlirsiz, qoşa dilbər?
Tanrı ayrılıx verməsin havadaki başa dilbər.

Amma bu qızdar sürətdərin artırıblar. Gördülər saz səsi gəlir, söz səsi gəlir. O qız-gəlin də qab-qacaxların, paltarların, ötüklərin qoyublar yerə. Bu aşıx nə gözəl oxuyur? Nə qəşəng avazı var? Nə gözəl cavandı? Həman o gözəl gəlin ki, Kərəmin gözü sataşıb, bir balaca Əsli xanıma oxşuyurdu. O da niqabın üzündən atıb tamaşa eliyir. Amma o qızdar bir-birlərinə çiyin vura-vura gəlirlər, şuxlux eliyə-eliyə gəlirlər.

---

[74] Sağlıx-muştuluq, müjdə

Aldı görək dübarə:

Söydüm xasiyyət, halını,
Üzündə qoşa xalını.
Görəndə gül camalını,
Könül coşa gəldi, dilbər.

Qızlar az qalıb yetişə bu birisi qız-gəlinə. Amma görək indi Kərəm axırıncı sözünü nə deyir:

Heyranıyam Əsli yarın,
Kərəm də olsun qurbanın.
Sənin bu dəli dövranın
Varmaz axı başa, dilbər.

Qızlar belə baxanda gördülər ki, bu aşıxnan bayaxdandan o tərəfdən iki qız gəlirlər. Bir-birlərinnən şuxlux eliyə-eliyə. Bu aşıx olara o sözdəri deyirmiş, bulardan biri deyir:

– Aşıx, görəsən, sənin məşuqən var? Sən bu cür oxursan. Axı, sən dərd əhlisən. Hayana gedirsən axı?

Gəlin niqabın üzündən atıb, Kərəmə tamaşa eliyəndə, Kərəm elə nəzərinə gəldi ki, bu elə Əsli xanım özüdü. Görək indi burda nə deyir:

Gedərikən bir gəlinə tuş oldum,
Yolçunu yolundan eylər bu gəlin.
Görcək niqabını atdı üzündən,
Yolçunu yolundan eylər bu gəlin.

İndi görək dübarə nə diyəcək:

Bir ah çəksəm dağlar, daşdar əriyər,
Nədən səndəki o nazik əllər.
Hənalı barmaxlar, o siyah tellər,
Yolçunu yolundan eylər bu gəlin.

Qızdar baxırlar, baxdılar gördülər bu aşıx, elə biləsən ki, o gözəl gəlinə sarı baxıb. Çün o gəlini Əsli xanıma bir muxtəsər oxşadıb. Amma çün iki göyüllü idi. Ürəgində dedi, yox, şayət bu, Əsli xanım olmuya. Aldı görək xatəmə kəlməsin nə diyir:

Mənim Əslim cənnətdəki huridi,
Gözəllikdə huri, mələk, pəridi.
Bir ah çəksəm dağı, daşı əridi,
Yolçunu yolundan eylər bu gəlin.

Söz tamam oldu. Əlbəttə, qızlar ta bu Kərəm sözünü oxuyana kimi dayanıblar, qulaq asırdılar. Bir qədər qulaq asandan sonra dedilər:

– Aşıx, sən nə gözəl oxudun, nə qəşəng avazın var? Nə qəşəng oxursan? Haralısan sən Allah, aşıx?

Dedi:

– Mən gəncəliyəm, mənim atam Ziyad xan bəylərbəyidi. Amma düşmüşəm bir sovar söygülüm, bir dənə məşuqəm var Əsli adında. Qara Məlikin qızıdı. Onun dalısıycax elbəel, diyarbadiyar gəzib gəlmişəm bura kimi. Ayə, mənim Əslimi bu çaylarda, bu yollarda siz vardız, görmüsüz, ya yox?

Bulardan biri dedi:

– Diyəsən, mən neçə gün bunnan qabax burdaydım. Elə bir nəm-nişandaki bu oğlan deyir, ordan elə bil bir köş getdi. Köş ayıdı, yola salırıx.

Kərəm baxdı, bulardan "Allah saxlasın" eliyib yola düşdü. Gəldi, bəli, el yolunnan gəlirdi. Yetişib Kür çayı düzü diyəllər, orda gəlirdi gördü bir böyük qəflə qabaxdan gəlir. Dedi, sən ölmiyəsən, bax o qəflə bu yollardadı həmişə. Tacir bu yollardadı. Əgər bilsə, bu biləcək Qara Məlik hayana gedib. Gəldi, bəli, kəsib kəcavənin qənşərini:

– Ay qardaş, hardansız? Mənim dərdim var. Bir beş dəqiqə dayansaz, mənimin ürəgimin sözünü sizə diyəm.

Tacirbaşı gördü bu oğlan elə qəmgindi ki, məlumdur qiyafəsindən. Amma görək indi burda o tacirbaşıından nə xəbər alır? Mən də ərz eliyim, əziz və muhtərəm vəfalı tamaşagirlərin sağlığına. Hörmətiynən ərz eliyəcəm:

Başına döndügüm, ay xacəbaşı,
Aman, xacəm, Xan Əslimi gördünmü?
Dolanım başıya, mən alım qadan,
Aman, xacəm, Xan Əslimi gördünmü?
Mənim Əslim bu diyarə gəldimi?

Xacə fikir elədi:

– Oğlan, diyəsən, bir neçə gün bunnan qabax bəli, bir yolunan gedirdi biri qız çox gözəl idi.

Danışanda da bunun ixtiyarın əlindən almışdı. Elə bil bu o qızı deyir. Dedi:

– Dayan, cavan. Sözün cavabın deyim.

Başına döndügüm alagöz cavan,
Oğlan, səni bir qız diyib ağlırdı.
Ala gözləriyə mən ollam qurban,
Oğlan, səni bir qız diyib ağlırdı.

Amma burda Kərəmin bir balaca əli qızıb. İndi görək bəli, dübarə sözü necə diyəcək. "Cəlili" havasıyla ərz eliyirəm:

Ağ üzündə bir cüt qoşa xalı var,
Əmmək üçün ləblərinin balı var.
Sarı başmağının gümüş nalı var,
Aman, xacə, Xan Əslimi gördünmü?

Onda xacə başa düşür ki, bəli, elə o qız imiş ki, kəlməsindən dürr tökülürmüş. Dedi:

– Oğlan, dayan. Bəli, bəli, sən diyəni mən görmüşəm.

Yeriyəndə kətan köynək dizindən,
Oğlan, danışanda dürr tökülür sözündən.
Onu gördüm bax, mən də getdim özümdən,
Amma səni o qız diyib ağlırdı.

Kərəm dedi, hətmən mənim məşuqəmi görüb. Az qaldı ki, dolansın başına tacirin:

– Qurbanın kəsilim, denən harda görmüsən? Onun yerin, məkanın gərək mənə diyəsən.

Kərəm gedər Kür çayının düzünü,
Siyah sürmə məst eliyər gözünü.
Adı Əsli, Qara Məlik qızını,
Aman, tacir, Xan Əslimi gördünmü?

Dedi:

– Oğlan, yaxşı yerdə görübsən tacir Sultanı.

Tacirin adı tacir Sultandı. Axırıncı sözün görək nə deyir, mən ərz eliyim, tamam eşidənlərin sağlığına:

Bəli, nədən getməz bu yerrərin dumanı,
Hax götürsün aralıxdan yamanı.
Oğlan, yaxşı yerdə görübsən tacir Sultanı,
Səni bax, o gözəl qız diyib ağlırdı.

– Ağa tacir, hayana getdilər?

Dedi:

– Bax, bu yolunan. Nəzərə belə gəlirdi ki, olar gedirdilər vilayətə, Hələb şəhrinə. Hələ ki, o dağları aşır oyüzə, Tiflisin şəhridir. Şayət, Tiflisə gedirdilər.

Kərəm tacirin əlin öpüb isdir ki, getsin. Tacir dedi:

– Oğlum, getmə. Qabaxda bir bərk dağ var. Çox muhimdi. Biz də orda borana, küləgə, qara düşdik. Payızın axırıdı, gedərsən orda borana, küləgə düşərsən. Beyindən gedərsən, heyfsən, cavansan.

Dedi:

– Tacir, ya gedəm qürbət eldə öləm, ya da ki, gedəm məşuqəmi tapam da. Beləliklə də olmaz. Mənim atım, donum, libasım, daralığım, sirvətim, hammısı əlimdən gedir bir dənə Əsli xanımdan ötürü.

Amma gördü xeyir, bu oğlan qəbul eləmiyəcək.

– Oğlum, bəs gedirsən o dağdan mavaıb ol[75].

Kərəm xudahafiz elyip, tacirdən ayrılıp yola düşüb gəlməgə qoydu. Dustlar, neçə gün yol gəlir. Əlbəttə, yetişəndə

[75] Mavaıb ol-gözlə, diqqətli ol

gördü bəli, tacir diyən dağdı. Baş çəkilib fələy kəşhakəşana. Baş dumandı, görməg olmur. Arada qar görünür, amma ayax tərəf gül-çiçək. Eşqi, əğli burda murafədədi. Əğli deyir, qəyitginən, bu dağ bərk dağdı. Eşq deyir, bi bura kimi gəlmisən, get. Amma bəla qoydu dağı çıxmağa. Gedə-gedə qar gücdənir, baxdı, gördü qar gəlir. Genə də həman dağları, həman dərələri, sərələri, yolları gedir. Gördü, baxer, elə qar yağdı ki, yol itdi. Day yola əslən baş aşmax olmur ki, hayan tərəfdədi. İndi ki day bu axır günləridi. Tay bu dağdan can sağlam qurtara bilməyəcək. Görək burda əyləşib bir daşın üsdündə, sazını köynəgindən çıxardıb, gözünün yaşı tökülür. Ana-bacı, famil yadına düşüb, illər yadına düşüb. Geçən günlər gəlir gözünün qabağında, eyni sinema pərdəsi kimi gözünün qabağında dolanır. Görək burda nə deyir:

Bu görükən qarrı dağlar,
Dağlar, bizim dağlar indi.
Ağ birçəkli mənim anam
Oğul diyip ağlır indi.

Bunu diyip gözlərin kasası doldu yaşınan. Bacıları yadına düşdü:

Məkkədən gələn hacılar,
Ürəgimdə var acılar.
Qardaşı gedən bacılar,
Qardaş diyip ağlır indi.

İndi məni yada salıplar. Bilmirlər ki, mən boranda, küləgdə. Gör mənim başımda nələr varımış. Görək bəli, axırıncı sözü nə diyir:

Fələk, nədi mənim xatam?
Nə məlulam, nə də şadam.
Ziyad xandı mənim atam,
Oğul diyip ağlır indi.

Bəli, söz tamam oldu. Kərəm dustlar, qovzanıb yerindən qarı üsdündən alıb, dolandı hər tərəfə gördü xeyir, tamam du-

mandı, qardı, borandı, tufandı. Day bildi ki, bu dağ buna yol vermiyəcək. Burda hələ bir hesaba diyəllər ki, bir qatar durna gəldi bunun gözünün önündən getdi. Burda durnalara bir neçə söz dedi. Dolandi, gəldi, gördü ki day heç yerdən çarə yoxdu. Əyləşib fələgin əlindən, ah çəkib. Görək burda nə diyəcək, mən ərz eliyim:

Qadir Allah, budur səndən diləgim,
Qoyma məni yarı yolda qış günü.
Kərəm eylə, bircə yapış əlimdən,
Yetir muradıma məni qış günü.

Gördü yox, boran daha da gücləndi. Ta öz canından bu dəfə keçdi, bildi ki, day bu boran, külək bunu aradan aparacaq. Aldı görək dübarə nə deyir:

Boran, duman alıb dörd bir yanımı,
Soğux kəsib iligimi, qanımı.
Əgər vədəm qalmıyıbdı, gəl al canımı,
Mənə minnət etmə, fələk, beş günü.

Kərəm bu sözü deyib. Amma yavaş-yavaş dağ isdiyir buna yol verməyə. Aldı xatəmə kəlməsində:

Kərəm diyər, kimsəm yox yetsin dada,
Əsli bivəfadı, heş salmaz yada.
Ömrüm keşdi ahı-zarla dünyada,
Çox dolandım, bir görmədim xoş günü.

Bunu deyib, bəli, day bildi ki, dağ buna isdir yol vermiyə. Amma dustlar, o qəddər keşmiyib, dağın boran, külək, dumanı açıldı. Gün çıxdı. Kərəm baxdı gördü ki, bəli, dağ açılıb. Bir qədər gəzib yolu tapdı. Bəla qoyub dağdan ənməgə. Amma düzü aşağa ərib, gəldi, bəli, yetişdi el yoluna. Kərəm bu yolu gəlməkdə olsun, yetiş xəbəri kimdən bil, Qara Məlikdən. Günə bir mənzil yol gəlir, Qara Məlik birbaşa gedir Tiflisə. Çün bilirdi ki, orda bəli, bir dustu var. Gedir orda pənahında ola-qala. Bu da dağı enəndən sonra ürəginə gəldi ki, bəli, hətmən bu

Qara Məlik Tiflisə gedib. Tiflisin yolun qatıb qabağına gəlsin. Amma Qara Məlik də Tiflisdədir, dustunun evindədir. Deyir:

– Bir əcəm aşıxlarından mənim qızıma aşiq olub. Hər yana gedirəm, gəlir. Mənnən sənə, sənnən Allaha divanımızı eliyək.

Dedi:

– Oğlan gəlib burda tapa bilməz. Əgər bir koğu gəlsə də, biz yalannan diyərik ki, bu qızı özgəsinə adaxlamışıx, çıxar gedər.

Kərəm yol gəlməkdə, amma gəlir nə vaxtı, günün batar çağı. Yetişdi bəli, Tiflisin şəhrinə. Küçeynən gedir, nabələt adamdı yolun ənin gedir, uzunun gedir. Üş-dörd dənə cavan əyləşmişdilər bir qəhvənin qabağında. Gördülər ki, bəli, bir aşıx saz çiynində gəlir. Amma məlumdur ki, nabələddi.

– Ay oğlan, aşıxsan?

– Bəli, aşığam.

– Aşıxsan, buyur gəl bura.

Bəli, Kərəm varid olub keşdi əyləşdi. Qəhvə-qəlyan sərf olannan sonra bu yannan, o yannan söhbət eliyirlər.

– Aşıx, sənin üz-gözündən qəm-qüssə tökülür, axı. Sən niyə beləsən? Bir üç-dörd kəlmə olar ki, bizim üçün söbət eliyəsən?

Dedi:

– Bəli, qulaq asın. Başımın qazayəsini sizə ərz eliyim.

“Ceyrani Kərəmi” ilə ərz eliyəcəm:

Ay ağalar, gəlin sizə söyləyim,
İtirdim Əslimi, görən olmadı?
Pərvanələr kimi alışdım, yandım,
Mən tək bu çöllərdə qalan olmadı.

Kim görmüşdü Fərhadınan Şirini,
Olar da söydülər biri-birini.
Atdı külüngünü, yardı sərini,
Fərhad kimi yar üçün ölən olmadı.

Xurşid öz mahının dizinə yatdı,
Qəmbər arzusunun tozuna çatdı.
Dünyada Şahsənəm murada çatdı,
Aşıx Kərəm diyər, gülən olmadı.

"Əhsən", "afərin" diyiblər.

– Oğlan, Əsli ki deyirsən, kimdi? Sən haralısan? Adın nəmənədi?

Dedi:

– Dustlar, mən adım Kərəmdi. Bəli, gəncəli Ziyad xanın oğluyam. Amma düşmüşəm Qara Məligin dalısıycan. Mənim bir söygülümü götürüb qaçırıb. Hər elə, hər diyara gedirəm, götürür qaçır. Ayə, bu yandadı, bu nişandadı. Gəlib bu diyara, ya yox?

Qəhvəçi deyir:

– Oğlum, o sən diyən əlbəttə, həmən oğlandı ki, bizim küçəmizdə oturur. Adına da Qara Məlik deyirlər. Xatircəm otur. İndi mən işimi qurtarram, gedərik bizə. Orda mən sizə diyərəm ki, bəli, cərəyan nə cür olub.

Bəli, qəhvəçi Kərəmi götürüb birbaşa gəlir öz evlərinə. Amma yetişiblər qəhvə-qəlyan sərf olannan sonra xanımını çağırdı ki, dedi, bax, fılan ev, fılan küçədə, fılan yerdə, bu nəmdə, bu nişanda bir qız gəlib ora. Atası da Qara Məlikdi. Gedərsən Qara Məlikdən gizlin o qızı gətirərsən bura, bu oğlannan görüşə.

Dedi:

– Axı, mənim sözümnən gəlməz.

Dedi:

– Əgər Kərəmin adın versən, qorxma gələr.

Qəhvəçinin xanımı durub, bəli, bu küçədən, o küçədən, o xiyabannan bəri gəldi. Amma yetişib Qara Məligiin qapısına. Qara Məlik də şansa evdə yoxudu. Keçib içəri, bir bahaneynən söhbəti bu yannan, o yannan saldı. Axırda gəldi mətləb üsdünə. Dedi:

– Ay qız, sənin məşuqun, sənin söygülün o Kərəm bizim evdədi. Bir bahanəylə durasan, gedək bizə. O söygülünnən görüşəsən.

Əsliyə elə bil ki, dünyanı verdi. Dedi:

– Sən qapınızın nişanasın de. Get, işin olmasın, mən gəl-ləm.

Qəhvəçinin xanımı gedib, Əsli xanım gəldi anasının yanına.

– Anayi-mehriban, mənə icazə verəsən. Mənim ürəgim darıxdı, çıxam bir eşigə.

– Ay qızım, sənə Qara Məlik qadağan eliyib eşigə çıx-mağa. Xob, gedirsən get. Məsələ yoxdu, amma tez gəl.

Əsli xanım yetmiş qələminən özünə zinyət gəlib. Bir dəstə də gül əlində, gəlib ki, aparır Kərəmə.

Kərəm əyləşmişdi, Əsli xanım kənardan gələndə Kərəm gördü, bəh-bəh, misli-manəndi yoxdu dünya üzündə. Gözdər nərgizi-şəhla, dişlər inci-sədəf kimi düzülüb, dodaxlar nanə yarpağı. Amma əlində bir dəstə də gül var. İndi görək, bəli, Əsli xanımın o cür gəlməsi barəsində Kərəm nə diyəcək, mən də ərz eliyim:

Sallana-sallana yolun üsdünə,
Çıxan dilbər, məni candan eylədin.
Quba qaz yerişli, şahin baxışlı,
Baxan dilbər, məni candan eylədin.

Aldı dübarə:

Şahin kimi gör nə gəlir üsdümə,
Qızılgüllər xub yaraşır dəstinə.
Baxışları durub canın qəsdinə,
Baxan dilbər, məni candan eylədin.

Burda Əsli xanımnan söbət eliyiblər. Gərmi söhbətdədi iki aşıqi-məşuq. Xuraman danışırlar, deyirlər, gülürlər. Eşit

xəbəri kimdən, Qara Məlikdən. Qara Məlik gəldi evə axşam. Xanımından soruşdu:

– Bəs, qız haradadı?

Dedi:

– Taza çıxıb eşigə.

Rəml atdı kitaba, baxdı gördü, bəli, Kərəm gəlib bu şəhərdədi. Tez durdu qızın dalısıycax gəzməgə. Qız da ürəkdən bildi, atası gələn mağamıdı, gələcək və bunu tapacax. Tez Kərəmdən icazə alıb, qol salıb bir-birinin boynuna, xudahafiz eliyib, dedi:

– Oğlan, genə sonra görüşərik sənlə.

Amma gələrkən, o yannan da Qara Məlik gələndə qıza rast gəldi:

– Qız, hardaydın?

Dedi:

– Elə gəlmişdim eşigə, buralarda gəzidim, dolanırdım eynim açıla.

Bu gətirib bildi ki, bəli, Kərəm də burdadı. Gecə gəldi araya, qatırları tərsə nallıyıb gecəlikcə qızı da götürüb Tiflisdən qaçır. Sabah oldu. Bildi ki, qəhvəçiynən Kərəm Qara Məlik burdan köç eliyib gedib. Ah-nahadından çəkdi ki, görürsən ki, dustum, mənim başıma həmişə bu oyunlardan gətirir. Daha fikir eləmir tapa bilərəm. Qəhvəçinin dustları tamam tək famili yığılıb gəliblər. Dəvət elədilər ki, oğlan, getmə sən bu qızın dalısıycan. Bax, əylən qal burda. Gözəl-gözəl qızlar da var. Hər kəsin qızın desən, mən allam sənə. Kərəm dedi ki, yox, mən getməliyəm. Çün ilqar vermişəm söygülümə. Əlbəttə, burda indi getmək mağamıdı, ayrılıx mağamıdı. Görək nə diyəcək, mən də ərz eliyim:

Bir od düşdü ürəgimin başına,
Cismim başı yandı, yandım, ağlaram.
Zalım keşiş genə hiylə eylədi,
Murad hiyləsinə qandım, ağlaram.

– Oğlan, niyə ağlıyırsan axı? Qorxma, nə çoxdu dünya gözəli.

Dedi:

– Yox, axı mən ilqar vermişəm söygülümə, qulaq as.

Könlüm isdir gözəllərin mərdindən,
Qurtara bilmədim zülmün əlindən.
Aman, dustum, Əslim köçüb yurdumdan,
İndi ona mən inandım, ağlaram.

Bəli, dustlar, xudahafizlik edib gedir. Neçə gün, neçə gecə yol gəlir. Gəlib yetişir bir dağın damənəsinə. Əlbəttə, o məmləkətə Çuxuroba diyəllər. Ora yetişəndə gördü ki, elə bil bir balaca məriz olub. Dedi ki, yox, şayət, soyuq dəyib. Amma gördü yox, günə-gün bunun dərdi şədiddəşir[76]. Day yavaş-yavaş yoluna idamə verə bilmir, ah-nahadından çəhdi. Dedi, bura bax, qürbət el, qürbət məmləkət, heş kəsim yox. Düşəciyəm bu biyabanda, bu çöldə öləm, heş kəsin xəbəri olmuya ha. Amma bu zamanda gördü ki, bəli, bir böyük qatar durna göyün üzündən gedir. Dedi ki, yaxşısı budur ki, mən bu durnalardan əvvəldən öz elimə, məmləkətimə bir sifariş yolluyum. İndi görək bəli, burda nə demək isdiyir? Tərəfimdən ərz eliyək, tamam əziz və muhtərəm dustların, eşidənlərin hammısının sağlığına:

Durnam, gedər olsaz bizim ellərə,
Qürbətdə bir xəstə gördüm, diyərsiz.
Əgər sizdən xəbər alan olarsa,
Qürbətdə məriz, bir xəstə gördüm diyərsiz.

Amma bu sözü diyib, görək indi dübarə nə diyəcək, ərz eliyim xidmətizə:

Xəstə düşdüm, kimsə bilməz halımı,
Aldılar əlimdən qonça gülümü.
Nə diyarə tutum, gedim yolumu,
Qürbətdə bir xəstə gördüm, diyərsiz.

[76] Şiddətlənir

Amma genə ətrafa baxır. Bir kəs görmədi. Gördü yox, gedə-gedə dərd şəbid olur. İndi görək xatəmə sözünü nə diyəcək?

Kərəm burda dərdin kimə söyləsin,
Xəncər alıb qara bağrın teyləsin.
Qurbət eldə kimsə bilmir neyləsin,
Qürbətdə bir xəstə gördüm, diyərsiz.

Bəli, burda diyir ki, Kərəm sözünü tamam eliyəndən sonra, istədi dursun yoluna idamə versin, yavaş-yavaş yolunu getsin. Amma gördü xeyir, day dizinin də taqəti yoxdu. Elə biləsən day əslən taqət yoxudu. Ətrafa baxır, heş kəsi yox. Dərd alıb canını, ah-nahadından çəhdi. Dedi, day mən burda belə məlum ki, heş tərəfə gedəmmiyəm. Amma burda götürüb görək indi öz halına, nə demək isdiyəcək. Tərəfimdən ərz eliyim, "Ətrafı Həmədan" havasıyla:

Aman fələk, dad eylərəm əlindən,
Yaman yerdə gəldi aldı dərd məni.
Gecə-gündüz ah çəkərəm, ağlaram,
Qürbət yerdə öldürəcək dərd məni.

Bunu deyib gözlərinin yaşı tökülür. İndi görək dübarə nə diyəcək?

Gecə-gündüz gedər gözümün yaşi,
Saldı qanlı fələk başıma daşi.
Ərzurumda öldü bax o əziz yoldaşım,
Axır çöldən-çölə saldı dərd məni.

Amma aldı xatəmə kəlməsini görək nə deyir? Ərz eliyim, əziz və muhtərəm dustların sağlığına:

Kərəm deyir gecə - gündüz deynərəm,
Heç özüm də bilmərəm ki, neynərəm.
Dərd əlindən göyüm-göyüm göynərəm,
Şahmar olub yaman çaldı dərd məni.

Kərəm sözün tamam eliyib, gördü xeyir, əslən qadiri yoxdu ki, dura bilmir ayağa. Bunu day elə məriz çulğuluyub ki,

day heş tərəfə gedə bilmir. Ah-nahadından çəkir. Əhd elədi ürəgində, dedi, əgər mən ölməsəm qalsam, bu mərizçilikdən qurtarsam, day gedim öz vətənimə sarı, öz elimə sarı. Day qız mənə qismət dəyilmiş. Bunu diyib, bəli, "əşhədin" diyib, rubiqiblə uzandı. Amma bir qədər yatıb, yuxusuna kim gəlir? Başın üsdünə kim sayə gətirir? Ağalar ağası, Mərdi Mürtəza Əli. Düşmənin gözünün xəncəri, dustun dizinin taqəti, Ağam Şahı-Mərdan Əli. Oğlan bir qədərdən sonra ayildi. Bir dövrəsinə baxdi, bir o yana baxdi, bir kəs görmədi. Özünə baxdı gördü ki, xeyir, əslən bu elə bil ki, bu heç məriz dəyilmiş. Dedi, bəs, Allaha təvəkkül. Çün əhd eləmişdi, mən gedim öz vətənimə sarı. Bəli, düşüb yola, Gəncəyə sarı gəlməgə bəna qoyubdu. Gəldi yetişdi Gəncəyə. Gördü bəli, dağlar həman dağlardı, çaylar həman çaylardı. Bulaxlar həman bulaxlardı. Həman nəmnişanı ağaşlardı. Amma Gəncə o Gəncə dəyil, xaraba qalıb. Əslən elə xaraba qalıb ki, heş kəs yoxdu. Fəqət işıx divarların üstündə biz bayquş diyərik, elə o bayquşdarnan dolub. Fağat olardan qalıb. Dolandı, bəli, gəldi. İndi bir nəfər gəzir ki, bəlkə xəbər alsın ki, bura haradı mən gəlib çıxmışam? Gəncə niyə bu cür olub? Dolandı, gəzdi, ta yetişdi öz imarətlərinin ətraflarına, tanırdı öz imarətlərini. Gəldi ora, gördü bəli, bir qoca arvad. Gözü də naqidə olub. Oturub bir uçax divarın dibində. Öz-özünə zümzümə eliyir, ağlır.

– Ana can, salam.

– Əleykümə salam, oğul.

– Ana can, bura haradı mən gəlib çıxmışam?

– Oğul, sənin səsin nə doğmadı, nə istiyirsən, oğul? Sən kimsən?

Dedi:

– Bəs, icazə ver ki, mən ərz eliyim mən kiməm.

Götürüb görək ona "Dilqəm"inən nə diyəcək, mən ərz eliyim:

Ay ağalar, gəlin sizə söyləyim,
O qəmli hicranın dəryasıyam mən.
Tamam cəh-cəlalım gedib əlimdən,
Xaraba Gəncənin balasıyam mən.

Oğul getdi-getdi bizdən yad oldu,
Müjdə gəldi, sehraqıblar şad oldu.
Dağıldı cəlalım, taru-mar oldu,
Virana Gəncənin balasıyam mən.

Kərəm baxdı gördü ki, bunun danışığı, ləhçəsi elə bil bunun öz anası olacax. Aldı görək o birisin belə deyir:

Gəlmişdi tərlanım şığıdı getdi,
Ünlədim-ünlədim ahım da bitdi.
Öldü Ziyad xanım, Mahmudum itdi,
O itgin Kərəmin anasiyam mən.

Anası bir neçə kəlmə söhbət eliyənnən sonra Kərəm baxdı gördü ki, ey dadı-bidad, ey ruzugar, bu bunun öz anasıymış. Nə qədər elədi ki, özünü saxlıya, amma özünü saxlıya bilmədi. Kərəm bəna eliyip ağlıyır, anası soruşdu:

– Oğlum, bəs sən niyə ağlıyırsan?

Dedi:

– Anayi-mehriban, axı mənim dərdim çoxdu. Qulaq as deyim ki, mən niyə ağlıyıram.

Fələk məni, anacan, bağa bağban eylədi,
Bir gül dərib iyləmədim, ağlaram.
Aləm dərdi bəslədigim gülləri,
Bir gül dərib iyləmədim, ağlaram.

Aldı dübarə:

Görünmür heş bu yerrərin sultani,
Bu xəstə göylümün təbibi hani?
Əzəldən söymüşdüm mən Əsli xanımi,
İlqarında düz olmadı, ağlaram.

Çün anası bilirdi ki, Əsli kimdir. Ürəgində də ehsas eliyir ki, bunun elə səsi, avazı, oxuması bunun oğlu Mahmuda oxşuyur. Çün Kərəmin adı Mahmud idi, Mirzə Mahmud diyərdilər.

– Oğlum, Əsli kimdi? Sən kimsən? Əsli kimin qızıdi?

Dedi:

– Qulaq as, ərz eliyim.

Qara keşiş qızı, Əslidi yarım,
Qol boynuna heş salmadım, ağlaram.

Ana tanıyıb, çün ananın gözləri işixdan kəsilib. Görmür ananın gözləri. Əlin dolandırıb Kərəmi tapdı. Basıb bağrına, ana-oğul məhəbbətidi elə bil ki, qoyun quzunu yalıyır. Elə basıb bağrına ki, gözlərin yaşı Kərəmin üsdünü islatmışdı.

– Oğlum, bu halda niyə, indi niyə gəlirsən? Hardaydın? Sənin fəraqından ağlamışam bu cür olmuşam.

– Anayi-mehriban, sən burda niyə tək qalıbsan? Atam Ziyad xan hardadi? Mənim neçə burda qəflə, qatır, dərayət, sirvət, mal-dolətim nə cür olub? Axı, bu Gəncə niyə belə olub, anacan?

Deyir:

– Oğlum, əyləş yerə. Qoy mən danışım ki, niyə belə olub. Neçə il bundan qabax sən ki, burdan getmişdin. Bir bərk zilzilə gəldi. Külləm bu kəddəri, şəhərləri hammısın xərab elədi.

– Bəs, atam Ziyad xan hardadı?

Dedi:

– Oğlum, o, dünyadan gedib.

– Bəs mənim iki bacım var idi. Qəmərbanı, Qəmzəbanı, olar hardadılar?

– Atan öz sağlığında oları verdi ərə. Xəbərim yox hardadılar.

– Bəs sən niyə burda tək qalıbsan, axı?

– Oğlum, fələk mənim başıma bu işdəri gətirir. Neçə muddət sənin həsrətin çəkimişəm.

Amma Kərəm gördü anası burda uçax divarın dibində elə bil ki, burda bir kəsi yoxdu. Məlumdur ki, burda gədayılıx eliyirmiş neçə muddətdir. Bütün dünya gözündə tiri-tar oldu. Aldı görək, Kərəm burda nə deyəcək:

Öldüm-öldüm ana-ana diməkdən,
Ağlamax heyraxdı, bica gülməkdən.
Yoxsul olub, el töhməti çəhməkdən,
Mənzili-qürbətə salmax heyraxdı[77].

Deyir:

– Gəl, çıxax gedək. Mənim atamın, özümün cəh-cəlalını görənnər məni bu vəzdə, səni bu vəzdə görsə, mənim düşmənlərim mənə şəmaət eliyərrər.

Ana, bala əl-ələ verib gəlirlər yollarını. İdamə verirlər ki, day isdiyirlər ki, Gəncəni tərk eləsinlər. Bir qədər gələndən sonra anadı qocalıb. Diyəllər ki, anası dünyadan gedir. Oturub anasının başının üsdündə çoxlu narahandçılıx, çoxlu ağlıyıb. Heş təkbirinən anasını götürüb dəfn elədi. Day görür burda qalmağın faydası yoxdu. Dedi, elə xob, mənim elə gedib qürbət eldə ölməgim, bu məmləkəttə ki, məni tanırlar, gedib orda ölməgim betərdi. Bəs, mən getməliyəm.

Bilirdi ki, bəli, Qara Məlik gedib Hələb şəhrinə. Kərəm yolu gəlməkdə olsun, eşit xəbəri Qara Məlikdən. Bəli, Qara Məlik də həmən yerdən gəlib, bilirdi ki, Hələb paşası Süleyman paşa bunun sözün yerə salmaz. Birbaşa gedir Hələb şəhrinə. Bəli, Qara Məlik varid olub Hələb şəhrinə. Hələb şəhrində bir dustu varıdı. Dustunun qapısını döyüb. Dustu eşigə gələndə gördü Qara Məlikdi. Çox ehtiram eliyib, bəli, buları apardı içəri. Cəryanı danışdı, dustum, belə olub. Mənə bir əcəm aşıxlarından, bir əcəm uşaxlarından mənim bu qızıma aşiq olub. Hər diyara gedirəm, hər elə gedirəm, hər məmlə-

[77] Heyrax/iyirax-daha yaxşı

kətə gedirəm gəlir. İndi məndən sənə, səndən Allaha. Gəlin bizim divanımızı elə. Bu genə əl çəkmiyəcək gələcək. Dedi:

– Bura gəlib çıxa bilməz. Gəlsə də biz yalannan diyərik ki, Əslini özgəsinə adaxlamışıx, namzad eləmişıx, çıxar gedər.

Bəli, Kərəm bir yannan anasının o cür narahandçılığı, bir yannan Gəncəni o cür görüb, bir yannan qürbətçilik, narahandçılıx, gəldi. Qara Məlik orda qalsın öz işinə məşgul olsun. Kərəm yol gəlir, gəldi ta yetişdi Hələb şəhri yaxınlığına. Belə dönüb baxanda gördü ki, öz dağları, öz dumanları uzaxdan görsənir. Bütün dünya gözündə tiri-tar oldu. Bir yandan Əslinin ayrılığı, bir yandan anasını o cür qoyub gəlməsi, bir yannan yoxsullux. Burda indi görək bir bala təpənin üsdündə əyləşib, sazı köynəgindən çıxardıb. Görək öz dərdinə münasib burda nə diyəcək, mən ərz eliyim:

Bu dünyada üş dənə zaddan qorxum var,
Bir ayrılıx, bir yoxsullux, bir ölüm.
Heş birindən mənim göylüm şad olmaz,
Bir ayrılıx, bir yoxsullux, bir ölüm.

Aldı dübarə görək nə deyir:

Qəribin boynuna kəfən biçilməz,
Əcəl camı çox çətindi, içilməz.
Üş dərdim var, bir-birindən seçilməz,
Bir ayrılıx, bir yoxsullux, bir ölüm.

Amma bu sözdəri diyənnən sonra durub ayaq üsdə. Bilirdi ki, Qara Məlik gedib Hələb şəhrinə. Bəli, rəvaneyi-rah olur, gəlməyə bəna qoydu. Eşit xəbəri Qara Məlikdən. Qara Məlik bir neçə aydır ki, burda öz işinə məşğuldu. Amma dustunun evindədi, bu Hələb şəhrinin paşası Süleyman paşadı. Onun bir qardası var Gülxan adındadı. Paşanın qızları, həm də paşanın öz qızı var. Bir dəstə bağladılar qızlar. Yani yığıldılar bir yerə, bir otuz-qırx dənə. Hammısı bir boyda, bir libasda. Gəzmək

bənası qoyublar, gedirlər təfrihə. İsdirlər ki, getsinlər təfrihə, gəzməyə. Burda bir yol qızlar dedilər bir-birlərinə:

– Ay qız, filan küçədə, filan evə bir qəribə qız gəlib, Əsli adında. Deyirlər ki, o da çox betər yaxçı bir qızdı. Onu da aparax gəzməgə özümüznən. Qəribdi, eybi yoxdu.

Yığıldılar, gəldilər həmən evə. Qapını döydülər, Əsli xanım gəlib qapının dalına.

– Ay qız, paşanın qızı buyünləri gedillər gəzməgə bağlara. Öz dilimizdə aşdan-puşa. Sən də gəl bizinən gəzməgə.

Əsli xanım deyir:

– Bəs anamdan icazə alım, icazə versə gedək.

Əsli də gəlir anasın yanına:

– Ana can, mənə də izni icazə versən. Mən də bu qızdarnan gedəm bir gəzəm. Göylümün qübarı dağılar. Necədi?

– Ay qızım, sənin atan səni eşigə çıxmağa özün bilirsən ki, qadağan eliyib.

Dedi:

– Olsun, atamın xəbəri olmaz. Sən icazə versən, mən bu qızdarınan gedəm.

Xülasə, Əsli xanım da qoşulub həmən qızlara, gəlirlər. Gəzə-gəzə bir bağa ki, orda eyşi-işrət, gəzib-dolanmax, çalıb-çağırmax. Oxuyalar, yiyələr, gəzələr, dolanalar. Varid olublar bağda çal-çağır eliyirdilər. Ərz elədim ki, Kərəm də həmən təpənin üstündə ki, oxuyurdu. Ordan bəli, sazını da götürüb. Bilir ki, Əsli xanım Hələb şəhrindədir. Yoluna idamə verir, Hələb şəhrinə gəlməgə bəna qoyub. Güzarı düşdü bağların arasından, yol elə bağların arasından idi. Bağların vəsətindən yol var idi, ordan gəlirdi. O yannan qızdar gəlir. Həman o bağda ki, bəli, məskən tutacaqdılar çalıb-çağırıb oynuyacaqdılar. Bu yannan da Kərəm həmən bağın vəsətinnən saz çiynində gedirdi. Birdən neçə dənə qızdardan baxdılar gördülər ki, bir aşıx diyəsən saz çiynində yolunan bu yana sarı gəlir. Ay diyəsən ki, qızlar, elə bi-

ləsən ki, bir aşıx gəlir. Sən Allah, gəlin o aşığı da dəvət eliyəgin burda bizim üçün beş-on xana oxusun. Gördülər ki, bəli, aşıx gəlir. Yaxçı oldu buyünləri bizim gəzməgə, eyş-işrətə çıxmağımız, o yannan da aşığı da Allah öz ayağınnan yetirib, gəlir. Kərəm də gəlir, amma Əsli xanım da bu qızdarın içindədir.

Həfteynən, ayınan çöllərdə, biyabanlarda, gün, sovux. Kərəmin rəngi-ruhu əvəz olub. Amma Əsli xanım yetmiş qələmnən özünə zinyət verib gəlir. Qızların içindədi burda. Kərəmi dəvət ediblər.

– Aşıxsan?

– Bəli, aşığam, xanım.

– Aşıx olsan, orda səni paşanın qızı dəvət eliyir. Orda beş-on kələmə oxuyasan.

Dedi:

– Axı, siz zenən xəlqi, mən bir mərdanə, olmaz axı. Mən təkcə adam sizin üçün orda oxuyam?

Dedi:

– Yox, aşığa qadağa yoxdu. Sən aşıxsan, gərək bizim üçün oxuyasan.

Bəli, gəliblər. Kərəmi gətdilər, bağa geçəndə gördü bağ nə bağ. Behişdi-rizvan kimi ağ sular qaltan-qaltan axır, bülbüllər cəh-cəh vurur. Hər gül öz məhbubin yad eliyir. Qızdar hammısı bir boyda, bir libasda bağın qulağında dayanıblar. Kərəm elə diqqətinən baxanda gördü, bəh, Əsli xanım da burdadı. Ah çəkib ki, ay dadı-bidad, hətmən Əsli xanımı burda veriblər ayrısına. Odu ki, qoşulub bu qızlarınan gəlib bura. Hələ qoy görək işimiz nə yerdə tamam olur.

– Aşıx, gözəl sözdərdən oxuyacaxsan, biz qulaq asax?

Kərəm sazın bəmin kök eliyəndə Əsli xanım soruşdu:

– Aşıx, haralısan?

Dedi:

– Mən gəncəliyəm.

Gəncənin adı gələndə Əslinin ürəgi səsdəndi. Tanımır bu Kərəmdi. Dedi:

– Aşıx, sən Allah mənim də Gəncədə gözü yaşlı bir məşuqum qalıb. Amma sənin üsdü-başın o cürdü. Mənim o söygülümün eşqinə, mənim o ağlar qalan söygülümün eşqinə gəl, bir ovuş pul. Get öziyən pal-paltar al, libas al, o cür dolanma. Çün gəncəlisən, mən narahand ollam.

Hələ tanımır ki, bu, Kərəm özüdü. Amma burda indi Kərəm görək nə deyir:

Xəyyad mənə xanım, zəri-ziba biçərdi.
İndi lüt qalmışam, Əslim, gül mənə.
Bir zamanlar göhəri, pulu atardım.
İndi lüt qalmışam, Əslim, gül mənə.

Heyif, indi lüt qalmışam. Əsli baxdı gördü, bu adamın libası-zadı pozuludu, amma belə böyüg adama bənziyir. Böyüg yerin adamına bənziyir.

– Aşıx, oxu gözəl sözdərdən, bular qulaq assınlar.

Fələgin əlindən, xanım, sinə dağlıyam,
Tora düşmüşəm, qol-qanadı bağlıyam.
Aləm bilir ki, mən bir xanın oğluyam,
Amma indi lüt qalmışam, Əslim gül mənə.

Əsli gördügü işə pəşiman oldu. Mən bunu öz ürəgimdə yoxsul bildim, təbəğə payin[78] bildim, biçarə bildim ki, köməhlik elədim buna. Amma böyükzada adamın oğluymuş. Burda pəşiman olub. Deyir:

– Aşıx, mən bilmədim sən böyükzada adamın uşağısan. İndi məni özün bağışda.

Aldı görək dübarə nə diyəcək:

Kərəm diyər, yada düşdü vətənim,
Qərib yerdə üryan qaldı bədənim.

---

[78] Yoxsul adam

Mən öləndə kimlər tikər kəfənim,
İndi lüt qalmışam, Əslim, gül mənə.

Əsli gördügü işə pəşiman oldu. Çün tanımır bu Ziyad xan oğlu Kərəmdi. Tez bəli, bir dəstə gül dərib.

– Aşıx, gəl bu gülü məndən qəbul eylə. Bilmədim mən, sənin qəlbinə dəydim.

Amma burda çün Kərəmə gül gətirib Əsli xanım. Burda nə diyəcək, mən ərz eliyim:

Mən yazığı ağlar qoyan bivəfa,
Axı, ağlayan kimsəyə gül nəyə lazım?
Gülə-gülə yıxdın atam evini,
Düşmənnıxda şirin dil nəyə lazım?

Amma genə də Əsli xanım diqqətinən baxır, gözdərindən aşina gəlir. Bəli, tanımır. Çün o moğe Kərəmi görmüşdü ki, Çarbağda qızıl aşırmalar, bu oğlanın çiynindən o yan, bu yannan gəlmişdi. Dörəsində nökər, qulam, neçə nəfər. Amma burda nə tanısın ki, bu libasda Kərəmdi. İndi görək bəli, o birisi sözün nə diyəcək:

Həsrətindən yandım-yandım, kül oldum.
Alışdım-alışdım, muma dil oldum.
Xan oğluydum, indi döndüm qul oldum,
Qul olan kimsəyə qul nəyə lazım?

Bəli, bu sözü deyib.

Kərəmin ömrünü sən verdin zaya,
Münkir oldun, üz tutmadın Xüdaya.
Oldum xərabatı, düşdüm səhraya,
Xərabat əhlinə pul nəyə lazım?

Əlbəttə, söz tamam oldu, Əsli xanım diqqətinən baxanda baxdı gördü bu, Ziyad xan oğlu Kərəmdir. Fəryad eliyib yıxıldı. Yıxılanda, qızlar bu yandan, o yandan tökülüşdülər. Gördülər bəli, bu qız huşdan gedib, Kərəmi yamannadılar:

– Sən bizim bu qəribə qonağımıza nə dedin ki, bu belə oldu?

Kərəmi qovub bağdan çıxartdılar eşigə. Əsli huşa gəlib, gözün aşdı. Dövrəyə baxanda gördü heş kəs yoxdu. Qızlardan xəbər aldı, bu aşıx necə oldu?

Dedilər:

– Ay qız, bilmirik axı, sənə nəmənə didi, sən huşdan getmişdin. Biz də onu yamannadıx, qovaladıx. Çıxdı getdi bağın eşigindədi.

Əsli yerindən durub, gəldi bəli, bağın eşigində gördü ki, Kərəm boynun qoyub çiyninə. Həsrətinən bağın ağzına baxır. Görək, Əsli xanım gəlir, ya yox? Əsli xanım gəldi Kərəmin yanına, iki aşiqi-məşuq xuraman bir-biriləriynən danışırlar, söhbət edirlər, bu yannan, o yannan. Amma, vəli eşit xəbəri kimdən? Demiyəsən bu bağ kimin olar? Hələb paşası Süleyman paşanın bir darğası var, adına Gülxan diyəllər. Gülxanın bağıdı. Kərəm ki, varid olub bağa, bu qızdara nə cür söhbət eliyib, nə cür danışıb, nə cür əyləşib, durub, hammısına qulaq asırmış. Amma Kərəmin oxuması bunun çox xoşuna gəlir. Əsli xanımnan Kərəm taza isdiyillər ki, bir-birlərinnən söbət eliyələr Gülxan o yannan gəldi. Əsli gördü ki, Gülxan gəlir, yavaşatı çəkildi bağa sarı. Amma Gülxan yetişib Kərəmin yanına. Kərəm ədəbinən salam verdi.

– Oğul, sən kimsən? Hardan gəlib, hara gedənsən?

Dedi:

– Vallah, yoldaş rəfiq, hələ mən bilmirəm sən kimsən? Mən gəncəliyəm, Ziyad xanın oğluyam. Adım da Kərəmdi, bir qızın eşqindən gəlmişəm bura çıxmışam.

Dedi:

– Elə bayax görürdüm. Elə o qızı da görmüşəm. Qorxma di heç. Allah sənin işini burda düz gətirib ki, sən mənə rast

gəlibsən. Mən səni aparaceyəm öyümə. Qorxma, Əsli xanımı hər cür olsun allam sənə.

Kərəm ürəgində söyündü. Bəlkə elə işimi Allah rast gətirib, burda işim gür gələcək. Götürüb bəli, gətdi. O dövrə çox hörmət elədi, bəli, yemək-işməkdən sonra xanımını çağırdı. Dedi:

– Filan küçədə bir qəri var. O saman altından su yeridən qərilərdəndi. Get onu gətir gə bura, mənim işim var.

– Əşi, neyniyirsən?

Dedi:

– Get gətir gə bura.

Bəli, gəldilər. Həmən qərini çağırıblar. Gülxan əlin salıb cibinə, bir çəngə əşrəfidən tökdü qərinin ətəginə:

– Ay qari nənə.

– Bəli.

Dedi:

– O pulu məndən alarsan, gedərsən filan küçədə, filan evdə Qara Məlik adında bi nəfər gəlib. Onun Əsli xanım adında bir qızı var. Gedərsən onu çağırarsan gələ bura.

– Hara gəlsin?

Dedi:

– Gəlsin bağa.

Dedi:

– Baba, tanıram o qızı. Sən sözün de.

Qəri pulları xəşriz eliyib, yəni gizdətdi. Birbaşa gəlib həmən küçəyə. Qapını döydü. İçəri geçəndə gördü ki, bəli, Əsli xanım pəncərənin qabağında zülflərin pərişan eliyib, əbrişəm kimi tellər tökülüb o yan-bu yannan. Amma gözlər nərgizi-şəhla, dişlər inci-sədəf kimi, doğurdan da misli-manəndi yoxdu. Qəri bir bəhanəynən geçib əyləşdi Əsli xanımın yanında. Bu yannan, o yannan söbət elədi. Axırda bəxyəni atdı üzə[79] öz dilimiz, dedi:

[79] Xalq deyimidir, yəni sözün üstünü açdı

– Ay qız, sən kimin fəraqından bu cür narahandsan, axı?

– Mənim bir məşuqum var.

Dedi:

– Qızım, heş narahand olma. Həmən sən diyən oğlan, elə bax, bizim lap öyümüzdədi. Budur nişanəsi, bu yaylığı, bu əmanəti verib mənə ki, sən bavər eliyəsən.

– Hardadı?

– Filan bağdadılar. Gedəcəksən ora.

Qəriyə dedi:

– Sən get, görüm mən neynəməliyəm. Mən də bir bahanəylə gələrəm.

Bəli, qəri gedib. Əsli xanım anasından icazə alıb:

– Ana can, mənə icazə verəsən, mən gedəm bir qədər dolanam. Göyülümün qubarı dağıla.

– Ay qızım, özün bilirsən ki, atanın acığı gəlir. Hər yana getsən, tez gəlginan ki, narahand olmasın.

– Eybi yoxdu, anacan.

Bəli, icazə alıb. Bu yannan Əsli xanım bağa getməkdən, o yannan da Gülxannan Kərəm gəlir həman bağa. Bəli, indi bağa isdir ki, varid olsun, gördü ki, bəli, Əsli xanım çoxdandı bu Kərəmi görmüyübdü. Çoxdandı əslən. Mən buna bir dənə töhə, bir nəmənə aparam ki, yaxçı ola. Nə qədir fikr eliyib, bir zad əğlinə yetişmədi. Bir dəstə gül dərib aparır bəli, Əsli xanım Kərəmə. Bular bağa varid olub taza söbət eliyirlər. Qəzada qüdrət olmaz demiyəsən, o gün də Hələb paşası Süleyman paşa şikara çıxıb. Qayıdanda bunun güzarı düşdü, həman bağdan gələndə gördü ki, bir qız, bir oğlan nətər gərmi[80] söbət eliyirlər. Amma buların danışıxları ayrı bir danışığa oxşuyur. Çox yaxındılar bir-birlərinə. Ayrı bərnaməynən danışırlar. Süleyman paşaya ağır gəldi bu söz. Atı sürüyüb, üz tutdu şikarçılara ki, görüm o kimdi orda? Əsli gördü o yannan

[80] Gərmi-isti, şirin

bir atlı gəlir neçə dənə. Tez Kərəmin yanından çıxıb getdi o yana. Paşa kəsdi Kərəmin başının üsdünü:

– Oğul, de görüm kimsən?

Kərəm belə baxanda gördü bəli, bu Süleyman paşadır. Bu Süleymandır ki, bir zaman buların evlərində Ziyad xana qonaq imiş. Allah işi sürrüyüb bəli, gəlib orda olub paşa. Arına gəlir ki, çünki hırsınan diyir ki, sən kimsən. Cavab vermədi. İkinci dəfə diyəndə:

– Oğlan, məgəm lalsan? Niyə dillənmirsən, axı?

Belə diyəndə Kərəm genə də cavab vermədi.

Qeyz eliyib, deyir:

– Bunu aparıb salın həbsə.

Amma bunu götürüblər, Kərəmi aparıllar salırlar həbsə. Gecəni qalır həbsdə. Sabah açılır. Gülxanın da xəbəri yoxdu bu, həbsdədi, zindandadı. Amma orda indi o, zindanda görək nə oxuyacax. Mən də ərz eliyim, tamam hammısının sağlığına. “Zindan ahəngi” ilə oxuyuram:

Qürbət yerdə həzin-həzin ağlaram,
Bir halımı bildirən yox, bilən yox.
Gecə-gündüz ah çəkərəm, ağlaram,
Göz yaşımı sildirən yox, silən yox.

Aldı dübarə:

Dərddi sinəm düyünlərəm, dağlaram,
Ağ giymərəm, qaraları bağlaram.
Dərd əlindən ah çəkərəm, ağlaram,
Göz yaşımı sildirən yox, silən yox.

Əhli-zindan hammısı yığıldılar bunun dörəsinə. Bu kimdi, bunu hardan gətdilər? Bizim öz dərdimiz azıdı, bu bizi lap dərdə-qüssəyə saldı. Gözdərinin yaşı biixtiyar tökülür. Aldı bəli, xatəmə kəlməsin nə deyir:

Kərəməm, mən yetmədim Əsli yara,
Tay bildim ölümü bu şirin cana.

Gecə-gündüz qəflə işdər hər yana,
Amma bizim eldən bir bu yana gələn yox.

Bəli, söz tamam oldu. Sabah oldu, gördülər ki, çünki Kərəmin əvvəlin dustu Gülxandı. Gülxan gördü Kərəmdən sorax yoxdu. Gülxan özü də öz dilimiz rəisi-zindandı, zindanbandı. Gəldi ki, bu zindanlara baş çəkə. Bular yığıldılar, bular kimdi, bunu gətirib salıbsız bura. Bu gecə bu dərhahlara ot vurub, otdanmışdı. Elə qəmgin oxuyurdu ki, elə oxuyurdu ki, bizim dərdimiz bir olsa minə yetirib. Siz Allahınız, bunu çıxardın zindandan, getsin. Gülxan da bilir, baxdı gördü bəli, bu Kərəmdi. Tez gəldi paşanın yanına.

– Paşam sağ olsun, sən bu oğlanı salıbsan zindana. O ku bigünahdı.

Dedi:

– Baba, gedin onu gətirin, o kimdi? Əslən mən ona nə qədir söz dedim, mənim sözümə qulaq asmadı.

Bəli, gəldilər Kərəmi zindandan çıxardıblar. Apardılar paşanın hüzuruna, aparıblar Kərəmi yanına. Paşa baxdı gördü ki, bu oğlanın qiyafəsi, libası pozuludu. Amma ədəbli bir salam verdi. Elə bir salam verdi ki, heş kəs eliyə bilməz elə bir salam verə. Amma burda indi paşa genə xəbər alır ki:

– Oğlum, kimsən?

Genə Kərəm cavab vermədi. İkinci sözündə genə də:

– Oğlan, məgər lalsan?

Onda bəli, Gülxan irəli gəlir:

– Paşam sağ olsun, bu gəncəli Ziyad xan bəylərbəyinin oğludu.

– Oğlan, belə söz olmaz.

Dedi:

– Vallah, Ziyad xanın oğludur.

– Oğlan, doğru deyir?

Dedi:

– Hə.

– Oğlan, nə cür oldu bəs sən ordan gəlibsən bu yana sarı? Ziyad xan harda qalıb? Niyə gəlibsən? Mən ona çox xidmət eləmişəm. Mənim arzumdu ki, bir nəfər o yannan bu yana yolu düşə, mən xidmət eliyəm. Bəlkə o Ziyad xan mənə elə ki hörmət eliyib, oların əvəzi çıxa.

Dedi:

– Mən elə Ziyad xanın oğluyam.

– Əcəb gəlibsən.

Gülxan nəql elədi başdan-ayağa. Çün Gülxana danışmışdı cəryanı. Dedi:

– Mən Qara Məligin qızı Əsli xanıma aşiq olmuşam. Elbəel, diyarbadiyar düşmüşəm dalısıycax. Atım, donum, Lələm, varım, dərayətim hammısı əldən gedib. İndi gətirib burda sənin məmləkətində saxlıyıb. Onun dalısıycan gəlmişəm.

– Bəs niyə danışmırdın?

Dedi:

– İcazə ver, o danışmamağımın da səbəbi var.

"Keşkioğlu" ahəngiylə:

Şikayətim var idi, çərxi-fələkdən,
Zalım fələk əydi, bükdü belimi.
Əzəl bülbül kimi fəryad edərdim,
İndi lal eylədi şirin dilimi.

Süleyman paşa dedi:

– Oğul, sənin başına çox müsibətlər gəlib, daha nədi de görüm.

Yandı cavan canım, döndü büryana,
Axdı gözüm yaşı, döndü ümmana,
Çox yerdə tutdular məni divana,
Bağladılar ayağımı, əlimi.

Mənə Əsli yarı veriblər buta,
Onunçün olupdu bu qəddim dota,[81]
Atam, anam yoxdur əlimi tuta,
Seyraqublar yaman kəsib yolumu.

Dərdli Kərəm başın qoydu qəzaya,
Yar ilə getmədi mənzil saraya.
Şikayət eylərəm bari-xudaya,
Neçə yerdə özüm gördüm ölümü.

Bəli, belə olanda Süleyman paşa Gülxana dedi:

– Qara Məliyə deginən buraya gəlsin.

Qara Məlik gəldi hazır olub dedi:

– Paşa sağ olsun, əmrin nədi?

Paşa dedi:

– Qara Məlik, bu aşıq haqq aşığıdır. Sənə əmr edirəm Əsli xanımı bu oğlana verəsən. Toyunun da xərcini özüm qoyacam.

Qara Məliyin əli hər yerdən üzülüb, getdi Əsli xanıma bir dəst paltar tikdirdi. Aparıb düymələrin tilisim elətdirdi. Toy başlanıb xatəmə tapdı. Kərəm gərdək otağına varid oldu. İstədi Əslinin köynəyinin düymələrin açsın. Üstdən düymələri açdı, axırda biri qalanda bütün düymələr başladı qıfıllandı. Aşağıdan başladı düymələri açmağa, üstdə bir düymə qalanda yenə bütün düymələr başladı qıfıllanmağa. Belə olanda Kərəm aldı:

Əsli xan allayar, Kərəm alışar,
Açılsın Əslidən düymə, amandı!
İki sevgi nə zülm ilə görüşür,
Açılsın Əslidən düymə, amandır!

Qara Məliyin kilsəsi var, kəndi var,
Hiyləkardı, onun yaman fəndi var.
Hər düymənin səksən səkkiz bəndi var,
Açılsın Əslidən düymə, amandır!

---

[81] İkiqat

Ağla Kərəm, ağla, arxın durulsun,
Ay seyraqub, sənin boynun vurulsun.
Zər doğrayan zərgər, əlin qurusun,
Açılsın Əslidən düymə, amandır!

Söz tamam oldu. Əsli dedi:

– Kərəm, bu düymələr məni yandırır. Bir çara elə.

Kərəm bir daha istədi düymələri açsın. Əslinin düyməsindən bir od atılıb, Kərəmin üstünə düşdü, Kərəm od aldı. Əsli ağlamağa başladı. Aldı Kərəm:

Gəl sən də ağlama,
Yanıram, Əsli, yanıram.
Məni burada dağlama,
Yanıram, Əsli, yanıram!

Mən müsəlmanam, ermənisən,
Amma yaman sevməlisən.
Eşq atəşi bilməlisən,
Yanıram, Əsli, yanıram!

Gözümün nuru töküldü,
Belim qatlandı, büküldü.
Bağrımın başı söküldü,
Yanıram, Əsli, yanıram!

Gözlərin ulduza bənzər,
Ayaqların buza bənzər.
Göz yaşların duza bənzər,
Yanıram, Əsli, yanıram!

Çətindi Kərəm dirilsin,
Sözüm dillərdə deyilsin.
Eşqimi aləmlər bilsin,
Yanıram, Əsli, yanıram!

Kərəm yandı, külə döndü. Qızlar töküldülər otağa, görələr nə olub. Aldı Əsli:

Görün qızlar, mənim halımı,
Yandı Kərəm, saldı məni bu dərdə.
Əydi qamətimi, bükdü belimi,
Yandı Kərəm, saldı məni bu dərdə.

Hicran atəşi bağrını üzdü,
Mənim üçün dərdi-bəlayə düşdü.
Dəli Məcnun oldu, çölləri gəzdi,
Yandı Kərəm, saldı məni bu dərdə.
Burdan belə bir şəhər var baş açıq,
Hünərin var bu atəşdən başa çıx.
Əsli ağlar yaxası çak, baş açıq,
Yandı Kərəm, saldı məni bu dərdə.

Əsli Kərəmin külün yığmağa başlayanda küldən bir qor atılıb, Əslinin saçına düşdü. O da od tutub yanıb külə döndü. Süleyman paşa bu işdən xəbərdar olub Qara Məliyi iki böldürdü. Dastan burada başa çatdı.

## SEYİDİ

“Hey”, “yey”, “mim” də ustada baş əndirir,
Fərhad qaya çapar, dağlardan daş əndirir.
Amma “qulipuru” soruşsan danışar irfanınan,
Moc verib dəli göylüm, bir coşqun çaydı yüküm.

Qədim sabıxlar şəhri Təbriz. Şəhr-Təbrizdə Əxməd tacirbaşı var. Bunun bir oğlu var. Benamı Ağayi-Seyidi. Seyidi nə vaxt olub? Sinninin axırlarındadı. Tacirin sinninin axırlarında Ağayi Seyid dünyaya gəlib. Tacirbaşı baxdı gördü dünya vafa eləmiyəcək. Mən bu oğlumu evləndirəm, buları əl-ələ verəm, daldan buların boyuna baxam. Seyidini çağırıb:

– Oğlum.

– Bəli.

Vəsyətin yazıb verib, Seyidi qoydu cibinə. Seyidi qoyub cibinə baxmadı.

Dedi:

– Oğul, nə vaxt ki, məndən sonra istəsən bir işə əməl verəsən, alasan bu naməni, bu vəsiyyətə baxasan. Sonra bu işlərə əməl verəsən.

Amma Seyidi kimdir? Seyidi kimin qızını isdiyir? Öz əmisi qızın.

Əmisi qızınnan deyirlər, gülürlər, danışırlar. Ay dolanıb, il dolanıb ölüm vəxt verilməz ki, mən buyün öləceyəm, səhər öləceyem. Ağacın bir yarpağı düşüb, o biri yarpağın da xəbəri olub, mən getdim, sən də gəl. Seyidi bilmir, atası qazanıb, töküb, xəşdiyir. Əmqızıynan bahəm dolanırlar, eliyirlər. Aylar dolandı, illər dolanır, ağayi tacirbaşı dünyadan vəfat elədi. Təbrizin camahatı yığışıb bu tacirbaşını götdülər. Yığışdılar Seyidinin dostları, Seyidinin sağ-solunda gəzənləri:

– Ağa Seyidi.

– Bəli.

– Qorxma haa, atan dünyadan gedib. Elə biz sənə həmi atayıx, həmi qardaşıx. Nigaran qalma, nəmənə işin olsa, mən xidmətindəyəm.

Seyidini əllərində əlquş eliyiblər. Səhər bir şəhərdə, o biri gün başqa kafedə, o bir gün salonda. Bir il çəkmədi, Seyidin malın vurdular daşa, çıxdılar başa. Seyidin malından qalmadı. Ana səsləndi:

– Oğul.

– Bəli.

– Atayın malın xəşdədin, bu sərvət getdi. Bunnan belə nə iş görəcəksən?

– Ana, bilmirsən?

– Yox.

Dedi:

– Əmqızımgilin sərvətdəri çoxdu. Əmqızımnan gedərəm kəbnimi kəsdirərıx. Gətirıx oların sərmayələrin özümə sərmayə eliyəm də, qazannam da.

– Oğul, hətmən.

Anası durub getdi əmqızıgilə elçiliyə.

– Salam.

– Ələykəmə salam. Zərəm, xoş gəldin.

Dedi:

– Qızım, sağ olasan.

– Nə yaxşı alçaxgönüllük eləmisən?

Səsləndi:

– Qızım, gəlmişəm toyunuzu başdıyam.

– Toyunuzu başdıyam?

– Bəli.

– Kiminən?

– Bə qızım, əmoğlunnan.

– Rəhmətdiyin qızı, səfehləmisən?

– Necə məyər?

Dedi:

– Kişi, əmoğlumun nəyi var məni saxlıya?

– Qızım, necə nəyi var?

– Kişinin nəyi varıdı, otuzdurdu qumara. Daha bir şey qalmadı ki? Mən neyniyirəm onu daha. Əmoğlumun sərvəti qalmıyıb indi. Heş məni verməzlər, gəlib eləməyin.

Nə olar arvad olanda, başında tüklər qovzandı göyə.

– Niyə? Hansı kəlməyə?

Dedi:

– Mən latın, lütün, qumarbazın nəyinə gələcəyəm?

Ana qayıdıb. Seyidi baxdı gördü ana pəjmürdə gəlir. Dedi:

– Ana, nəmənədi?

Dedi:

– Heç.

– Ana, mən ölüm, nəmənədi?

– Əmqızın dedi, mən latın, lütün, qumarbazın nəyinə gələcəyəm.

Seyidinin gözləri doldu.

– Ey on səkkiz min aləmi xəlq edən Allah, ya mənə bir ölüm, ya bir qürbət.

Həyətdərində bir daş varıdı. Seyidi çəkilib dalı gəlib qoş təkin başın vurdu bu daşa. Baş qarpız kimi dağıldı. Seyidi ki, huşdan çıxıb, ana əl atdı üzünə. Əl atıb başın yolur, üzün yolur. O zaman hər iki dünyanın zamini gəldi Seyidinin başının üsdünə.

– Oğul, Seyidi.

– Bəli, ağa.

– Oğul, Seyidi, iyiddər qəzav-qədər qabağında sinəsin sipər elər. Niyə narahandsan? Allah şahididi, bax, barmağımın arasından.

Belə baxanda qızıl tel tərini çəkdi Seyidinin gözünün qabağına şamda.

– Ağa, o kimdi? Bir dənə bağdı, görürəm. Qələ görürəm, bağ görürəm.

Dedi:

– Oğul, o Rəzmi şahın qızıdı. O qələyə qatır gəlsə dırnaq salar, quş gəlsə, qanad salar. O qızı Allah yazıb sənin alnıya, səni yazıb onun alnına.

Bu anda Seyidi asqırıb, qalxdı ayağa. Ana baxdı gördü, Seyidinin başı qarpız kimi dağılmışdı. Yetişib ananı basdı bağrına:

– Ana, özünü niyə belə çarapat eləmisən, evin yıxılmasın.

Gözlər dolub.

– Oğul, axı sənin başın dağılıb.

Belə baxdı:

– Hanı dağılıb? Cızılıb.

Gördü yer qandı da.

– Anacan.

– Bəli.

Çəkib içəriyə cibindən naməni çıxartdı.

– Bax, bu sərvət gedəndən sonra atanın vəsiyətinə əməl eliyirik.

Möhrün sındırıb baxdı gördü, ata yazıb. “Oğul, qumar oynasan, get Leylanı tap. Həyətin satsan, qapını sök, təzədən qoy yerinə”. Bir də ayrı dedi, ora da getsən, sərf çağları get.

Seyidi əvvəldə qapını sökdürdü. Gördü canım, bu qapını söküb yerinə qoymax iki gün çəkir. Bu saxtumanı qəbul olunmax neçə min pullar isdiyir. Baxdı, mənim işim dəyil, burdan qəyitdi.

– Ana.

– Bəli.

– Heş pulun var yanında?

– Necə bala?

– Gedim görüm bu Leyla kimdi. Hətman atam deyib, onunla qumar oyna. Onu ud gətir da.

Ananın pulu var idi bir az. Verib bir kisə, getdi Seyidi. Soruşub gördü bir ordana bağdadı.

– Bağın harasında?

– Bax, odu, tulambardadı.

Getdi, baxdı gördü Leyla təndirin, külün içindədi.

– Burda neynirsən?

Dedi:

– Elə qumarbazın yeri buradı da.

– Atam məni yolluyub sənnən qumar oynuyam.

Dedi:

– Olsun, pulun var?

– Var.

Dedi:

– Sənin pulun yoxdu axı.

Əlin salıb təndirdən iki küpə qızıl çıxartdı eşiyə. Dedi:

– Sənin bir belə qızılın var, bə bu tulambarda neyniyirsən?

Dedi:

– Oğul, elə burada bir zaman gedəcək.

– Oynuyax?

– Oynuyax da.

Dedi:

– Bu, dörd dənə aşıxdı. Atıram bu damın üsdünə. Cikki[82] sənin, bökkü[83] sənin, altısı sənin, toxarı[84] sənin, omba[85] dursa, mənimkidi.

Belə atdı, gördü omba durub. Pəh, burdan qəyitdi gördü hə, atam mənim yaxçılığımı diyipdi. Buları mən əvvəl görsəydim, pulumun qədrini bilərdim.

---

[82] Aşıq oyununda aşığın çuxur, yan üstə düşməsi.

[83] Aşıq oyununda aşığın yan üstə düşməsi.

[84] Toxarı -"tovxan", "tova", "tava" şəkillərində də söylənilir. Oyunda aşığın ayaq üstə düşməsi.

[85] Omba-"Onqa", "hompa" şəkillərində də söylənilir. Oyunda aşığın mil şəklində düşməsi.

Səsləndi:

– Anacan.

– Bəli.

– O pullar da elə getdi. İndi pulun var? Mən qəyidim bir saz alam?

Ana yamaxlı köynəyin arasından bir qızıl çıxardıb, Seyidi qəyidib getdi sazdar dükkanına.

– Əmican, mənə o sazdarından birini ver.

Seyidiyə belə baxdı:

– Qəyit get.

– Əmi can, niyə narahand oldun. Sənə salam verrəm, saz isdiyirəm. Bəs Seyidi dilənçi-zaddı?

Bir qızılı qoydu ora. Görək mən nə vaxt adam olaceyəm? Gətirib bir yaxçı saz verdi:

– Oğul, hara gedirsən?

Dedi:

– Müsafirətim var.

Amma atasıgilin dostları, aşıxları gündə meydan qurub, meydanda Aşıq Əli oxuyardı. Seyidi səsləndi:

– Gedim bu Aşıq Əliyə diyim görüm, bir müsafirətim var, bu sazınan gedə billəm.

Cəmaət Seyidini gördü pəh, tacirin oğlu aşıx olub gəlib pul qazana. Hay-hay-hay.

– Salam, Aşıq Əli.

– Əleykəmə salam, bala.

Aşıq Əli oların çox çörəyini yemişdi. Gözdəri dolub, gözlərindan bahar buludu kimin yaş tökülür:

– Oğul.

– Bəli.

– Tacirin pulun qurtardın, çörəyini qurtardın. Aşıxlıx elirsən?

Səsləndi:

– Əmican, bir ərzim var.
– Ərzin nəmənədi?
– İcazə versən, diyim.
Belə diyir, mən oxuyum tamam eşidən ellərin sağlığına:

Dollannam başına, mehriban usta,
Şahlar şahı mənə buta veripdi.
Gecə-günüz yuxu getmir gözümə,
Ağam olan kimsə nəzər edipdi.

Aşıq Əli belə baxdı gördü bu oğlanın sözü özünnən çox yekə oldu. Tərəziyə qoyan, sözdəri çəkən, özünnən çox ağır oldu.
– Oğul, birin də ərz elə.

Əmican, mənim ahım dağı-daşı əritdi,
Gözüm yaşı dəryalara yeridi.
Səvdicəyim xəbər alsan, adı Pəridi,
Onnan ötürü mənə nəzər edipdi.

Bu sözdəri diyəndə vəzirin qızı Maral xanım başında qırx kəniz, beş dayə gedirlər hamama. Görürlər Aşıq Əli durub, amma bir cavan oxuyur. Qızdar yol verdilər, Maral xanım - vəzirin qızı baxır. Min göyüldən bir göyülə bu cavana aşix olur. Elə diqqətinən belə baxır. Qızdarın hammısı baxır. Dayə bunlardan yaman gündədi. Seyidi belə baxanda gördü bəli, vəzirin qızıdı, dayələridi. Baxırlar. Ama götürüb Aşıq Əliyə bildirir, andırır ki, bular durmasın burda əyibdi. Götürüb Seyidi belə deyir, mən də oxuyum ellər sağlığına:

Otağına sürahılar düzməsin,
Yuxu gəlib, xumar gözdə sürməsin.
Usta, axı denən əyibdi, vəzirin qızı burda durmasın,
Şahlar şahı mənə buta veribdi.

O zaman ağsəqqəlin həsidi çoxudu. Genə çoxdu. Aşıq Əli səsləndi:
– Dayə.
Gördü dayə qızdan lap pis baxır bu cavan aşığa.

– Dayə, sənnən dəyiləm?

– Bəli, aşıx.

Dedi:

– Götür buları qəyit.

Hirsdənib, qızdar da hamama getmədi. Qəyidib öz saxtumanlarına. Amma iki nəfər məmur qoydu:

– O aşıx qutulsun, onu gətir mənim saxtumanıma.

Bular qəyidib alıb Seyidi. Axır belə diyir:

Seyidi mənəm, yalan gəlməz dilimə,
İnşallah, özgə bülbülün qoymam gülümə.
Sən nişan ver, gedim yarın elinə,
Şahlar şahı mənə buta veripdi.

Dedi:

– Oğul.

– Bəli.

– Bu sözdərinən bir gördün məmləkətinən səni təhvil alallar. Get, Allah yar olsun .

Seyidi yapışıb ustadın əlindən öpüb, ustad alnından öpdü:

– Get, oğul, Allah köməyin olsun.

Gəlib içəriyə. Elə içəri çıxanda o zaman qız iki məmur qoymuşdu, yapışdılar Seyidinin qolundan. Eşiyə mərəkə qurmuşdular. Səfdən eşiyə çıxanda yapışdılar Seyidinin qolundan.

– Siz kimsiniz?

– Biz məmurux.

Dedi:

– Axı mənim şıkayətim yoxdu.

Səsləndi:

– Səni Maral xanım çağırır.

Dedi:

– Onnan mənim xeyiri-şərim yoxdu.

Dedi:

– Getsən də, aparacayıx, getməsən də.

Dustdar, bəli, bir nəfərin dalıycan məmur gəlir kəndə, şəhərə, şikayətçiləri var. Elə getsəm də, aparacaxlar, getməsəm də, aparacaxlar. Yaxçısı budur, özün rahat get da. Seyidi götürüb sazı, hara gedir? Gedir qızın bağına. Qız üstdən baxır, bəli, budu, aşıx gəlir. Qız on yeddi qələmdən özünə zinyət vurub. Özünə yetişib, öz səndəlində əyləşib. Seyidi içəriyə girib:

– Salam.

– Əleykəmə salam.

– Cavan, buyur bura.

– Xanım, bura yaxçıdı.

– Mən ölüm, buyur.

– Bura yaxçıdı.

Seyidi əyləşib qapının qabağında.

– Aşıxsan?

– Bəli.

– Aşıx olsan, bizə bir qatar oxu.

– Mən aşığam, amma xanıma oxumam. Elə özümnən ötürü almışam bu sazı. Özümə oxuyam.

– Ver sazı, mən oxuyum.

Seyidi iki əlli gətirib sazı təğdim elədi qıza. Qız çöyürüb sinəsinə, görək Seyidiyə nə diyir:

Gözüm gördü, cavan, göylüm qübar eylədi,
Xoşlu olar, mən də sənə gəlirəm.
Danışanda qəndi-şəkər söylədin,
Gözəl oğlan, mən də sənə gəlirəm.

Seyidi güldü:

– Xanım, ərz eliyirəm, sənin üçün əyipdi, belə demə.

Seyidi belə deyir:

Sən vəzirin qızısan, bu sözləri söyləmə,
Yeri, xanım, səni alan dəyiləm.
El içində özünü bədnam eyləmə,
Gedəcəyəm, burda qalan dəyiləm.

Dedi:
– Dayə.
– Bəli.
– Bu cavan inanmır ha, mən gedirəm buna.
– Qızım, qorxur da.
– Cavan.
– Bəli.
– Mənə sarı bax.
Qız belə diyir:

Əhdim budur səni burdan aparam,
Sənin üçün Əlhəddə qəsr, eyvan yaparam.
Amma məni almasan, sənə böhtan ataram.
Xoşluxunan mən də sənə gələrəm.

Cavan, bu saxtumanı bəyənməsən, bunnan yaxçısını qəyirtdirərəm sənə. Səsləndi:
– Xanım, qulax ver.

Xanım, payım yoxdu sultanından, xanından,
Onu bil, gözəl sevən geçər başı, canından.
Qorxum yoxdu ha, sənin bu böhtanından,
Yeri xanım, səni alan dəyiləm,
Gedəcəyəm, burda qalan dəyiləm.

Amma səsləndi:
– Dayə, bu cavan niyə belə eliyir?
Dedi:
– Qızım, qorxur da.
Amma alıb qız axırın belə diyir:

Pəri xanım tellərini əsdirir,
Əsdiribən damənindən kəsdirir.
Yollamışam cavan, qazi gəlir, kəbinimizi kəsdirir,
Ha qorxma, mən düz diyirəm,
Xoşlux ola, mən də sənə gəlləm.

Seyidi baxdı, bir dayədi yıxılıb. Dedi:

– Məni qurtar burdan.
Dedi:
– Nəyin gəlib qurtaram?
Dedi:
– Bax, nə desən verrəm da.
Dedi:
– “At daşdıran” bilərsən?
Götürüb “At daşdıran” oxuyub ellər sağlığına:

Fəğir Seyidi vətənindən geçəndə,
Xanım, qərəsin oxuyub ağın seçəndə.
Dəvə buynuz çıxardıb, qum gövərəndə,
Qismət olsa onda səni alaram.

Səsləndi:
– Dayə.
– Bəli.
– Aşıx nə danışdı?
Dedi:
– Qızım, özün eşitsən də.
– Axı qum gövərər?
Dedi:
– Qızım, həmən-həmən suynan sovsan, gövərər də.
– Daye ee, dəvənin balası buynuz çıxarar?
Dedi:
– Qızım, heç özü böyüyüb. Balalarından birin saxlarux. Ot-mot verrıx, ta neyniyə, o, buynuz çıxardar.
Dedi:
– Zalım balası, bizdə var, çıxartmır.
Dedi:
– Ona o qədər yük atırlar, buynuzu elə yanır, o çıxartmaz.
– Dayə.
– Bəli.
– O cavana libas gətir.

Seyidiyə bir dəst libas gətdilər. Qılış-qalxan gətdilər, at gətdilər.

– Cavan, nəyin var?

– Heş zadım yoxdu.

– Yeydən çıxmısan?

Dedi:

– Yox, bir nənəm var.

Qız libasdarında üş-dört dəst qatdıyıb qoyub bir buxçaya. Bir xurcun qızıl-gümüş verdi Seyidiyə.

– Get, Allah yar olsun.

Seyidi qızdan xudahafizlik elədi. İndi Seyidigilin üş yolları var. Biri bağ yoludu, biri o birisi yoldu. Birinci Seyidi bağ yolunnan gəlir. Atın üsdündə elə bil alma yanır. Qız pəncərədən baxırdı, gördü bir atdı gəlir. Elə bil atın üstündə alma yanır.

– Anacan.

– Bəli.

– Bir atdı qonax gəlir.

Dedi:

– Gəlsin.

Dedi:

– Gedir əmimgilə.

– Qızım, getsin da.

– Elə dəyil.

– Bə nə cür?

Dedi:

– Bir mecmeyi çörək düzəlt. Mən aparım verim ora.

Qız özünə ər axtarırdı, Seyididən qutulmuşdu. Bu düzəltmaxda olsun, Seyidi gəldi, qapını çaldı.

– Kimdi?

– Anacan, qurbanın kəsim, mənəm, aş qapını.

Ana qapını aşdı. Qapını açanda gördü Seyidi.

– Oğul, qəyit. Gör kimdən oğurrux eləmisən, kimin tövləsin yarmısan, apar ver özdərinə ha. Bizə haram-maram düşməz.

Səsləndi:

– Anacan, buları borc eləmişəm.

– Borc eləmisən?

– Bəli.

– Keç içəriyə.

Gətirib içəriyə libasdarı verdi anaya. Atı istəbildə bağlıyıb, qızıl-gümüşü, xurcunu qoydu oraya. Anasıyla bahəm təndirin qırağında danışırdılar. O zaman baxdılar qapı çalındı.

– Kimdi?

Dedi:

– Mənəm.

Dedi:

– Get, əmqızındı.

Getdi baxdı əmqızı çörək gətirib.

– Zənəmi, kimdi?

– Qızım, qonağımdı, əmoğlumdu.

Əmoğlu deyəndə qız bir yerində sıçradı.

– Bə çəpəl, niyə helə elədin bə?

Dedi:

– O zaman Seyidiyə kim nəmənədi?

Dedi:

– Əmqızın xörək gətirib.

– Ver görüm zircamım[86].

Seyidi qızdan zircamı alıb çaldı yerə.

– Get, lat, lüt qumarbaz sənin çörəyini yeməz.

Qız baxdı bara qoymuşam. Qız oturub üsdə balaxanada baxır əmoğlunun evinə. Narahand danışırlar. Qız isdiyir buna şuxlux eləsin. Hərdən daşı qoyur çiltiyə, belə atır Seyidiyə.

---

[86] Zircam-məcmeyi, qab və s. qoyulan sini

Atanda dəydi Seyidinin üzündən. Seyidi baxdı gördü burda heş kəs yoxdu.

– Anacan.

– Bəli.

– Mən sənin nəyinəm?

– Oğlum da.

Dedi, bəlkə anası buna ayrı bir mənzurnan baxır. Bir az keşdi, birin də atdı.

– Anacan, mən sənin nəyinəm?

– Oğlumsan da. Nəydi Seyidi?

Daş dəyəndə elə bilir bəlkə anası atır. Mənə ayrı mənzurnan baxır. Üçüncü bax bu daşı atanda yapışıb ananın xirtdəyindən qoydu, qıçının altına. Səsləndi:

– Oğul, bə niyə belə eliyirsən?

Dedi:

– Demədinmi mən sənin oğlunam.

Ordan səsləndi:

– Əmoğlu, daşdarı mən atmışam.

Pəh öyün yıxılmasın, mən nənəmin üzünə gəldim. Götürüb görək qıza nə deyir, mən oxuyum ellər sağlığına:

Dolannam başına, xan əmim qızı,
Get gözüm öyümdən, durma qarşımda.
Yadındadı, ağ üstündən geyinirdin qırmızı,
Get gözüm öyümdən, durma qarşımda.

– Əmoğlu, məni bağışla, mənə halal eylə.

– İndi qulax ver.

Bir söz dedin sən də mənim özümə,
Yandırdın bağrımı, qəmin közünə.
Atma çiltik daşın, dəyər gözümə,
Get gözüm öyümdən, durma qarşımda.

– Əmoğlu, məni bağışla.

Dedi:

– Qulax ver.

Mən Seyidini dindiribən gülmürdin,
Dəsmal alıb gözüm yaşın silmirdin.
Axı elçi göndərdim, mənə gəlmirdin,
Get gözüm öyümdən, durma qarşımda.

Əyləşib yerə danışırılar. Ama olar danışsınlar, isdiyir Seyidi halallıx alsın.

– Mənə halal eylə, mən bilmədim. Mən elə bildim daşdarı sən atdın, dəydi mənim üzümə. Mənə halal eylə.

Anasının əyaxlarından öpür, əlindən öpür:

– Anacan, sən Allahı, mənə halal elə.

Dedi:

– Oğul, get, halal xoşun olsun.

Qızıl-gümüşü qoydu anasının yanına. Anasının üzündən, gözündən öpüb, anadan xudafizlik eliyir. İsdiyir atı çıxartsın eşiyə. İndi görək at nə cür çıxacax eşiyə. "Narinci" bir qatar oxuyax. Dustlar, bular dastandan deyil.

Şahim, sənsən sahip nəzər,
Eylə günahımı əf-əf.
Qoşunum var hezar-hezar,
Qatar müjgan oxunu səf-səf.

Xarı bağın bülbülü,
Solub qonça, qızılgülü.
Çağırram at Düldülü,
Dada yetsin Şahi-Nəcəf.

Pərzad ərzin deyər şaha,
Üş söylə qibləgaha.
Əzbərimdi Yasin daha,
Hərdən dilim oxur əlif.

Seyidi anasından xudafizlik eliyib. Seyidi atı istəbildən çıxardıb. Qız belə əllərini aşdı:

– Əmioğlu, hara gedirsən? Məni də apar.

Qız belə ağladı. Dedi:

– Olmaz.

Camaat yığışıb. Dedilər, bunu alsan, qiyrətin yoxdu haa. Yığışıblar başına, qız ağlır, kül sovurur başına. Elə narahatnddı. Seyidi baxdı gördü, əmqızımdı. Mən buna qovl verməsəm, bu narahand olar. Mənim işim düz gəlməz. Səsləndi:

– Əmoğlu, gedirsən?

– Əmqızı, gedirəm.

– İcazə versən, bir qatar sözüm var, bunu diyim get da.

Görək qız nə diyir, Seyidi qulaq asır. Mən oxuyum, ellər sağlığına.

Ağalar, müsəlmanlar,
Yarım gedir bivafadı.
Üzündə xallar çapanda,
Xalları dərdə dəvadı.

Əmim oğlu, haram olsun, bunnan belə,
Sənsiz baxam şaddıx aynasına.
Əmim oğlu, haram olsun, səndən sora
Başıma darax vuram, başımı darıyam.

Aynasız camal görünməz.
Şanasız zülfün hörülməz.
Yardan ayrılan dirilməz,
Ayrılıx cəbri-cəfadı.

Dedi:

– Əmqızı.

– Bəli.

– Əmqızı, qovl verirəm, qəyitsəm, allam.

– Əmoğlu, qəyitsən, alarsan.

Qız gülümsündü:

– Əmoğlu, qulax ver.

Əsma diyəllər adımıza,
Aləm yanar odumuza.
Məhşərdə imdadımıza,
Yətən Əli Mustafadır.

Əmqızdar xudafizlik eliyib. Ağadan xudafizlik eliyib, el-qohumdan xudafizlik eliyib. Atı minir, nə bilir gecədi, nə bilir günüz. Dağları, daşları qatıb qabağına gedir. Nə cür yol gedir? Üç-dört günnüx yolu gün yarıma gedir. Gecə at sürür ki, yetişə Qəhrəman qələsinə. Yetişib baxdı, gördü bulağın döşündən su gəlir. O tərəf göyərib, bir də bir ağaş var. Hər bulağın başında nəlbənd ağacı var. Atı sürüb belə baxanda gördü oxu var. Atı bağlıyıb ora, o otdardan dəyib, töhdü atın qabağına. O bulağın suyundan üzünə səfa eliyib, üz-əlin yuyub, nəyi vardı qoyuf qabağına yeyib, sazı qoydu başının altına, orda yatıb. Orda yatsın.

Həramı qızdarından neçə nəfər bu dağlardan şikar eliyirlər. Buların hərəsinin bir iradı var. Bular dağlardan şikar eliyib, gətirib bu bulağın başında yiyirlər. İndi ağıldan qızdar baxdılar gördülər, bir dənə at bizim atdarın yerinə bağlanıb.

– Qızlar, bu kimdi? Pəhləvandı?

Dedi:

– Gəlin təh-təh gedax.

Diqqətinən baxanda gördülər sahabı yatıb. Piyada gəlirlər. Gördülər bu yatıb. Aralıdan baxdılar, bəh-bəh bir cavandı, Pərvərdigari-aləmin vaxtı olanda bunu xəlq eliyib. O dedi, mənimdi, bu dedi, mənimdi.

Dedilər:

– Bunu dörd olacax. Hərəyə bir şaqqa.

Qızlar istdiyir getsin, Seyidiyə səs gəldi, ayıl. Seyidi səs gələndə ayıldı. Ayılanda sazı götürdü.

– Vay, qızlar, aşıxdı. Biz burda canım, darıxmışdıx. Neçə gündü aşıx görməmişix, musiqi görməmişix.

İndi görək bular Seyidiynən neyniyəcəklər?

“Divan” havası oxuyuram:

Ey ağalar, gecə-gündüz yalvarıram qoqana,
Əmanət Allahdan ötür xarı qoyma gülşana.
Şeyda bülbül güldən ötrün doqquz ay havalədi,
Xarı gülbəgində görsə, özün bələr al qana.

Abı-həyat qismət deyil, yetişməz İskəndərə,
Xızri onnan sirab oldu badəni çəhdi sərə.
Qanbağar aşiqin göylü, məşuqu üz döndərə,
Tapılmaz dərdinə çarə, həq də getsə loğmana.

Züleyxa Yusifdən ötrü leylü-nahar ağladı,
Bel büküldü, qüdrət getdi, sıdqın həqqə bağladı.
Ey “Purazər”[87], eşqə tajı çox sinələr dağladı,
Ya Rəbb, bu nə xasiyyətdi, şəmə yana pərvana.

– Qızlar.

– Bəli.

– Bunu burda saxlıyax, bəlkə hərdən bir az oxuyar, qəlbimiz açılar.

– Aşıxsan?

– Bəli.

– Cavan, həqq aşığısan, ya pul aşığısan?

Səsləndi:

– Xanım, mən həqq aşığıyam.

– Aşıx, ağzınnan danış.

– Necə-necə? Ağzımnan?

– Bəli.

Dedi:

– Biz xanım dəyilix.

Dedi:

– Bağışda, xanım. Bizim yerdə kişiyə xanım diyəllər elə?

[87] Purazər urmiyəli müasir şairdir.

Qızdar baxdı. Qızdarın hərəsinin bir iradı var. O dağlarda qalırlar. Çəkiblər özdərin, qarınların möhkəm bağlıyıblar, üsdən kişi libası, pəhləvan libası geyiblər. Pəhləvannan dala qalan dəyillər.

– Cavan.

– Bəli.

– Həqq aşığısan?

– Bəli, həqq aşığıyam.

– Bizim sirrimizi diyə billən?

Səsləndi:

– Xanım, nə işizə var, mən sizin sirrinizi diyəm? Qoyun çıxım gedim. İsdiyirsiz oxuyum, amma neyniysiz mən sizin sirrinizi diyəm?

Dedi:

– Həqq aşığı olmasan, öldürrüx. Əgər həqq aşığısan, bizim sırrımızı de. Biz də bilax, sən həqq aşığısan.

Seyidi bulara çox dedi.

– Xanım, qoy demiyim.

Dedilər:

– Deməsən, olmaz.

Götürüb bular belə deyir. Seyidini bular cana gətirdi. Səsləndi:

– Xanım, icazə ver, qoy diyim sizin sirriyiz, sizin iradıyız nəmənədi?

Götürüb belə deyir, mən oxuyum eşidən dustların sağlığına. “Ruhani” havasıyla deyirəm:

Bu qılıxda oğlan olmaz, elçilər,
Sizin işiyizdə hiylə var, hiylə.
Oğrun başı şan-şan olar bölünər ha,
Sizin işiyizdə hiylə var, hiylə.

Qızdar baxırlar, sən öləsən, bizim sırrımızı bilir. Dübarə belə diyir:

İlikmisən, sümükmüsən, qanmısan?
Min bir iki dərdin min dərmanısan.
Lülhər xanım, səndə iki canlısan,
Sənin də işində hiylə var, hiylə.

– Necə, necə?

Qız əl atdı şəmşirə. Üzüldü Seyidinin üsdünə.

– Dayan, xanım, dayan. Niyə vurursan məni?

O böyühləri gəldi:

– Qayıt dala.

Dedi:

– Mən bilmirəm, kəmərinən qarnıyı möhkəm bağlamısan.

Aşıx düz də diyir. Qız dal-dalı çəkildi, hirs bağırsağın kəsib. Bir Pəri xanım var, onu çəhdi qabağa.

– Aşıx, bunun sirrin de.

Qız keşdi yuxarı:

– Mənimkini üstüörtülü de.

Sən mənim sultanım, sən mənim xanım,
Ərşə dayanıbdır fəryadım, ahım.
Yumurta oğrusu Pərizad xanım,
Sənin də işində hiylə var, hiylə.

Səsləndi:

– Pəri xanım.

– Bəli.

– Pərizad, bu yumurtanın cələri nədir?

Dedi:

– Vallah, bir gün nənəm çörək yapırdı, təndir üstəydi. Dedi, yumurta olsaydı, yiyardıx. Diyirdi, gördüm əmicanın toyuxları doğub hində. Heş kəs yoxdu həyətdə. Getdim olardan mən bir-ikisini gətdim. Bu aşıx oları diyir.

– Sağ ol, aşıx.

– Aşıx.

– Bəli.

– Öz sirrini de.

– Mənim sirrim sizdən dala qalan dəyil.

Nə muddətdir dağı, daşı gəzərəm,
Həx təbili şirin cannan bezərəm.
Xanımlar, bir maralın ovçusuyam, gəzərəm,
Seyidiyəm, işimdə hiylə var, hiylə.

– Cavan, gəlirəm nə?

Səsləndi:

– Xanımlar, mən gedəcəyəm qızıltel Pərinin yanına. Əgər siz yolu tanısaz, mənə muzaqiləm eliyəsiz.

Gördü hə, bu cavanın müşgülü bizdən çoxdu.

– Cavan.

– Bəli.

– O qələni görürsən? O dağların dalındadı. O qələnin dövrü bərinə quş getsə, qanad çalar. Qatır getsə, dırnax salar. O qələyə fələk uça bilməz. Gəl bu təmənnadan qəyit, getmə. Bir dörd nəfərıx, hansımızdan xoşun gəlir, al da.

Səsləndi:

– Xanımlar, onnan mənim peymanım var, əhdim var. Mən gərək gedəm. Əgər eliyə bilsəz, o qələni mənə aralıdan nişan verin.

Səsləndi:

– Bəs bizə qonaq ol nahara.

Dedi:

– İşqali yoxdu.

Seyidi buların sözün qəbul eliyib. Bular dağlardan ov vurmuşdular. Gətirib onun ətindən bir kabab bişirdilər. Seyidi yeyib içib. Seyidi baxdı buyünə qədər bu ətdən yeməmişəm. İstirahatdığını eliyib səsləndi:

– Xanımlar, icazə versəz, mən gedim.

– Tək getmə. Biz gəlax. O qələnin, o səmtin yolun nişan verax. Onnan sonra qəyidarıx.

Dört nəfər bular, bir də Seyidi gəlirlər. Gəlhagəl, bağları aşıblar. O dağın ki zindəyində çıxıblar.

– Cavan.

– Bəli.

– Odu bax qələ. Aralıdan görsənir.

– O qələdi?

– Bəli.

Gördü bəli, bir dənə qələdi. Amma gedib bir dənə bəhrami-fələyə. Ta bu tər, bucur qələ mən görməmişəm. Qızdardan xudafizlik eliyib. Səsləndilər:

– Cavan, get, Allah sənə yar olsun!

Qızdar qəyidib öz yerlərinə. Seyidi gedir hara? Qəhraman qələsinə. Seyidi atı sürüb vəxtində yetişdi həman qələnin qabağına. Gördü bu qələnin qapısını daldan möhkəm bərkidiblər, açılmaz. Bu qələni bir dolandı. Dolandı, gördü qapıların hamısının dalları bərkdi. Atın dalında kəməndi var idi. Atıb divarda bərkiddi. Bərkidəndə atın təbləmıxsın vurub eşikdə yerə. Cüt təpiyin vurub, çıxdı duvarın üsdünə ipinən. Ordan çıxıb qapını aşdı. Atı minib, saldı atı içəriyə. Qapın dalın bərkitdi. Atı aparıb saxtumanların qabağında hörüyün, tələmıxın vurub gedə o, otdu yerrərdə. Əvvəldə bir saxtumanın ətrafını dolandı. Müzarət eliyib, gördü canım, saxtumanda yaşıyırlar. Məlumdu tərtəmizdi. Amma buyün bax burda heş kəs yoxdu. Bu qız təkidi. Qızın kənizi, dayəsi varıdı. Qız buları yollamışdı buyünlərinə muraxasıya[88], öz yerrərinə. Buyün qız özü təkdi ki, sübh yollamışdı axşam baş gələlər. Qız da buyün təh qalıb, vəsədi bağda bir çarhavızı düzəldib. O sular şaqqıldıya-şaqqıldıya gedirlər tökülürlər həvizə, həvizdən də rədd olub gedirlər ağaşdarın diblərinə. Bir təxti var, qızılgülün kolunun dibində. Təxtin qoyub orda yatır. Bu abu-hava ki var, qəşəng, güllərin qoxusu, ağaşdarın qoxusu, suyun şaqqıltısı, ağacın kölgəsi qıza bir az xoş gəlir. Bir az da ki,

[88] Muraxası-məzuniyyət, dincəlmək

dolanıb eləmişdi, yorqunuydu. Başın qoyub elə yatıb, indi top atsan, bu qız ayılmaz. Qız o qızdardan dəyil qorxa.

Seyidi dolanırdı belə o xiyavannarnan gəlirdi. Ayağın altından bu daşdarı vurub atırdı. Belə baxanda gördü, qız yatıb çarhavızın dibində. Diqqətinən belə baxdı gördü hə, özüdü. Xudaya, gördüyüm qız budu? Yetişib bir təxtin dövrəsinə. Qızın bir ətrafın belə dolandı. Gördü, bəh-bəh, Pərvərdigari-aləmin vəxti olanda bunu xəlq eliyib. Fikirləşdi ki, yapışıb kəmərindən qovzuyum, qız ağırdı, göbəyim düşər. Çağırım oyansın, qız diskinər, dodax-budağı uçuxlar. Bir dolandı təxtin ətrafını. Görüm götürüm bunu. Narın-narın nə cür oyadır, mən oxuyum, tamam dostlar sağlığına. Bağda, baxçada qız belə yatar?

Xab içində yatan dilbər,
Qalx ayağa, dilbərindi.
Müsk-ənbərə batan dilbər,
Qalx ayağa, dilbərindi.

Oyanmadı. Qulağın verdi, gördü elə bil körpə quzu nəfəsi gəldi. Dübarə diyir, xanım, qurbanın kəsim, belə yatmazdar.

Qalx ayağa, dövran eylə.
Hər işin var, tamam eylə.
Bir cüt busə ənam eylə,
Qalx ayağa, yarım indi.

Xanım, Seyidi bilir halıyın,
Gül bürüyüb cəmalıyın.
Əməydim xətti xalıyın,
Qalx ayağa, yarım indi.

Seyidi baxdı qız ayılmadı. Seyidi qızın ətrafın bir dolandı. Elə dolananda bunun qıçı dəyib taxta. Dəyəndə bu təxt silkələndi. Silkələnəndə qız yerindən atdandı göyə. Atdananda ip qalxır, Seyidiyə bir təpik atıb, Seyidiyi rədd elədi. Səsləndi:

– Xanım, əl saxla. Mənəm Seyidi.

– Seyidi?
– Bəli.
Qız gözdərin silib dedi:
– Seyidi, sənsən?
– Bəli, xanım, mənəm.
Səsləndi:
– Seyidi yarım, bə indi niyə? İndi niyə gəlmisən?
Səsləndi:
– Xanım, giriftarçılıxdı. Ancax gələ bildim. Yollar uzaxdılar.
– Bildim buyün gələssən. Buyün kəniz, dayəni dedim, qoy bağdan getsinlər. Muqayət olmuya.
Səsləndi:
– Seyidi yarım, çoxdandı yolunu gözdüyürdüm.
İndi görax Seyidiyə nə diyacax, mən oxuyacayəm tamam ellər sağlığına. Görax xoş gəldin diyə bilər, ya diyə bilməz?
– Seyidi yarım, belə gələrlər?

Nə muddətdir yol busurdum,
Ağa Seyidi, mən ölüm, hardan gəlirsən?
Yoluya qurban kəsərlər,
Mən ölüm, hardan gəlirsən?

Dedi:
– Xanım, gəlmişəm də.
– Gəlibsən, nə vaxt gəlmisən? Tez gələydin.

Uca dağlar ucasıdı,
Yarın gül üzü beçəsidi.
Cavan, qurbanın kəsim, buyün ayın neçəsidi?
Mən ölüm, görüm hardan gəlirsən?

Budur Pəri xanımın halı,
Cavan, salma bağa qovğa-qalı.
Qurbanındı şirin canı,
De görüm, hardan gəlirsən?

Qız əl verib Seyididən əl aldı.

– Cavan.

– Bəli.

– Çıxax.

Yavaş-yavaş yerillər. Çıxıllar pillələrdən üsdə. Saxtumanlara çıxırlar. Seyidi baxdı gördü buyün bu qızdan sonra burda heç kəs yoxdu.

– Xanım.

– Bəli.

– Xanım, qurbanın kəsim, bu gözəllikdə sən, bu ləyaqətdə sən, bu saxtumanda, bu bağda niyə təh qalırsan?

Səsləndi:

– Cavan, düz diyirsən. Təkh dəyiləm. Bir, iki, üş dənə nökərliyim var, kənizlərim var. Buları buyün yollamışam muradxasıya. Elə göylüm istədi buyün özüm tək qalam burda. Bildim gələcəksən. Gecə yuxuda görmüşdüm.

Qız səsləndi:

– Ağa Seyidi.

– Bəli.

– Bir az səbr eləsax, mənim bir kənizim var. O gələr indi bir yarım saata. Ona demişəm tez gələ. O biriləri nə vaxt istəsə, gələ. O yaxçı qəzalar fikirləşir. O bir qəza pişirsin, sənnən bir qəza sərf eliyax.

İkisi bahəm əyləşiblər. Vəxtində ki, o qız ki deyirdi kənizimdi, gəldi.

– Xanım.

– Bəli.

– Buyün mənim bir qonağım var. Əlhəddə qonaxlardandı. Allahdan o cavanı istəmişdim, gəlib. Bir qəza pişirəsən, bir o qədər yeyilmiyipdi.

– Xanım, baş üstə.

Ovlardan, şikarrardan vurublar. Oların ətdərindən o qız bir qəza bişirib. Seyidiynən qız ikisi bahəm qəza yeyənnən sonra durublar, nahar namazı idi. Namazdarın qılıblar. Qız əllərin götürüb Həx dərgahına: "Pərvərdigara, çox şükür. O dediyinə mən yetişdim". Seyidi o yandan əllərini qovzuyub: "Pərvərdigara, çox şükür, əhdimə yetişdim". Qız namazı qılıb dedi:

– Ağa Seyidi, qəbul olsun.

– Xanım, təşəkkür eliyirəm.

Səsləndi:

– Ağa Seyidi.

– Bəli.

– Sən məni yuxuda görübsən?

– Bəli.

– Sən məni yuxuda görübsən, düzdü. Mən də səni görmüşəm.

– Görübsən?

– Bəli.

– İndiyəcən bacı-qardaşıx. Burda nahar yemisən, qonağımsan. Amma.

– Amması nədi?

Dedi:

– Mənim bir imtahanım qalıb.

– Xanım, bir imtahan nəmənədi?

Dedi:

– Mən əhd eləmişəm, o adama gedəcəyəm ki, onnan güləşəm. Əyər məni yıxsa, ona gedəm.

Səsləndi:

– Xanım, işqali yoxdu.

Seyidi bilmədi bu qız pəhləvandı, qüdrətdidi. Heş boynuna almazdı. Qız iki dəst kuştil libası gətirib. Gətirib hərəsi bir dəstin geyib əyninə. Bular əl verib pəncə-pəncə, əl aldılar. Bular iki sahat yarım bu salonda küş tutublar. Seyidini qız

basa-basa aparır o başa. Seyidi bu qızı iki qədəm gətirə bilmir. Hərdənbir aralanırlar, gəlirlər çaydan, sudan içirlər. Genə həmin küştili tuturlar. Seyidinin başı keşdi qızın qoltuğuna. Qız bir fişar verdi, Seyidi gördü bəli, bu saxtuman dolandı mənim başıma. Az qaldı gözdəri çıxa. Səsləndi:

– Ey on səkkiz min aləmi xəlq edən Allah, özün bu yollara salmısan məni. Özün mənə bunu nişan vermisən. İndi mən burda xar olam?

Seyidiyə neçə nəril qüvvəsi gəlib. Seyidi bir nərə çəkib, qızı əlində düz götdü göyə. Göyə götürəndə qızın başı açıldı. İstədi ata eşiyə pəncərədən. Qızın telləri tökülüb sevdiyinin üz-gözünə. Töküləndə, görür mən kişiyəm, bu arvad. Mən bunu yıxmışam, döyüş dəyil ki? Bunu atam, heş insaf dəyil. Yavaşca beləsin qoydu döşəyin üsdünə. Qız durub əyləşib. Töhtüşüb, tər basır beləsin. Seyidi qıza baxır, qız Seyidiyə baxır. Seyidiyə niyə baxır?

Seyidi diyir, bunnan belə mən bunnan su isdiyəndə, çörəy isdiyəndə gərək bunnan bir sahat güləşəm. Bunu yıxannan sonra diyəm, mənə su gətir. Qız da diyib, bu məni yıxıb. Qoy baxım görüm kimə gedirəm. Ayə, bunun layəqəti var? Qız belə baxır. Seyidi görür, bəh-bəh. Amma Seyidi baxanda qız dodaxların büzüb, elə bil körpə quzu ağladı.

– Xanım.

– Bəli.

– Xanım, qurbanın kəsim, bə niyə ağlırsan? İcazə versən, burdan qəyidim gedim da. Onun ağlamağı yoxdu ki.

Səsləndi:

– Ağa Seyidi, qulax ver.

– Nəmənədi?

– Qoy deyim, nəmənədi.

Xanım, necə nə? Əvvəl sən nəyidin? İki saatdı üzülürsən bə burda.

Bir sözüm var, Seyidi, sənə söylərəm,
Onu bil ha, əvvəlki qüvvətim qalmıyıb mənim.
Şirin canımı sənə qurban edərəm,
Əvvəlki qüvvətim qalmıyıb mənim.

– Əvvəl nəmənəydin?

– Ağa Seyidi, əvvəl nəyidim, bilmirəm nəmənə oldu. On dənə sənin təkin cavan məni yıxa bilməzdi.

Ağa Seyidi, at minibən bu dərbənddəri tutaydım,
Düşmənləri qol-qoluna çatardım.
Əskiylərini İstanbulda satardım, burda yox ha,
Əvvəlki qüvvətim qalmıyıb mənim.

– Famillləri, qohumları, ellər gələrdilər. O dediyim pulu alıb, onu təhvil verərdim. Narahatsan, qulax ver.

Pəri xanım sıdqın Həqqə bağlardı,
Bağrın başın çallı-çarpaz dağlardı.
Yeddi mahal qılıncımdan qanlar ağlardı,
Əvvəlki qüvvətim qalmayıb mənim.

– Xanım, narahand olsan mən qəyidim.

– Qəyidəssən?

– Bəli.

– Ağa Seyidi, hara qəyidəssən? Mən o istədiklərimə yetişirəm, sən qəyidəsən? Ağa Seyidi.

– Bəli.

– Xoş gəlibsən, mənim gözüm üsdə. Elə mən səninəm, sən də mənimsən.

– Ay xanım, niyə narahandsan?

Səsləndi:

– Narahand dəyiləm. Sevindığımdan belə eliyirəm.

– Xanım, neyniyax indi?

Dedi:

– Mənim bir imtahanım qalıb.

– O nəmənədi?

Dedi:

– Ətəhdə mənim atam Rəzmi şahdı. Onun atı heç kəsə minik vermir. Əgər o atı da minə bilsən, billəm mən diyənsən.

Ta qız o yana baxır, Seyidi yoxdu. Seyidi qırx dənə pilləni bilmirəm nə qılıx düşdü. Yetişib istəbilin qapısını aşdı. Açanda at qalxıb tapancaya. Qalxanda bu səsləndi, bir nərə çəkdi. Necə atın burdan bir yumurux vurub, at gicəldi. Gicələndə bunu tez tumarladı, qəşovladı. Qəşovluyub cilovu vurub başına, lüt çıxardıb eşiyə. Eşiyə lüt çıxardıb qıçın aşırdı atın belinə. Qız-gəlinnər gördü Seyidi getdi ha. Səsləndi, mən niyə belə səfeh oldum? Mən niyə atı verdim? Bu indi gərək yıxa biləsin. Xudaya, mən kaş vermiyəydim. Fikirdəydi, gördü, odu Seyidi dağları dolandı gəldi:

– Xanım, daha necə?

– Cavan, gəldin də.

Səsləndi:

– Ağa Seyidi, heç.

Bu at buna minik verdi, heç kəsə minik vermirdi. Atı istabildə bağlıyıb genə gəldi.

Əyləşiblər.

– Ağa Seyidi.

– Bəli.

– Biz müsəlmanıx, bunu danmıyacağıx. Hara getsax, müsəlmanıx.

Quranda bəyandı mübarək adı,
Məhəmməd Mustafa Həbibi-Xuda.
Məhmul[89] əmanət, bəhri-ədalət,
Məhəmməd Mustafa Rəsulu-Xuda.

Anadan doğuldu xətdi-peyğəmbər,
Nur ilə dünyanı etdi münəvvər.
Hər yanı bürüyüb Allahu-Əkbər,
Məhəmməd Mustafa Rəsulu-Xuda.

---

[89] Məhmul-daşınan, həml olan bir zad

Qüdrət aləmində eylədi kərəm,
Müşərrəb vurub dünyaya qədəm.
Seyidi-Mursəl, Rəsuli Əkrəm,
Məhəmməd Mustafa Rəsulu-Xuda.

Xızırül həqqi, Əhmədi-Muxtar,
Həqqin qapısından çəkilməm kənar.
İmdada yetişsin o Pərvərdigar,
Bəhəqqi Mustafa Rəsulu-Xuda.

– Ağa Seyidi, Şamın kənarında alim var, qazi var. Bir namə yazıram, mən gəlmirəm. Apar ver, kəbinimizi kəssin, qəyit gəl.

Bu qız bir namə yazıb dedi:

– Seyidi yarım, atı min.

Seyidi səməndi minib, sazın götürüb. Sübh çağları qıznan xüdahizlik eliyib hara gedir? Gedir Şamın kənarında o qazilərin yanına. Qızın əğdin oxuya biləsilər.

– Seyidi, get, Allah yar olsun.

Atı sürüb vəxtində yetişib, Şamın kənarında həmin qazi olan yerə. Baxdı böyük həyətdi. Elə atınan sürdü həyətə. Üsdən alimlər baxırdı.

– Ay qardaş.

– Bəli.

– Atı həyətə niyə gətirdin? Eşikdə o xuyreyləri görmürsən?

Səsləndi:

– Ağayi qazi, bağışla.

– O çiynindəki nəmənədi?

– Ağayi qazi, bu da sazdı.

– Qəyit get, sazlı bura gəlməz.

Seyiddər, mollalar bilmədi, qazilər bilmədi ki, bu Həqq aşığıdı. Atın üstündəydi. Səsləndi:

– Bir işqal yoxdu.

– Gəlin, bir sözüm var. Bir naməm var, verim, mən qəyidirəm.

Dedi:

– Sənin naməni də biz isdəmirıx.

Seyidi baxdı, bular məni heç hesaba qoymadılar. Bular gəlirlər Seyidini vursunlar. Üsdə bir cavan alim vardı, səsləndi:

– Ağalar.

– Bəli.

– Dayanın, mən diyim getsin.

İstəmədi Seyidiynən bular dava eləsinlər. Heş Seyidi olara əl aşmadı. Çün niyə? Olar alimlərimizdi, peyğəmbər sərbacıdılar. Olara əl aşmadı Seyidi.

– Ağayi cavan.

– Bəli.

– Adın nədir?

– Seyidi.

– Nə yaxşı gəlmisən, bala?

– Bəşərin hammısının yaxçısı var da.

Çıxartdı naməni belə verdi qıza. Qız baxdı bıy, Seyidi baxdı bıy. Ta gedib o alimləri axtara, alimlər o yannan gəldilər Seyidinin yanına. Səsləndi:

– Cavan, nəyə gəlmisən bura?

Səsləndi:

– Ərz eliyim.

Görax nə diyir:

– Ağayı-alimlər, niyə məni vurursuz? Mənə çay alın, mənə çörəy alın, məni qonaq eləyin də.

Alim olan məlum eylər sözündən,
Şərti-peyğəmbəri isdirəm sizdən.
Elmin ayəsindən, kalan üzündən,
O şərti-peyğəmbəri isdirəm sizdən.

O cavan alim baxdı gördü bəli, aşağıda yoldaşları Seyidini oxudur. Amma üsdən baxır.

Gəlmişəm qapuza, ağalar, bir niyazınan,
Məni bağışlayın, nasəl qəsil, çoxu azınan.
Amma keşsaz o yana, siz Quranı duayünən, mən də sazınan,
Şərti-peyğəmbəri isdirəm sizdən.

Qərib mənəm, çox qəriblıx görmüşəm,
Oxuyuban hər dilləri bilmişəm.
Seyidi mənəm, sizi deyib gəlmişəm,
Şərti-peyğəmbəri isdirəm sizdən.

Əllərində hərəsinin yarım metrə bir aşadarı varıdı. İstədilər ki, Seyidini vursunlar, yoldaşları gəldi.

– Nə qəyirirsən? Bu bizim dostumuzun adamıdı. Bu da naməsidi, bax bir.

Alimlər gördülər bunu dostu yolluyub bura. Rəzmi şahın qızı namə göndərib. Bunu çıxarıblar üsdə. Bir çəngə çıxardıb Seyidi qızıl qoydu mizin üsdünə.

– Ağayi-qazilər, bizim kəbinimizi, əğdimizi oxu.

Seyidinin əğdini oxuyublar. Seyidiyə çay-çörək veriblər.

– Cavan, bağışla, biz bilmədix Rəzmi şahın adamlarındansan.

Səsləndi:

– İşqalı yoxdu. Siz böyüksüz.

Əğdin oxuyublar. Seyidi bulardan xudafizlik eliyib, bulara az-çox pulun verib, atı minib gəlir. Qız baxdı Seyidi yubandı. Amma dürbini qoyub belə baxanda gördü Seyidi o dağın döşündən gəlir. Qız çəmədanı çıxartdı qabağına. On yeddi qələmdən özünə zinyət vurub. Bir tağ bəziyib qoydu başına. Başına bir qabaxdan belə kölgə salsın. Diqqətinən baxır gördü lap yaxınlaşır. Seyidi qapını açır. Qız çıxıb, üst belə balqon idi, balqondan baxır. Seyidi atı balqonun altında istəbilə apardı. İstəbilə aparanda qız gördü Seyidi yubandı. Niyə? Seyidi

atın yəhərini aldı. Onu bir qəşovluyub, qurulub ta üstə çıxıncan beş-on dəqiqə çəhdi. Qız səsləndi:

– Ağa Seyidi.

Seyidi baxır səs gəlir. Eşiyə çıxanda gördü qız balqonun qabağı hablə məhhəcərdi, yapışıb əyilib altdan belə onu çağırır:

– Ağa Seyidi, bə niyə yubandın?

Seyidi belə baxanda gördü qız bir don geyib, öz bədəninin qalıbıdı. Bir tağ bəziyib qoyub başına. Elə gəlin libası geyib əyninə. Səsləndi:

– Xanım, mən ölüm, bir o cür dur.

Görək orda bir yol nə diyəcək:

Xanım, o nədi qoynunda ingəldindilər,
Axar arasından tər şirin-şirin.
Əcəb səfalıdı sizin yerin dağları,
Görürəm gətirir baxçalar bar şirin-şirin.

– Ağa Seyidi, mən ölüm, gəl üsdə oxu.

– Xanım, sən Allah, elə o cür dur.

İpək çadır xanımanım olaydı,
Yarə qurban şirin canım olaydı.
Qoynun içi zimistanım olaydı,
Yağaydı üsdümə qar şirin-şirin.

Tülə tərlan uçar qalxar havaya,
Göyül quşu vurar, salar yuvaya.
Xanım, ləblərə daha yaxçı sinəsinayə,
Əməydim ləblərin bal şirin-şirin.

– Ağayı Seyidi, gəl üsdə.

Seyidiyəm, qar-qadayın alım mən,
Alıb, alıb şirin cana salım mən.
Gəlmişəm bağında biqəm olam, qalam mən,
İkimiz bir gəzax yar, şirin-şirin.

– Ağa Seyidi gəl üsdə.

Ağa Seyidi üsdə çıxıb. İki aşiqi məşuqa qol keçirib bir-birlərinin boyunlarına. Kəbinləri kəsilib, əyləşiblər, öz xanımıdı, danışırlar. Bir gün, iki gün, üş gün, dörd gün, beş gün... qırx gündü bular bu saxtumandadılar.

– Ağa Seyidi.

– Bəli.

– Ağa Seyidi, əlinnən şikar vurmax gələr?

Dedi:

– Yaxında olsa, vura billəm.

Dedi:

– Bizim elə bu at var, səmənd[90] var. Elə daldan qovalasan, özü tutar gətirər.

– Xanım, işqalı yoxdu, gətirərəm də.

– Birdən biləm at damadan salmıya.

Dedi:

– Nigaran qalmaginan.

– Gördüm ki, yaxınlaşdı, yaxçı kəmənd ataram. Ataram kəməndi, tutaram beləsindən.

– Çox qəşəng, çox qəşəng. Atı min, bu dağlarda şikar elə.

Sübh namazlarını qılannan sonra atı minib çıxıb şikara. O dağlarda davar cürc kimindi. Bu oğlanı ki, qovub əlinən diri tuta. Tutammıyıb, buyün bekar qayıtdi.

– Xanım, tutammadım.

– Olsun da, səhər tutarsan da.

Səhər getdi. Genə ovları pərakəndə saldı, bir dənə tutammadı.

– Ağa Seyidi, buyün niyə tutammadın?

– Xanım, vallah, o oxu ki çəhdim belə ki, şikarı eliyəm, sən durdun gözümün qabağında. Ox qıjıltıynan getdi yerə. Eliyə bilmədim. Bə neyniyim?

– Cavan.

---

[90] Səmənd-sarı at deyilir

– Bəli.
– Nəyim yadıya düşüb?
– Xanım, o tellərin yadıma düşəndə ürəyim əsir.
Qız qəyitginən telindən üç-dört dənə ayırıp, bir gül qəyirib qoyub paketin içinə.
– Buları qoy cibiyə. Çıx şikara, yadıya düşəndə tellərə baxsan şikar eliyə biləsən. Amma teldə muaqı itirmiyəsən haa.
Səsləndi:
– Xanım, baş üsdə, itirməm. Cibimə qoyaceyəm də. Cibdən məsail düşər?
Qız buna bərh tovşur[91], bərh tapşırır. Seyidi gedir. Burda ov tutam, orda tutam, tutammır. Qız buna amma deməmişdi, bu dağlarda bir sam yeli var. Bu yel hər kəsin bədəninə dəysə, gah üşüyər, gah qızışar, eliyə bilməz ki, tab gətirsin. O gərək bir yerdə qala, ta onun təbi alına. Seyidi bilmədi. Atın üstündə idi. Yel dəyib Seyidinin bədəninə. Gördü bəli, mən qızışdım. Amma ətəkdə çay var. Dedi, düşüm bu çayda bir çimim eliyim da. Düşdü çayda çimə. Çayda üşüdü. Eşiyə çıxanda qızışdı. Özünü bir yetirsəydi Qəhrəman qələsinə. Libasın geyib, əl atıb dəsmalı çıxardanda bu paket tellər düşdü suva. Su Şamın kənarından geçirdi, elə buruldu naməni götürdü getdi. Bə Seyididə qüdrət yoxdu ki, qaça daldan, onu tuta. Namə getdi, özün yıxıb atın üsdünə gəlir Şama. Qız aralıdan baxdı, gördü ordan Seyidi gəlir. Babeylə, baxdı Seyidi atın üstündədi. Qız bildi ki, o yel dəyib onun bədəninə. Kaş mən diyəydim. Qaçıb gördü Seyidi gah üşüyür, gah titriyir, gah qızışıb. Halbahal olub bu. Gördü bunun bədəni adamın əlin yandırır. Amma titriyir. O zaman dəvasın verib, verəndən sonra Seyidi hala gəlib. Səsləndi:
– Xanım.
– Bəli.
– İcazə versən, sinəmə bir qatar söz gəldi.

---

[91] Tovşur–tapşırır

– Nəmənədi? Ağa Seyidi, genə oxuyacaxsan?
– Xanım, bir xəta eləmişəm.
– Axı xətan nəmənədi?
– Ərz eliyim.

Nazlı dilbər, eyləmişəm bir xəta,
Sən verən tel bir ümmana qərq oldu.
Böyükdən ətadı, kiçikdən xəta,
Sən verən tel bir ümmana qərq oldu.

Qız körpə uşax kimin dodaxların büzüb elə ağladı. Gözəlin ağlamağı da qəşəng olar. Səsləndi:
– Ağa Seyidi, qəyit telləri hardan itirmisən, tap gətir.
– Xanım, hardan tapaceyəm? Qulax ver.

Xanım, bu necə qəzadı, bu necə işdi?
Od tutuban cismi-canım alışdı.
Gedər olsa, indi Şama yetişdi,
Xanım, sən verən tel bir ümmana qərq oldu.

Qız lap betər ağladı. Niyə? Seyidi baxdı gördü bu niyə belə şəmətə verir. Bə bu niyə belə eliyir? Gedirəm bunun tellərin tapam gətirəm, verəm. Diyəm, o sən, o sənin tellərin, mənə xüdafiz. Bəlkə, mən sənə beş dənə müsahibnən gəldim dedim. Evin yıxılmasın, bə niyə belə eliyirsən? Axı, Seyidi bilmirdi qız niyə elə eliyir. Qız dedi:
– Telim gedər Həsən paşanın bağına. Üstümə qoşun gələr. Cəng eliyərlər, məni səndən alarlar.
– Xanım, kim bura gələ bilər?

Seyidi mənəm, səmənd atın üsdündə,
At oynadıb, qılış tutum dəstində.
Xanım, nəhrin kənarında, Şamın üsdündə,
Sən verən tel bir ümmana qərq oldu.

Ala gözlüm, səndən ayrı düşəli,
Nə aylar xoş gəlir, nə illər mənə.

Sənsiz gülüstanın vəfası yoxdur,
Nə gülşən xoş gəlir, nə güllər mənə.

Hicran atəşinə yandım, alışdım,
Dərdə düşdüm, dərdlilərə qarışdım.
On gün fürsət oldu, sənnən danışdım,
İndi bir dərd oldu o dillər mənə.

Zülflərindən bir dolu şanə,
Kəsib dəstə bağla, göndər nişanə.
Qasid tapammasan, at biyabanə,
Yalvar qoy gətirsin, o yellər mənə.

Muxtərəm, göz yaşım olubdur Ceyhun,
"Əlif "qəddim yaya dönübdü misli "nun".
Bağırıb diyərdi biçarə məzlum,
Əcəb məskən oldu o çöllər mənə.

Qız belə ağladı. Elə ağlıyır, bahənd ağlıyır. Seyidi səsləndi:

– Xanım, niyə narahandsan, niyə ağlırsan?

Gecəni səhərə kimin qız yata bilmədi. Qız yata bilmədi, Seyidi də qulaq asır. Gördü canım, bir dənə teldi. Mən bunu itirmişəm. Şayəd səhər beş dənə, üş dənə qonağım gəldi mənim. Elə bu qız belə eliyəcək? Seyidi bilmirdi qız niyə ağlır. Seyidi bilmir qız niyə diyir. Qızdan xəbəri yoxdu. Qız o qızdardan dəyil. Sübh yerindən qalxıb Seyidi namazı qılıb. Ey on səkkiz min aləmi xəlq edən Allah, mənə köməhlik elə. Mən onu tapım gətirim, bəlkə bu mənnən razı olar. Burda mən də qoyum çıxım gedim. Bunnan mənimki tutmaz. Qız gördü Seyidi namazı qılıb dua eliyir. Həyətə düşəndə qız Seyidinin qabağını kəsdi:

– Ağa Seyidi.

– Bəli.

Qız gördü Seyidi belə bu cür narahand getsə, onun işi düz gəlməz.

– Hara gedirsən?
Dedi:
– Xanım, gedirəm tellərini tapam. Gətirim verəm özəə da.
Səsləndi:
– Belə gedirsən?
– Bə nə cür gedim?
Səsləndi:
– Ağa Seyidi, sən elə bilirsən mən o tellərə ağlıram?
– Bə nəyə ağlırsan bə?
– İcazə ver, qoy diyim nəyə ağlıram.
Qız belə diyir, mən oxuyum ellər sağlığına:

Bir ərzim var, Seyidi, sənə söylərəm,
Teli itirmağın çox yaman oldu.
Şirin canı sənə qurban eylərəm,
Teli itirmağın çox yaman oldu.

Səsləndi:
– Xanım, yaman zat dəyil. İndi tapıb gətirib verrəm. Səninki səndə, mənimki məndə.
– Seyidi, qulaq as.

Dost bağında bitib məsum lalələr,
Şeyda bülbül gül üstündə nar eylər.
Çox qorxuram məni səndən alalar,
Teli itirmağın çox yaman oldu.

– Necə-necə, kim ala bilər səni məndən?
Səsləndi:
– Ərz eliyim.

Pəri qurban gözlərinin ağına,
Bir yol saldı ürəyimin yağına.
Teli gedib gəz Həsən paşanın bağında,
Teli itirmağın çox yaman oldu.

– Ağa Seyidi.
– Bəli.

– O yerdə ki, o telimi itirmisən o suyun neçə yerdə bəndəgahı var, ayrılır. O suların ahırı gedər Həsən paşanın bağına. Loğmannan, çobannan bir nəfər tapar, çün üsdündə yazısı var tapar. Bilərlər ki, paketdədi. Bu telləri hətmən diyəllər ki, özü yolluyub ora. Odu ki, mən ağlıram, telə ağlamıram.

Səsləndi:

– Xanım, bir nəfər bu qədər yol düşsə, rizə-rizə doğraram biləsin. Necə gələ bilərlər?

Qıza əl verib, əl adı.

– Get, cavan, Allah yar olsun.

Seyidi getsin. Suların birisi ayrılıb gedir vəzirin bağı səmtinə. Bir nəfər qoldan bunu tapdı, bu telləri. Gördü paketdədi. Üstündə yazısı var.

– Ağa vəzir.

– Bəli.

Dedi:

– Ağa vəzir, bir dənə mən paket tapmışam. İçində belə bu tühlər var. Bu tühlər də çox gözəldi.

– Gəti baxım görüm bir.

Baxdı gördü bir bu Rəzmi şahın qızının telləridi. Paketə yazıblar. Dedi, aha, aha.

– Bir də bir iranlı gəlib ora. O qıza çox əziyyət eliyib. Bu naməni atıb suya. Bu su gətirib bizim bağa. Biz tapax, gedək o oğlanı öldürax, o qızı gətirax. Hətman bu qız bizə pənah gətirib.

Gətirib paket təmiz təhvil. Dörəsinə gül qoyub, üsdə bir örtü örtüb. Vəzir bunu götdü qaçdı Həsən paşanın yanına.

– Salam, bəy əfəndi.

– Əleykəmə salam.

Bu məcməyi qoydu Həsən paşanın qabağına.

– Nəmənədi?

Aşdı baxdı bu tühlü teldi da. Dedi:

– Vəzir, bu nəmənədi?

Dedi:
– Mən bilmirəm. O Rəzmi şahın qızının telləridi. Pəri xanımın telləridi.
– Qızıldı?
– Bəli.
– Nə olsun?
– Deyirlər bir iranlı gəlib ora. Hətmən ona çox əziyyət eliyir. Bu telləri yolluyub bizə, biz gedax onu gətirax.
Həsən paşa getdi fikrə:
– Ağa vəzir.
– Bəli.
– Sən düz diyirsən ha. O çün Rəzmi şahın qızıdı. Onu heş kəs elçi getməz. Onu alsam, gərək mən alam da. Mənnən sora kim ala bilər?
– Qurban, heş kəs də.
– Vəzir.
– Bəli.
– Sənin oğlanların fərmandeydi. Birini götür, bir neçə ləşkərinən, neçə nəfərinən bir kəcavəzə, gedin o iranlını öldürün. O qızı gətirin bura.
Bu da o qayıdışınan əğdi oxumuşdu.
Səsləndi:
– Ağayi qazi.
– Bəli.
– Ağayi Həsən paşa.
– Bəli.
– Oların əğdini mən üç ay bunnan qabax oxumuşam.
– Necə-necə?
– Bəs mənə niyə deməmisən?
Səsləndi:
– Axı mən nə biləm sənə demiyəm. Qız özü namə yazmışdı.

Dedi:

– Vəzir.

– Bəli.

– O birinci oğlundan seç. İki ləşkər oğlanın dovrasında töksünlər, gətirsinlər bura. Qızın da qolların bağlasınlar, atdarın qabağında gətisinlər. Səsləndi:

– Qızın sənə göylü var axı. Bu namədi, yolluyub. Biz gərək qızı əsir gətirax bura?

Həsən paşa fikrə getdi. Dedi:

– Vəzir, özün nə bilirsən elə.

Oğlanlarının biri Salman bəydi gətirib, neçə ləşkər götürüb, min kəcavəni bəziyib.

– Gedərsiz, qızı qoyarsız bu kəcavəyə. O iranlı qalsa, öldürməyəsiz də bilərsiz. Gördün yox, gəlir, cəng eliyin beləsin öldürün.

Bular gəlsinlər Qəhrəman qələsinə. Gəlirlər, Pəri xanımı alsın, Seyidini öldürsünlər. Seyidi hara gedir? Gedir Həsən paşanın bağına tərəf. O suynan baş alıb gedir. Görür heç zad yoxdu orada. Bu suyun qabağında tel gələr. Bu dəvə boylu su adamın özün aparar da. Bu teli saxlar gör? Elə aşağa baxırdı, belə yandan baxa bilirdi. Gördü canım, bir dəstə ləşkər gəlir. Belə baxanda biri o yandan gəlir. Bular hara gedirlər? Amma gördü vəsətdəri kəcavə. Seyidi belə əl qovzuyub:

– Salam, ağalar.

– Ələykəmə salam.

Səsləndi:

– Cavan, nə adamısan?

Seyidi səsləndi:

– Siz nə adamısız?

Dedi:

– Biz belə gedirıx. Qəhrəman qələsinə.

– Sən hara gedirsən?

Dedi:

– Mən də gedirəm qoç Həsən paşanın bağına.

– Nəyə gedirsən?

– Ərz eliyim.

Götürüb belə deyir, mən oxuyum ellər sağlığına:

Telim gedib qoç Həsən paşanın bağına,
Yar tellərini axtarmağa gəlmişəm.
Ölüm düşsün sər rədifin evinə,
Yar tellərini axtarmağa gəlmişəm.

Fərmandey bir qoşuna əlamət verdi. Qoşun belə Seyidini saldı mühasirəyə. Seyidi baxdı gördü, qaldı vəsətdə. Gördü qız diyən söz düz olacaxmış. Elə bular düzdülər. Seyidi səməndi qıdıxlıyıb çıxdı eşiyə. Səsləndi:

– Ağalar, belə niyə bə? Belə diyəcəm gedirsiz. Qoyun sözdərimi qurtarım sonra da.

Seyidi dübarə deyir:

Tez anladım mən də sizin sözüüzü,
İndi öldürrəm hamıızı, qoymam biriizi.
Kəsərəm başızı, lal eylərəm diliizi,
Əzrailəm, can almağa gəlmişəm.

Genə vəzir bir dəstur verib, qoşun bunu saldı mühasirəyə. Seyidi genə Səməndə qılıx verib. Gördü, xeyir, baba, biz nə qədər salsax mühasirəyə, bizə o qədər oyunduracax.

Seyidi səsləndi:

– Dayanın, qoy sözlərimi qurtarım.

Ərəb öldü dərsin, qoş Həsən paşanın,
Yar yarıma göndərərəm nişanı.
Gəzərəm şanı-şumu, meşəni,
Yar tellərini axtarmağa gəlmişəm.
Əzrailəm, can almağa gəlmişəm.

Vəzirin oğlu istir həmlə versin.

Seyidi dedi:

– Əl saxla.

Seyidi mənəm, özümü sizə bildirrəm,
Hər nağmeyə göz yaşımı sildirrəm.
İndi sizi bir-bir atdan endirrəm,
Əzrailəm, can almağa gəlmişəm,
Yar tellərini axtarmağa gəlmişəm.

Vəzirin oğlu həmlə verib. Seyidi əl atdı şəmşirə. Üz qoyub bu qoşuna, bir yandan at vurub tökür yerə, bir yandan özü. Burda elə bir qılış vurdu, üz qoyub küçə açır. Təpəsindən qoyur, qoltuğundan çəkir. Çiynindən qoyur, qoltuğundan çəkir. Təpəsindən qoyur, məqərindən çəkir. Məzhəbdən qoyur, ölür. Elə bir qılış vurub daha bağırsaq, ürək sovurur. Əzrail birin canın alanda fərqi yoxdu. Bular görürlər bu cavan ki, bizi belə öldürür, day bizdən bir nəfər qalmıyacax. Seyidi buları sındırıb. Buları sındıranda nəm hansı ox atım, dəydi Seyidinin bu pisdə. Seyidi şəmşiri rədd elədi, amma oxun ucu toxundu. Seyidi yerə batdı, olar Seyidinin yaralanmağını görmədilər. Seyidi qoşunu qovub, özü qəyitdi. Amma hər yeri qandı da. Fərmandey, vəzirin oğlu da öldü. Böyük pəhləvanlar öldülər. Bular qəyidiblər. Seyidi Qəhrəman qələsinə qəyidib. Qız baxdı Seyidi gəlir, amma hər yeri qandı. Qız qaçıb:

– Seyidi, qurbanın kəsim, nə olub?

Səsləndi:

– Xanım, görürsən də.

Qız ah çəkib, Seyidinin qanlarını yuyub təmizliyib. Gördü burdan bir yerə ox dəyir. Amma çox bərk ox. Gətirib qız ora məxmər qoyub. Məxmər qoyub yarasın möhkəm bağlıyıb, rəxtxab açıb.

Bu qoşun qəyidib getdi Həsən paşanın yanına. Vəzirin oğlu ölüb. Neçə pəhləvanlar ölüblər. Həsən paşa hirsləndi:

– Evin yıxılmasın, vəzir. Bes sən diyirdin bu, iranlıdır. Elə bir pəhləvandı. Vəzir, tədbir tök.

Səsləndi:
– Nə tədbir? Tədbir sənnəndi də.
Vəzir hisdənir. İndi bular fikir elirlər. Neçə min üstündən vəzir iki ləşkər, üş ləşkər qoşun azad eliyiblər. Amadə eliyiblər, bu qazi də burdadı. Qazi kimdi? Həmin qazidi ki, Seyidiynən dostdu. Seyidini çox istərdi. O da onu istərdi. Seyidinin əlində ox tutur. Neçə ləşkər qoşundu. Əmr eliyirlər. Hara əmr eliyirlər? Qəhrəman qələsinə. Diyirlər, gecə həmlə eləyin, gecə içəridə tutun biləl追rin. Bunu eşikdə tutmaq olmaz. Qazi səsləndi:
– Ağa Həsən paşa.
– Bəli.
– Bu qoşunu sərməndə eliyin verin mənə. Mənim də onunla bir nigaxlığım var. Heş kim tuta bilməz, mən tuturam.
– Niyə?
Qazi fikirləşdi, bu cavan mənə yaxçılıx eliyib. Bəlkə bir cür eliyax, bunu öldürmüyax. Qazinin mənzuru bu idi. Həsən paşa fikrə getdi:
– Vəzir.
– Bəli.
– Vəzir, bu sevir, bu fərmanı da ver qaziyə.
Bu qoşunu fərmandə eliyib verdilər qaziyə. Neçə dəstə qoşundu gedirlər. Amma buların fərmandeyləri qazidi. Gəliblər dağların çitağındadılar. Orası Qəhrəman qələsidi. Səsləndilər:
– Ağayı qazi.
– Bəli.
Dedi:
– İcazə verirsən həmlə eliyax?
– Hara?
Dedi:
– Onu biz içəridə gecə tutax.
Səsləndi:
– Elə dəyil, indi saat neçədi?

– Gecənin bir vaxtı sovuşub.

– Gedək. Onu biz saxlıyax, günüz həll eliyax.

Dedi:

– Onu günüz tutammarıx.

– Niyə?

Dedi:

– Canım, onu sən görməmisən, ay qazi.

– Canım, mən görməmişəm, bir nəfər, iki nəfər yaxçı. Siz iki ləşkərsiz. Siz püfləsəz, onu yel aparar.

Qazinin sözünü dala qaytara bilmədilər. Dedi:

– Qoyun mənim çadırımı o dağın üsdündə.

Apardılar qazinin çadırını qoydular dağın üsdündə. Əlində dürbin var, baxır Qəhrəman qələsinə. Ordan baxır ki, bular ayılıb həyətə düşəndə həmlə eliyə. Bular yuxuda olmasınlar. Qız Seyidinin yaralarına yetişir. Dava qoyub, məlhəm qoyub. Seyidi yata bilmir, inildiyir. Qız da yatmıyıb. Sübh azanı oxunur. Seyidini huş apardı. Qız da dedi, mən başımı qoyum bunun baldırın dibinə, mən də yorğunam. Qız da yatdı, Seyidi də yatdı. İndi bu yannan qoşun baxır necə həmlə eləsin qələyə.

– Ağayı azi.

– Bəli.

– Evin yıxılmasın, bə nə vaxt sən bizə həmlə verəcəksən?

Səsləndi:

– Vəxti var.

Qazi dürbini qoyub baxır. Gördü xeyir, bular eşiyə çıxmıyacaqlar. Sübh azanlarıdı. Seyidi ayıldı, baxdı gördü bir səs, şaqqaşaq gəlir. Belə bir ayrı pencərədən baxanda gördü həyətə şovqu düşüb. Nə şoqudu? O haramilərin şoqundan, şəmşirlərin şoqundan, qalxanların şoqundan, bu geyimlərin şoqundan düşür həyətə. Belə baxanda Seyidi hay-hay-hay. Gördü dörd dövrəni qoşun alıb. Xudaya, bu qız da təzə yatıb. Mən nə cürə bunu oyadım? Yapışım kəmərindən ayıldım,

ağırdı, göbəyim çıxar. Çağırım oyansın, cavandı, diskinər, ağzı-qulağı tutular. Götürüb belə oyadır:

Sənə deyim, Pəri xanım,
Qalx ayağa, yarım, indi.
Qoşun dört yanımı aldı,
Qalx ayağa, yarım, indi.

Fələk qovub burda qaldı,
Axı mən səni yada saldım.
Qoşun dört yanımı aldı,
Qalx ayağa, yarım, indi.

Seyidiyəm, sözə doldum.
Saralıb heyvatək soldum,
Qoşun dört yanımı aldı,
Qalx ayağa, yarım, indi.

Qız ayıldı. Səsləndi:

– Ağa Seyidi, nəmənə olub?

Səsləndi:

– Xanım, bax da.

Belə baxanda hər yan qoşundu.

– Sənə deməmişəm, durma ayağa, yat. Yat, elə pəncərədən belə bax. Gör nə cür gedirəm, nə cür gəlirəm?

Seyidi baxırdı. Qız ətəkdən geyib, başdan fırlandı. Başdan geyib, ətəkdən fırlandı. Qılış, qalxanın götürüb, cüt təpiyin vurub düşdü atın belinə. Atın üzün çöyürüb qabağın səmtinə. Çöyürüb, qoşun xırıltıynan gəldi içəriyə. İçəri gələni qız kəsir. Elə bir qılış vurdu, qabax ərzanə vəxt yoxdu. Seyidi baxdı, Allahu əkbər, canım, bu mənnən dirrənnədi. Seyidi baxırdı. Canım, bu qan görməyib ki. Durdu yaranın üsdünü möhkəm bərkitdi. Orda xanım cəng eləsin, mən oturub ona baxım burda. Seyidi yarasın bərkidib, o da libası-cəngin geyib əyninə. Səmənd atı çəhdi eşiyə. Cüt təpik vurub, düşdü atın

belinə. Qız soldan düşdü, bu sağdan düşdü. İki dənə dirəmbər pəhləvan düşüb bu qoşunun içinə. Buların qolların görmax olmur. Bular belə cəng elirlər. Dağ-daş, dərə-təpə adam olsa, buların yanında qalmaz. Amma qoşun indi biləndə kaş qazi indi əqəbneşinlik verərdi. Bular çox qoşun yığıblar. İkindi çağlarınacan qoşun yığdılar. Qazi baxdı gördü hə, bular da yoruldular. Qazi atı minib elə. Çadır qalır yerində. Dedi:

– Balalar, denən qoşun qəyitsin.

Şeybur çağırıb qoşun qəyidəndə elə bil duva çaxdı, xırıltıynan qoşun qəyitdi. Qoşun qəyidib, qıznan da Seyidi qəyidiblər.

– Seyidi.

– Bəli.

– Sənə deməmişdim, ayağa durma.

Səsləndi:

– Xanım, qiyrətim qəbul eləmədi, sən cəng eliyəsən, mən də sənə baxım.

Əvvəldə atdarı tumarladılar. Atdara yetişdilər. Çıxıb dağ üsdə libasların əvəzə elədilər, əl-ayaxların yudular, özləri yiyib-içib dağılışdılar. Vəzirin iki oğlanları ölübdi. Həsən paşanın qoşunu qalmadı. Bular qəyidiflər.

– Vəzir.

– Bəli.

– Vəzir, tufağın dağılsın. Bir nəfərdi, diyərdin, pəhləvandı, diyərdin, bu bir dənə əjdahadı. Qoşundan qalmadı.

Ağayi qazi, tebur töh[92] səsləndi:

– O adamın yanında, o kamalın yanında dağ-daş, dərətəpə, qoşun qalmaz.

– Neyniyax bə?

Dedi:

– Vəzir, tebur töh sən verin, məni öldürəllər.

[92] Tebur töh – bir fikr et

Vəzir neçə gündən fikirdədi. İki oğlu ölüb. Bağa bir qəri varid oldu. Gördü bu qərinin min sindi. Bu qərinin bel əyilib, qışdar əyilib, dodaxlar sallanıb, üz uzanıb.

– Qəri nənə, salam.

– Əleykəmə salam.

Qəri nənə səsləndi:

– Ağa vəzir, nə yaxçı bizi ziyarət elədin?

– İki oğlum ölüb.

– Niyə ölüb oğlanların?

Dedi:

– Qəhrəmən qələsində. Qızıl tel tayına bir iranlı gəlib. Pəhləvandı, onu alıb. Biz də bilmədik, ora həmlə elədıx. Biz ayrı mənzil bildıx. İndi mənim iki oğlum ölüpdü. Qoşun sınıb, belə qoşun sındı, qalmadı.

Səsləndi:

– Mən ölüm?

– Sən öləsən.

– Qəri nənə, bir ağır qızıl verirəm, bir ağır gümüş verirəm. Əgər o işi görsən, ölüncən təbləri arasına bir dənə sallarlar.

Qərini götürüb gətirdi Həsən paşanın yanına.

– Qurban, bu diyir, o mənim əlimdədi. Oları tutmax mənim əlimdədi.

Həsən paşa qəriyə baxdı, gördü bu beymanın[93] gözlərin çabalır. Elə bil iti gözlərdir bunun gözləri. Səsləndi:

– Qəri nənə, gedə biləssən?

Dedi:

– Bu mənim həqqimdi.

Səsləndi:

– Qurban, buların turpağı mənim əlimdədi.

– Qəri nənə, qovl verirsən?

Dedi:

---

[93] imzasının

– Bir çarə məlumatında mən gələ bilməmişəm.

– Nə cür eliyax?

Dedi:

– Mənə, məsələn, baxır oları necə bihuş eliyəciyəm.

Orda oları dəstur verib vəzir gətirdi.

– Nə lazımdı, özünə götür.

Onları nəynən tutacax, onları nəynən bihuş eliyacax, oları götürüb çantasını doldurdu.

– Neyniyax indi?

Dedi:

– Ver, sərbazdarın biri məni aparsın, atsın o Qəhrəman qələsinin yanına o yolların birinə.

Bu sərbazdarın biri bu qərini çəkib tərk elədi. Aparıb saldı ora. Oturub bir dənə bulağın başında. Ya əlində bir dənə toxunma var, ya öz dilimiz cəhrə əyirir, ya peşə əyirir. Oturub məşquldu.

Seyidi həftədə bir gün gedər o dağlarda şikar elər. Buyünlərim də Seyidi şikara gedib. Gəldi bulağın başına.

– Salam, qəri nənə.

– Ələykəmə salam.

– Qəri nənə, qurbanın kəsim, burda neyniysən bə?

Qərinin gözdəri doldu. Ağladı, gözlərindən gələn yaş töküb Seyidinin ürəyi yandı. Atdan yerə düşüb.

– Qəri nənə, qurbanın kəsim, bə niyə?

Dedi:

– Bala, qocalmışam. Evlatdarım yanımdaydılar. Gördülər yeriyə bilmirəm, dedilər, qal elə bulağın başında. Neçə gündü burdayam, bulağın başında. Yatmıram burda ki, məni qurt-quş yiyər. Ac-susuz qalmışam burda.

– Qəri nənə, gəl. Mən ölmüşəm ki, sən qalasan çöldə.

Seyidi ata mindirib qərini aparır Qəhrəmən qələsinə. Qız gördü Seyidi gəldi. Amma bir nəfər yanında gətirir. Qız qaş-qabağlı. Atdan düşüb.

– Seyidi, yorulmuyasan.

– Sağ olasan.

– Bu kimdi?

Dedi:

– Xanım, o da çöldə qalmışdı. Evlatdardandılar, yazığım gəldi. Gətirmişəm sənə həmdəm ola.

Səsləndi:

– Ağa Seyidi, bunnan mənə həmdəm çıxmaz. Mən bunu istəmirəm.

Dedi:

– Qocalığı ardı, qoy bir də sevinsin. Savabdı, axirətimizi alarıx, günahdı. Bu gedib çöllərdə qalmasın.

Dedi:

– Ağa Seyidi.

– Bəli.

– Bu arvadın gözdəri şəatin gözdərinə bənziyir. Bunnan mənə həmdəm olmaz.

Səsləndi:

– Xanım, çörəyindən qorxursan?

Bunu diyəndə day qız bir söz diyəmmədi. Çıxıb üsdə. Yeyirlər, içirlər. Amma qızın gözü qəridədi. Qız qorxurdu. Bir həftədi qəri burdadı. Seyidi buyün çıxıb şikara gedə. Çıxıb şikara. Qız getdi həyətdən bir dəstə o tikanlı güllərdən kəsib dəstə bağladı. Gəldi bu qərinin yanına, o qərinin çırrıyıb üsdə. O lüt yerindən verdi bu çıplağın dəminə. Qol-qıçın verdi bu çırpının dərdinə.

– Burdan gedirsən, ya biləyin öldürüm?

Bu qərini vurub apardı qələnin qapısından bir təpik vurub getdi. Amma qəri neynədi? Getdi kəsdi qələnin qarşısında, otdu orda. Çox çəhmədi gördü Seyidi gəldi.

– Salam, qəri nənə.

– Əleykəmə salam.

– Bax, burda neynirsən? Eşiyə niyə çıxmısan? Xanım necədi?

– Ağa Seyidi, xanım üş-dört gündü naxoşdu. Hətta sən gedəndən bir iskan suyu da işmiyipdi. Çox qorxuram.

– Qəri nənə, xanımınan nə cür keçinirsən?

Səsləndi:

– Bala, Allah onu mənə çox görməsin. Sindimin axırlarında üzümə gün doğub. Gəldim burda istirəhattıx verəm. Gəldim burda bir xoş gün gördüm.

Day demədi bu qız mənə vurdu. Genə Seyidi bunu götürdü gətirdi. Genə qız baxdı bu qəri gəldi. Day demədi onu niyə gətirdin içəriyə. Hirsindən gedib yatıb.

– Salam, xanım.

– Əleykəmə salam.

– Bə bir şey yemirsən?

Dedi:

– Meylim yoxdu.

– Qəri nənə.

– Bəli.

– Qəri nənə, bir qəzanda süt-zad elə.

Burda bir qatar oxuyum:

Ala gözlüm, qəst eləmə, amandı,
Düzmə ürəyimin köz dövrəsinə.
O ləşkər kirpiklər cəllada bənzər,
Səf çəkik düzülüb göz dövrəsinə.

Dərs almısan cavanların fəndini,
Gördüm bağla ağ sinənin bəndini.
Gizlə sinəxdanda xalı Hindini,
O qarə tellərdən düz dövrəsinə.

Qaşın kaman, kipriklərin oxudu,
Zalım fələk mənə bir tor toxudu.
Mən səni görəndə dərdim yoxudu,
İndi yetişibdi yüz dörəsinə.

Qəmin tacirisən, biçarə “Muxtar”,
Döz bu dərdə, nə ağlıyıb, nə yalvar,
Bu bir sözdü atalardan yadigar,
Çırax işıq verməz öz dövrəsinə.

Seyidi buyünləri də gəlib.

– Xanım, salam.

– Əleykəmə salam.

– Xanım, bir şey meylin var?

– Qəri nənə.

– Bəli.

– Qəri nənə, qurbanın kəsim, xanım xörək yemir. Nə hoydu?

– Biliram da.

– Neçə gündü xanım çörək yemir.

– Sindimin bu vaxtları xanım gərək yoldaş olam beləsinə. Mən gələndən bu, naxoşdur.

– Qəri nənə, yaxçı qəza bişirə billən?

Dedi:

–Elə qəza bişirrəm, ta qabağan görməmisən.

– Qəri nənə, ov vurmuşam. O ovdan soyub ətindən gətirib bir az qəza bişir.

Qəri gördü işi yavaş-yavaş düzəlir. Seyidi əti dərib qoyub, dəravaz eliyib. Onun ətinin bir az yaxçı yerrərindən gətirib dedi:

– Qəri nənə, qəza bişir, qəza.

Qəri gətirib, doğurdan da bir yeməli qəza bişirdi. O gün yaxçı qəza bişirdi. Dedi, indi də bir çörək bişirəm. Bular məni imtahan eliyə. Gətirib qoydu buların qabağına. İkisi bahəm

yedilər, qız yemirdi. Amma Seyidi yeyib, qız gördü yox, Seyidiyə bir şey olmadı. Qız da yeyir qəzadan. Üçü bahəm yeyiblər qəzanı. Beş gün, on gün, on beş gün bu qəri qalıb burda. Genə Seyidi buyün çıxıb şikara. Qız səsləndi:

– Qəri nənə.

– Bəli.

– Qəri nənə, mən səndən xahiş eliyirəm, sən burdan get.

Qız genə bunu aparıb ötürüb qələnin eşiyinə.

– Qəri nənə, mən səni görəndə ət tökürəm, get.

Qızın ürəyi bilirdi bu qəriynən düz dəyil. Genə axşam Seyidi gələndə baxdı qəri eşikdədi.

– Qəri nənə.

– Bəli.

– Qəri nənə, buyün eşikdə neyniysən?

Dedi:

– Bala, elə darıxdım. Dedim, çıxım bir qələnin eşiyinə də qədəm qoyum da.

Genə Seyidiynən bahəm gəlirlər. Qız gördü bu qəri bizdən əl çəhmiyəcək. Öldürüm biləsin, hər iki dünyada günahkar olam. Öldürmiyim biləsin, bu bizim əlimizə bir iş verəcək. Gəlib içəri. Odu Seyidi şikar vurmamışdı. Əliboş gəlmişdi. Danışırlar, qəri qalıb üsdə. Seyidiynən xanım düşüb aşağıya. Qədəm atırlar, danışırlar, şuxlux eliyirlər. Öz kəbinli xanımıdı. Səsləndi:

– Ağa Seyidi.

– Bəli.

– Ağa Seyidi, qurbanın kəsim, mən səni qırmıyam. Bunu sən gətirmisən, səndən xahişim budur, bunu apar qoy yerinə. Qoy çıxa gedə. Mən bunu görəndə ət tökürəm, narahand oluram.

Səsləndi:

– Xanım, bəlkə bunnan bizi Allah imtahan eliyir. Qoy qalsın burda. Bu əziyyəti nəmənədi, böyük saxtumandı. Niyə

getsin burdan? Heş kəsi yoxdu. Bu, neçə gündi burdadı, adam-madamı olsaydı, gələrdi dalısıycan.

Qız gördü Seyidinin boynuna qoya bilmiyəcax. Dolanırlar. Genə gətiriblər neçə günnən sora:

– Qəri nənə, o qəzanı təndirdə bişir.

Qəri bişirir. Büyünləri gətirir, o bihuşdarıdan daxil eliyir bu qəzanın içinə. Qız yatmışdı. Seyidi bir tikə götürüb qoydu öz ağzına, bir tikə götürüb qoydu qızın ağzına. Birini özünə, birini ona, bu qəzanın yarısı getdi. Qəri də qapının dalından baxır.

– Qəri nənə, gəlib yemiyəcaxsan?

Dedi:

– Siz buyurun, mən gəlirəm.

Onda baxdı, gördü qız mənim başımda elə bil söyüd ağacı var, dam dolanır mənim başıma.

– Ağa Seyidi.

– Bəli.

– Ağa Seyidi, mənim başım gicəllənir, ürəyim bulanır.

Səsləndi:

– Xanım, mən də sənin kimiyəm.

Qəri qaçıb, Seyidi qapının qabağında yıxıldı. Qız da öz həddində yıxıldı. Buların bir vəxti var, qəri gəldi:

– Seyidi bala, Seyidi bala!

Seyidi ayılmadı. Gördü hə, indi mənim işim düzdi. Bir qədim kilimlər vardı. Bu qəri gətirib bu kilimin bir qatın qoydu Seyidin altına. Seyidi dığırlanıb getdi o başa. Gətirib möhkəm bağladı. Dübarə gətirib qızı da möhkəm bağladı. Baxma qəriyə, zirəng idi. Qızı da möhkəm bağlıyır. O qələ böyük qələ idi. Çıxıb nəmənə ətəhdə odun var, çıxardıb qoyub o dağın üsdünə. Olara demişdi ki, paşam sağ olsun, vəzir sağ olsun, nə vaxt gördüz dağın üstündən yaşıl əlov çıxır eşiyə, onda bilin, gəlin haa. Əlov olmasa, gəlməyin. Nə vaxt mən damda od yandırmışam, tonqal yandırmışam, gəlin. Ətrafdan baxırdılar nigahbanlar, di-

dəbanlar. Baxırdılar ki, görək bu qəri bizə nə vaxt əlamət verəcək. Qəri nəmənə oddan, yoncadan var, çıxardıb yığdı üsdə. Gedib o yolu ağaşdardan çəkib, yıxıla-əyilə suyu çıxarıb odlanmışdılar. Damda bir böyük ot yandıra. İçəri girdi kibritdən ala, gördü, bəli, yavaş-yavaş qız isdiyir ayıla. Çıxıb üsdə kibrit çəkib, əlovu verdi. Əlov verəndə didəbanlar baxır ki, odu, yaşıl əlov getdi göyə. İçəriyə gəlib gördü bəli, o behişdardan verib, qızı ayıltdı. O büzüşmüş yanını qoydu qızın sinəsinin üsdünə. Qıçından başmağı çıxardıb, qızın qol-qıçını bağlıyıb, üzündən belə vurur:

– Çəpəl, məni vurdun? İndi bir yol nə qədər mənə qisas vermisən, əvəzin çıxaceyəm.

Qız səsləndi:

– Amandı, gəlmə. Mən elədim, sən eyləmə.

Bunda Seyidi ayıldı:

– Qəri nənə, bu nə işdi? Elə işin buyudu?

Qəri qorxdu, istədi qaça.

– Qəri nənə, onu vurma, gəl məni vur. Onu vurursan elə biləsən, məni vurursan.

Qəri nənə qızı vurmadı. Qız səsləndi:

– Qəri nənə, mənim qolumu aç, bir qatar mənim sözüm var. Diyim, sora bağla.

Dedi:

– Axmax, aşmax mənim ölməyimdi.

Səsləndi:

– Qəri nənə, aş sən də biləsin vurma.

Qəri qəyidib. Qızın kimi biləsin tikanlarla vurmuşdu, yadına düşür. İndi gəlir qızı bura. Görək indi qızı nə cür vuracax? Ayə, qız neyniyəcək?

Ey ağalar, gecə-gündüz yalvarıram qoqana,
Əmanət Allahdadı, çün xarı qoyma gülşana.
Şeyda bülbül güldən ötrü doqquz ay həvalədi,
Xarı gülbəgində görsədir, özün bələr al qana.

Züleyxa Yusifdən ötrü, leylü nahar ağladı,
Bel büküldü, qüdrət getdi, sıdqın həqqə bağladı.
Ey "Purazər", eşqə tajı çox sinələr dağladı,
Ya Rəbb, bu nə xasiyyətdi, şəmə yana pərvanə.

Qəri dağda ot yandırıb. Bir zamanlar nigahbanlar vəzirə xəbər aparıblar:

– Ağa vəzir, qərinin əlamətdəri görsəndi.

Neçə min ləşkər amadə olub. Hətta qazi də onların içində. Həsən paşa da onların içindədir. Hara gəlirlər? Gəlirlər Qəhrəman qələsinə. Qəri üsdən gəlir.

Qız narın-narın danışır. Qollar bağlı, tərpəndirib eliyə bilmir. Bir qolu tərpəndirir, elə qıçıynan dəydi əyaxlarına. Amma əyağa durammır ki, büküblər. Nə qədər zəhmət çəkib buları büküb ona. Seyidi ayılmıyıpdı, ayılmıyanda səsləndi:

– Qəri nənə, vax ver. Evin yıxılmasın, məni öldürməzdər, məni aparallar. Amma o cavan sənə yaxçılıx eliyib, evin yıxılmasın. Bax, onun günahıdı, onu öldürəllər.

Vaxt verdi.

Bir ərzim var, qəri nənə, söylərəm,
Mən elədim, sən eyləmə, sən etmə!
Xənçərinən bağrım başın dələrəm,
Ya şirin canımı sənə qurban eylərəm.
Mən eylədim, ağa, sən eyləmə, sən etmə.

Dübarə bir dəfə də vurdu qızın alnından.

– Danışma.

Qurban olum, vətəninə, elinə,
Bülbül kimi gülşanına, gülünə.
Bir vax olar fürsət keçər əlinə,
Mən elədim, sən eyləmə, sən etmə.

Səsləndi:

– Əlindən gələni beş qaba çək.

Qız narın-narın danışır. Axı, Xudaya, mənim Seyidim mənim sözümü qəbul eləmədi. Amma dübarəsin belə deyir:

Pəri, nəsihət verdim, yarım almadı.
Saralıban güli rəngim solmadı,
Beyman qarı, ixtiyarım qalmadı.
Mən elədim, sən eyləmə, sən etmə.

Pencərənin yanı açıxdı. Sərin gəlirdi. Seyidi gördü yuxuda qulağa bir inləmə səsi, ağlamax səsi gəlir. Gözdərin yavaşca aşdı. Gördü, vay, qəri Pəri xanımı vurur. Səsləndi:

– Qəri nənə.

Qəri çiynindən bir belə dönüb baxdı. Belə dönüb baxanda Seyididən utandı. Qızı buraxıb, daldan çıxdı.

– Qəri nənə, onu vurma. Gəl məni vur. Bə sən niyə onu vurursan? Günahların hammısı məndədi. Səni mən gətirmişəm, mən saxlamışam. Onun sözünə baxmamışam. Bə sən onu niyə vurursan? Öldürsələr də, məni öldürəcəklər. Onu öldürməzdər. Gəl məni vur.

Bunu diyəndə qəri açıldı eşiyə. Qəri açılıb eşiyə, çıxır dam-duvarı dolanır. Amma Seyidi gördü eşikdən at səsi gəlir. Seyidi bildi ki, qəri əlamət, verib qoşun gəlir. Amma vəzir, Həsən paşa bu qoşunun içindədi. Qız səsləndi:

– Seyidi yarım, Seyidi yarım.

Seyidi dinmədi. Üzünü çöyürüb, tay dinmir.

– Seyidi yarım, gör ot yandırır, yandırmaz?

Dedi:

– Xanım, o ot olsa, oduğu yandırammaz.

– Ağayi Seyidi, gör yandırır, ya yandırmır?

Seyidi dinmədi. Nə desin? Günah Seyididədi də, dinmədi. Dinmiyəndə yavaşcana üzünü çöyürüb bu tərəfə.

– Xanım.

– Bəli.

– Xanım, məni bağışlayasan.

Səsləndi:

– Sözün de.

– İcazə versən, sinəmə bir qətər söz gəlib. Bir vəsiyyətim var. Buları sənə diyim, məni öldürə bilərlər, səni öldürməzdər. Onnan sonra mənə halal et.

– Ağa Seyidi, buyur görax.

Ağa Seyidi götürüb belə deyir. Seyidinin burda heş kəsi yoxdu. Fəqət indi o qızdı, ona diyir. Deyir, əvvəldə Allahı unutmayasan, məni yerlərdə qoyuf, o gələnə getmiyəsən.

Sənə deyim, Pərim xanım, o gələnə getmiyəsən.
Sənə deyim, Pəri xanım, Allahı unutmayasan,
Elə məni yerlərdə qoyub, o gələnə getmiyəsən,
Məni aludə qoyub, o gələnə getmiyəsən.

– Daha necə ərz eliyim:

Əgər Allahı unutsan,
Dəstin damənindən üzsən.
Xanım, bax bu gələn paşaya getsən,
Mətləbiyə yetmiyəsən.

– Daha necə?

Yaxşı olar həya məndə,
Xanım, heş əğlim olmadı sərdə.
Bir dəst əğyar olmayan yerdə,
Onu bil ha, matahın satmıyasan.

– Daha necə?

Mən Seyidini dindirəllər,
Xanım, onun gül ürəkdən soldurallar.
Onu bil, məni hətmən öldürəllər,
Bu gələn paşaya getmiyəsən.

– Onnan sora hankinə getsən, ağlasan.

Səsləndi:

– Ağa Seyidi, səndən sora dünya mənə haram olsun. Zindəgannıx mənə haram olsun. Sənnən sora şaddıx eliyəm?

Sənnən sora zindəgannıx eliyəm? Allahdan isdiyirəm, ölsax, elə ikimiz bahəm ölax.

Bular danışırlar. Seyidi vəsiyyətdərini deyir. Qoşun xırıltıynan tökülür qələyə. Qəri çıxıb eşiyə. Vəzir gəlib, Həsən paşa gəlib:

– Salam, qəri nənə.

– Əleykəmə salam.

– Qəri nənə, neynəmisən? Nə haldadılar?

Dedi:

– Üsd otaxdadılar. İkisinə də beyişdarı vermişəm. Nigaran qalma ha.

Amma bu qəri qapını çevirif Həsən paşaya nişan verir. Səsləndi:

– Paşam sağ olsun, bax gör nə sifətdə çıxartmışam.

Qəri nişan verir. Dedi:

– Qəri, olsun.

– Burdan yetişdirriz şəhrə, inşallah. Səni yadımdan çıxarmam, qoymaram belə qalasan.

Sarbanlardan dört-beş nəfər yığıb. Dedi:

– Gedin o iranlıyı gətirin aşağıya.

– İranlını?

– Kim ora çıxa bilər? Hələ bağlıyıblar, çıxa bilmir.

Qəri səsləndi:

– Balalar, niyə qorxursuz? Gəl mənnən gedax.

Qəri düşüb qabağa. Keçib qapını aşdı. Açanda:

– Gedin balalar, odu götürün gəlin.

Əvvəldə qızı götürdülər, gəldilər. Qız qabaxda idi. Onnan sora Seyidini gətirdilər. Buların qolarına dəsbət vurublar. Qapının dəstbətdərini vurublar. İkisinin də qışdarına bıxov vurublar. Götürüb apardılar. Bir quyu var, quyunun başına.

Həsən paşa səsləndi:

– Vəzir.

– Bəli.

– Mən baxım görüm o iranlı nə adamdı, nə tovdandı? Bizim bir belə camaatımızı öldürüb. Vəzirin iki oğlunu öldürüb, pəhləvanlarımı öldürüb.

Həsən paşa gəlib qıza baxdı, Seyidiyə baxdı.

– Vəzir.

– Bəli.

– Vəzir, Allah tufağın dağıtsın, evin yıxılmasın. Bə deyirdin bir iranlı gəlib. Diyərdin qızın öz dilavəri gəlib də. Allahın vəxti olanda bulara sima verib. İkisi bir almadı. Görürsən? Bir üzü odu, bir üzü budu.

Vəzir fikrə durdu:

– Paşam sağ olsun, neyniyax? Bulara göz yummuyax?

Vəzir səsləndi:

– Görürsüz nə deyir?

Cəmaət durub. Vəzir üzün çöyürüb dedi:

– Görürsən, paşa nə diyir?

– Nə diyir?

– Bir belə bizim adammızı qırdılar. Bir belə mənim iki oğlumu öldürüb. İndi isdiyir bir iranlını ötürə. Diyəsiz onu öldürmə.

Paşa səsləndi:

– Vəzir, nə diyirsən, onu elə.

Amma qızınan da Seyidi dedi ki, bunu öldürmə. Bu sözü eşitdi paşadan. Vəzirin əlində şəmşir var idi. Necə vurub, Seyidinin başı top kimi getdi. Qız belə baxanda gördü Seyidi çabalır. Qız qəşş eliyir yıxılır. Qızı qovluyurlar, genə yıxılır. Qovluyurlar, genə yıxılır. Üş dəfə mindiriblər ata, qız yıxılıbdı. Getmədi. Qız gördü daha aparacaxlar. Səsləndi:

– Paşam sağ olsun, icazə verirsiz mənə?

– Xanım, nəmənədi?

Dedi:

– Mən heş olmasa iki ay, üş ay bu adamnan olmuşam. Duz-çörək yemişəm. Onun bu qürbətdə heş kəsi yoxdu. Dədə-nənəsi yoxdu, famili-bacısı yoxdu, qohumu yoxdu. Burda onun qohumu mənəm. İcazə versən, o cavanı mən bir oxşu-yum, ağlıyım, sora məni də öldürün.

Belə diyir, mən oxuyuram:

Dağlar al geyinsin, dənizlər qərə.
İlahi, mən ağlıyım bu cavana "vay" deyim,
İnnən belə qəm-qüssələr bağlanar, başımı dələr,
Gün çıxannan, gün batana yan deyim.

Paşanın da gözdəri doldu.

Bir ərzim var sənə, ey divanları,
(Üzünü tutub qəziyə deyir ha)
Əridi ürəyimin qalmadı qanı.
Paşam sağ olsun, öldürdüz, quyluyun, dəfn edin barı,
Mən ağlıyım, bu cavana vay deyim.

Amma paşanın bu yadında qalıb ki, bunu quyuya atıb.

Qurban ollam, vətəninə, elinə,
Bülbül kimi gülşanına, gülünə.
O qanlı kəkülünü, başını verin əlimə,
Mən ağlıyım, bu cavana vay deyim.

Pəhləvannarın biri ordaydı. O nizənin qırağın ilişdirib bur-da Seyidinin başın belə atdı qızın qucağına. Qız götürüb başı bas-dı bağrına. O başı ziyarat eliyir, o başı öpey, başı alır qucağına. Xudaya, burda bunun heş kəsi yoxdu. Narahanddı. Belə deyir:

Pəri xanım sıdqın Həqqə bağlasın,
Bağrın başın çallı-çarpaz bağlasın.
İnnən belə bir yol yar-yar deyib ağlasın,
Seyidi kimi qəhrəmana vay deyim.

Qızın qollarını bağladılar. Ama paşanın yadında qalmış-dı, dedi:

– Bunu dəfn edin. Öldürdüz, quyuya atdız, dəfn edin barı.

Götürdülər saldılar o quyuya. O quyunun dərinnığı çoxudu, dübarə başı atdı quyuya:

Baxçalar gətirib tamam bar olsa,
Dostun baxçasında dolu nar olsa.
Bir iyidə qəni mövlam yar olsa,
Onu bilin, dünyalar yığışsa, dağıda bilməz.

Qızı apardılar. Seyidi qaldı Qəhrəman qələsində. Qələni taladılar. Amma Həsən paşa qoymadı bu qələni qırsınlar.

Dedi:

– Yıxmayın, dağıtmayın.

Ağaşdar vəsaillər qalıb, amma nəmənə cəvahirət vardı hammısın yığıb yüklədilər at-dəvəyə, apardılar. Qızı ələiddə aparıblar. Ötürüblər dayə, kənizin içində o saxtumanlarda qalır. Neçə günnən sora Həsən paşa bu qızı istədi. Bir həftədən sonra, ya beş günnən sora, işim yoxdu.

– Salam.

– Əleykəmə salam.

Əyləşib.

– Xanım.

– Bəli.

– Deməli, əvvəldə təxsir sənin özünküdü. Sənin atan dünyadan getmişdi. Mən burda sənə ataydım. Oğlannan xoşin gəlirdi? İrannan gəlmişdi? Yapışardın əlinnən, gələrdin mənim yanıma. Burda elə toyuuzu eliyərdilər. Kəbin kəsdirərdilər. Onnan sora gizdin iş görübsən. Üçüncü indi öldü getdi. Buna söz yoxdu. Özün də bilirsən mənim də göylüm yoxdu onu öldürəm. Amma gördü vəzir olmuyacax. Narahandçılıx olacax. İrannı öldü getdi, təzədən dirilib gəlib səni almıyacax. Sən də ki, belə qalmıyassan, ərə gedəssən. Nə iş qaldırır sən gedəsən, mən sənin kəbini kəsdirim öz adıma. Çün sən dərbar uşağı dərbardan olübsən.

Qız gördü Həsən paşanın bu danışığı yaxçı oldu. Çox qəşəng danışdı. Səsləndi:

– Paşam sağ olsun, o iranlıdı. Onnan iki ay, üş ay bahəm olmuşam. Duz-çörək yemişəm. Özün bilirsən ki, xanım xislatı ya dövr eliyə, iddə saxlıya. Mən dörd ay istəmirəm. Sənnən mən qırx gün vəxt isdiyirəm. Mənə qırx gün icazə ver. O cavana mən yas saxlıyım, qırx günnən sora mən sənin xidmətindeyəm. Gəlib mənim kəbinimi kəs.

– Çox qəşəng.

Dayə çağırıb:

– Bunu yaxçı saxluyun. Əlhəiddə saxluyun.

Qız neylədi? Sübhdən axşama qədər qərənin içində. Bu qərənin göylündən nə deyir, gülür. Qız-gəlinlər oxuyur, oynuyur. Deyirlər, gülürlər, amma bu nədi gülsün, nədi bu danışsın. Axşam olanda kənizi, dayələri başından dağıdır. Əlhəiddə otaxları süpürüblər. Aşqal-maşqalın yığıblar ora. Yerdə toz-torpax var daşın altında. Dəstəmazın alıb, gəlir iki rikət namaz qılır. Qız bu sözdəri diyir: "Ey on səkkiz min aləmi xəlq edən Allah, ey yerin göyün sahıbı, özüyüz onu mənə buta veribsiz, məni ona. Özüyüz bizi bir-birimizə nişan vermisiz. Ya məni öldür, ya de sahabı var. Ya sahabı dirilt, yetir mənə. Hansı olsa, mənə yükdü. Ya məni öldürün, yetirin məni ona, ya da onu diriltin, yetirin mənə." Qızın neçə gündü dualarıdı. Ayrı duası yoxdu. Gecələr olanda xörək-zad yemir, üzün qoyur torpağa, gözlərindən yaş tökülür, elə bil baharın bulutudu.

Dustlar, sənə diyim Seyididən. Hər iki dünyanın zahiri, hər iki dünyanın ağası, o yollara salan gəlib dayandı quyunun ağzında. Əlin salıb cənazəni çıxartdı qoydu eşiyə. Baş götürüb qoydu eşiyə. Dəstamaz alıb, namaz qılır. Gətirib iç-için başın qoydu bədənin üsdünə. Əbasın çəhdi üsdünə. İki rikət hacət namazı qıldı: "Pərvərdigara, bu cavannar nakamdılar, dəstur ver, buların ruhları qəyitsin bədəninə. Seyidinin ruhu qəyitsin bədəninə". Namaz qılırdı. O zaman namaz qılır, Allaha yalvarır, Seyidi asqırıb qalxdı ayağa. Seyidinin 38 gün,

37 gün nəzərində elə bil yarım saat, bir saat, ya iki gün qalıb. Belə baxdı, gördü güllər pozulub, sular kəsilib, ağaşdar quruyub. Belə baxanda gördü hədəf moğul aşıx üsdündədi. Belə baxdı görür qələ, yerində damlar. Gül, gülab, od olacağdı elə dəyil. Belə baxanda gördü həzrəti Movöla başının üsdündədi.

– Ağacan, qurbanın kəsim, səni buraxmam.

Dedi:

– Oğlan, mən kiməm?

Dedi:

– O gözdər kor olsun, pişivasını tanımıya.

– Ağa, sən kimsən?

– Ərz eliyim.

Ağa, əzəl başdan bismillahı,
Dilim mövla, mövla diyər.
İkinci Rəsulullahı,
Dilim mövla, mövla diyər.

Ərz eliyim:

Səni bir mehrac yolunda,
Yatmışdın əslan donunda.
Zülfiqar durmaz qınında,
Gəzər mövla, mövla diyər.

Ölülər dirilər? Dirilməz. Həzrəti mövla zamanı o yetmiş şühədanı gördü Kərbəla meydanında. Bir dənə də qərinin oğlunu yolladılar, getdi. Qəri səsləndi:

– Canım sənə fəda olsun. Mən oğlumu diri verirəm sənə, amma diri isdiyirəm haa.

Dedi:

– Olsun, qəri. Sən oğlunu diri yolla, mənnən də diri təhvil al.

Şahıslar getdilər cəngə. Cəngdə bu qərinin oğlu öldü. Xəbər getdi qəriyə.

– Qəri, oğlun öldü.

Dedi:

– Mənim oğlum ölməz.
Dedi:
– Canım, sənin oğlun ölüb.
Dedi:
– Canım, mənim oğlum ölməz.
– Mən oğlumu diri vermişəm, diri isdiyirəm.
Qəri gəldi mövlanin yanına.
– Salam.
– Əleykəmə salam. Nə xəbər?
– Canım sənə qurban olsun. Mən oğlumu sənə diri vermişdim.
Dedi:
– Bəli.
– İndi mənim oğlum ölüb.
Bəli, qovl vermişdim bu qərinin oğlunu diri təhvil verəcəyəm. Gəlib görüb oğlu şəhid olub. O da Allahdan isdiyib, qərinin oğlunun ruhu qəyitdi bədəninə. Soruşdular:
– Hardan?
Dedi:
– Üçüncü ərşidəydim. Şəhiddərnən bahəm göylərdə gedirdim.
– Oraya necə gəldin?
– Sən də sıdkıyın həqqə bağlasan, meyli-məhəbbətin Kərbala meydanında olsa, ürəyin pak olsa, sən də dilniləsi.

Sən də merac yolunda
Yatmışdın əslan donunda,
Zülfiqar durmaz qınında,
Gəda mövla, mövla diyər.

Sənsən damadı-peyğəmbər,
Üzündən yağır müşgi-ənbər.
Atın Düldül, qulun Qənbər,
Dilim mövla, mövla diyər.

Oxuram sureyi-Yasin,
Silindi göylümün pası.
Fəqir Seyidin öz anası,
Ey çağırar, mövlam diyər.

Səsləndi:

– Oğul, bax mənə bir. Vallah, buların belə tutuf.

Seyidi diqqətinən baxır. Kərbala meydanını çəhdi Seyidin gözünün qabağından. Gördü yetmiş iki dənə şühəda, əllərində ağ kəfəni durur orda.

– Oğul, görürsən?

– Bəli.

Dedi:

– Odur aləmi-dünyanın bafası[94] olmadı. Oğul, niyə belə axı inad eliyirsən? Sənin ömrün daha qəyitdi. Get, düz yol get. Əlinnən gəlsə, xəlqi düz yola hidayət elə. Gedəsən Şama, məşuqən də ordadı. Qafil olmasa getsən, inşallah, Allahın ətəyindən tutsan, boş qəyitməssən.

Səsləndi:

– Ağa, mən səni burxmaram.

Dedi:

– Oğul, olar kimdilər?

Seyidi belə baxanda o dəyqə çöyrüldü, heş kəs yoxdu. Hanı? Döndü baxdı, yoxdu. Bağa qədəm atır, dolanır, gəzir. Gördü canım, bir saxtumana çıxdı, qələyə çıxdı. Orda təxtəkümə düşən yerə baxdı. O qədər ki, yemişdilər, o qəza ki qalmışdı məcmeyidə ona baxırdı. Səsləndi:

– Xudaya, bu da mənim alnıma belə yazılmışdı.

Düşüb aşağa. Dünyanın gəl-gedinə, fələyin bu çərxinə götürüb belə diyir, mən oxuyum ellər sağlığına:

İsdiyirəm eybin üzüyə diyəm,
Heş kim səynən başa varmadı, dünya!

---

[94] vəfası

Əzəl gələnlərə hörmət eylədin,
Sonra gələnləri neylədin, dünya?

Baxmadın qocaya, baxmadın pirə,
Həzrəti Musanı qovzadın Tura.
Babayi-əmir qaça səndən qutula,
Onun qovub yorub tutmadın, dünya!

Neynədin Rustəmi, neynədin xanı,
Devlərə hökm edən qəhrəman hanı?
Keykavus padişahı Rüstəm Salsalı,
Oları od eliyib udmadın, dünya?

Fəqir Seyidinin qorxar səndən ürəyi,
Xəf yanında qədim olsun diləyi.
Həsən, Hüseyin ərşü-kürşün, ülşün dirəyi,
Oları Kərbəlada şəhid etmədin, dünya?

Həmin dünyasan da. Seyidinin sözü qurtardı. Gəlib əyləşdi çərəfin başında. Nişannısı Pəri xanım gəzən yerlər dolandı gözünün qabağına. Xudaya, ikimiz bahəm dolanardıx. O əvvəl gələn günlər yadına düşür. Eynən nahar kimin məzula dolanır. Xudaya, mən nə cür eliyim indi? Orda Seyidini təxtin üsdündə bir bala təxtdən yuxarı qaldırır. İstilahattıx eliyib ayırır. Axı məni bu yollara salan var. Demədilər, oğul, get, inşallah, bekar qayıtmassan? Mən nə vaxt gedəcəyəm? Dübarə isdiyir qələdən çıxa eşiyə. Genə qələni dolanıb. Gedim, ya getmiyim? Burda qalmağın da faydası yoxdu. Xudaya, gedim Şama, qəyidim gedim İrana? İndi görax Şama gedəcək? Gedir nişannısının dalıycan.

Yana-yana çaldın "Yanıx Kərəmi",
Yanmış ürəyimə saldın xal, aşıx.
Elə bildim indi köçüb Ziyadxan,
Ağrın alım, onu bir də çal, aşıx.

Bu nalənin ahı nədir, ünü nə?
Lələ gəldi gözlərimin önünə.
Özüm düşdüm Xan Kərəmin gününə,
Əsli saldı gözlərimdən yol, aşıx.[95]

Dözüb yarın cəfasına.
Heç uymuyur vəfasına,
Yanıx Kərəm havasına,
Oynuyan da yorularmı?[96]

Ey ağalar, gecə-gündüz yalvarıram qoqana,
Əmanət Allahdan ötür xarı qoyma gülşana.
Şeyda bülbül güldən ötrün doqquz ay havalədi,
Xarı gülbəgində görsə, özün bələr al qana.

Abi-həyat qismət deyil, yetişməz İskəndərə,
Xızri onnan sirab oldu, badəni çəhdi sərə.
Qanbağar aşiqin göylü, məşuqu üz döndərə,
Tapılmaz dərdinə çarə, həq də getsə loğmana.

Kipriklərin nəqşi olmuş bəlayə gəlsin canədi,
Ey bimürvət, at oxların bu sinəm nişanədi.
Leyli, Məcnun, Fərhad, Şirin deməyin əfsanədi.
Aşıq odur yar yolunda candan geçər mərdanə.

Züleyxa Yusifdən ötrü, leylü nahar ağladı,
Bel büküldü, qüdrət getdi, sıdqın həqqə bağladı.
Ey "Purazər", eşqə tajı çox sinələr dağladı,
Ya Rəbb, bu nə xasiyyətdi, şəmə yana pərvanə.

Gəl sənə söylüyüm ərzi-halımı,
Qəmdən qutulmamış çatdım hicrana,

[95] Bu şeir müasir şair Bəhmən Vətənoğlundandır.
[96] Bu misra da müasir bir şairin şeirindəndir.

Zalım fələk yoldu pəri balımı,
Xar qucub, sarmaşdı gül reyhanına.

Dedim xarə, meylin salma, qəzəl gül,
Ruzi şəb fəğan edir beçarə bülbül.
Qəm yemə, qəm çəkmə, ey qəmli könül,
Bir gün güzar düşər nərgizistana.

"Purazər"[97] ömrün xub getdi heçə,
Kimi görübsən alı nurundan seçə?
Hansı aşiqlərdi canından keçə?
Şəmin atəşində yandı pərvanə.
*(Bu havaya "Təbriz təcnisi" diyəllər)*

Seyidi belə baxanda, çöyrüldü heş kəs yoxdu. Bildi ki, məni yola salannar bulardı. Seyidi bir qələni dolandı. Burdan qəyidim gedim Təbrizə. Nişanlım müntəzirdi. Bilmirəm ki, bu nişanlısını dedi, ya əmqızını dedi. Ya Pəri xanımdı, ya Maral xanımdı. Bilmirəm hansını dedi. Amma belə olmaz. Çün bu tərəfinən nişan verdi. Seyidi yavaş-yavaş gəldi Şama tərəf. Piyadadır. Gəlib vəxtində yetişib Şama. Cəmaət gəl-ged eliyir. Seyidi bir qüssəynən gedib çıxdı. Hər şəhərin, hər kəndin böyük kəddərin böyük vəsəti olar. O vəsətə yığışardılar əğsəqqəllərdən, cavanlardan. Ya da bir vəsail satmağa gələndə kəndin bu vəsətinə yığışallar. Şəhərin də mərkəzi, meydanı, madarı var. Seyidi belə baxanda gördü duvarda eylaniyyə var. Belə yazıblar: "Hər kəs gəlib Rəzmi atı, Səmənd atı yəhərriyə, Həsən paşaya verə. Həsən paşa dünya varından biləsin qəni eliyəcək. Neçə baytarın da qabağın götürüb". Seyidi buları oxdu. O zaman tasıman gəldi buna bir dürtmə vurdu. Oğlan, get canınnan doymusan? Seyidi burdan geşti, o biri duvara baxdı. Gördü həmən eylaniyyə yazılıdı. Bir şəhərdə, bir kəddə, bir məntəqədə bir yerə bir şahıl

[97] Purazər urmiyəli müasir şairdir.

olmazlar ki. Hər duvara birin qoyarlar. Seyidi oxurdu. O birisi bəndin diyəndə, o birisində o əvvəl diyən dolandı baxdı. Dedi:

– Oğul, sən elə canınnan doymusan?

Dedi:

– Canımdan bax doymamışam da. Atın bəşərlə dustluğu var. Məyər bu at nədi ki, başından qapağın götürüb. Olar əsli-baytar dəyillər. Məni aparsaz, mən o atı yəhərliyib verrəm Həsən paşaya.

Yapışıb bunun əlinnən, gətiriblər Həsən paşanın xidmətinə.

– Salam.

– Əleykəmə salam.

– Buyuruz.

Səsləndi:

– Paşam sağ olsun, bu baytar diyir, mən o atı çıxardıb eşiyə yəhərriyib verrəm paşaya.

Həsən paşa buna bir belə baxdı. Ürəyində diyir, bu cavanı dünya malı tovluyub. Dedi:

– Oğul, bilirəm dünya malı səni tovluyub. Amma sənə mən qovl verirəm. Burdan qəyit get. Kəcavənin üzünü açıx qoyuram. Nə qədər pul lazımdır, aparın. Sən deyirsən bu səni öldürsün?

Səsləndi:

– Paşam sağ olsun, bu atı mən tanıyıram. Görmüşəm.

Dedi:

– Oğul, özün biləsin.

Dedi:

– Qovl verirəm, atı çıxardır, yəhərriyir, sən minəsən.

Dedi:

– Aparın, o istədiyin nişan verin.

O nigahbanlardan gətirib Seyidi xeylək qalmışdı, gördü cəmaət bu gedir istəblə. Seyidi səsləndi:

– Ağalar, bir üz gəlin mənnən bu istəblin qapısına.

Dedi:

– Cavan, o qapı istəblinin qapısıdı.
Dedi:
– Bu bizim işimiz dəyil.
– Niyə?
Dedi:
– Səni dünya malı alladıf, bizim işimiz dəyil. Biz isdirix qalax dünyada. Bir az bəndəlix eliyax. Bizə pul ehtiyacımız dəyil.
Səsləndi:
– Balalar, bu atın üslubu var.
Seyidi qapını açıb içəri girəndə at kişnədi. Kişniyəndə heyif qapı ilişdirdi. Vəzir görür bu qəribdi. Bu atdı dəyildi. İkinci qapını aşdı. Yenə bu at qalxdı pəncəyə. Üçüncü qapını aşdı, içəri girəndə at ciddədi, qışdarın qovdu Seyidinin təpəsinə, tapancaya qalxıb. Seyidi bir nərə çəhdi. Nərə çəkəndə bunun səsini eşitdi. Eşidəndə də qışdarı belə göydə saxladı. Gördü bu sırdı. Seyidi geşdi bunun üzün, qulaxların, yanların, boynun tumarrıyıf. Seyidi ağladı. Seyidi ağlıyıf üzün tumarlıyanda gördü at da ağladı. Gözdərindən yaş tökür, elə bil baharın buluduđu. Belə əngin qoyub Seyidinin çiyninə. At ağlıyır, Seyidi ağlıyır. Seyidi burda fikir eliyir, Xudaya, mən burda ağlıram, at da burda ağlır. O qədər ağladı. Götürüb belə diyir:

İlahi, qürbət eldə nələr gəldi başıma,
Mən ağlaram, Səmənd ağlar, yad ağlar.
Bilməm saqi nələr qatdı aşıma,
Mən ağlaram, Səmənd ağlar, yad ağlar.

Görəsən Pəri xanım saxtumanların harasındadı? Seyidi dübarəsin belə diyir:

İlahi, yaxçı olar gözəllərin gülməsi,
Siyah zülflərin dar gərdanda hörməsi.
Sən ağlama, gedər gözünün qərəsi,
Mən ağlaram, Səmənd ağlar, yad ağlar.

– Daha necə?

Zəbun nərgiz gördüz mənə neylədi?
Kəmtər alıb bağrım başım teylədi.
Bir gəlini mənə cəmdağ eylədi,
Seyidi ağlar, Səmənd ağlar, yad ağlar.

Atı qəşəng qızışıb, qapını açıb çıxartdı eşiyə. At eşiyə çıxanda camaat beş yüz metir, iki yüz metir o yanda, dalda qaldı. Atı görəndə camaat qoydu qaşmağa. Səsləndi:

– Ağalar, niyə qaçırsız? Atın bəşərinən dustluğu var.

Atın üzünü tumarrıyir. Camaat qaçır. Bax birin əlin çəkir götürür, at dinmir. Camaat bir az qəyitdi. Xəbər getdi Həsən paşaya. Xəbər getdi vəzirə. Fərmandağanın hammısı tökülüblər. Gəlib meydanda əyləşiblər. Bilirsiz meydanda əyləşəndə əvvəldə şəxsiyyətdər əyləşərlər, onnan bağlı silsileyi-mənafiler əyləşərlər.

– Cavan.

– Bəli.

– Bu atı yəhərrə.

Dedi:

– Qurban, bunun gərək öz yəhəri, əsbabı gələ.

Yolladılar Səmənd atın öz yəhərsin bağladılar. Seyidi atı yəhərriyib. Dedi:

– Qurban, babat xasiyətdərindən var?

– Xasiyət nəmənədi?

Dedi:

– Babat göydən durna əl elər.

– Mən ölüm?

– Başın üçün.

– Əmdisin görax.

Dedi:

– O atı kimmindi?

Dedi:

– Əvvəl Rəzmi şah, sonra bir dənə pəhləvan gəlmşdi iranlı, o minərdi.

Dedi:

– Onun libasdarı qalır?

Dedi:

– Qalır.

Dedi:

– Onun libasdarın gətirin.

O libasdarı gətirdilər. Seyidi libasdarı geydi, şəmşiri bağlıyıb belinə. Vəzir belə baxdı:

– Paşam sağ olsun, baxsan, o iranlı cavanı öldürməsəydin, şəkk elərdi. Bax, bax. Elə bil o pəhləvanın başını qoyubsan bu bədənin üsdünə. Bəşər bəşərə belə bənzər?

Səsləndi:

– Vəzir, mən nə diyirəm. Vallah, bu cavanı harda görmüşəm. Bəs elə o cavandı. Vəzir, düz diyirsən bətər bənziyir.

– Paşam sağ olsun, özüm öldürməsəydim, quyuya atmasaydım, hətta gördün, başın Pəri xanım götdü, basdı bağrına ağladı. Bu sözdəri dedi, ağlar al geyinsin, dənizlər qərə.

Belə baxanda Seyidi atın üsdündədi. Həva səmtindən bir bölük durna gəlir.

– Baytal.

– Bəli.

– Ol durnalar gəlir, əmdirsin görüm.

– Paşam sağ olsun, belə əmdirməz.

Dedi:

– Bə nə cürə əmdirər?

Dedi:

– Bunun duası var.

Dedi:

– Sifdə çox qorxursan. Bir bu meydanı duaya çağırırsan. De görüm, onun duası nədi?

Götürüb Seyidi belə diyir:

Bir ərzim var sənə, qoç Həsən paşa,
Səməndin yiyəsi gəlsə, neylərsən?
Qoy hökmün işləsin indi dağınan daşa,
Səməndin yiyəsi gəlsə, neylərsən?

Dedi:

– Cavan, bir şey denən. Elə yerə getmiyib ki gələ.

Fələk qürbət elə atdı daşımı,
Ümmana döndərdi gözüm yaşını.
Zalım vəzir, necə kəsdin başını?
Səməndin yiyəsi gəlsə, neylərsən?

Dedi:

– Bayax dedim, cavan, o elə yerə getmiyib gələ. Əl-ayax elədi, rədd oldu getdi.

Vəzir burda diqqətinən tamaşa elədi, baxdı. Belə bədəni üşüdi. Vəzir isdiyirdi getsin, amma Seyidi dedi, əyləş yerə. Həsən paşa getsəydi, Seyidi ona dinməzdi. Həsən paşa Seyidiyə yaxçılıx eləmişdi. Vəzir və Həsən paşa bir yerdə əyləşmişdilər. Qazi da buların yanında əyləşmişdi. Qazi həmən idi, buların kəbinin kəsmişdi. Qazi isdiyir əkilsin, amma əkilə bilmir. Amma Seyidi belə deyir:

Həmin Seyidi aşkar etsin sırrını,

(Bunda qazi bir hazırlandı. Gördü bu Seyidi özüdü. Bayaxdan diyirdi)

Mənsur kimi soydurdular dərini.
Zalım vəzir, necə gördün dilimi,
Səməndin yiyəsi gəlsə, neylərsən?

Vəzir əyağa duranda, əl getdi şəmşirə. Necə vəzirin kəfəsindən qoyub düz böyründən çəhdi. Həsən paşanın baş bədənindən ayrıldı. Vəzirin baş bədənindən ayrıldı. Hansı fərmanda pəhləvan gəlir, burda elə bir qılış vurdu, baş, bilək, ələtə, səbətə, hammısı qatışdı bir-birinə. Seyidinin qolun gör-

max olmur. O qədər qoşundan qızıb. Qazi burdan əkildi, qaşdı. Qaşdı Pəri xanımın yanına:

– Ay Pəri xanım.

– Bəli.

Dedi:

– Evin yıxılmasın, kəməndi salla aşağıya.

– Niyə?

– Qapını aşmağa vəxt yoxdu. Kəməndi sal aşağıya.

Kəməndi salır aşağıya. Dedi:

– Seyidi gəlir. Elə ki, başdıyıb qırmağa, bir nəfər qalmıyacax. Əvvəldə sən də məni tanıma. Sənnən məni də öldürər.

Kəməndi atdı aşağıya. Seyidi saldı bu çiyinlərin üsdünə. Çəhdi ikinci kanarıya. Ta qalxanda burda kəməndi rədd oldu getdi, qəyitdi. Üsdə çıxanda qız baxdı gördü, bu qazidi. Dedi:

– Evin yıxılmasın qazi, bə sən kəməndi niyə qolların alladın? Üsdünə saldın?

Səsləndi:

– Pəşimançılıx iş görməz.

– Düzdü Seyidi gəlib?

Fikirdəydi. Amma Seyidi bulardan çox qırdı. Qıranda ağlıyıb əğsəqqəl əllərinə Quran götürdü:

– Bu cəmaəti sən yaratmamısan, sən öldürürsən. Bu cəmaətin günahı nəmənədi? Beş nəfər zülum verir. Bizim günahımız nəmənədi? Olar sənə zülum verib getdilər. Bizim uşaxlarımıza rəhminiz gəlsin.

Seyidi şəmşiri qoydu yerinə. Qələnin yolunu soruşub getdi qızın yanına. Saxtumanların birinə. O zaman böyük başdarın saxtumanları şəhərin vəsətdərində qəlasədi. Qız gördü Seyidi gəlir. Dedi:

– Seyidi yarım.

– Can nazənin, Seyidi qurbanın kəssin.

Seyidi belə duruf. Gördü Seyidinin üz-başı, hər yanı qandı. Götürüb qız belə diyir, mən oxuyum genə eşidən ellərin sağlığına:

Sənə diyim, Seyidi yarım,
Gözəl gördün, kef elədin biləyim.
Bir ayrılıx, bir də ölüm,
Olma Seyidi, olma Seyidi.

Seyidim səməndi çatdır,
Sınıx göylüləri yapdır.
Əl-ayaq elə o beiman qarını tapdır,
Ağam Seyidi, paşam Seyidi.

Pəri diyər, ağlamışam,
Canı-ciyər dağlamışam.
Əmanətdərin saxlamışam,
Ağam Seyidi, paşam Seyidi.

Seyidi o qələnin qapısından qəyitdi. Qız da özünü ələ aldı. Qız Seyididən qabax pəhləvan dəyildi. Qız da əl-ayaq elədi. Cəng libası geydi əyninə. O qədər çəhmədi, gəldi Seyidinin yanına:

– Hər kəs bu şəhərdə, bu qəri bu nəmdə, bu nişanda tapsa, nə qədər ənam desə, verəcəyəm.

Neçə nəfərə düşüb, neçə gündü bunu axtarırlar. Bir nəfər keçəl getdi bu qərinin ev-eşiyini axtarır. Dünyada axtardı, on nəfər baxır. Qoy mən də baxım da. Hər yeri axtardı. Belə baxanda gördü orda bir toyux hini var. O hinə baxanda gördü qəri girib o hinə. Dedi:

– Amandı, tutma məni. Nə disən verəciyəm.

– Gedək eşiyə. O cavana rəhm eləmədin. Niyə o cavanın evini yıxdın?

Pəri uzadıb yapışıb o gij qəbərlərini çıxartdı gətirdi çölə. Yapışıb elə sürüyə-sürüyə atdı Seyidinin qışdarının altına. Ona qəşəng ənam verdilər. O şəhrin yığdılar. Nə qədər odunu

varıydı böyük tonqal qaladılar. Elə neçə hava odun yığdılar. Qədim manzaratdar varıydı. Gətirdi bu qərini qoydu manzarata. Manzaratı o qədər çəhdilər bu yannan ki, tir oldu. Şəmşirnən vurdu, ip getdi. Manzarat göydən əlli metir göydən bir çubux otur vəsətinə. Düşəndə elə patdadı, elə patdadı, mən diyim bəlkə də namincə patdadı orda. Yığışıb o şəhrin əğsəqqəllərindən, böyüklərindən o şəhrə bir paşa verdilər. Nəmənə alacağıydı aldı. Neçə dəvə yükü qızıl, al qumaş parlandı. İndi dəvələr yüklədib, nə qoşma adı getdilər biləsinə.

Dedilər:

– Cavan, get. Allah sənə yar olsun. Bizi buların əlindən qurtardın.

Şəhrin də cəmaəti bulardan narazıdı. Çox adam narazıçılıx edir. Bular bahəm gəlirlər. Səsləndi:

– Xanım.

– Bəli.

– Mən diyirəm elə qələyə dönməyək. Burdan elə gedək.

Səsləndi:

– Ağa Seyidi, sən bilirsən. Amma mənim orda xatirələrim var. Oranı mən bir görmək isdiyirəm, gəzim. Ordan gedərıx.

Seyidinin göylü yoxudu o qələyə getsin. Niyə? Qələ əvvəlki qələ dəyildi. Qələ yıxılıb dağılmışdı. Gül-gülah solmuşdu. Qap-baca yıxılmışdı. Elə bil qələ qalmamışdı. Bir nəfər şəhrə əmr eliyəndə, şəhəri talırlar. O zaman qələni talamışdılar. Özü də basib vəzir ikinci qələ olmuşdu. Həsən paşa gəlib buları görəndə narahand oldu. Gələndə gördü oğlannan qızı Allah cüt xəlq eliyib. İkisi bir-birindən gözəldilər. İnsaf dəyil mən buları bir-birindən ayıram. Həsən paşa bulara yaxçılıx elədi, amma vəzir qoymadı. Dustlar, qan da yerdə qalmaz. Seyidinin göylü yoxudu qız gəlsin qələyə. Amma day utandı, diyəmmədi xanım, qələyə getmə. Ordan bahəm gəlirlər. Dağların arasında otdular, əyləşdilər. Qızın halı özündə deyil. Seyidiynən danışır, fikri ayrı

yerdədi. Qız qəzov-qədər danışır. Allah, mən niyə belə oldum? Atam öldü, Həsən paşa bir belə zülm elədi. Niyə, mən neynəmişdim ki? Neynəmişdim mən dünyada belə? Qız dərdini çəkib. Seyidi baxdı qız danışır mənnən, amma fikri ayrı yerdədi. Gəlirlər yavaş-yavaş Qəhrəman qələsinə. Qəhrəman qələsinə gələndə, içəri girəndə qız baxdı boy, canım, qələ əvvəlki qələ dəyil. Qız atı minib bir dört dövrə dolandı. Baxdı, bəli, burda mənim yerim yoxdu. Dayə, kəniz, saxtuman o cür olur. Səsləndi:

– Ağa Seyidi.

– Bəli.

– İcazə verirsən, qalax buları alax eliyək gedək?

Səsləndi:

– Xanım, nəyə qalacayıq? Evin yıxılmasın, bu qalmalı yer dəyil. O zaman qalırdıx. Mən sənə görə gəlmişdim bura. İndi evimiz var, yurdumuz var. Burda sən də təksən, mən də təkəm. Burda niyə qalax? İcazə versən, mən diyirəm gedax bizim vətənə.

Səsləndi:

– Ağa Seyidi, mən dimirəm getmiyax. Mən sənin xanımınam. Yadında olsun, sən mənim sözümə baxmadın, mən dedim, bu qərini gətirmə. Özün qoyub çıxdın getdin. İndi gördün belə oldu. Başımıza nə gətdi, bu qəri gətdi. İndi amma mən sənin xanımınam. Desən, burda qalax, burda qalax, desən, gedax Təbrizə, öz məmləkətimizə.

Səsləndi:

– Xanım, əgər mənim sözümə baxsan, burdan biz getmərik. İcazə versən, iki saatdan sora bu qələni tərk eliyax.

Axı qızın burda xatirəsi var. İndi görək bu qələni tərk eləməyinə necə diyəcək. Qız at minərdi. Seyidi dağlardan ov tutub gətirib burda kəbab bişirərdi. Onnan qabax atasının xatirəsi var. Neçə illərdi bu qələdə böyüyüpdü. Axı, nə cür buranı qoysun getsin. İndi bu qızı yola salmağa nə ana var, nə ata var. Bu

qələdən bu təh çıxa gedə. Qızın gözdəri doldu. Götürüb burda nə diyir, ərz eliyim. Seyidi gördü burda Pəri xanım ağlıyır.

Dağlarda qarıdı, zəhərdən acı,
Düşənnər bilərlər yaman ayrılıx.
Qoymadın dünyada bir kimsə gülə,
Çəkirəm əlindən aman, ayrılıx.

Seyidi deyir:

– Ay xanım, olmaz belə vay-şivən, olmaz.

– Bilirsən Seyidi, mən nələr çəkmişəm?

Nə yoxsula baxdım, nə də hacıya,
Nə qardaşa baxdım, nə də bacıya.
Şirincə günlərim dönmüşdü acıya,
Sovurdu başımı saman, ayrılıx.

Sənsən bu dünyaya ayrılıx salan,
Çoxların yurdunu eylədin talan.
Pəriyəm, əlinnən çəkirəm aman,
Eylədin qəddimi kaman, ayrılıx.

Qız da ağlıyır diyə-diyə. Seyidi də o yanda ağlıyır. Həqqi də var ağlasın. Genə qələdən xüdafizlik eliyiblər. Qız çıxanda astananın torpağından öpür. Yavaş-yavaş qələdən çıxalar. Yol uzaxdı. Dedim, Seyidi əvvəl tacir oğluydu. Amma indi o bərabər o sərvəri gətirir. İndi Seyidinin kimdi intizarı? Maral xanım, vəzirin qızı buna sərmayə vermişdi, o intizardı. Əmqızısına qovl verib, o, intizardı. Birin də aparır bu üş. Gəlib yetişiblər Təbrizin yaxınlarına. Belə baxanda o Təbriz görsəndi. Səsləndi:

– Belə getsəm, olmaz.

Seyidinin ürək dolu. Xudaya, elə yetişdi vətənə. Seyidi ağlırdı.

– Ağa Seyidi, niyə ağlırsan?

Səsləndi:

– Xanım, mənim də bir ev xatirəm var burda. Bax belə getmiyax.

– Bə nə cür?

– Ah, vətəni gördüm.

Seyidi burda bir qətər oxur.

Görsəndi gözümə uca dağları,
Zülftək basıldı dillərim, vətən.
Nə muddətdir səndən ayrı düşmüşdüm,
Heş sənsiz olmasın günlərim, vətən.

Çox dolandım, gör arzuma yetirdim,
Həddən oldum, yaş kəşkülün götürdüm.
Seyidi diyər, öz yarımı gətirdim,
Süzsün pişvazında dillərin, vətən.
Çıxsın pişvazıma ellərim mənim.

Çün o yaxınlarda Təbriz böyük yer dəyildi. Hamı Seyidini tanırdı. Hamı bunun atası taciri tanırdılar. Xəbər getdi anasına, müjdəni ver, Seyidi gəlir. Xəbəri kim apardı? O dağda, o yaxında çobanlardan-zaddan hammısı ordaydılar. Gördülər Seyidinin yanında bir-ikisi xəbər apardı. İndi Seyidinin əmqızısı, anası, familləri Seyidini peşvaz elədilər. Bular peşvaz eləsin, xəbər getdi vəzirin qızı Maral xanıma. Müjdəni ver, Seyidi gəlir. İndi vəzirin qızı Maral xanım, ordan əmqızısı, burda Pəri xanım yığışıblar bir yerə. Alim çağırdılar. Buların da kəbinləri kəsildi. İndi buların üçünün toyudu. Axı Seyidi Pəri xanıma toy eləmiyib ki hələ. Buların üçünə bir alim məclisi tikiblər. Harda? Təbrizin lap yaxçı yerrərində. Çün tacir oğludu. Atası tacir idi, böyük sərdar idi. Belə bir toy tutublar. Bular məzhəblərinə çatdılar.

# ƏLİŞAH

Geçən zamanlarda Təbriz şəhrində bir Cavad şah vardı. Cavad şahın özü çox qocalır. Bəli, bir oğlu var Əlişah adında. Əlişah yeddi-səkkiz sinnindədi. Bəli, Cavad şah özü qocalıb, bir gün vəziri istədi hikmətinə. Dedi:

– Vəzir.

Dedi:

– Bəli.

Dedi:

– Vəzir, gəl sənə bir vəsiyət eliyim.

– Əlbət də.

Vəzirlərdə elə bir yağlamaq qəziyəti var da. Vəzir dedi:

– Burdan, Allah sənin qadanı mənim malıma salsın, canıma salsın, öylətimə salsın.

Cavad şah dedi:

– Vəzir, o sözlərə gəlmə.

Vəzirin dili tutar-tutmaz, ərz eylədi qurban, vəsiyətini eylə.

Dedi:

– Vəzir sən özün bilirsən ki, mən çox qocalmışam, bəlkə də ölüm həqdi, hamı öləcək. Amma əgər mən səndən tez ölsəm, mən ki bu dünyadan getdim, gərək ki, bu tacu-təxti səltənətdə əyləşəsən. Hansı gün ki, Əlişah təklif oldu, hükümətini apara bildi, onda mənim padişahlığımı verərsən Əlişaha.

Bəli, müddət bu sözün üstündən keçir. Amma qəzada qüdrət yox, Cavad şah dünyadan gedir. Cavad şahın vəsiyyətinə görə vəzir çıxır tacu-təxtə, səltənətdə əyləşir. Əlişah yetişir on iki sindinə. Əlişah on iki sindindəydi, həmin məktəbə gedərdi, dərs oxuyardı. Bir gün baxdı gördi, bəli bunun ki həndəfərləri, tay-tuşları var ki, mədrəsədən gedirlər, gəlirlər, amma bunun yoldaşdarına heç ehtiram qoyan yoxdu. Bəli, buna böyüh-böyüh əsnaflar, dərəcədarlar ehtiram eyliyir, əl-əl

üstünə bunun qabağında dururlar. Dedi, bunun dəlili var. Bəs, mən gedim bunun dəlilin anamdan soruşum deyim ki, dəlili nəmənədi? Filankəsin oğlu, özləri məndən böyük, elmiləri məndən çox, amma bir dənə uşax ehtiram eləmir. Mənə böyüh-böyüh adamlar, əsnaflar əl-əl üstə qabağımda dururlar. Bu bir dəniz dəyil, gedim anamdan soruşum.

– Salam əleyküm, ana.

– Əleykümə salam.

– Ana səndən bir söz xəbər alaciyəm, amma sözün düzün diyəsən.

– Bibi qurban, oğul, nəmənə xəbər alsan deginən.

Dedi:

– Vaxti ki mən mədrəsəyə gedirəm-gəlirəm, özümdən böyüh-böyüh yoldaşdarım var, elmiləri də məndən çoxdu, amma onlara bir dənə uşax da ehtiram eləmir. Mənə böyüh-böyüh əsnaflar, dərəcədarlar ehtiram eliyir, əlmuzda qabağımda durur. Bunun dəlili nəmənədi?

Dedi:

– Oğul qurban, sən özünü aparıb filənkəsin oğluna, filənkəsin oğluna tay eləmə. Sən özün bi dənə padişahsan. Əlan ki, tacu-təxtdə, səltənətdə əyləşib bu vəzir sənin atanın vəziridir. Sənin atanın vəsiyyətinə görə əyləşif. Hansı gün sən eyliyə bilsən, şahlıq qabağı apara bilsən haaa, sən özün elə şahsan. Əlişah çox şad olur, Allah Əli eşidənləri, əyləşənləri həmişə şad eyləsin. Əlişah dedi:

– Ana can, mən eliyə billəm ki, hökümətlik eliyəm.

Əlişahın anası düşdü qabaqcan, Əlişah bunun dalısıycan gəldilər vəzirin yanına:

– Salam.

– Əleykümə salam.

Əlişahın anası dedi:

– Vəzir.

Dedi:

– Bəli.

Dedi:

– Vəzir, mənim olan Əlişah istiyir ki, öz atasının tacutəxtinə yiyəliy eləsin.

Vəzir yerindən durub, cıqqanı başından götürüb qoydu Əlişahın başına. Amma yinə özü vəzir olub, Əlişah hükümət olur. İki il Əlişah padişahlıq elədi, yetişdi on dörd sinninə. Əlişah on dörd sindindəydi. Anası dedi:

– Oğul, sənin atan yaxçı ox atardı, şikar vurardı. Sən də bir atan kimi çıx bu Təbrizin üstü ki, Eynalı dağıdır, buralarda gəz dolan, gör sən də atan kimi ox atıb şikar vuran ola biləcəysən, ya ola bilməyəcəysən.

– Anacan, bəs sən bunu mənə tez diyəydin.

– Bala, indi deyirəm də.

Əlişah əmr eliyir vəzirə:

– Vəzir, əmr buyur bizə əsləheye-şikar[98] və 2 dənə at gətirsinlər, çıxah bu Təbrizin üst tərəfi ki Eynalı dağıdır, orada o şikar görək var, ya yoxdur. Vəzir əmr eyliyir iki dənə atdarın yaxçısından seçdilər gətdilər. Birini Əlişah minir, birin vəzir o zamanın əsləheye-şikarı ibarət idi oxdan, kamandan, şikar quşundan. Bəli, götürüblər üz tuturlar Təbrizin üst tərəfi Eynalı dağlarına şikara getsinlər. Bir qədər gəzirlər. O şikar rast gəlmiyəndə gəlməz. Bulara o şikar rast gəlmir, amma gəlillər bir çeşmənin başında istillər ki, bir qədər istirahatlıx eləsinlər. Əlişah dedi:

– Vəzir bizə ki, o şikar rast gəlmədi. Amma bir qədər burda istirahatlıx eliyəh, görək başımızın qəzası nə olur

Çeşmənin başında atdarından piyada olurlar. Amma Əlişah durbin əlində o tərəf, bu tərəfə durbin salırdı, baxdı gördü, pəh, bir kruq göyərçin, bulardan xeyli kənara düşüblər. Dedi:

---

[98] Əsləheye-şikar -ov ovlamaq üçün silah

– Vəzir, biz bi belə yer gəzmişik, dolanmışıq bizə o şikar rast gəlmiyib, amma burda bir ton göyərçin var, əyə bulardan şikar eləsək, anam buları şikar hesab elər, ya eləməz?

Dedi:

– Bala, fərq eləməz. Ya bi dənə ov vur, ya bi dənə göyərçin, eliyə bilsən bi dənə göyərçinlərdən şikar elə, əliboş getmiyək.

Əlişah baxdı gördü göyərçinlər bir kom bi yerdədi, əmma bi dənə tək bir yerdədi, dedi:

– Vəzir.

Dedi:

– Bəli.

Dedi:

– Bax bi kom bi yerdədi, bi dənə təkdi, əmma mən o kom göyərçinə əgər ox atsam beşinə dəyməsə, birinə dəyər. Mən o bi dənə göyərçini qoyuram qərola, əgər o bi dənə göyərçini vura bilsəm yaxçi ox atan ollam, vura bilməsəm ki, heç.

– Hə, oğul, şərt elə o bi dənə göyərçini vurmaqdı.

Əlişah kənarda diqqətnən gözdüyüf baxdı hə, o kom göyərçin ki var, tamam allı-yaşıllı qız-gəlindi. O bir dənə təh göyərçin ki var əlin qoyub qoynuna, qoynun qoyub çiyninə Əlişaha mail-mail baxır. Deyir, Əlişah, sənin eşq oxun məni ovladı. Da, nədi mənə ox atasan? Zülflər tökülüf sağdan soldan, gözlər nərgizi-şəhla, dişdər inci sədəfi kimi düzülüf. Əlişahın oxunan kamanı titriyif düşdü əlindən yerə.

Vəzir dedi:

– Oğul, niyə bəs vurmadın göyərçinləri?

Dedi:

– Vəzir, mənim əlim çolağ olsun, gözüm kor olsun bulara ox atsam, olar deyərdilər göyərçinlər pərizaddır, mən inanmazdım. Amma o kom göyərçin ki, var tamam allı-yaşıllı qız-gəlindir. O bi dənə təh göyərçin ki var, elə bir nazənindir

ki ruzigarın anası gözəllihdə təh doğuf. Əlin qoyuf qoynuna, qoynun qoyuf çiyninə, mənə deyir, eşq oxun məni ovladı, istəməz mənə ox atasan.

Dedi:

– Balam, sənin əvvəl şikara çıxmağın, sənin gözüyən o cur görkülülər, vur göyərçinlərdən. Əlişah nə bu ki bunları vurmaq. Bunların başının üstdən bi dənə həvayi ox atdı. Amma bunlar gəliblər Əlişahın müqabilində dayandılar. Həmən Əlişaha aşiq olan qız dürüst camalın nişan verib Əlişaha. İndi bi yol pərvaz eylədilər üzü gün çıxana sarı getsinlər. Əlində də bir dəstə gül verdi Əlişaha. Dedi:

– Vəzir, gördün mənim söygülümü?

Dedi:

– Yox, balam görmədim.

Dedi:

– Bax, mənə bir dəstə də gül verib, nə qəşəng ətri gəlir.

Əlişah gülü verif vəzirə. Vəzir qoxladı gördü bağda ən yaxşı ətri gəlir, verdi Əlişaha. Əlişah əlində tumarlıqdı, gördü vəsədində[99] bir namə var. Dedi:

– Buna bax, vəzir, mənim söygülüm namə də yazıb. Gəl, oxu gör nəmənə yazıb?

Verdi vəzirə. Dedi:

– Balam, bu xariş[100] xəddində yazılıb. Mən oxuya bilmirəm, elə özün oxu.

Əlişah aldı:

– Vəzir, nə gözəl xəddinən yazıb. İcazə buyur, oxuyum ta sən də qulax as.

Əlişah naməni oxuyur. Mən də ərz eliyim əziz və muhtərəm eşidənlərin hamısının səlamətdiyinə:

---

[99] Ortasında

[100] Xariş-xarici, başqa ölkə

Başına döndüyüm cavan,
Ara bul məni, bul məni.
Olum gözdərinə qurban,
Axtar al məni, al məni.

Əlbət də “ara”nın mənası axtarmaxlıxdı. Vəzir dedi:

– Oğlan, bəs naməni belə yazıf, yazmıyıb ki, haralıdı, harda olur, hansı şəhərdən gəlir?

Dedi:

– Vəzir, yaxçı yazır. İcazə ver ərz eliyim.

Bir bilən birin təhrindən,
Qəvvasam dərya sehrindən.
Gülüstan-İrəm şəhrindən,
Axtar al məni, al məni.

Belə diyəndə vəzir əlin çaldı əlinə, qahqaha çəkdi güldü:

– Bəs, vəzir, niyə gülürsən?

Dedi:

– Bala, sən bir söz deyirsən ki, pişmiş toyuğun gülüşü gəlir. Axı, Gülüstani-İrəm ki, yerdə dəyil, asimandadı. Orada heş kəsin rahi-ubur yoxudu. Ha olsun, adını yazmıyıf ki, adı nəmənədi?

Dedi:

– Niyə? Yazıf. İcazə buyur, ərz eliyim.

Hurləqadı mənim adım,
Oğlan mənnən alaydın muradı.
Amma pərilərdir əsli-zatım,
Axtar al məni, al məni.

Bəli, söz tamam oldu. Vəzir dedi:

– Oğlan, burda ahu-zarlıx eləməhdən cana fayda yoxdu. Dur atdarımızı minək, özümüzü verək pəytaxta.

Amma Əlişahla vəzir varid oluflar pəytaxta. Bundan qədim böyüh-sava adamların neçə otağı olardı. Adbaad saylara gəlməz, birinə də “qəm otağı” deyərdilər. Əlişah şikardan qayıdıf özün

vurdu qəm otağına. Nə yeyir, nə içir, nərahand. Xəbər getdi Əlişahın anasına ki, Əlişah nərahanddı. Allah heş kəsin tabaxda çörəgin bir eləməsin. Çün yesə tükənər, yeməsə aj qalar. Əlişah da bir dənəydi. Əlişahı anası çox istərdi. Gəldi Əlişahın otağına.

– Oğul, qurbanın kəsilim, dərdin, mərəzin nəmənədi? Axı, dərdin mənə de, bəlkə bir əlacın eliyəm.

Dedi:

– Ana, mənim dərdim çoxdu. Sən əlac eliyə bilməzsən.

– Axı, günəgün oğul sənin rəngi-ruhun saralır. Gəl dərdini mənə de.

– Ana bir saz ola, mən ürəgim dərdini sənə deyəm.

Göndərillər, bəli, saz gəlir. Amma Əlişah sazın zilin, bəmin kök eliyif görəh burda, bəli, anasına nə cür dərdi-dil eliyir. Mən ərz eliyim, eşidənnər sağ olsun:

Dolanım başıya, mehraban ana,
Anacan, söylü söygüsünü yada salmazmı?
Bir cavanın ki gözəl yarı getsin əlinnən,
Saralıban gülü rəngi solmazmı?

Dedi:

– Balam, bir məsəl var "nə yourdum, nə yapdım, hazırca kökə tapdım". Axı, bir dəfə Eynalı dağına getməynən sən nə tez yansağ oldun.

Dedi:

– Ana, olmuşam.

İcaza buyur, ərz eliyim, ta indi təmam oturanların hamısının səlamətinə:

Qurbanam üzünün gül-çırağına,
Anacan, qoymam xar dolana gül budağına.
Məcnuntək gedərəm Leyli dağına.
Məcnun Leylisini yada salmazmı?

Dedi:

– Balam, Allah eləməsin sən Məcnun olasan. Sən bir dəfə şikara getməkliynən nə tez Məcnun oldun?

– Ana, icaza buyur. Sözümün əvvəl-axırına qulaq as.

Eşqin yansağım minib çaparam,
Sınıx gönüllərin evin yaparam.
Fərhad kimi qayaları çaparam,
Fərhad Şirinini yada salmazmı?

Dedi:

– Balam, axır sən ki, bu sözlər deyirsən, sən ki, o şikara çıxanda o qızı görüfsən, indi bir nəfər bir nəfərnən dust olsa, gərəh dustu imtahan eliyə. Görəh bərh gündə də, bəli dustlux elir, ya yox? Xoş gündə elə hamı kənt adama dustdu. Pərizad olanda nə olar, onların da təbrizbazı, şuhluxbazı var. Hangi çeşmənin başında o qızı görüfsən gə get, həmən çeşmənin başına. Namə yaz o çeşmənin başında. Qoy bi dənə daşın üstünə. Üstünə də bir daş qoy ki, yel aparmasın. Sabah get gör haman namənin cavabı gəlsə, bil ki, bu qız da sənə aşiq oluf. Yoxsa namənin cavabı gəlməsə, məlum olur ki, bu sənlə şuhlux[101] edirmiş.

Baxdı gördü anası yaxşı bir söz dedi. Əmr elədi. Vəzir dedi:

– Bəli.

Dedi:

– Vəzir, əmr buyur atdarımızı gətirsinlər. Hə, gedək həmən çeşmənin başına ki, mən orda o xanımı görmüşəm. Dubara gedəh mən yenə görə bilirəm, ya yox.

Atdarın miniflər amma özdərin verdilər həmən çeşmənin başına ki, Əlişah Hurləqa xanımı görmüşdü. Bəli, atdarıynan piyada oluflar. Dedi:

– Vəzir.

Dedi:

– Bəli.

---

[101] Şuhlux – zarafat etmək, əylənmək mənasında

– Vəzir, əmma mənim ürəgimə neçə kəlmə söz gəlif. İstirəm diyəm, sən də yaz. Qoyax bu daşın üstünə, üstünə də bir daş qoyax ki, yel aparmasın. Görəh sabah mənim söygülüm namənin cavabın gətirir, yoxsa yox?

İndi bir yol vəzirnən Əlişah piyada oldular. Hurləqa xanım da kin, neçə qız dörəsində daşdarın daldasındadırlar. Bu dəfə Əlişahın gözünə görükmürlər ki, görələr Əlişah neynir. İndi bir yol vəzir naməni çıxardıb, qələmi əlində tutdu. Əlişah deyir, vəzir yazır. Hurləqa xanım da daşdarın daldasında qulaq asır. Mən də ərz eliyim əziz və mehriban eşidənnərin, əziz dustdarın hamısına:

Sənə deyim, Hurləqa, eşqindən giryanın olum,
Bir də mah camalın görsət, mən sənin qurbanın olum.

Bir dəfə camalın mənə nişan verifsən, bir də,
Camalın mənə nişan ver, qoy sənin qurbanın olum.

Hurləqa xanım daşdarın daldasında qulaq asırdı. Gördü Əlişah yaman aşiq olub. Oydukin Əlişah dedi:

– Vəzir, yazdın?

Dedi:

– Bəli, yazdım.

O birisini belə deyir:

Hansı gülşənin gülüsən?
Hansı bağın bülbülüsən?
Alıb ixtiyarım, öldürürsən,
Mən sənin mehmanın olum.

– Vəzir, yazdın?

– Bəli, yazdım.

– Əmma sözümün əvvəl-axırın təkmil yaz. Mənim söygülüm gəlsə, naməni yaxçı oxusun.

Bəli, sözünün əvvəl-axırında belə deyir, ərz eliyim əyləşənlərin sağlığına:

Sövdicəgim, əzəl sənin,
Şənində var qəzəl sənin.
Əlişah deyər, gözəl, sənin,
Cism içində canın olum,
Gözəl, mən sənin qurbanın olum.

Söz təmam oldu, əmma naməni yazdılar ki, Əlişah istədi qoysun daşın üstünə, o tərəfdən Hurləqa xanım daşların daldasından çıxdı. Dürüst camalın Əlişaha nişan verib, əmma o dəfə vəzir görməmişdi, bu dəfə vəzir də gördü ki, baxdı gördü bəh-bəh, bi dənə nazənindi ki, ruzigarın anası belə gözəl doğmuyub. Əmma əlində bi dəsdə gül, bir dənə də namə. Namənin cavabını verdi Əlişaha, dürüst camalın Əlişaha nişan verib amma xudafislig eliyib üzü gün çıxana sarı səfər elədilər və getdilər. Əlişah başa düşdü ki, bu qızın dalısıycan getsə, gərəh günçıxana sarı getsin.

– Hə, vəzir, gördün ki, mənin söygülümü?

– Hə oğul, gördüm. Yol vacib oldu ki, sən bu qızın dalısıycax getməzdigin.

– Əmma, vəzir, görürsən, mənim söygülüm mənə bir dəstə gül verdi, bir dənə də namə verib. Əmma bu naməni aparacıyam anamın yanında oxuyam. Bəlkə anam da bilə ki, bəli, bu qız mənə aşiq olub.

Bəli, Əlişah o dəfə narahand idi. Bu dəfə çox şad, varid olub. Əmma Əlişahın anası gördü Əlişah çox şad gəlib. Dedi:

– Oğul qurbanın olum, gəl görüm nə xəbər var.

– Hə, mənim söygülüm mənə bir namə verib, bir dəsdə də gül verib. Amma gəl naməni otaxda iki birlikdə səninçün oxuyum.

Əlişahla anası varid oldular otağa. Amma naməni bu dillərinən anasına oxuyur, görək aya, Hurləqa xanım nə yazıb. Əlişah nə oxuyur, mən də ərz eliyim əyləşənnərin, eşidənnərin hamısının sağlığına:

Gəl-gəl, sənə deyim, ay Əlişahım,
Hər zad sövən gərək heş qorxmasın ölümnən.
Dolanım başıya, mən alım dərdin,
Sövgü sövən gərək heş qorxmasın ölümnən.

– Anacan, mənim söygülüm bax belə yazıb.

– Oğul, qurbanın kəsilim.

Sözün dübarəsin nə cür yazıb, ərz eliyim:

Ərzi-halım mən də sənə yazaram,
Xalıx bilir şirin cannan bezaram.
Sərgərdanam, sənnən ötrü səhralarda gəzərəm,
Amma namə yazıb bağlamışam telimnən.

Tel adı gələndə Əlişah bilmirdi ki, Hurləqa xanım gülün dəstəsin öz tellərinən bağlıyıb. Gülün dəstəsinə baxanda baxdı gördü bəli, öz tellərindən çəkib gülün dəstəsin telnən bağlıyıb.

– Ana.

Dedi:

– Bəli.

Dedi:

– Ana, gəl bax gör mənim söygülümün telləri nə qəşəhdi. Öz tellərindən gülün dəstəsin bağlıyıb.

Anası aldı, bəli, tellərə baxıb əgər Əlişahın məhəbbəti bir olsa, anasınınkı yüz olur.

– Hə, indi bildim ki, oğul vacib oldu sənin bu qızın dalısıycax getməkliyin. Sözün tapşırmasın nə cür yazıb?

– Belə yazıb.

Bir namə yazmışam, Əlişah, şahlar şahına,
Ərənlər sərvəri qibləgahına.
Sənnən bir dilək diləmişəm haq dərgahına,
Qəbul olsun hər nə çıxsa dilimnən.

Bəli, söz tamam oldu, əmma Əlişahın anası baxdı gördü ki, bu qıznan oğlan bir-birinə aşıq olublar. Dedi:

– Xub, bala, indi bi yol bəli, getməlisən bu qızın dalısıycax. Əmma atan dünyadan gedəndə necə ki, padşahlığı tapşırmışdı vəzirə, gənə o cür bu malı, dövləti yığ bir yerə padşahlığı tapşır vəzirə, indi gedirsən müsafirətə. Gej gələsən, tez gələsən, hansı gün qəyitdin gəldin, gənə vəzir sənin şahlığıyın versin özüyə. Bəli, ümərayü-dövləti yığdılar bir yerə:

– Xub, ağayan, bilirsiz bura nəyə cəm olubsuz?

– Xeyr, bilmirik.

– Ona görə ki, Əlişahın bir böyük müsafirəti çıxıb qənşərinə, istir getsin müsafirətə. Amma atası dünyadan gedəndə nicə ki, padşahlığı tapşırmışdı vəzirə, genə o cür istir tapşırsın vəzirə.

Keçən zamannarda böyük səda adamların yanında bir qismət, bəli aşıx saxlardı, çün zəbti-sot[102] girəm, ərz eliyim radyo, belə zaddar yoxudu. Aşıx oxuyardı qəlbin açardı, bir iddə şair saxlardı, şair baməzə şerrərdən diyərdi, qəlbin roşən edərdi, əmma bir iddə də təlxək saxlardı, gülməli sözlərdən danışardı, güldürərdi.

Əlişahın bir şairi vardı Rəcəb adında. Dedi:

– Rəcəb!

Dedi:

– Bəli.

Dedi:

– Rəcəb, bir dəstgah həqiqi sözlərdən oxuyarsan. Biri budi ki, mən gedirəm qurbət məmləkətə gej gələm, tez gələm, onu Allah bilir. Və biri də ki, həqiqi sözlərdən oxuyasan, bu camaat burda qulağ asalar.

Rəcəb girib meydana, bir dəstgah həqiqi sözlərdən nə cür oxuyur, mən də ərz eliyim əziz eşidənlərin hamısının sağlığına:

Bizdən salam olsun əhli-xəlayiq,
Axirət bəndini belə bağlıyın.

[102] Zəbti-sot-səsi yazıb oxudan cihaz, maqnitofon

Uymayın dünyayə, siz olun ayığ,
Axirət suyunu gölə bağlıyın.

Hə, bax dünya ölümlü dünyadi, axirətçin işləyin. Bu dünya hər cür beş gün ya xoşdux, ya xudanəkərdən qəmnan insan getməlidi. Amma axirətin fikrində olun. Rəcəbin sözünə "əhsən", "afərin" deyiblər. Amma Rəcəb sözün o birsin belə deyib:

Yədullah olmasa bizə yar olmaz,
Hər gələn ki, həqiqətdən xəbərdar olmaz.
Mərifət olmasa, yol tamam olmaz,
Şəriət kəmərin belə bağlıyın.

Hə, əmma Rəcəbin sözünə genə "əhsən", "afərin" deyiblər. Rəcəb sözünün o birsin belə deyib:

İlmin dərgahından götürün bəndi,
Şəkərdən şirindi, istəməz qəndi.
Qəvvası Əlidi, təhinə[103] əndi,
Əli necə bağlıyıb, siz də elə bağlıyın.

Həzrəti Əli, xub, hansı yolnan gedib, siz də o yolnan gedin. Amma "əhsən", "afərin" deyiblər sözdərə. Odu ki, sözün əvvəl-axırında belə deyir, ərz eliyim eşidənnər sağ olsun:

Səlsəbil ərxindən götürün bəndi,
Şəkərdən şirindi istəməz qəndi.
Rəcəbin ağası sahib-kərəmdi,
Kərəm kəmərini belə bağlıyın.

Bəli, amma söz tamam olub, indi bi yol ki, Əlişah tamam üməray dövlətdən hamısınnan görüşür, rəfiqlərinən görüşür, xudahafizlig eliyib atını minib, təki-tənha üzü günçıxana sarı bu qızın dalısıycax səfər eliyir ki, gedir Hurləqa xanımın dalısıycax.

Bəli, bir müddət yol gəlir, əlbəttə nağıllarda mənzil-məkan yoxdu, söhbəti şirin yerinə yetirək. Ta görək Əlişahın başının sərginişdi nəmənədi? Varid olur bir çeşmənin başına, gördü çox

[103] Təhinə əndi -təkinə endi

basəfa bir yerdi. Dedi, nə olar ki, burda bir beş dəqiqə istirahatdığ eliyim təzədən gedərəm. Əlişah atından piyada olub, atın bir tərəfdə örüklədi, özü də qılıncı, qalxanı qoyub yanında bu bulağın suyundan bir qədər içdi. Bir qədər əl-üzünü yuyub, amma çəkildi bəli, başın atıb qılıc-qalxanın üstünə bir qədər istirahatdıx elədi. Məlumdu, bir nəfər ki qurbət məmləkətdə olsa, yuxudan ayılanda evi, tayfası, məmləkəti yadına düşər, rəfixləri yadına düşər. Əlişah yuxudan ayılıp, qurbətçilik buna çox əsər elədi. Baxdı dövrəyə, baxdı tamam dağ-daş, biyaban, mən bir sükunət, mən bir padişah, mən hara axı, bu biyabannar hara, mən hara gedirəm?! Sora Hurləqa xanımın gözəlliyi yadına düşdü. Dedi, xub, mən bu qızın dalısıycax gərəh gedəm.

Birdən dünyanın bevəfalığı yadına düşdü, gördü bəli, Süleymannara, Nuhlara qalmıyan dünyadı. Dedi, xub, ya gedərəm söygülümü taparam, ya da düşərəm qürbət məmləkətdə ölləm. Odur ki, anası çün Əlişahı çox istərdi, Əlişahın anası yadına düşüb, bu dillərnən o çeşmənin başında söhbət eləyir.

Əlişah çeşmənin başında, yuxudan ayılıb eli, obası, tayfası, məmləkəti yadına düşür. Qurbətçilik beləsinə əsəb verir. Götürsün burda bir dəstgah, öz gönlünnən, ürəyinnən nə dedi, kamə eliyir. Ərz eliyək, eşidənnər sağ olsun:

Ay ağalar, vəsfi-halım söylüyüm,
Hərdən də bir adam nicə olar, gönül.
Hərdən dərviş olar, eli dolanar,
Hərdən bəzirgana xacə olar, gönül.

Oydu ki, Əlişahın qəlbi dolanır, istirdi qəyitsin, sonra gənə dünyanın bivəfalığı yadına düşüb. Beləsin ərz elyim, eşidənnər sağ olsun:

Hərdən piyadalanar, hərdən atdanar,
Hərdən acıxlanar, çox quvvatdanar.
Hərdən şirin olar, baldan daddanar,
Hərdən zəhrimardan acı olar, gönül.

Deyir, gündə min dənə fikr elər, gah elə şirindi ki, baldan da şirin, hərdən elə acıdır ki, zəhridən də acı. Əlişah, oydu ki, sözünün əvvəl-axırında belə desin, ərz eliyim əyləşənnərin, eşidənnərin hamısının sağlığına:

Əlişah deyir, gözüm görür, yorulmaz,
Ərəb atı yorulsa, gönül yorulmaz.
Gönül bir şüşədi, sınsa sarınmaz,
Sınsa sarınsa da, kəc olar, gönül.

Allah eləməsin bir nəfərin bir nəfərdən qəlbi sına. Amma qəlb ki, sındi, düzəlməsi misli şüşə kimi bir zaddı. Məsələn, şişə sınar, kəsmi dubul mümkündümü sonradannan kəsb oluna? Vəli xob, hər cür ulsun məlum elər. Gönül də onun mislidir. Bir nəfərin ki bir nəfərdən qəlbi sınsa, sonradan düzəlsə də, bir tərəfi kəc olur.

Əlişah sözün tamam eliyib, indi bi yol atı minib üz qoyub gün çıxana sarı gəlməkdəndi. Ta neçə gün yol gəlir. Gəlibən yetişir Məşəd hududuna ki, o zaman əlbətdəki mən ki, sözü ərz edirəm, çün maşın yoxudu. Məlum qəflə-qatırnan gedərdi bu yana, o yana. Təbrizdən ta Məşədə əskiyi bir ay yoludu. Bir ay çəkərdi ki, ta yetişsinnər Məşədə. Bir yolu Əlişah baxdı gördü ki, bəli, həzrətin salam təpəsindədi. Çıxanda gördü ki, bəli, gün elə bil ki iki yerdən tülo eyliyib. Xudaya çox şükür, həmi ziyarət, həmi ticarət mənimki oldu. Gedərəm ağamın xidmətində neçə gün qallam, ağamnan mətləbimi alıb, bərdən gedərəm. Əmma dayanıb Həzrətin səlam təpəsinin müqabilində indi bir yol bu dillərnən səlam verir Həzrətə, bən də ərz eliyim eşidənnərin sağlığına:

"Əlif" Allah yaradandı, "bə" də bəyan əssəlam,
"Tə" Tanrının bir adı, "sə" etdim sənan, əssəlam.
"Cim" cəmalın müştağıyam, "ha" oldum heyran, əssəlam,
Ahulara zamin olan "xə" şah Xorasan, əssəlam.

“Dal” dəlil deməkdən zalimlər gəldi yola,
“Zal” Zülfüqar düşmanlara gəlibdi göydən bəla.
“Ra” ruzidir, insanlara göydən yollar haqq taala,
“Zə” zəmzəmdir, ol Məkkədə abi-rəvan, əssəlam.

“Sin” sübhandı, “şin” şeytandı, “sad” səbrdi, “zad” zohhak,
“Ta” töbədir, “Za” zalimdir, gözlərinə onun xak,
“Ayn” Əlidir (ə), əsli-nəsli pak, vücudu pakdı pak,
“Ğayn” ğulamı Qənbər olan Şiri yəzdan, əssəlam.

“Fə” Firondur, atəşindən gəldi məzlumlar cana,
“Qaf” Qurandır, otuz cüzü qail olluq biz ona.
“Kəf” kitabdır, saysan əgər kəlməsi gəlməz sana,
Yüz iyirmi dörd min nəbi gəlib axır zaman, əssəlam.
“Lam” ləiləhə illəlləh, dəlil gəldi cahana,

“Mim” Məhəmməd (s), “nun” namazdı, vacib olub insana.
“Vav” vilayət göydən gəldi ağam Şahı Mərdana,
“Hə” hidayət eyləyəcək Sahib Zaman, əssəlam.

Bicarə fəqir Əlişah, qılgınan namaz bu gün, (bu şir bəzi kitablarda Xəstə Qasım adına da deyilib)
“Lam əlif lə” mövlam onu eylədi əbraz bu gün.
“Yə” Yaqubdur (ə) ağlamaqdan kor olubdur göz bu gün,
Ol Rəsuli Mustafaya (s) vardı güman, əssəlam.

Əlişah salamın ərz eliyib gəldi. Bəli, varid olub Məşədə, əmma neçə gün Məşəddə qalır, hər gün gedərdi ziyarətə. Bir gün gəldi dayandı bu hərami müqabilində. İstir, bəli, Məşəddən də ki getsin üzü gün çıxana sarı. Dayandı hərami müqabilində, görək nə dillərindən ağasından mətləbin istiyir. Ərz eliyim, tamam eşidənnərin hamısının səlamətliyinə:

Gəlmişəm mətləb almağa,
Xorasanın şahı səndən.

Qurtardın səyyad əlindən,
Razı getdi ahu səndən.

Ağacan, necə ki o səyyadın əlinnən o ahını xilas elədin, mənim də fəryadıma yetiş. Bəli, mən ərz eylirəm, ağacan, dünyanın da fəryadına yetiş. Bəli, amma odlanıb dayanıb hərami müqabilində, dübarə sözü belə mətləb istiyir, ərz eliyim, sağ olun.

Şahlar şahına bəstəyəm[104],
Yollar gəlmişəm, xəstiyəm.
Mətləb ver, mətləb istərəm,
Xorasanın şahı səndən!

Əmma, Əlişah dayanıb, bu hərəmi müqabilində. Görənnər ki, görüblər, Allah görmüyənnərə də, inşallah, qismət eləsin Məşədi. Qızıl eyvanın müqabilində dayanıb sözünün əvvəl-axırında belə mətləb istiyir:

Əlişaham, çəkərəm ahi,
Yetiş dada Şahlar Şahi,
Mən istərəm doğru lahi,
Xorasanın şahı, səndən.

Söz tamam oldu, amma Əlişah ağasından xudafizlik eliyib indi bir yol atı minib gələ üzü gün çıxana sarı səfər edib, getməkdə olsun.

Mədidi-müddət yol gəlir, nağıllarda mənzil məkan yoxdu, ta yetişir bir qədər gün çıxana sarı yol gələndən sonra gördü, bəli, qabaxda dəryadı. İstiyə, gün çıxana sarı yol gedə, gərək dəryanın üzünnən gedə. Bəli, amma ki, atı da var idi. Atı satmaq bir az arına gəlir, çünki şəhzadədi. Gəzib dolandi, bir nəfər, bəli, bir yoxsul adam tapıb atı da bağışladı ona. Özün verib gəmi bəndərinə, bir bilit aldı, əyləşdi gəmidə. O qalan müsafirlər də yığışıblar, gəldilər. Ağa, saati neçədə gəmi hərəkət edəcəydi, gəmi yavaş-yavaş hərəkət eliyir. Neçə gün dəryanın üzünən yol gedirlər. Amma bir gün Əlişah görür,

[104] Bəstəyəm-bağlıyam

məzlum biri Allaha yalvarır, dua eliyir. Elə qorxudadılar, vəhşətdədilər. Bir qoca kişi əyləşmişdi bunun yanında xəbər alır:

– Əmican.

– Bəli.

– Bəs neçə gündü biz bu dəryanın üsdünən yol gəlirik. Heş belə zad mən görməmişəm. Mərdum bilillər, qorxullar, Allaha yalvarıllar, nə xəbər var?

Dedi:

– Oğul, hər qərinədən qərinəyə ki 33 ildi. Hər 33 ildə bir dəfə bu dərya tifan eylər. İndi o tifanın səlmi gəlir, mərdum odur ki, ehtiyat edirlər ki, bəli, Allaha yalvarıllar, bəlkə can sağlığı qurtaralar.

Əlişah dedi, xob, yaxşı yerdə tükan açdıx, Allah bazarlar yetirsin. Bi yol da dəryayın üzündə qalmalı olacayıx.

Əlişah bir qədər baxdı gördü bəli, gedə-gedə dəryanın moju çoxaldi. Gəminin ləngərlərin saldılar, indi bir yol ağa, həmən tifan oldu. Bir tifan oldu ki, bu gəmilər nə mərki vardı dərgahın üzündə, hamısı dəydi bir-birinə, pülüş-pülüş olub mərdum tamam hamısı qərq oldular dəryaya. Amma bir nəfərin ki, üstündə həqqin nəzəri olsa, ona heş zad olmaz. Əlişah Xudavəndin qüdrətinnən düşüb bi dənə taxta parənin üstünə. Moj bu tərəfdən gələndə, meylin verir bu tərəfə, o tərəfdən gələndə meylin verir o tərəfə. Ta bir qədər özün sakit eliyib, dəryanın səmmi moju bir müxtəsər ara vurdu.

Göz açdı, baxdı gördü, ay dadi-bidad, nəmənə ki göz işlir, sudu day, ayrı yer görünmür. Xob, Pərvərdiyara, mən qərq olmadım dəryaya, qaldım. Amma mən belə baxıram ki, elə mən də bu naqqaların qəzası olam. Mən nə cür çıxaciyəm bu dəryadan? Oydu ki, gözlər doldu baharın buludu kimi yaşınnan, görək kimləri imdadına istir. Çün baxdı gördü söbhün tərəfinnən bir işıq məlumdu, o dəryanın kənarında olanlar bilərlər. Söbh tərəfi dərgahın o tərəfindən bir tireyi-məlum olan.

Baxdı, gördü, bəli, söbhdü, pərvərdiyara, o kəslər ki quruluxdadılar, azaddılar, namaz qılırlar, Allaha ibadət elillər. Əmma çi fayda?[105] Mən qalmışam dəryanın özündə. İndi görək kimləri imdadına istiyir? Aya, Əlişah bu suyun üzərindən qurtara biləcək, ya qurtara bilməyəcək? Ərz eliyim tamam eşidənnərin hamısının səlamətliyinə:

Gecə-gündüz çağırdığım ərənnər,
Köməg eylə, qurtar məni dəryadan!
Mətləbin istərəm mətləb verənnər,
Mədəd eylə, qurtar məni dəryadan!

Gördü yox, bir yannan nicat olmadı, amma sözün o birsin də belə desin ərz eliyim, eşidənnər sağ olsun:

Vəziri-Mustafa[106] sənsən, İmam əvvəli,
Yerin göyün, ərşin, fərşin ləngəri.
Necə qeyznən götdün o Babi-Xeybəri,
Köməg eylə, Muhəmmədi dəryada.

Əlişah ginə baxdı gördü xeyr, yandan nicat olmadı. Oydu ki, dübarə sözdə belə desin, ərz eliyim:

Əlişaham, mən çəkərəm əndişi,
Əlbət də beləymiş qəzanin işi.
Yunisi dəryadan qurtaran kişi,
Köməg eylə, qurtar məni dəryadan!

Əlişah gördü dübarə buna nicat verən olmadı. Amma götürsün görək indi Əlişah bu dəfə kimləri imdadına istiyir. Ərz eliyim, dusdar sağ olsun.

Oxudum Quranı çıxdım bəyazə[107],
Qadir Allah, bu dəryadan məni özün sal dəyazə.
Ahu-zarə canım, ya İmam Rza,
Kömək eylə, qurtar məni dəryadan.

---

[105] Çi fayda-nə fayda
[106] Vəziri-Mustafa-İmam Əliyə işarə edilir
[107] Bəyazə-bəyaz, ağ mənasında

Əlişah birdən fikr elədi, oğlan, sənin ora kimin savadın var. Özün bilirsən ki, bir nəfər ki biyabanda azsa, o biyabanın özünün bir məmuru var, o, yol-nişan verər. Ya bir nəfər dəryada qərq olsa, o dəryanın suyunun məmuru var, gəl o məmuru çağır.

Oxudum Quranı qlasbaqlas,[108]
Qadir Allah, bu dəryadan məni özün et xilas.
Dəryalar cabiri, ya Xızır İlyas,
Kömək eylə, qurtar məni dəryadan!

Əlişah sözün təmam eliyib təxtəparənin üstündəydi. Gördü, bəli bir qoca kişi əyləşib xalçanın üstündə, suyun üzündə buna sarı təşrif gətirir. Dedi:

– Salam Əli.

– Əleykümə salam. Əlişah salam verdi.

– İndi bir yol oğul nəmənənki var yığ xalçanın üstünə, mən səni aparım o taya quruluğa.

Dedi:

– Sənə qurban olum qoca, mən baxıram sənin, məsələn, sənin otuz sədirin var. Əmma mənim qılıcım, qalxanım özüm hamısı bir xəlvərik. Çıxsam, o xalçanın üstünə batar suya da.

Dedi:

– Neynim, sən məni çağırdın, mən də gəlmişəm. İsdirsən xilas olasan gəl əyləş, istəmirsən xudahafiz.

– Sənə qurban olum qoca, o xalçanı sür gətir mənim lap yaxınlığıma.

Hə indi bir yol həmən qoca xalçanı gətirib Əlişahın dibinə. Əlişah pəncəsin doldurdu ki xalçanı batırsın suya, gördü xeyr bata bilmir suya. Bədən təxtəparənin üzündən üzüldü. İki pəncəsin doldurdu nə qədər təkan verdi gördü, xeyr Qaf dağını da qoysan xalçanın üstünə suya batan deyil. Ərxeyn oldu, qılıncın, qalxanın, şeşpərin, nəmənə ki cəng var idi, hamısın

---

[108] Qlas-rus dilində "klass", sinif mənasında

yığıb xalçanın üstünə, özü də əyləşdi xalçanın üsdündə. Ağa, üzü gün çıxana sarı qoca bunu gətirib dəryanın kənarında xalçadan əndirdi aşağı.

– Sənə qurban olum qoca, mən baxıram sən müşgülmüşalsan. Mən hara getsəm, gərək səni də özümlə aparam.

Çıxırlar dəryanın kənarına. Müfəssəl meşədi, müxtəlif meyvələr var. Əlişah dəryanın üzündə aj qalıb. Meyvələrdən dərir, hərdən bir dənə özü yeyir, hərdən bir dənə verir qocaya. Məşğuldu meyvə dərməgə. Onda gördü ki, qoca göz öyündən qayıb olub, yox türkün bir məsəli var, deyər "daldan atan daş topuğdan dəyər". Çox əfsus eliyif, bir yerə yetişmədi. Əlişah indi bir yol qayıdıf gəldi dəryanın kənarında ölü balıxdan, diri balıxdan tutup, ağacın cürüklərindən yıxıf tonqal qaladı. Ot verif, balıxlardan tutuf bişirif yedi. Müxtəsər həyəcana gəldi, bədənin iniltisi gəlif yerinə. İndi yavaş-yavaş gənə piyada üzü günçıxana sarı yol gedir. Bir qədər yol gəlif baxdı gördü qabağından bir böyüh çay nümayan oldu. Rudxanə böyüh. Amma bir qoca əyləşif bu çayın qırağında. Əlişahı gördü elə şiddətlə ağladı, Əlişahın çün o qoca sudan nicat vermişdi, ona görə bu qocaya ehtiram eylədi.

– Səlam əleyküm əmi.

– Əleykümə səlam.

– Əmican, niyə ağlıyırsan, niyə narahandsan, nəyi əlindən alıblar?

Dedi:

– Heş zadımı, cavan, əlimdən almıyıflar. Mən istirəm bu suyu keçəm o taya. Ayağım tutulur keçə bilmirəm. Bir nəfər ola, məni bu sudan keçirdə o taya.

Dedi:

– Babam, mən elə keçirəm suyu o taya. Səni də allam kürəgimə sudan keçirdərəm o taya, xatircəm ol.

Oydu ki, Əlişah qışdarın çirmiyib indi bir yol qocanı aldı çiyninə. Bu qocanın da demiyəsən Qeyişpaça o zaman

olarmış, bu Qeyişpaçaların da bir əxlaqı varmış ki, adam zadnan çox zidd imişlər. Suyun mənsəbində Qeyişpaça qıçdar uzadıf iki dəfə doladı Əlişahın kəmərinə, elə təkan verdi ki, Əlişahın bədəni yüksə kimi ilişdi yerə. Te bu nə cür qocadı?

Bəs elə niyə edirsən? Əlişah dedi, şayəd bu, sudan qorxur. Hələ gedəh görəh başımızın qəzası nolur? Keşdilər, bəli, suyu o taya.

– Sənə qurban olum, qoca düş aşağı daa.

Dedi:

– Hara düşəm aşağı? Neçə ki sən varsan, mən varam Allah səni mənə minik xəlq eliyib. Yani, mən sənin kürəgindən ənmiyəcəm aşağı.

Dedi:

– Mən deyirəm öz xoşduğuynan ən. Vəillax, tikə-tikə elliyərəm.

– Əlindən nəmənə gəlsə, canım qurban.

Əlişah qılıcınan bir-iki dəfə vurdu bunun çiyninnən-zaddan. Gördü xeyr, qərə daşa çalırsan. Qılış buna sarı gəlir. Qılışı qoydu yerə, xəncərin götürdü. Bir-iki-üç xəncər bunu böyründən-zaddan, gördü, xeyr, kar eləmir. Dedi:

– Oğul, sən zərbəni mənə nişan verdin. Dayan, nöbət mənimkidi.

Qeyişpaçanın dırnağı var neştər kimi. Basdı Əlişahın boynuna, gördü dədəsini yandırır.

– Sənə qurban olum qoca, mənə əziyyət eləmə. Sən bil ki, canımdan can var. Axı, mən sənə yaxçılıx elədim sudan keçirdim. Xaiş edirəm ən mənim kürəgimdən.

Dedi:

– Əlacı, mümkünü yoxdu.

Söhbətə xub vermiyəy, indi bir yol ki, bu bəlkə 40 gün Əlişah Qeyişpaçanı kürəgində dolandırdı. İstədi ki, Əlişah yuxlasın, Qeyişpaça dırnağın basıb Əlişahın bədənindən gözdərin

aşdı. O qədr ki, əziyyət elədi, ta fələgin əlindən təngə gəldi. Gəldi Əlişah əyləşib bir ağacın kölgəsində. Yari-pərvərdigara, məgər sən bunu ölməhdən ötrü yaratmıyıfsan? Axı, mənim ömrüm bu cəngəllərdə, cavanlığım keçir. Mən gedirəm Hurləqa xanımın dalısıycax. Mənim məşuqəm var, söygülüm var. Oydu ki, götürüb görək bu ağacın kölgəsində bir dəstgah fələgin əlindən nə cür şikayət eliyir. Ərz eliyim əyləşənlərin sağlığına:

Bəsdi fələk, bəsdi canə yetişdim,
Daha bundan artıq ahu-zar olmaz.
Zindani möhnətdə, damu aləmdə
Hər kimsə halimdən xəbərdar olmaz.

Mənim ömrüm burda heçə keçir, əmma heş kəsin də xəbəri yoxdu. Qeyişpaçanın bir nəzəri oldu ki, Əlişahın kürəgindən açılsın, gənə nəzərdən əmələ gəlib möhkəm ayaqlarını kilitləşdirdi Əlişahın kürəgində. Əmma Əlişah sözün o birisini belə deyir:

Mən oxuram "qaf", "kaf", "nun",
Mürğtək qəfəsdə eylirəm sükun.
Amma Məcnun kimi gəzirəm çöllərdə cünun,
Ruhum bədənimdə bərqərar olmaz.

Əlişah sözün o birisin belə deyir:

Namə yaz, canım, Şahə dilbədil,
Dəryalar moj edib dəryü xəzangül.
Axı nə yatıfsan, biçarə bülbül,
Fəsli-beçə daha novbahar olmaz.

Axı sənin cavannığın burda keçif, amma Hurləqa xanımın heç xəbəri xəbərdən yox. Bəli, Əlişah neçə kəlmə bu sözlərdən burda oxuyur. İndi bir yol başın atdı bu ağacın kölgəsində bir qədər yatsın. Amma hökmü Xudavənddən gün elə isti oldu ki, bu Qeyişpaça ki, Əlişahın kürəgindəydi bunun beyni az qaldı ki, qeynəsin. Əlişah az yatmışdı, ya çox yatmışdı bir ruhi ayıldı baxdı gördü ki, bəli bu Qeyişpaçanın qışdarı susdanıb. Əl aparıb kəmərindən yumşaq açan kimi açdı.

Bəli, uzatdı qənşərində Qeyişpaçanı yerə. Xənçəri götürdü hər yandan çaldı gördü, xeyr elə bil ki genə daşa çalırsan. Ta gəldi yetişdi kəlləsinə. Kəlləsindən üç-dörd dənə xəncər vurub, gördü qan çıxır. Dedi:

– Sən ölmüyəsən tapmışam. Dədəsini yandıracayam.

Əmma yetişif iki dənə daş gətdi. Birini atdan qoydu, birin üstdən. İlən başın əzən kimin Qeyişpaçanın başını əzdi, öldürdü atdı o yana. İndi bir yol, bəli lap ərxeyn olub üzü gün çıxana sarı yol gedir. Çün qırx gündü Qeyişpaçanı kürəgində dolandırıb, əti, qanı əridi. Bir qədər üzü gün çıxana sarı gəldi. Gəldi yetişdi qabağında bir şərh nümayan oldu. Döndü xob, bəs bu şəhridən bir qədir xurdu xörək alım yeyim, içim, bəlkə müxtəsər bədənim qabağa gələ. Özün verif şəhridə. Anası o zaman ki, Əlişahı yola salanda xəstəginin kürəginə ləli-cəvahirdən tikmişdi. Demişdi, oğul mümkündü, bəli buranın pulu xarişdə işə keşmiyə. Sən bunu apar, xırtdarsan yeyərsən, hər yanda işə keçər. Əlişah həmən pullardan çıxardıb apardı bəli, bir qədər xurdu xörəh alıb. Özü bilirdi hansı qəza insanın bədənin qəbağa gətirər. Həmən qəzalardan alıb, bir dənə də at aldı. İndi bir yol gənə üzü günçıxana sarı idamə verir yoluna.

Bir qədər yol gəldi. Əmma qəbağında üş dənə dağ nümayən oldu. Gördü bu dağların biri elə qarlıdı, üstü yumurta kimidi. Əmma biri alaqardı. Qarının yarısı əriyib, o qalan-qulan qar da əriyib, ayağı çaydı tökülür çaya, əriyir gedir. Birində heş qar yoxdu, gül çiçək, lalə. Mərdim tökülüf, burda eşq edirlər. Çiçəh dərilər, səfa edirlər. Dedi, sən ölmüyəsən, bax bu dağlar üçü də mən özüməm. O qarlı dağ o günüm idi ki, qalmışdım dəryanın üzündə, ən qərif zaman idi ki, qərq olam suya. Bu alaqar dağ da o günüm idi ki, Qeyişpaça kürəgimdə qırx gün dolandırdım, bu dağın qarı kimi ətim-yağım əridi. Bu dağ da bu günümdü, əlhəmdüllah, çıxmışam işıxlığa. Mərdim də ki tökülüf burda lalə, çiçəh. Bəli, eşq evində keyf edirlər. Vallahi, bu dağlara üş bənd

şeri deməsəm, gedə bilmərəm. İndi bu dağlara götürsün görəh üş bənd nə cür şeir deyir. Ərz eliyim, məclisdəkilər sağ olsun:

Əzəmət şəhrindən səd həzar şükür,
Əcəb gülüstanı novbahar eylər.
Hökm etsə nəsinə qəhrə doyanda,
Bəlkə yer üzündən tarimar eylər.

Xudadandır Əliyə, Əlinin qüdrətindən. Əgər nəzəri ola, o, qışın çilləsində istiyə bəli, qurşaq boyu qar olsa, görərsən bir gündə yel apardı getdi. Oydu ki, Əlişah bu sözü deyib indi bi yol dübara sözü desin, ərz eliyim əyləşənlərin sağlığına:

Bulud oynar sərindən, duman göşkündən,
Ala qarğa əskik olmaz belindən.
Müqəddəm qızları dərər gülündən,
Bəzər hər çəməni, gülüzar eylər.

Amma sözün əvvəl-axırını əziz eşidənlərin səlamətdiyinə belə desin:

Mən qurbanam yara, ay aman,
Gül üzlü nigara.
İstər mehman etsin yar məni,
İstər çəksin dara.

Bağlar gülsüz olmaz,
Gül bülbülsüz olmaz.
Yar məni sevsə, ay balam,
Dərdi-qəmüm olmaz.

Darayıf tellərin, ay balam,
Töküfsən hər yana.
Mən eşqindən ölsəm, ay gözəl,
Sən qalarsan dala.

Qızılgül əkmərəm,
Ətrini kəsmərəm.

Mən özgə sözüynən, ay balam,
Yardan əl çəkmərəm.

Əlbət də Əlişah sözdərin təmam eliyif, indi bu dağlardan yavaş-yavaş istir aşsın. Mən ki, bu söhbəti sizə ərz elirəm, o zaman Divzad da olarmış. Divzaddar qədir heykəl bir zadmışlar. Həm göynən tənurə[109] vurarmışdar, həm yernən gedərmişdər. Özdəri də insannan zidd imişdər. Hər yanda görsəymişdər öldürərmişdər. Bəli, çün özlərinin əğli olmazimiş. Gəzərmişdər, yer üzündə vəziroğlundan, vəkiloğlundan girlərinə[110] gəlsəymiş, tutarlar, aparарlar özlərinə iş sahab edərmişlər. Bu dağların bu üzündəki bir şəhr var, Əlmasibin şəhridir. Əlmasibin şəhrində bir Şahbalı şah var. Əlbətdə, Şahbalı şahın bir oğlu varıdı, adı Şəhriyarıdı. Şəhriyar yeddi sinnindəydi, gül bağındayındı. Divzaddar bunu gül bağından oğurluyub aparmışdılar, öz işdərində pərvəriş vermişdilər. Əmma Şəhriyar təqribən yetişmişdi on yeddi, on səkkiz sindinə elə pəhləvan olmuşdu ki, bəs acığı tutanda divzaddardan ikisini kəllə-kəlləyə çalıb öldürərdi. Divzaddar qorxudan nəfəs çəkə bilməzdilər. Əmma çün uşaxlıxdan Şəhriyarı aparmışdılar, indi bu Şəhriyar bunların içində pərvəriş etmişdi. Elə bilirdi ki, bu da elə olardandı. Məsələn, olara bənzəri var.

Bir gün getmişdilər şikara. Üş dənə də divzad Şəhriyarın yanındaydı. Əlbətdə Şəhriyara qoymazdılar getsin çeşmədən su içsin. Qorxardılar əksi düşə, suyun içində özünü görə. Baxa görə, xeyr baba, bular heç buna oxşamır. Hə, amma bir gün Şəhriyar özünü verdi bir çeşmənin başına. Əmma çeşmədən əyildi ki, su içə, əksi düşdü çeşmənin içinə. Baxdı gördü, baba, bu ətdən çox xoş heykəl, xoş qiyafədir. Bunlar çox bədqiyafədilər. Özdəri təmam ətdən, qıllıpara buynuzları var. Baxdı gördü heş qanı da bunlara qaynamır. Üş nəfər ki, divzad bunun yanında varıdı, qəyitdi divzaddarın yanına. Dedi:

[109] Tənurə-divin uçmağına deyirlər
[110] Girlərinə gəlmək-əllərinə düşmək

– Sizdən bir dənə söz xəbər alacıyam, amma sözün düzün diyəsiz.

Bular dedilər:

– Qurban, biz elə sözü düz danışarıq sənə.

– Xob, gəl sözün düzün danışın görüm, ayə, mən də sizdərdənəm, ya sizdərdən dəyiləm?

Bular ki, üş nəfərdilər dedilər, ağa, necə sən elə bizdərdənsən, bəli. Buların yapışıf ikisini kəllə-kəlləyə çaldı. Öldürdü atdı o yana. Qaldı bir dənəsi, o bir dənədən xəbər aldı:

– Gəl sən sözün düzün de. Əgər düz deməsən, səni bulardan da pis günə qoyacıyam.

Divzad baxdı gördü ağac acıdı, can şirin. Dedi:

– Qurban, sözün düzü, sən bizdərdən dəyilsən. Sən Əlmasibin şəhrindən Şahbalı şahın oğluydun. Biz səni yeddi sindində gül bağından oğurluyuf gətirmişik. Burda bizim içimizdə bu cür pəhləvan olmusan.

Şəhriyar ahu-zarından çəkdi dedi:

– Hə, hələ de görüm məni apara bilərsənmi Əlmasibin şəhrinə, ya apara bilmərsən?

Dedi:

– Aparram. Çün qabax bir dərya çaydı.

Bu da hərayigillərdən idi. Şəhriyara dedi:

– Bəs sən gəl mənim kürəgimə. Mən səni bu dəryaçayı keçirdim. O tayı Şahbalı şahın şəhridi ki, Əlmasibin şəhri olmuş ola, sizin öz şəhriniz.

Əyləşib divzadın kürəgində. Əlin atıb sağ əli ilə sağ qulağından, sol əli ilə sol qulağından mindi bunun kürəginin ortasına. Tənurə vurub, bunu göyün üzəri ilə gətdi Əlmasibin şəhrinin kənarında qoydu yerə.

– Bəli, Şəhriyar, icazə ver divzad getsin.

Şəhriyar baxdı gördü, bəli bir qoca kişi bu dəryanın kənarıynan gedir. Gəldi bu qoca kişinin yanına.

– Salam əleyküm, əmi.

– Əleykümə səlam, oğul.

Dedi:

– Əmi can, de görüm sizin bu şəhriyizin hüküməti kimdi? Dolandıranı kimidi?

Dedi:

– Cavan, neçə müddət bundan qabax bizim hükümətimiz bir Şahbalı şah varıdı oydu. Hə, indi o dünyadan gedif. İndi iki dənə vəziri varıdı, biri kafər idi, biri müsəlman. Ki bizim məmləkətimizdə kafər müsəlmandan çoxdu. O kafər vəzir müsəlman vəzirə güj gəldi. İndi, bəli, o kafər vəzir çıxıb tacıtəxtə əyləşib. Bəli, bizim şahımız kafər şahdı.

Dürüst bundan örgənib dedi:

– Əmican bir dənə namə yazacıyam. Aparıb verə bilərsən kafər şaha?

Dedi:

– Əgər imkanım olsa, aparram.

Naməni yazdı. "Hə, kafər şah, mən ki yeddi sindində məni divzaddar oğurluyuf aparmışdı, mən Şahbalı şahın oğlu Şəhriyaram. Gəlmişəm, əgər mən laiqi-peşvazam, peşvaz eləyin, xeyr, laiqi-peşvaz dəyiləm, özüz bilərsiz." Naməni yazdı, verdi bu qoca kişiyə. Qoca kişi naməni gətirib verdi müsəlman vəzirə. Bəli, müsəlman vəzir naməni oxuyub. İnsan neçə vəxtdə ağlar? Biri şadlıxdan, söyünməhdən ağlar, biri Allah göstərməsin qəm-qüssədən ağlar. Allah o qəm-qüssə ağlatmasın, heş kəsə göstərməsin. Həmişə şaddıx ağlamasın, şovq ağlamasın gösdərsin. İnsan şovqündən də ürək dolar ağlar? Bu müsəlman vəzir ağladı, kafər şah da ki, yanındaydı. Dedi:

– Vəzir, niyə ağladın? O naməni oxuyub niyə ağladın.

Dedi:

– Qurban, neynim. Qəlbimə bir söz gəldi, ağladım da.

– Bəs namə nəmənədi?

Dedi:

– Valla, namə budu ki, Şəhriyar Şahbalı şahın oğludu. Yeddi sindində ki divzaddar oğurluyuf aparmışdı, indi gəlif. Namədə belə yazıf, əgər mən laiqi-peşvazam, peşvaz eləyin, laiqi-peşvaz dəyiləm, özüz bilin. İndi bir yol neyniyək?

Kafər şahın rəng üzündən atdı. Ay dadi-bidad, bu hətmən gəlib atasının padişahlğını mənim əlimdən salacax.

Bəli, indi ki müsəlman vəzir ürəhdən sövünür da, dedi:

– Kafər şah, mən deyirəm elə bu, liyaqətdi bir oğlandı, peşvaz eliyək.

Bəli, Şəhriyarı peşvaznan, neçə bəli, qoşun götürüflər bunu peşvaz eləyiblər, gətiriblər öz evlərinə. Gecə bir yol ilan vuran yatır, kafər şah yatmır. Ay oğlan, bu gəlif atasının taxt-tacını məndən alacax. Mən neyniyim? Səsləndi:

– Cəllad.

Cəllad hazır oldu. Müsəlman vəzir də ki ayıxdı, qulaq asır. Gördü, bəli, cəlladdar amadədilər ki, Şəhriyarın başın üsdündə. Kafər şah dedi cəlladdara:

– Bunu elə doğrayın ki, iri tikəsi arxadan kiçik olsun.

Müsəlman vəzir ürəhdən narahand oldu ki, pərvərdigara, neynim mən? Amma Şəhriyar baxdı gördü ki, Kafər şah istir bunu öldürtdürsün.

– Bəs, vəzir neyniyək?

Müsəlman vəzir dedi:

– Qurban, sən bunu öldürmə, bu şahzadədi. Sonra pis olar səninçün, aqibəti yaxçı olmaz. Bəs göndər şəhrin kənarındakı bir zindanın var, ver orda boynuna zəncir, ayağına kündə qoysunlar. Qalsın orda özü öz əcəlinnən ölsün.

Dedi:

– Xub, eybi yoxdu. Elə sənin sözün də qəbul edərəm.

Şəhriyarın əlin, qolun bağlıyıblar, dəstan vurdular əlinə. Amma gətiriblər Əlmasibin şəhrindən kənarda zindanları var-

dı, apardılar orda boynuna zəncir, ayağına kündə qoydular. Şəhriyar qəranlıx zindanda qalsın, gəlin sizə Əlişahdan ərz eliyək görəh Əlişah neynir? Əlişah ki, həmən dağlara kin ərz elədi, neçə söhbət elədi. O dağlardan aşıb yavaş-yavaş gəlir. Amma Şəhriyarda ki, zindanda. Şəhriyar neçə müddət, indi mən bu söhbəti çün yaxın gətdim bir-birinə. Əlbətdə belə də-yil. Ta buların bir-birlərinə yetişməsi əsgigi bir ay, ya iki ay çəkir bir-birlərinə. Şəhriyar bir müddət qalır zindanda. Boy-nunda zəncir, ayağında kündə. Yari-pərvərdigara, mən nə gü-nahın sahabıyam məni gətirib salıflar bura? Gündə bir dəfə də mənə işgəncə verirlər. Bəs götürüm aralarından imdadıma is-tiyim, bəlkə gələlər məni burda qurtaralar. Görək indi kimləri imdadına istiyir? Şəhriyarı zindandan kim qurtarır? Ərz eli-yim, eşidənnər sağ olsun:

Hər yerdə çağırsam, hazırsan, hazır,
Axı, müşgüldə qalmışam aman, ya Movlam!
Süleyman hikmətdi, Cəmşid təxtikam,
Əzəmət ki, o kəs sənsən iman, ya Movlam!

Amma Şəhriyar sözünün o birsin də yaxşı diyər. Ərz eli-yim eşidənnər sağ olsun:

Yunisi dəryada uddu bir balıx,
Ona nicat verdi rəhimi-xalıx.
Amma dəryanın üzündə kim verdi salıx,
Qaziyəl hacatsan[111], iman, ya Movlam!

Əlbətdə indi bir yol Şəhriyar sözünün əvvəl-axırında kimləri istiyir:

Mehracda Rəsulun yolunda yatan,
Tifilkən ağ divin barmağın çatan.
Özün qul eyliyib şəhri bərbərdə satan,
Bir dolu Muhəmmədə mehman, ya Movlam!

[111] Qaziyəl hacatsan–istəkləri yerinə yetirən mənasında

Söz təmam oldu, amma Şəhriyar bu sözdəri deyif, Şəhriyarı yuxu tutdu. Eşid xəbəri Əlişahdan. Əlişah varid olub, baxdı gördü, bəli, burda bi dənə şəhri var. Çün Əlişah qırx gün Qeyişpaçanı kürəgində dolandırıf, əti, yağı əriyif, bədənin inilcisi əlindən gedif, gördü bu vəznən bu şəhrə belə daxil olmaxlıx yaxşı deyil. Əmma şəhrin kənarında bir işıx gəlir. Özün verib işığa sarı, ta gəldi yetişdi həmən zindanın qapısına ki, Şəhriyar o zindandaydı. Gördü bəli, burda bir üş-dörd nəfər keşih, qaroul var. Göz nədən qorxar, gördügündən. Dedi, görən bunlar da Qeyişpaçadı, cəngəldən uçuf gəlib, burda qonub. Əl elədi qılıcın qəbzəsinə. Bulardan bir iki-üç dənə öldürdü, gördü, yox baba qılış buları belə kəsir ki, elə bil pənirdi. Sora fikir elədi, dedi, yox elə bu da o yumuşaq Qeyişpaçalardandı. O birisiləri də öldürdü. Baxdı gördü burda bir dənə zindandı, qapısı kilitdidi. Əmma dedi, hər nə bazu gərək mən gərək bu zindanın qapısın açam, görəm burda nə xəbər var. Əl atıb çəhdi kilidi şaqqıltıynan sındırdı. Şəhriyar ki, zindanda yuxulamışdı, kilidin şaqqıltısına ayıldı. Dedi görən pərvərdigara, bu kimdi? Gənə gəliblər mənə işgəncə verələr? Yəqin ki, mən bir az saat bunqan qabaq ağalarımdan imdadıma istiyirdim. Olardandı, gəlib mənə nicat verə. Əlişah varid oldu zindana. İndi Şəhriyar da neçə müddətdi zindanda qalıb, üzün-gözün tük basıb. Hə, əmma başının tükü gəlib üz-gözün tutub. Şəhriyar ayax səsi eşidəndə zülflərin kənar eliyif, yəni başının tükünü verdi kənara, gözü sataşdı bir cavan oğlana. Gördü, bəli, bir cavan oğlandı əlində qılış-qalxan, nizə. Əsləheye-cəng nəmənə istəsən bunda var. Əlişah gördü bu oğlanın əlin-qolun bağlıyıblar, boynunda zəncir, ayağında kündə. Pərvərdigara, görən bunun cürmü nəmənədi? Bunu niyə bəs bu cür zülmlə salıblar bura zindana? Dedi, xob, götürüm hələ mən bundan xəbər alım, görüm, ayə, bunun cürmü nəmənədi, bu cür salıflar zindana? Əgər cürmü olmasa, zəncirdən bunu açacıyam. Yoxsa cürmü çox olsa, elə qalmalıdır, qoy qalsın.

Çünki Şəhriyar baxırdı Əlişaha. Əlişah gördü heş keşməli cavan dəyil. Gedə-gedə Əlişahın məhəbbəti çoxalır. Allahlıxdı. İndi Şəhriyarnan Əlişah bir-birlərinə qəlbdən aşiq oldular. Yəni qardaşdıx qəlbinnən aşiq oldular bir-birlərinə. Bəs götürüm xəbər alım görüm kimlər bunu zindana salıf? Bu dillərinən xəbər alır. Ərz eliyim əziz eşidənnərin hamısının sağlığına:

Dolanım başıya alagöz cavan,
Kimlər səni bu zindana salıfdı?
Ala gözdəriyə mən ollam qurban,
Kimlər səni bu zəncirə salıfdı?

Şəhriyar gözün aşdı, baxdı gördü bəli, bir cavan oğlandı. Əmma oğlanın kəlməsi, danışığı Şəhriyara elə xoş gəldi. Nə fayda, qollar bağlıdı, istiyir ki qolun salsın Əlişahın boynuna. O üzündən, bu üzündən öpsün. Məhəbbət guşə gəlib. Dedi, Allaha təvəkkül, mən də bu oğlanın sözünün cavabın deyim, bəlkə bu elə məni bu zəncirdən, bu zindandan qurtara.

Dolanım başıya, alagöz cavan,
Kafər məni bu zindana salıfdı.
Ala gözdərinə mən ollam qurban,
Kafər məni bu zəncirə salıfdı.

Əmma indi bir yol Əlişah görəh bu oğlanın cavabında nə deyir? Gedə-gedə bunların məhəbbəti çoxalır. Əmma Əlişah belə desin, ərz eliyim əyləşənlərin hamısının sağlığına:

Görüm seyrəqubun üzü gülməsin,
Bir dərdə düşsün ki, loğman bilməsin.
Heş kəs sənin kimin bu zəncirdə qalmasın,
Kimlər səni bu zəncirə salıfdı?

Əmma Şəhriyar aldı görək, bəli Əlişahın cavabın deyir:

Bu göyçəm Süleymanın təxtidir,
Bu yatan bəxt fəqirin bəxtidir.
Məni bəlaya salan öz atamın təxtidir,
Kafər məni bu zindana salıfdı.

Əmma Əlişah baxdı gördü, bəli bu oğlan da bunun kimi şəhzadədi. Bunu bədbəxt eliyiblər, gətiriblər salıblar burda zindana, boynuna zəncir qoyuflar. Dedi, Allaha təvəkkül hələ mən öz adımı bu oğlana deyim, bu da adın mənə desin. Görüm bu kimin oğludu və əsli-nəcabəti kimlərdi. Oydu ki, Əlişah sözünün axırısında belə deyir:

Əlişaham, öz işimdən naçaram,
Bil ki, müşgülləri mən də açaram.
İndi səni bu zəncirdən açaram,
Kimlər səni bu zəncirə salıfdı?

Əmma Şəhriyar gördü bu oğlanın adı Əlişahdı. Dedi, Allaha təvəkkül, elə mən də adımı deyim. Bu oğlanın danışığı, kəlməsi, qiyafəsi, əstəri o qədir ki mənə xoş gəlir, öldürsə də elə bu oğlanın əlində mən ölüm. Çox yaxşı bir oğlandı. İndi Şəhriyarın da məhəbbəti Əlişahın ürəyinə düşüb. Şəhriyar alır sözün əvvəl-axırında:

Fələgin əlindən sinə dağlıyam,
Tora düşmüşəm, qol-qanadı bağlıyam.
Şəhriyaram, Şahbalı şahın oğluyam,
Kafər məni bu zindana salıfdı.

Əlişah bu sözü eşidib qılıcı çəkib zəncirləri pöhrə-pöhrə doğradı töhdü yerə. Əmma Şəhriyarı zindandan çıxardıb ikisi əl verdilər, qucaxlaşdılar, qardaş oldular. Zindandan çıxıblar. İndi bir dənə atdarı var. Bir dəstə indi şikarı bəli, o zamanın ki, məsələn, əsləheye-şikarı şikar quşundan ərz eliyim, oxdan, kamandan, belə-belə zaddardan idi. Və belə zaddardan da Əlişahın varıdı bəli, Şəhriyarın yoxdu. Bir dəstə də əsləheye-cəng varlarıdı. O da Əlişahındır. Bəli, zindandan çıxdılar, yavaş-yavaş gəldilər bir dağın damənəsində dayandılar. Əmma Allah heş iyidin, heş cavanın qürbət məmləkətdə cibin bipul eləməsin. Şəhriyarın gözdər baharın buludu kimi doldu yaşınan. Əlişah dedi:

– Qardaş, niyə ağladın, qurbanın kəsilim? Mən ki, səni zindandan çıxartmışam.

Dedi:

– Qardaş, Allahdan gizlin dəyil, səndən nə gizdin. Mən çox acam, neçə muddət bu zindanda aclıx çəkmişəm.

Dedi:

– Qardaş, heç nərahand olma. Əlan, mən sənə hər nəmənə istəsən, amədə edərəm.

Əlişahın söhbətin əvvəlində ərz elədim ki, anası xəstəginin kürəginə ləli-cəvahir tikmişdi. Hər yerdə əli bicsiz olurdu, onlardan xərclirdi. Əlişah Şəhriyara dedi:

– Qardaş, sən burda dayan, mən gedib bu şəhərdən bir qədər xurdu-xörək alım gətirim. Bizim də bu cür şəhərə getməgliyimiz düzgün dəyil. Sən həm zindanda qalıbsan, bədənin dalı olub. Mən də ki Qeyişpaça kürəgimdə dolandırmışam. İkimiz də elə biri-birimizə tayıǧ. Heş beləliklə bu şəhərə getməklik də yaxşı dəyil.

Əlişah varid olub şəhərə. Xob, şəhzadədir, özü bilir ki hansı qəza insanın bədənin qəbağa gətirər. Yaxçı qüvvəli qəzalardan alır, bir dənə də çadır alır. Gətdi həmən dağın damənəsində bir çeşmə varıdı. Çeşmənin başında çadırı qurublar. İndi bir yol xurdu-çörəkdə məşğuldular, yemək-içməhdə. Bəli, gündə gedirlər ov ovlurlar, quş quşdurlar, gətirirlər həmən çadırda çeşmənin başında yiyirlər, içirlər.

İndi bir gün bunlar şikara getmişdilər. Bir dənə ahunu diri tutdular. Şəhriyar dedi:

– Əlişah, qardaş, bu ahunu heç öldürmüyək. Aparax bağlıyax bu atdarın yanında. Hə, elə bizə böyük mənzərədi. Baxarıq hərdən gönlümüzün qubarı dağılar.

Ahunu gətiriblər atdarın yanında bağladılar. Bəli, tökərdilər ərəbdən-zaddan yeyərdi. Atdarın xəsiyətin götürüf heç hürkməzdi də. Əmma bular burda yeməy-işməyə, şikara məş-

ğul olsunlar. Gəlin sizə hardan ərz eliyək, Kafər şahdan. Kafər şahın xariş məmləkətdən qonağı gəlmişdi. Şikarbanları istədi, hə, canım şikarbanlar, gedin bizim xarişdən qonağımız gəlir, yaxşı şikarlardan vurun gətirin. Bəli, bu qonaqlar bizdən xoşnud olsunnar, eybi yox. Şikarçılar çıxıblar, xob, şikarçının halı məlumdu daha, o şikar rast gəlmiyəndə gəlməz. Bulara o şikar rast gəlmədi. Gəzirdilər, durbinnən baxırdılar bu yana, o yana, gördülər bəli, bir çeşmənin başında bir çadır qurulub, iki dənə at çadırın yanında bağlanıb, atdarın yanında bir dənə də ahu var. Bular çox sövündilər, bala, bu kim olacax ki, bizə nədəhəm diyə, biz Kafər şahın şikarbanlarındanıx. Elə zornan gedərik buların ahusun allıx, aparrıx verrik Kafər şaha, Kafər şahdan ənammızı allıx. Üz tutdular, gəlillər Əlişahnan Şəhriyarın çadırına sarı. Bular da üç nəfərdilər, varid oldular çadırın müqabilində dəyandılar, gördülər bəh-bəh, iki dənə cəvan əyləşib bu çadırın içində, o qədim kişilər diyəllər ki, gənc xərabada olar. Qızıl aşırmalar bu tərəf, o tərəfdən gəlib. Bıyıxlarını aparıblar qulaxlarının dalında düyünnüyüplər. Əslən xoruz ünü buların qulaxlarına getmiyib. Əgər çəpdən bulara baxsalar, buların bağırları çatdiyacax. Dalın-dalın qəyitdilər. Əlişah səsləndi:

– Cəvan, hara gedirsüz, bura gəlün görək. Hardan gəlib, hara gedənsiz? İşiniz nəmənədi?

Bular gəldilər çadırın müqabilinə.

– Hə, sözü düz danışın görüm, işiniz nəmənəydi?

Bular ikisi Kafər şahdan qorxardı, əmma bir dənəsi vardı belə hırt-pırt qanmazdı, heş belə xoruz ünü qulağına getməmişdi, dedi:

– Qardaş, biz gəlmişik, sözün düzü o yannan ki, bizə o şikar rast gəlmədi, bu ahuni sizin atdarızın yanında gördük, gəlmişdik bunu ya zornan, ya pulnan sizdən alax aparax verax Kafər şaha. Biz Kafər şahın şikarçılarınnanıx, bəlkə bizə bir qədər ənam verə.

Şəhriyar dedi:

– Eybi yoxdu, gəlibsiz, biz ahunu verrik sizə apararsız. Amma mənim bir dənə də naməm var, sözüm var, mən diyəm indi bi yol Əlişah yoldaşım da yaza verax, həmi ahunu aparasız, həmi də o naməni aparıb verəsiz Kafər şaha.

Dedi:

– Hə, eybi yoxdu, aparrıx.

– Əlişah qardaş, qələm zabatı cibindən çıxart. Mən deyim, sən də yaz. Həmi bu ahunu verək bular aparsın, həmi də ki bu naməni aparsınlar.

İndi bi yol Şəhriyar deyir, Əlişah yazır. Şikarçılar da qulaq asırlar görək, bəli bu yoldaşı nəmənə deyir, bu namədə nə yazırlar? Ahunu da söyünürlər ki, aparacayıx. Belə deyirlər, ərz eliyim əziz eşidənlərin sağlığına:

Gedin deyin Kafər şaha,
Mənimlə meydana gəlsin.
Yığsın qoşunun başına,
Ölməgə mərdana gəlsin.

Bular ki, üş nəfərdilər iki dənəsi dalın-dalın qəyitdilər dalı.

– Bəs canım, hara gedirsiz, canım?

Dedilər:

– Canım, nə biz o naməni apar billik, nə də bu ahunu səndən istirik. Kafər şah bizim dədəmizi yandırar.

Əmma ərz elədim ki, bunların biri elə çox hırt-pırt qanmırdı. Dedi:

– Canım, Kafər şah qələt elədi. Mən həmi naməni aparacıyam, həm ahunu aparacıyam.

Şəhriyar dedi:

– Hə qoçumsan, bərəkallah oğlum, sən apararsan. Bu oğlan çox zirəkdi. Hə, bax Əlişah yazginan.

Kafər mənimlə al etdi,
Al dilinlə məni tutdu.

Qollarımı daldan çatdı,
Atdırdı zindana gəlsin.

Genə bular o iki nəfər qayıtdılar dala:

– Nə ahunu istiyirik, canım, xatadı bu. Bizim ölümümüzdü. Biz apara bilmərik. Bu naməni də aparammərik, bu ahunu da istəmirik.

Amma o həmən o yonulmamış[112] oğlan gəldi qabağa, dedi:

– Canım, yazın mən ahunu da aparacıyam, naməni də. Kafər şah çox qələtdi, elədi.

– Hə qoçumsan, sən apararsan.

Oydu ki, sözün əvvəl-axırını deyir:

Gedin deyin Kafər şaha,
Mənimlə meydana gəl-gəl.
Qoç kimi kəllə-kəlləyə,
Vurmağa meydana gəl-gəl.

Söz təmam oldu, əmma indi bir yol naməni yazıflar. Verdilər həmən o qorxmaz oğlana. Həmi ahunu veriflər, həmi naməni verdilər. Oğlan ahunu da götürüf, naməni də götürdü indi yolda bir yol o birisilər də gəldilər qoşuldular bu oğlana ki, canım, yaxçı oldu, sən bu ahunu aldın. Hə aparrıx Kafər şahdan ənam da allıx. Ahunu gətiriflər, yetirdilər Kafər şah ki, əyləşmişdi. Gördü bəli, şikarçılar gəlillər. Bir dənə ahunu diri gətirirlər.

– Hə, bərəkallah, oğlanlar. Yaxçı eləmisiz, bir dənə ahunu diri gətirifsiz.

Həmən o hırt-pırt qanmayan kişi gəldi qəbağa. Dedi:

– Hə, sənin başınçün, sənin ölüm xəbərini gətirmişəm.

Oba köçdü yaylaxdan, ay bülbüllər,
Yoruldum yola baxmaqdan, ay bülbüllər.
Yar yardan necə doysun, ay bülbüllər,
Pəncərədən baxmaxdan, ay bülbüllər.

[112] Yonulmamış-sözünü düşünmədən deyən, ədəb-ərkan tanımayan adam

Bu bağı bağ edərəm, ay bülbüllər,
Yanın çardaq edərəm, ay bülbüllər.
Desələr yarım gəlir, ay bülbüllər,
Yolun çıraq elərəm, ay bülbüllər.

Öylərində var kilim, ay bülbüllər,
Lal olsun mənim dilim, ay bülbüllər.
Gedəndə küsdü getdi, ay bülbüllər,
Gələndə necə dindirim, ay bülbüllər.[113]

Bəli, söhbətimiz həmən yerdədi ki, şikarçılar şikarı gətdilər. Kafər şahın müqabilində saxlıyıflar.

– Hə, qoçumsuz, yaxçı eləmisiz, afərin, ahunu diri gətdiz.

Həmən o yonulmamış adam dedi ki, hə başınçün sənin, ölüm xəbərini gətirmişik biz. Yetişib naməni verdi Kafər şaha. Kafər şah naməni oxuyub rəng üzündən atdı. Gördü ki, bəli Şəhriyarı zindandan çıxardıflar. Şəhriyar buna belə namə yazıf:

Gedin deyin Kafər şaha,
Mənimlə meydana gəlsin.
Yığsın qoşunun başına,
Ölməgə meydana gəlsin.

Müsəlman vəzir Kafər şahın yanındaydı. Xəbər aldı:

– Vəzir.

Dedi:

– Bəli.

Dedi:

– Vəzirlə gərək şah özü də cəngə gedə. Şəhriyarı zindandan çıxardıblar. Onu mən öldürüdüm, sən qoymadın. Bir belə namə yazıb mənə.

İndi müsəlman vəzirin də ki bu Kafər şahınan heç yoxudu. İstir Kafər şahı vursun versin dədəsinin köhnə borcuna. Dedi:

---

[113] Bu şeir xalq mahnısıdır.

– Qurban, əlbətdə, xob gənə elə sənin getməgin yaxçıdı. Çünki səndən utanar, xəcalət çəkər. Sən get qoşunu apar, yalvar-yaxar elə. Elə bu şikarçılar deyirlər ki, Şəhriyar ki, özü o, əndazə pəhləvandır. O dursun kənarda. Bir dənəsi var heç xoruz ünü qulağına getmiyib. Əgər o iki cavan əl-ələ, dal-dala verə hə, qılınc oynadalar, bizim bi dənə də qoşunumuz qalmaz. Sən özün gərək gedəsən.

İndi bi yol Kafər şah amadədi ki, getsin Şəhriyarnan ya cəng eləsin, ya xaiş, təmənna eləsin. Kafər şah gəlməhdə, indi bir yol Əlişahnan Şəhriyar söhbət elərlər. Şəhriyar dedi:

– Qardaş, Əlişah.

Dedi:

– Bəli.

Dedi:

– Qardaş, bizim əslən hər cəngimiz bir dəstədir. İki dənən dəgil, ikimiz də cəng eliyək. Sən get şəhridə filan qəlpidə dayan. Mən cəngimi bu Kafər şahla başa çıxım. Ondan sonra inşallah səni də gətirrəm, ikimiz bəli, gedərik mənim pəytaxtımda zindəganlıq elərik.

Dedi:

– Eyib eləməz.

Əlişah getdi, bəli, bir qəmxanada, müsafirxanada əyləşib. Amma Şəhriyar müntəzirdi ki, Kafər şahın qoşunu gələr. Onda gördü ki, bəli, Kafər şahın qoşunu gəlir. Elə gəlir ki, huri-mələk kimin gün üzü tutuluf. İndi bir yol ki Şəhriyar müntəzirdi, indi Kafər şah yetişdi Şəhriyarın müqabilində dayandı. Dedi:

– Oğlan, sən götürüf mənə belə bir namə yazıfsan ki:

Gedin deyin Kafər şaha,
Mənimlə meydana gəl-gəl.
Qoç kimi kəllə-kəlləyə,
Vurmağa mərdana gəl-gəl.

Məgər şah özü də cəngə gələr? Sənin əqlin yetişmir?

Dedi:

– Hə, mən yazmışam. Sən elə özün gələsən. Səni indi haqqıyan tovşurram.

İndi bir yol Kafər şah dönür qorxuya. Dedi:

– Şəhriyar, mən ki səni zindana salmışdım. Sən neçə müddət zindanda qaldın? Mənim yadımdan çıxmışdı. Mən gərək səni zindana salmıyaydım bu bir. İki, mən sənlə şuhlux edirdim.

Dedi:

– Filan-filan şüdə, belə də şuhlux olar?

Oydu ki, Şəhriyar əl aparıf qılıncın qəbzəsinə, əvvəl vurdu Kafər şahın başı top gülləsi kimi getdi. Ondan sonra ki həmlə eliyif qoşuna, aman çəkən, iman tapır. Baş-leş səbətə, həbətə qol, diş, qabırğa dəyif bir-birinə. Əzrayılın macalı yox can almağa. Beşinin canı o yanda, on beşinin bu yanda. Qoşun artıq taqət gətirmiyif, ölən öldü, qaçan qaçdı. İndi Şəhriyar geçif əyləşdi atasının təxtində. Misli xuruci Muxtar[114] kimin hər yerdə bir dənə kafər görürdülər cəzasına yetirirdilər. Kilisaları yıxdılar, təmam məçid elədilər. Hay beş gün, üş gün Şəhriyarın Əlişah yadından çıxdı. Əlişah ki, o qəlpidə dayanmışdı. Gördü ki, xeyr, qardaş bivafa çıxdı. Bunun ki bir dəstə qılış-qalxanı var idi, əsləheye-cəng var idi, bunu da bunun əlindən aldı apardı. Amma heş sorax yoxdu. Öz-özünə az qalır qururdan bağrı çatdasın. Balam, mən buna bu cür xidmət elədim, bu mənim xidmətimin əvəzin də bilmədi. İndi Şəhriyarçün Əlişah yadından çıxıb. Başı qarışıb, kilisələri yıxıb məçid dürüst edir. Amma o qəlbidə ki Əlişah əyləşmişdi, dəvəçi dedi, canım, mən səni görürəm beş-altı gündü burdasan, ama narahand əyləşifsən. Bu qəlpinin dal tərəfindəki gül-

---

[114] İmam Hüseynin qisasın alan Muxtarın qiyamına işarə edir

çiçəh, bağ var, onu müsafirdən ötrü əkmişik, düzəltmişik. Oralarda gəz, dolan, eynin açılsın. Dedi:

– Dəvəçi qardaş, mənim ürəgimə beş-on kəlmə söz gəlif. İstirəm sənin üçün burda oxuyam.

– Xob olsun, oxu görək.

Əlişah dəvəçiyə nə oxur, mən də ərz eliyim tamam eşidənnərin, əziz dusdarın, olar ki bizim navarlarımıza muştahdılar, qulaq asırlar, hamısının sağlığına:

Sənə deyim, dəvəçi qardaş,
Bir dərdi beş olan gönlüm.
Səhəri gülşən seyrində,
Qəmə yoldaş olan gönlüm.

Dedi:

– Oğlan, sənin nə qəmin var? Allah eləməsin, sən cavansan.

– Hə, dəvəçi qardaş, icazə ver, ərz eliyim.

Necə gülsün, gönlümarsız,
Qohum, qardaş ehtibarsız.
Çox diyərdim dözüm yarsız,
Döz bağrı daş olan, gönlüm.

– Axı, mən ki qardaşıma ehtibar eləmişəm. Qılış-qalxanım vardı, vermişəm. Cəngin başa çıxıb, gedib əyləşib təxtində. İndi heş demir görüm mənim bir dusdum vardı, rəfiqim vardı. Harda qalıf?

Əmma dəvəçi baxdı gördü bu cavan çox bərzəx[115] olub. Hər tükü bir mağal söylüyür. Nə qədir təskinlih verir, görür xeyr, oğlan çox bərzəxdi. Odu ki, alır sözün əvvəl-axırın:

Əlişaham, yarı görmədim
Yara nişana vermədim.
Bağban olub gül dərmədim,
Bağçasından barsız gönlüm.

---

[115] Bərzəx-burada məcazi mənada əzab və işgəncə kimi işlədilib

Amma Əlişah yerindən durdu, dedi, farsın bir məsəli var, "hərçi piş ayəd, xoş ayəd"[116]. Ağa, yerindən durub tez atdı kəlləsinə dedi, gedəciyəm mən o əsləheyimi, o qılış-qalxanımı bu oğlandan alam. Nə bivafa adamıymış. Mən bunu zindandan qurtardım, hə, öz qılışımı, qalxanımı da verdim beləsinə, götdü apardı. Heş məni yada salmır.

Varid olub baxdı gördü, bəli, neçə nəfər keşih, qaroul var. Ama bunu istillər ki qoymasınnar içəri. Əlişah yetişəndə bi dənəsini boğuf qoydu dizinin altına. Qılış-qalxanını əlindən aldı. Ondan sonra qabağa gələni vurur. "Anam mənə kor deyib, hər gələn vur deyib", qıra-qıra gedir. Xəbər verdilər Şəhriyara ki, valla bir nəfər varid oluf, elə qabağa gələni öldürür. Heş bilmirik də kimdi, əslən ilişhəlih kol dəyil.

Şəhriyarın birdən Əlişah yadına düşdü. Ay dadi-bidad, mən gəlif iştibah eləmişəm. Ağa, əmmə təxtinnən ənib aşağa ayax yalın, baş açıx qaşdı oğlanı qucaxlıyıb.

– Şəhriyar, bəs canım, sən məni yaddan çıxardıfsan.

Dedi:

– Əlişah, gəl gör nə işlər görmüşəm. Vallah külləm yadımdan çıxmışdı. Gərəh bağışlıyasan. Tamam kilisaları yıxmışam, məçid dürüst eləmişəm. Kafərləri təmam aradan götürmüşəm.

İndi bi yol Şəhriyar Əlişahın əlindən yapışıf gətirir istir əyləşdirsin öz təxtində. Əmma Əlişah Şəhriyara o vədiyə kimi deməmişdi mən özüm də bəli, bir məmləkəin sahıbıyam. Dedi:

– Canım, təxtin, tacın mübarəkin olsun! Mən də bir şahzadəyəm, bir padişahın oğluyam. Amma bir məşuqəm var, söygülüm var. Gedirəm onun dalısıycax, gəlif burda bir belə sənin üstündə ləng olmuşam. Bəs mənim əsləheyimi verəsən, mən yoluma idamə verəm, gedəm.

Dedi:

---

[116] Qabağa hər nə gəlsə, xoş gəlib. Fars məsəlidir.

– Qardaş, bax, qırx gün mənə möhlət ver. Sən ki, istisən üzü gün çıxana sarı gedəsən hə, gün çıxana sarı dəryadı. Bi dənə gəmi dürüst eliyim, 40 günün azuqəsini yığax gəmiyə. Çün qırx gün gəmi dəryanın üzünnən yol gedəcəh. Qırx günün azuqəsin yığım gəmiyə, ikimiz də bahəm gedək. Xudanəkərdən ölsəh, də elə ikimiz bahəm öləcəyik, qalsaq ikimiz qalacağıh. Sənin məşuqəni, inşallah, bahəm gətirrih.

Şəhriyar deyif bəli, bir dənə gəmi dürüst elədilər. İndi bi yol qırx günün də azuqəsini yığıflar gəminin içinə. Əmma bir gün gəmiyə hərəkət verillər iki qardaş, siqə oxuma qardaşı olublar. Bəli, gəmiyə hərəkət verillər, üzü günçıxana sarı istillər getsinlər o taya. Əlbətdə gəmini də ki Şəhriyar sürürdü. Çün qırx günnük yoludu. Hərdən yuxusu gəlirdi, gəminin fərmanın verirdi Əlişaha. Əlişahı da eşqi götürüf, heş bilmir, yolun həm ənin gedirdi, həm uzunun. Amma indi hava peyva ola, ya gəmi ola, özünün xəddi-seyri var idi. Əgər istiyə o xəddi-seyrindən çıxa, mümkündü bəli bir cəziriyə rast gələ, ya hərdən hava peyva olsa, bəzi-bəzi dağlar var ki, hava peyvanı çəkə gətirə özünün xəddi-seyri var idi. Gərək o xəddi-seyri ilə gedə.

Əlişah gəmini alanda eşqi götürüb gəmini yolundan çıxardı. Şəhriyar ayılır, genə gətirir bunu yoluna. Beləliklə, yol gedillər. Bir gün Şəhriyar yatmışdı, Əlişah gəmini sürürdü. Gördülər bəli çıxıflar quruluğa, səsləndi:

– Şəhriyar, Şəhriyar, qardaş dur ayaq üstə. Muştuluğumu ver, çıxmışıq quruluğa.

Şəhriyar gözün aşdı, dedi:

– Qardaş, bizim hələ üş günlük yolumuz qalmışdı. Amma, xob, sən yolu iştibah gəlifsən. Eybi yoxdu, çıxah dəryanın kənarında bir qədər dəryanın səmmi dağılsın, ondan sonra görəh neynəməliyik.

Çıxırlar dəryanın kənarına hər iki qardaş. İndi bir yol Şəhriyar deyir:

– Əlişah, gərəh biz keşih verək bir-birimizə burda. Yatsax mümkündü bura bir cəngəldi, heyvanlardan ola.

Əlişah dedi:

– Qardaş, bəs sən yat məni eşqi götürüf mənim yuxum gəlmir. Mən keşih verim.

Şəhriyar yatır, Əlişah keşih verirdi. Amma Əlişah baxdı gördü, Şəhriyar dedi ki sən yolu iştibah gəlifsən. Qorxdu ki, bəli, bu ayılsa genə gəmini sala dəryanın üzünə, keçə o taya. Getdi bir dənən böyük daş götürüf, Şəhriyar da yuxulamışdı. Yaru səndən mədət, vurdu gəmi pülüş-pülüş oldu. Amma gəminin şaqqıltısına Şəhriyar gözünü aşdı:

– Qardaş, nə iş gördün?

Dedi:

– Qardaş, düzü vurdum, gəmi sındı.

– Axı, niyə sındırdın?

Dedi:

– Valla, qorxdum sən çün dedin üş günlük yolumuz qalıf, hə genə azax gedəh dəryanın o tayına. Mən tələsirəm söygülümü tez görəm bəlkə.

Dedi:

– Xob, gərəh sındırmıyaydın, amma gəmini sındırdın. Bir yol gəl sən yat, mən keşih verim.

İndi bi yol Əlişah yatır, Şəhriyar keşik çəkirdi. Bəli, söhbün (sübh) nəsibi yavaş-yavaş sozalır. İşıq düşdü, baxdı gördü bura sıldırım daşdardı, qayalardı. Amma qayanın birinin döşündə yazıb ki, "bura zindan dağıdı, bura dövlər məkanıdı". Ürəhdə dedi: "Ay dadi-bidad, yaxçı yerdə dükan açdıq, Allah bazar yetirsin. Hə, gəldih düşdüh divzaddarın çənginə." Çün Şəhriyar bilirdi ki, divzaddar nə cür həramzadədi. Əlbətdə, indi bi yol Əlişah yuxuluyub. Şəhriyar eliyə bilmir ki, birdən diyə: "Əlişah, dur ayaq üstə. Bəli, bura zindan dağıdı, dövlər məkanıdı". Qorxdu, dedi bəli, Əlişah qorxar. Bəli, bu dillər-

inən Şəhriyar Əlişahı yuxudan ayındırır. Görək, bəli, Əlişaha nə deyəcəh, şərh eliyim dusdarın hamsının sağlığına:

Sənə deyim Əlişahım,
Bura divlər məkanıdı.
Sənsən mənim umudgahım,
Bura divlər məkanıdı.

Amma Əlişah yuxudan ayılmır. Şəhriyar dübarə sözü belə deyir:

İndi gələllər, tutallar,
Qulaşqol daldan çatallar.
Zindan dağından atallar,
Bura divlər məkanıdı.

Əlişah yuxudan ayıldı:

– Qardaş, nə hay-hay salmısan, qoymursan yatmağa? Nə xəbərdi?

Dedi:

– Qardaş, o daşa bax, gör orda nəmənə yazılıbdı?

Dedi:

– Yazılıb orda, "Bura zindan dağıdır, bura divlər məkanıdı".

Dedi:

– Hə, elə iş burdadı.

– Nəmənədi? Sözün axırın de görüm, nə deyirsən?

İndi bi yol Şəhriyar sözün axırını deyir:

Şəhriyar oldu şərməndə,
Həsrətin qaldı sinəmdə.
Çox cavanlar düşüb bəndə,
Bura divlər məkanıdı.

Dedi:

– Qardaş, divzad nəmənədi?

Dedi:

– Divzad elədi kin, həmi göyünən tənurə vurar, həmi yernən gələr.

– Bo, cəng edər adamnan?

Dedi:

– Bəli, həmi göydən adamnan cəng edərlər, həmi yerdən.

– Qılış-qalxanları da olar?

Dedi:

– Bəli.

– Bəs qardaş, mənim keyfimin saz vəxtidir. Mən çoxdandı cəng görmürəm. Elə o olsun ki, divzaddar gəlsinnər, olarnan cəng eliyim.

– Qardaş, dayan ta neçə kəlmə söz gəldi sinəmə ərz eliyim.

Sənə deyim Şəhriyarım,
Neynim divlər məkanıdı.
Sənsən mənim umudgahım,
Neynim divlər məkanıdı?

Dedi:

– Qardaş, divlər adamnan cəng eliyər, heş kəs olarnan bacarmaz.

Dedi:

– Qardaş, qulaq as.

Amma durdu yerindən bir dənə qızıl daş tapdı gətdi. Qılıncın uzatdı qənşərində, ağzını sürtür daşnan itildir. Hə, bu sözdəri deyir:

Əlişah çox görüb dava,
Divi sallam qovhaqova.
Misri qılış gəldi sola,
Neynim divlər məkanıdı?

Əlişaham, yatan mənəm,
Yarın daşın atan mənəm.
Yol uzaqdı çatammərəm,
Neynim divər məkanıdı?

Bəli, söz təmam oldu. Amma indi bir yol Şəhriyar dedi:

– Qardaş, mən gənə istirəm bir qədər huşdanam. Amma sən keşih çəh. Bir yol gördün divzaddardan gəldi, məni yuxudan ayıldı, görək neynəməliyik.

Bəli, indi Şəhriyar yatıb, Əlişah keşik çəksin. Amma eşid xəbəri kimdən? Əhrəmən divdən ki, divlərin hamsının böyügüdü. Əhrəmən divin dişi ağrıya gəlir, bacısı Mənzər də o zaman cərrahıdı. Bacısını istiyib:

– Bacı.

– Bəli.

– Mənim dişim ağrıyır. Nəmənə yaxçıdı?

Dedi:

– Qardaş, sənin dişin gərək adam-zad tapıb gətirələr, bir qədir qoyasan dişinin dibinə, bir qədir də yiyəsən, ta dişin toxtuya.

Neçə dənə həvayi divlərdən bəli, göndərillər ki, adam-zad gəzsin. Hər yanda olsa ya dirisin, ya ölüsün gətsin. Bəli, bu divzaddar üş dənə həvayi div idilər. İndi buları göndəriblər adam-zad gəzirdilər. Gəliblər, bəli, gördülər dəryanın kənarında iki nəfər var. Biri yatıb, əmma biri oyaxdı. Dedilər, yaxçı oldu. Gedərih elə buların iksin də aparrıx. Divzaddar əniflər aşağı. Amma Əlişah başın qaldırıf gördü bəli, üş dənə qəri heykəl çox heykəllidilər. Buların əslən heç bəşərə oxşar yerrəri yoxdu. İstillər ki, bulara həmlə eləsinnər. Şəhriyar da ki yuxudadı, yatıb. Dedi, görən Şəhriyar dediyi divzad elə bular dəyil ki? Divzaddar həmlə eylədilər ki Əlişahı tutsunlar, Əlişah əl şəmşirin qəbzəsinə diriyif ikisini vurdu, baş top gülləsi kimi getdi. Qaldı bir dənəsi. O bir dənə baxdı gördü ki, bəli, o oların ikisini öldürdü, “ağac acıdır, can şirin” əl qoydu qaçmağa. Qaçaxda Əlişah qılıcı daldan külənpərtə[117] atanda dəydi o divzadın da dabanın saldı. Bəli, bir daban, iki baş götürüb gəldi Şəhriyarın yanına.

[117] Külənpərtə–bir şeyi tullamaq, atmaq, selbə

– Şəhriyar, Şəhriyar, qardaş, dur görək. Divzad deyirsən, bulardı, ya bulardan qəyrisi də var?

Şəhriyar yuxudan ayılıb gördü bəli, iki dənə divzad kəlləsidi, bir dənə də daban var.

– Bəs, qardaş, bu nəmənədi? Bular divzaddılar. Amma bu daban nəmənədi?

– Valla üş nəfəridilər. İkisini vurdum baş top gülləsi kimi getdi, amma bir dənəsi qaçırdı, qılışı daldan atanda dəyib dabanına, dabanın salıb. Bu da divzadın dabanıdı.

Dedi:

– Qardaş, hə, amma kaş elə o bir dənəni də öldürəydin. İndi getdi o divzaddara xəbər verəcəh, o qədir çəkməz tökülləllər gələllər, həmi səni burda tutallar öldürəllər, həm məni. Amma xob, eyb eləməz. Məhz indi ki belə oldu olar ələn gələllər, bizim də ki, əsləheye-cəngimiz var ikimizin də. Olar ki gəldilər, mən düşüf oların içində pərvəriş etmişəm, onların dəvalarını, cənglərini bilirəm nə cür gərək eliyəsən. Sən fəqət mənim dal tərəfimdə dayan, qoyma mənim başıma daşdan-zaddan atsınlar. Mən buların həblərini turşudum.

Dedi:

– Xob, eybi yoxdu.

Ağa bular burda qovlu qərar qoydular. Eşit xəbəri o divzaddan ki, dabanı kəsik divzaddan. Yetişdi Əhrəmən divin yanına.

– Ağa, nə təxtin qalsın, nə bəxtin. Biz üş nəfər getdik. İki nəfər adam-zad dərya kənarında yatmışdılar. Hələ birinin heç xəbəri olmadı. Bir dənəsi həmlə elədi bizim ikimizi öldürdü, mən də qaçırdım. Daldan bəli, bir qılış atıb dəyib dabanım düşüb.

Əhrəmən div əmr elədi, təmam divzaddar tökülsüllər getsinnər o adam-zaddarın ikisini də ya ölüsün, ya dirisin gətsinlər. Söhbətin əvvəlində, əvvəlinci navarımızda ərz eləmişəm ki, bəli, divzaddarın özdərinin əqli olmazdı. Gedərdilər vəzir oğlundan, vəkil oğlundan gətirərdilər özlərinə iştahab

edərdilər. İndi bir yol bu Əhrəmən divin vəziri adam zad idi. Xob, hər cür olandan sonra qan qaynadı. Baxdı gördü ki, bular istillər getsinlər o adam-zaddarın ya ölüsün, ya dirisin gətirsinlər. Əhrəmən divə dedi:

– Sən Əhrəmən div, bu cür hökm elirsən. Bəlkə, olar qasiddan-zaddandılar.

Dedi:

– Bilmirəm. Hər kəsdi gərək gətirilə.

Divzaddar əmr eliyiblər. İndi bir yol hammısı töküldülər gəldilər. Şəhriyarnan Əlişah gördülər divzaddar elə gəlir ki, muri-mələx[118] kimi.

– Qardaş Əlişah, sən mənim tərəf başımdan gözlə. İşin yoxdu, mən buları həqqinə tovşurram.

İndi bir yol Əlişah Şəhriyarın dal tərəfdən qalxanı götürüf başından hifazət[119] edir. Şəhriyar da ki əl qılışın qəbzəsinə eliyif küştələrdən[120] püştə[121] tərtib edir.

Divzaddardan bir qədir öldürdü. İndi Əlişah öz-özünə bir qədir fikr eliyir, oğlan, bu ki bu cür cəng eliyir, divzaddarı öldürür. Divzaddar qutarandan sonra bi yol indi deyəcək tək mən öldürdüm. Dedi:

– Qardaş, Şəhriyar.

Dedi:

– Bəli.

Dedi:

– Şəhriyar, sən özündən müğayat ol, bu tərəfdən də mən düşürəm.

Dedi:

---

[118] Muri-mələx-çəyirtkə
[119] Hifazət-qorumaq
[120] Küştələr-ölənlər
[121] Püştə-təpə, uca yer

– Qardaş, qurbanın kəsilim. Sən getmə, bular hərəmzadədilər. Bizi ayrı salsalar bir-birimizdən, mümkündü bizi öldürsünnər.

Başa gəlmədi, Əlişah bir tərəfdən düşüb, Şəhriyar bir tərəfdən divzaddarnan cəng eliyirlər. Amma divzaddar baxdılar gördülər buların elə dədəsini yandıran Əlişahdır. Getdilər o yandan böyüh bir daş götdülər. Gətdilər uzaxdan saldılar Əlişahın başına. Əlişahın başı parçalanıb, Əlişahı götdülər. Ağa, bir-bir, iki-iki çəkildilər getdilər. Bir moqe Şəhriyar baxdı gördü divzaddar yoxdu. Amma Əlişah da yoxdu. Ey dadi-bidad, yaxçı gətdim qürbət məmləkətdə öz qardaşımı verdim ölümə. Bəs, mənim elə ölməgim qalmağımdan yaxçıdı. Mən nə cür qayıdım burdan. Əlişahın anası Əlişahı məndən xəbər alsa, mən nə deyim?

Gəzdi dolandı, gəldi bir dənə qılıca daş tapdı. Daşın müqabilində dayanıb bu sözdəri deyir. İstir öz-özünü həlak eləsin. Amma Şəhriyar burda deməkdə. Əlişahı da kin götürüblər aparıblar. Əhrəmən div dedi:

– Bunu öldürün gətirin, mən bir qədər yeyim.

O zaman vəzir əmr elədi:

– Canım, həqqiniz yoxdu bunun bir dənə başından tüh əksik eləməgə. Mən gedim görüm, bunun deyirlər o birisi yoldaşı var. Gedim bular nəkarədilər? Bəlkə şayət bunlar qasiddən-filandandılar. Mən dürüst örgənim. Əgər bular bir iş sahabı olmasalar, onda biyolluq ikisini də öldürrük.

Bəli, Əlişahın başının yarasın mualicə edirlər. İndi bir yol vəzir düşüb Şəhriyarı gəzir. Şəhriyar da düşüb Əlişahı gəzir. Şəhriyar da kin daşın müqabilində dayanıb bu dillərinən oxuyur, istiyir özünü həlak eləsin:

Vətənimdən tərgi-vətən olmuşam,
Əlişah kimi novcavanı itirdim.
Fələgin əlindən cana yetişdim,
Əlişah kimi pəhləvanı itirdim.

– Bəs mənim elə ölməgim qalmağımdan yaxçıdı.

İndi bi yol ki, Şəhriyar sözünün o birisini desin, vəzir də ki Şəhriyarı gəzir.

İkindiynən günbatanın arası,
Ürəgimə dəydi hicran yarası.
Xəbər alsa Əlişahın anası,
Necə deyim, Əlişah kimi novcavanı itirdim?

Şəhriyar çəkildi dalı-dalı. İstir ki, başın vursun baş daşına özünü həlak eləsin. O tərəfdən vəzir səsləndi:

– Oğlan, nə iş görürsən?

Amma Şəhriyar döndü gördü, bəli bir qoca kişi gəlir buna sarı.

– Əleykumə, əmi.

– Əleykumə salam. Oğlan, nə gəzirsən burda?

Dedi:

– Valla, mənim bir yoldaşım vardı Əlişah. Burdaydı, mənim yanımdaydı. Divzaddarnan cəngimiz oldu. Divzaddar indi onu öldürüflər. Mən də ki, o mənim rəfiqimdir, dustumdur, da baxıram görürəm onsuz mən burdan qayıda bilmərəm. İstirəm mən də özüm özümü öldürəm.

Dedi:

– Xatircəm ol, sənin o yoldaşını düzdür divzaddar vuruflar, başı sınıb. Amma mən Əhrəmən divin vəziriyəm. Gəlmişəm sənə söz örgədəm. Bəli, mənim dediyimnən getsəz, burdan xeyirliyə çıxacaxsız. Deyin görüm, hələ sizin burda nə işiniz vardı? Niyə gəlisiz?

Dedi:

– Valla, cərəyan belədir. O Əlişahın bir adaxlısı var. Hurləqa xanım adındadır, çox nazənindir. Hə, gedir onun dalısıyca. İstir getsin Gülüstani-İrəmə. Mən də onnan rəfiq olmuşam, yoldaş olmuşam ki, gedək onun namzadını, adaxlısını gətirəh. İndi gəlif burda bu cür bəlaya duçar olmuşux.

Dedi:

– Bəs, indi ki, belə oldu, sən götür bir namə yazginən ki, biz Qəhrəman pəhləvanın bacısı oğluyuq. Bizi Qəhrəman pəhləvan göndərib, Əhrəmanə div, ya yeddi ilin baci-xəracını verə, ya cəngə hazır ola, ya da üş dənə həvayi divnən bizi apara Gülüstani-İrəmə. Bu üş dənədən bir dənəsinə hazır olsun.

İndi bir yol vəzir deyir, Şəhriyar da o sözdəri yazır. Bəli, indi Şəhriyarnan vəzir gəlillər Əhrəmən divin yanına. Vəzir yetişəndə oların dilincək:

– Canım, sən işə yetişməmişdən istisən bir iş dəvərdəsən ki, əzəldən heş belə iş heş kəsin başına gəlməmiş ola.

– Necə?

Dedi:

– Gördün? Xəbər almamışdan sən buları niyə öldürürdün? Bular Qəhrəman pəhləvanın bacısı uşaxlarıdı. Divlərə qəhr edən Qəhrəman ki məşhurdu. Buları göndərib, namələri var. Bu da namələridi. Ya cəngə hazır olasan, ya yeddi ilin baci-xəracını verəsən, ya da buları üş dənə həvari divnən göndərəsən Gülüstani-İrəmə. İndi buların hər birinə sən amadə olsan, bular hazırdılar.

Şəhriyarın gözü indi bu yan-o yanı gəzir ki, görsün Əlişah hardadı. Gördü bəli, Əlişah başının qanı gedib, gözdər axer. Əlişah Şəhriyarı çağırdı yanına:

– Qardaş, bir bu yana gəl.

Şəhriyar gəldi Əlişahın başının üstünə.

– Qardaş, sözün nəmənədi?

Dedi:

– Cebindən qələm zavatı çıxart. Neçə kəlmə sözüm var. Mən ki, söygülümü görə bilmədim. Amma əgər sən getsən, bu sözdəri mənim söygülümə aparginən.

İndi bir yol Şəhriyar qələm-zavatı çıxarır. Əlişah deyir, Şəhriyar yazır. Mən də ərz eliyim əyləşənnərin, eşidənnərin, dusdarın hamısının sağlığına:

Əgər gedər olsan Gülüstani-İrəmə,
Denən gülüşənə gül özü gəlsin.
Xəbər alsa yar halı-əhvalımı,
Yarasın aşmağa yar özü gəlsin.

Əhrəmən div vəzirdən xəbər aldı, dedi:

– Gəlsin, gəlsin nəmənə deyir? Mən onun dilinə yaxçı hali dəyiləm.

Dedi:

– Nəmənə deyəcək bədbəxt oğlu? Deyir namə yazginən ki, biz bularnan bacarmadıq, da özü gəlsin.

Dedi:

– Səndən xaişdi eliyirəm, qoyma naməni yazsın. Nəmənə desələr, gözüm üstdə. Bax, belə hər yana desələr aparram.

İndi bir yol vəzir göz eliyifdir Şəhriyara ki, gəlin naməni yazmayın. Da Əhrəmən div hazırdır ki, siz hər yana desəz, sizi aparsın. İndi bir yol, bəli, Əlişahı çün başının yarası çoxdu, götürüllər, otaxdaydı, gətirillər eyvana. Deyərlər, mərizin əl-ayağına həna qoysan, şəfa tapar, əl-ayağına da həna qoyublar.

İndi bir yol eyvanda ki biixtiyar yatmışdı, eşit xəbəri kimdən, Hurləqa xanımdan. Hurləqa xanım yeddi qələmnən özünə məşşalə verif, əmma gözdər nərgizi-şəhla, dişlər inci-sədəf kimi düzülüf, ovurtdar payız alması kimi yanır. Yetişdi oğlanın başının üstünə. Baxdı gördü ki, oğlan çox narahanddı. Səslədi Əlişahı. Əlişah gözün aşdı. Gördü Hurləqa xanım başının üstündədir. Başını alıf dizinin üstünə. Çün neçə müddətdi ki, Əlişah Hurləqa xanımı görmüyüb, gözünü yenə yumdu ki, yani küsmüşəm səndən. Nə qədri Hurləqa xanım oğlanı danışdırdı, oğlan cavaf vermədi. O zərnişan tellərinnən bi neçə dənə döndərdi məmələrinin üstünə, fındıqça barmaqlarını taziyanə eyliyif, şəkər ləblərinnən, ağa, yani səlamətdiyiynən bir dəstgah belə desin, ərz eyliyim, eşidənnər sağ olsun:

Vətənim səfalıdır, bağdı meşədi,
bağdı, meşədi.
Söygülümün qəlbi safdı, şüşədi,
safdı, şüşədi.
Ondan ayrı yaşamaq çətin peşədi,
çətin peşədi,
Diz üstə baldı balam,
Yemədim qaldı,
Ona əl dəymə, o yarıcandı.

Yeri-yeri mən də gəlim dalıncan,
Dəsmal eylə, apar məni yanıncan.

Gülüstan bağında, reyhan tayası,
reyhan tayası.
Üstündə yatıbdı ahu balası,
ahu balası.
Bir qızı gəlirdi, vermir anası,
vermir anası.

Almadan kəsdim,
Heyvadan kəsdim,
Mən səni görmüşəm,
Ağlama bəsdi.

Yeri-yeri mən də gəlim dalıncan,
Dəsmal eylə, apar məni yanıncan.

Gülüstan bağına əndim əyəsən,
əndim əyəsən.
Mən səni görmüşəm mənə gələsən,
mənə gələsən.
Yar mənə gəlməsən cavan öləsən,

cavan öləsən.
Diz üstə baldı balam,
yemədim qaldı.
Ona əl dəymə, o yarıcandır.

Yeri-yeri mən də gəlim dalıncan,
Dəsmal eylə, apar məni yanıncan.[122]

Bəli, əmma söhbətimiz həmən yerdədi ki, Hurləqa xanım Əlişahın başının üstündədi. Çün Əlişah neçə müddətdi bunun eşqində, fəraqında zəhmətdər çəkib. Əmma Hurləqa xanımın heş xəbəri olmuyuf, narahanddı. Gözün yumub danışmır Hurləqa xanımla. Əmma qız baxdı gördü ki, bu danışmır, dedi, bəs mən götürüm görüm, bu oğlan niyə küsüb? Məndən niyə acıq eliyib əslən? O zərnişan tellərindən bir neçə dənə söyüf seşdi. Görəh nə dillərinən oğlanın gönlünü alır, mən ərz eliyim, eşidənnər sağ olsun.

Otaxdan gəldin eyvana,
Gəl indi, qurbanın olum.
Qulaş qolların boynuma
Sal indi, qurbanın olum.

Əmma oğlan baxdı gördü, qız elə şirin ləhcəynən söhbət eliyir, elə xoş avaznan söhbət eliyir. Əmma oğlan ginə danışmıyıb, aldı görək, bəli, qız sözün o birisində nə deyir:

Hənalıdı barmaxların,
Sinəmə çəhdin dağların.
Tökmə qaşı-qabaxların,
Gül indi, qurbanın olum.

Əmma Əlişah gördü qızın elə avazı gəlir. İndi üzə qalıp, istir qolun gətsin salsın qızın boynuna, o üzündən, bu üzündən busə götürsün. Çünki acıq eliyib öz ürəgində qızdan, eliyə bilmir ki, bu onu sındırsın. Gözün aşdı, gördü qız elə

---

[122] Bu xalq mahnısıdır.

xumar-xumar baxır. Əmma indi bi yol iki aşiqi-məşuq firavan-firavan baxırlar bir-birlərinə. Qız sözünün əvvəl-axırında belə desin, ərz eliyim dusdar sağ olsun:

Qaşın sultan, gözün bəydi,
Mujganın sinəmə dəydi.
Sənin dərdin məni əydi,
Bil indi, qurbanın olum.

Söz təmam oldu, indi bir yol oğlan yavaş-yavaş başının yarası da yaxcı olup. Qolların gətirif saldı Hurləqa xanımın boynuna. O üzündən, bu üzündən neçə busə götürür. Elə bil ki, çərçi dağarcıxdan saqqız qopardır. Oğlan və qız bir qədər danışıplar. İndi bir yol Hurləqa xanım dedi:

– Mən gedirəm, əmma vəxti ki başının yarası çağı-çillə oldu, neçə dənə həvari divlərnən gələrsiz Gülüstani-İrəmə. Mənim ki bir əmiqızım var-Bədircamal, onu da mən verəciyəm Şəhriyara. Şəhriyarın da zəhməti hədər olmasın. Bəli, əmma qız xudafizlik eliyib gedir. Qələm qoydular ki, bəli, həftənin hansı günü Əlişahnan Şəhriyar gedə Gülüstani-İrəmə. İndi o tərəfdən də, həvari divlərdən dörd dənə amədə eliyiplər. Birini ərz eliyim Əlişah minə, birin Şəhriyar. İndi ikisin də ki boş aparırlar. Qayıdəndə qızdarı gətisinlər. O gün ki Əlişahın başının yarası toxtiyib, vəzir dedi:

– Xob, hər gün getsəz, ixtiyar siznəndi. İndi mən göndərim, gedin.

Şəhriyar dedi:

– A vəzir, icazə versən biz getməliyik.

İndi dörd dənə həvari div veriblər. Bular hərəsi bi dənə mindilər gəliblər Gülüstani-İrəmə. Hurləqa xanım bilirdi ki, bəli, büyünləri Əlişahnan Şəhriyar gələcəh. Bağa elə zinyət verib ki, iki göz istir tamaşa eliyə. Varid oldular bura çarbağa ki, varid oldular buları peşvaz elədi Hurləqa xanım. Əlişahnan Şəhriyar varid olublar Gülüstani-İrəmin bağına. Gördülər, bəh-

bəh, bir dənə bağdı ki, mislində heşdi Rizvan, ağ sular qaltan-qaltan axer, bülbüllər çəh-çəh vurur. Hər gül öz məhbubun yad elir. Əmma Hurləqa xanım əmisi qızı Bədircamala dedi:

– Qız, sən get bu Şəhriyara sarı gör nəmənə deyir?

Bədircamal yeddi qələmlə özünə zinyət gəlib. İkisi də ki bir-birindən gözəldilər. Gəlir Şəhriyara sarı. Şəhriyar belə bildi ki, Hurləqa elə budu. Dedi:

– Xanım, mən dəyiləm, bax bu birisidi. Ged Əlişaha sarı.

Dedi:

– Elə mən də səninkiyəm, onunku ayrıdı.

Hurləqa xanım da gəlir Əlişaha sarı. Ağa, bular indi bir yol bu divizaddarnan əndiriblər, Hurləqa xanımla Bədircamalı gətiriblər. İndi bi yol gəlirlər. Vəzirdən də xudafizlik eliyiblər. Əvvəl gəlirlər Əlmasibin şəhrində Şəhriyarın toyun tuturlar. Yeddi gün, yeddi gecə orda toy olandan sonra bi yol ordan bahəm gəlillər Təbrizin şəhrinə. Gəlillər yeddi gün, yeddi gecə də Əlişaha toy tutullar. Əlişahın toyun qutarır. İndi bir yol ki, bəli, dünya belədir, yəni bizim dastanımız, əziz eşidənnər, burda tükənir. Hurləqa xanım və Əlişah, Bədircamal xanım və Şəhriyar qocalıllar, qocalıllar və çoxalıllar və köçüb bu dünyadan getdilər.

Budur etibarı qoca dünyanın,
Verir fərmanını hər bir insanın.
Özündə saxlıyır baharı, yazı,
Bizdə olax bu hikmətdən bi razı.

Ərəb də götürsün sədəfli sazı,
Oxusun siz üçün bir xoş avazı.

*(Mahnı oxuyur)*

Söydüyümə mehman ollam,
Küsdürüf göylünü allam.
Sən getsən, intizar qallam,

Gəl ceyranım, küsmə məndən.
Küsmə məndən, küsmə məndən,
Məhəbbətin, ay gözəl, kəsmə məndən.

Zülflərindi qulaş-qulaş,
Məni etmə ona möhtaş.
Küsməyin də bir vaxtı var,
Gəl ceyranım, küsmə məndən.
Küsmə məndən, küsmə məndən,
Məhəbbətin, ay gözəl, kəsmə məndən.

Ay qız, niyə küsdün məndən?
Məhəbbətin kəsdin məndən?
İnan ayrılmaram səndən,
Gəl ceyranım, küsmə məndən.
Küsmə məndən, küsmə məndən,
Məhəbbətin, ay gözəl, kəsmə məndən.

Söydügün yarın əlindən tutasan, kam alasan.
Gündüzdər küsdürəsən, göylün axşam alasan.

Əməsən ləblərini, düşəsən məst,
O sənə naz eliyə, sən də ondan kam alasan.

Ay dəli ceyran,
Mən sənə qurban.
Getsən ömrümdən,
Səslərəm, ay dad.

Yollarıvı səhər-axşam,
Gözlərəm, ay qız.
Sənsən mənim ömrüm-günüm,
Olma vəfasız.

Gəl bizə hərdən,
Ol mənə həmdəm.
Getsən ömrümdən,
Səslərəm, ay dad.

Yollarıvı səhər-axşam
Gözlərəm, ay qız!
Sənsən mənim ömrüm-günüm,
Olma vəfasız.

Ay dağlar, səndə gözüm var,
Ay məndə dərdə dözüm var.
Xəbər verin yar gəlsin,
Ay ürəyimdə sözüm var.

Gəl bizə, gəl bizə, gəl bizə, yar,
Qurbanam o qaş-gözə, yar.

Ay su gələr arxa nə var,
Ay dolanar çarxa, nə var.
Öz yarim mənnən küsüb,
Heç bilmirəm xalxa nə var.

Gəl bizə, gəl bizə, gəl bizə, yar,
Qurbanam o qaş-gözə, yar.

# LÜĞƏT

Al (a) – qırmızı
Amadə (f) – hazır
Aşadar (f) – dəyənək, çubuq
Balı (f) – "bal" sözündən, qanad
Bavər (f) – inanmaq
Bevafa (ə) – bivəfa, vəfasız
Bəhrami-fələk (f) – göy, səma
Bərq (ə) – işıq
Bülənd (f) – uca, yüksək
Bürc (ə) – 1) qalanın çıxıntısı və qülləsi; 2) tək qala, qüllə
Canından geçə (a) – canından keçə
Cəbbi-cəfa (ə) – dözülməz, əzablı
Cəng (f) – müharibə, savaş
Cürc (ə) – heyvan növü
Çahar guşa (f) – dörd tərəf
Çarə (f) – əlac, çıxış yolu
Dağın zindəyi (f) – dağın zirvəsi
Damad (f) – kürəkən
Damən (f) – ətək
Dərayət (f) – var-dövlət
Dərbar (f) – padşahın sarayı
Dərbənd (f) – dar keçid, boğaz, dağ keçidi, dağ yolu
Dərya (f) – dəniz
Dəst (f) – əl
Didar (f) – görmək
Düldül (ə) – Həzrəti Əlinin (ə.) atı
Əqəbneşinlik vermək (ə və f) – arxaya, geriyə çəkilmək
Əlacpəzir (ə) – çarəsi olan, imkanı olan
Əlxətmi ənbiya (ə) – peyğəmbərlərin sonuncusu
Əndazə (f) – ölçü, hədd
Ərus (ə) – gəlin
Əyyam (ə) – gün, zaman
Əzzəl (ə) – əvvəl, birinci

Fəda (ə) – qurban
Fəqir (ə) – yoxsul, ehtiyaclı
Fəryad (f) – ah, nalə
Gezərəm (a) – gəzərəm (gəzmək mənasında)
Gəda (f) – yoxsul, kasıb
Gülbəg (gülbərg) (f) – gül yarpağı, qızılgül yarpağı
Günbatan (a) – Qərb
Günçıxan (a) – Şərq
Heydər (ə) – 1. aslan, şir; 2. igid, cəsur
Həxli (ə) – haqlı
Həqq (ə) – haqq
Həzrəti Mövla (ə) – Allah
Xab (f) – yuxu
Xança (xançə) (f) – xonça
Xar (f) – tikan
Xəşriz (d) – gizlətmək
Xiyaban (f) – küçə, yol
Xudavəndi-aləm (f) – dünyanın ağası
Xuyrey (f) – ot, alaq otu
İdamə (ə) – davam etdirmə
İngəldin (f) – sinə, döş
İstəbil (ə) – tövlə
İştibah (ə) – səhv, yanlış
Kam (f) – arzu
Kaman (a) – yay, ox
Kəc (f) – əyri, əyilmiş
Kəmtər (f) – 1. lap az; 2. etibarsız
Qaid (ə) – 1. Rəhbər, başçı 2. Oturmuş adam
Qədd (ə) – boy, qamət
Qənbər (ə) – Həzrəti Əlinin (ə) ən sadiq qulunun adı. Mənası "daş" deməkdir.
Qəvvas (ə) – dalğıc, üzgücü
Qəzavü-qədər (ə) – insanın başına gələn hadisə
Laf (f) – söz, danışıq
Ləb (f) – dodaq

Ləşkər (f) – qoşun, ordu
Manzarax (mancanaq) (ə) – ağır daşlar atan hərbi texnika
Mehrac (merac) (ə) – Məhəmməd Peyğəmbərin (s.ə.s.) göyə çıxması
Mənzur (ə) – məqsəd, niyyət
Mərdum (f) – adam
Mərəz (ə) – xəstəlik, dərd bəla
Məzhəbə çatmaq (ə) – arzuya çatmaq
Misqü ənbər (mişki ənbər) (f və ə) – gözəl ətir
Moc/mövc (ə) – dalğa
Moğla (ə) – Mövla (Həzrəti Əliyə müraciət olunur)
Movla (ə) – mövla
Muaq (f) – tük, saç, saç teli,
Munis (ə) – hər kəslə isnişən, ünsiyyət quran
Murafə – savaşdadır
Muzaqiləm etmək (ə) – xəbər etmək
Müfəssəl (ə) – geniş
Müqəddəm (ə) – qabaqda olan, irəlidə olan
Münəvvər (ə) – işıqlı, nurlu
Müntəzir (ə) – gözləyən, intizar çəkən
Müsafirət (ə) – səfər, səfər etmə
Müşərrəb (müşərrəf) (ə) – şərəfli, əzizlənmiş
Mütməin (ə) – əmin, arxayın
Müzarət etmək (ə) – nəzər etmək, baxmaq
Nar (ə) – 1. od, atəş 2. meyvə
Nasəl qəsil (f) – səlis olmayan
Nüshan (ə) – “öyüd, nəsihət”in cəmi, öyüd-nəsihətlər
Pərvəriş (f) – yetişdirmə, böyütmə
Pəyandaz (f) – ayaq altına salınan xalı, toxuma
Pişivas (pişvaz) (f) – qabaq, ön
Pişva (f) – başçı, rəhbər
Pur (f) – oğul
Rah (f) – yol
Rahi-ubur (ə) – keçid yolu
Reyhan (ə) – ətirli dekorativ bitki

Rudxanə (f) – axar çay
Saqi (ə) – su verən, su paylayan
Sayə (f) – kölgə
Səd həzar (f) – min maneə
Səddərsəd (f) – yüz faiz
Səlsəbil (ə) – yüngül və ləzzətli su (Guya cənnətdə olan əfsanəvi bir çeşmənin adından.)
Səmənd (f) – qırmızı kəhər at
Sər (f) – baş
Sərbac (sərbaz) (f) – əsgər
Sərgardan (f) – avara
Sərzəniş (f) – danlaq, başıaşağılıq
Sin (ə) – yaş
Situha (f) – vəziyyət
Sureyi-Yasin (ə) – "Qurani-Kərim"də surə
Şan (ə) – şöhrət, ad-san
Şəmətə vermək (ə) – ağlayıb-sızlamaq
Şuhlux – zarafat etmək, əylənmək mənasında
Şühəda (ə) – "şəhid"in cəmi, şəhidlər
Tamah (f) – nəfs
Təfrihə (ə) – istirahət etmək
Tifl (ə) – uşaq
Tovzib (tovzif) (ə) – vəzifəyə təyin etmə
Tulazdadı (d) – tulladı, atdı
Tur (ə) – dağ
Üməra (ə) – əmirlər
Vəsət (ə) – orta, ara
Vəsfi-hal (ə) – tərif etmək
Yabanə (f) – yad
Yansağ (d) – aşiq olmaq
Zəbun (f) – zəif, taqətsiz
Zimistan (f) – qış fəsli
Zindəganlıq (f) – həyat, dirilik
Zülf (f) – saç
Zülfiqar (ə) – Həzrəti Əlinin (ə) qılıncı

# MÜNDƏRİCAT

**Ön söz (M.Maşallahqızı, M.İbadi) ................................... 3**

Əsli-Kərəm ............................................................................ 17

Seyidi ..................................................................................... 178

Əlişah ..................................................................................... 258

**Lüğət ...................................................................................... 317**

**Güney Azərbaycan folkloru,**
**XII kitab.**
Bakı, Elm və təhsil, 2021

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Ləman Abdulxalıqova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Korrektor:
**Səadət Əliyeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 322 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.